Azərbaycan Respublikası Mədəniyyət və Turizm Nazirliyi
Azərbaycan Turizm İnstitutu

**Ə.T.Əsgərov, B.Ə.Bilalov, Ç.G.Gülalıyev**

# EKOLOJİ TURİZM

***Dərs vəsaiti***

***Azərbaycan Respublikasının Təhsil Nazirinin 08 iyul 2011-ci il tarixli 1277 №-li əmri ilə təsdiq edilmişdir.***

- 9337 -
Azərbaycan Respublikası Prezidentinin
İşlər İdarəsi
PREZİDENT KİTABXANASI

"Adiloğlu"
Bakı-2011

Azərbaycan Respublikasının
Prezidenti yanında Qeyri Hökumət
Təşkilatlarına Dövlət Dəstəyi Şurası

*Bu kitab Azərbaycan Respublikasının Prezidenti yanında Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Şurasının maliyyə yardımı ilə İB Bakı Sülh Evi tərəfindən həyata keçirilən " Turizm sənayesinin inkişafında maraqlı olan tərəflərin ekoturizm təhsili istiqamətində maarifləndirilməsi" layihəsi çərçivəsində hazırlanaraq nəşr edilmişdir*

**Layihənin rəhbəri:** **Mustafayev N.S.** – *"Bakı Sülh Evi" İB*
**Elmi redaktoru:** **Nuriyev C.Q.** – *Siyasi elmlər doktoru, professor*
**Rəyçilər:** **Məmmədov C.A.**- *Bakı Dövlət Universiteti "Xarici ölkələrin siyasi-iqtisadi coğrafiyası və turizm" kafedrasının professoru*
**Sultanova H.B.** – *Bakı Dövlət Universiteti "Xarici ölkələrin siyasi- iqtisadi coğrafiyası və turizm" kafedrasının müdiri, dosent*
**Dolxanov A.B.** – *Bakı Dövlət Universiteti "Ətraf mühiti mühafizə və təbii ehtiyatlardan səmərəli istifadə" kafedrasının dosenti*
**Səfərov R.S.** – *Azərbaycan Turizm İnstitutu, "Turizm biznesinin təşkili və texnologiyası" kafedrasının baş müəllimi, c.e.n.*

**Ə.T.Əsgərov, B.Ə.Bilalov, Ç.G.Gülalıyev**
Ekoloji turizm (Dərs vəsaiti), Bakı, "Adiloğlu" nəşriyyatı, 2011, 276 səh.

*Dərs vəsaitində ekoloji turizmin əlamətləri, prinsipləri, növləri, ehtiyatları və problemləri işıqlandırılmaqla, xüsusi mühafizə olunan təbiət ərazilərinin (qoruqların, yasaqlıqların, milli parkların) bu turizm növünə cəlb olunması perspektivləri və bəzi dünya ölkələrinin qazandığı təcrübə araşdırılır. Hər bölmədən sonra verilən suallar və tapşırıqlar bu sahəni öyrənmək istəyən tələbələrin müstəqil çalışmaları üçün vacibdir.*

*Kitab turizm istiqamətində fəaliyyət göstərən müəllimlər, tələbələr, turagent və turoperator firmalarının menecerləri, turizm və səyahət məsələləri ilə maraqlanan geniş oxucu kütləsi üçün nəzərdə tutulmuşdur.*

4722110018 / 121 – 2011 qrifli nəşr

© "Adiloğlu" 2011



# MÜNDƏRİCAT

**Ön söz** ........ 7
**Birinci fəsil. Ekoturizmə giriş** ........ 11
1.1.Ekoturizmin inkişaf tarixi və əmələ gəlməsinin ilkin şəraiti. Müasir turizmin dayanıqlı inkişaf konsepsiyası ........ 11
1.2.Təbii turizm ehtiyatlarına turizmin təsirinin idarə olunması imkanları və ekoturizmin faydası ........ 17
1.3. Ekoturizmin təyini ........ 21
1.4. Ekoturizmin növləri ........ 33
1.5. Ekoturizm bazarının tutumu və inkişaf dinamikası ........ 36
1.6. Ekoturistin marketinq biliyi ........ 39
1.7. Ekoturizmin inkişaf amilləri və proqnozları ........ 40

**İkinci fəsil. Ekoturizmdə turoperatorluq (turist proqramlarının işlənib hazırlanması)** ........ 44
2.1. Turoperator anlayışı və onu təşkil edən amillər ........ 44
2.2. Ekoturların layihələndirilməsi ........ 47
2.3. Bələdçilərin qonaqlarla işləməsi ........ 54
2.4. Turizm xidmətinin menecment keyfiyyəti ........ 57
2.5. Ekoturistlərin istirahət tələblərinin öyrənilməsi ........ 61
2.6. Qonaqlarla informasiya əlaqəsi ........ 64

**Üçüncü fəsil. Ekoturistlərin xidmət menecmenti** ........ 68
3.1. Ekoturistlərin yerləşdirilməsinin təşkili ........ 68
3.2. Ekoloji və macəra turlarında turistlərin qidalanmasının təşkili ........ 73
3.3. Xidmət proqramının yerinə yetirilməsi ........ 80

**Dördüncü fəsil. Ekoturizmdə təhlükəsizlik (dağ səyahəti nümunəsində)** ........ **85**
4.1. Turizmdə təhlükəsizliyin təmin olunması ........ 87
4.2. Turizmdə təhlükənin növləri ........ 90
4.3. Dağ və macəra turlarında təhlükələrin profilaktikası . 97
4.4. MDB ölkələrində ekoloji və macəra dağ turizmində bədbəxt hadisələrin strukturu və səbəbləri ........ 101
4.5. Ekoloji və macəra dağ turizmində təbii təhlükələr və davranış qaydaları ........ 105
4.6. Ekoloji və macəra turizmində axtarış və xilasetmə işlərinin təşkili ........ 108
4.7. Azərbaycan Respublikasında əcnəbi turistlər üçün təhlükələr ........ 111
4.8. Beynəlxalq turistlər üçün təhlükəsizlik üzrə yaddaş ........ 114

**Beşinci fəsil. Ekoturizmdə insan ehtiyatlarının menecmenti** ........ **129**
5.1. Turizm firmasının strukturu və strategiyası ilə işçi heyətin idarə olunması arasında əlaqə ........ 131
5.2. İşçi heyətə tələbatın təyin olunması, kadrların axını və əmək məhsuldarlığı ........ 138
5.3. Turizm biznesində işçi heyətin hazırlanmasının peşə (kvalifikasiya) standartları və ekoturizm üçün qonaqpərvərlik ........ 143
5.4. Turizm firmasında işçi heyətin seçilməsi ........ 147
5.5. Əmək müqaviləsinin bağlanması ........ 155
5.6. Peşə yönümü və əməyə uyğunlaşma ........ 156
5.7. İşçi heyətin turizmdə və qonaqpərvərlik üzrə təlimi 157
5.8. Turizm təşkilatlarında işçi heyətin qiymətləndirilməsi ........ 161
5.9. İşçi heyətin azad edilməsi, işdən çıxarılması ........ 163



**Altıncı fəsil. Ekoloji və macəra turizmində ətraf mühitin çirklənməsinin azaldılması texnologiyaları** ........ **167**
6.1. Yeməklərin hazırlanması ........ 168
6.2. Dəyişəklərin (alt partarlarının) və qabların Yuyulması ........ 169
6.3. Sığınacaqların, otellərin, düşərgələrin düzəldilməsi .. 170
6.4. Tullantıların idarə ounması... ........ 173
6.5. Turistlərin nəqliyyatda daşınması ........ 174

**Yeddinci fəsil. Ekoloji və macəra turizmi dağ rayonlarının sosial-iqtisadi inkişaf vasitəsi kimi (Qərbi Nepalın nümunəsində)** ........ **176**

**Səkkizinci fəsil. Dünyanın dağlıq rayonlarında ekoturizmin inkişafı** ........ **188**
8.1. Amerikanın turizm regionları ........ 188
8.2. Afrikanın turizm regionları ........ 194
8.3. Turizm regionları: Yaxın Şərq və Cənubi Asiya ...... 197

**Doqquzuncu fəsil. Qərbi Qafqazın Dağlıq rayonlarında ekoturizmin inkişafı** ........ **205**
9.1. Qərbi Qafqaz dağlıq turizm rayonlarının ayrılması və təsnifatı ........ 205
9.2. Krasnodar diyarının dağlıq turizm rayonlarında ekoturizmin inkişaf şəraiti və ehtiyatları ........ 207
9.2.1. Krasnodar turizm mezorayonu ........ 207
9.2.2. Abşeron turizm mezorayonu ........ 210
9.2.3. Soçi turizm mezorayonu ........ 213
9.2.4. Psebaysk potensial-turizm mezorayonu ........ 215
9.3. Adıgey Respublikasının Maykop turizm Mezorayonunda ekoturizmin inkişaf ehtiyatları və şəraiti ........ 217

9.4. Qaraçay-Çerkez Respublikasının dağlıq turizm rayonlarında macəra və ekoloji turizmin inkişaf şəraiti və ehtiyatları ........ 223
9.4.1. Arxızsk turizm mezorayonu ........ 223
9.4.2. Dombaysk turizm mezorayonu ........ 227
9.4.3. Uzunkolskiy turizm mezorayonu ........ 230

**Onuncu fəsil. Azərbaycan Respublikasının turizm bölgələrində ekoturizmin inkişafı ........ 233**
10.1. Bakı-Abşeron turizm bölgəsi ........ 233
10.2. Quba-Xaçmaz turizm bölgəsi ........ 236
10.3. Dağlıq Şirvan turizm bölgəsi ........ 238
10.4. Şəki-Zaqatala turizm bölgəsi ........ 239
10.5. Kiçik Qafqaz turizm bölgəsi ........ 241
10.6. Gəncə-Qazax turizm bölgəsi ........ 243
10.7. Kəlbəcər-Laçın turizm bölgəsi ........ 245
10.8. Aran (Kür-Araz) turizm bölgəsi ........ 246
10.9. Lənkəran-Astara turizm bölgəsi ........ 252
10.10. Naxçıvan turizm bölgəsi ........ 261
**Nəticə ........ 267**
**Ədəbiyyat ........ 269**



***Kitab Dağlıq Qarabağ uğrunda döyüşlərdə şəhid olanların əziz xatirəsinə ithaf olunur!***

## Ön söz

Ekoloji turizm – dünya turizm sənayesinin ən sürətli inkişaf edən sahələrindən biridir. Ekoloji turizm təbiətdən zövq almaq, istirahət məqsədi ilə istifadənin yeni forması olmaqla yanaşı, rekreasiya ehtiyatlarından düşünülmüş şəkildə istifadə etməyi, bioloji müxtəlifliyin qorunmasını təbliğ etməklə, həm də turizm fəaliyyətinin dayanıqlılığını təmin etmək üçün «qeyri-aşındırıcı» təbiətdən istifadə rejiminin işlənib hazırlanması tələb edir.

Ekoloji turizmin inkişaf tendensiyası Birləşmiş Millətlər Təşkilatının ixtisaslaşmış qolu olan Ümumdünya Turizm Təşkilatı (BMÜTT) tərəfindən müəyyən olunmuşdur. Bu təşkilatın proqnozlarına görə ekoloji turizm 2020-ci ilə qədər olan dövrdə turizmin inkişafının.beş əsas strateji istiqamətləri sırasına daxildir.

Ölkəmizə BMÜTT tərəfindən ekoloji turizmin inkişafı nöqteyi nəzərdən ən perspektivli regionlardan biri kimi baxılır. Ölkə prezidenti İ.Əliyev tərəfindən 2011-ci ilin turizm ili elan olunması bu məsələyə respublikamızda necə önəm verildiyinin göstəricisidir.

Ekoturizm ətraf mühitin mühafizəsi və yerli əhalinin rifah halını yaxşılaşdırmaq, onun tələblərini qarşılamaq üçün potensiala malik olan davamlı bir turizm növüdür. Odur ki, ekoturizm belə müəyyən olunur: «İcmaların iqtisadi imkanlarını genişləndirməklə qonaq qəbul edən sahibkarlar üçün iqtisadi və sosial imkanlar təmin etmək, təbii interpretasiya və ekoloji təhsil vasitəsi ilə təbii ehtiyatların qorunmasına kömək edərək səfər olunan ərazilərin təbiəti, tarixi və mədəniyyəti haqqında

öyrənməkdə maraqlı olan insanların ekoloji səyahətlərdən zövq almasıdır».

Azərbaycan təbii ekoturizm sahəsində real potensial imkanlara malikdir. Çox maraqlı və zəngin ölkə kimi onun ərazisinin yarıdan çoxunu quru landşaftları (yarımsəhralar, dağətəyi və dağlıq çöllər) əhatə edir. Təbii və coğrafi şəraitin unikallığı burada flora və faunanın növ müxtəlifliyinin rəngarəngliyinə şərait yaratmışdır. Yer üzündə mövcud olan 11 iqlim tipinin 9-u Azərbaycanda təsadüf edilir. Bu amil ölkəmizdə zəngin biomüxtəlifliyin formalaşmasında mühüm rol oynayır. Azərbaycanda təxminən 4500 ali bitki növü yayılmışdır ki, bu da Qafqazın zəngin bitki aləminin növ tərkibinin 64 %-ni təşkil edir. Bunlardan 240-ı endemik və relikt növlərdir. Azərbaycan Respublikasının «Qırmızı kitab»ına 140 nadir və nəsli kəsilməkdə olan bitki növü daxil edilmişdir. Burada yayılmış fauna növləri: 14000 həşaratkimilər, 123 balıq, 9 suda-quruda yaşayanlar, 54 sürünənlər, 360 quş və 99 məməli olmaqla, bunlardan 108 növ «Qırmızı kitab»a salınmışdır.

Hazırda antropogen təsirə məruz qalmayan təbiət kompleksləri tapmaq qeyri-mümkündür. Bu baxımdan vəhşi təbiətin qorunması və öyrənilməsində xüsusi mühafizə olunan təbiət ərazilərinin təşkili, inkişaf etdirilməsi çox mühüm rol oynayır. Bu da ətraf mühitin, bioloji müxtəlifliyin və bütövlükdə ekosistemin qorunması ilə yanaşı onun öyrənilməsinə xidmət edir.

Azərbaycanın füsunkar təbiətinin qorunması məqsədilə XX əsrin 20-ci ilin ortalarından başlayaraq ilk qorunan ərazilərdən – Göy-göl, Zaqatala, Qızılağac və Hirkan dövlət təbiət qoruqları yaradılmış, 1969-cu ildə «Təbiətin Mühafizəsi üzrə Qanun»un qəbul olunması ilə qoruqların sayı artmış və daha 6 xüsusi mühafizə olunan təbiət ərazisi – Şirvan, Bəsitçay, Qarayazı, Ağgöl, İsmayıllı, İlisu və Altıağac dövlət təbiət qoruqları yaradılmışdır. 2000-ci ildə «Xüsusi mühafizə olunan təbiət



əraziləri və obyektləri haqqında» Azərbaycan Respublikasının Qanununun qəbul edilməsindən sonra bu sahədə yaranmış hüquqi boşluğun aradan qaldırılması və qanunvericilik bazasının möhkəmləndirilməsi Ekologiya və Təbii Sərvətlər Nazirliyi tərəfindən xüsusi mühafizə olunan təbiət ərazilərinin inkişaf etdirilməsi, ekoloji şəbəkənin yaradılması istiqamətində həyata keçirilər məqsədyönlü tədbirlərin davam etdirilməsinə səbəb olmuşdur. İndi ölkəmizdə 8 milli park, 11 dövlət təbiət qoruğu və 24 dövlət təbiət yasaqlığı mövcuddur ki, bu da ölkəmizin ümumi ərazisinin 8,1 %-ni təşkil edir.

Həmçinin Almaniya Federal Hökumətinin dəstəyi ilə «Qafqaz təşəbbüsü» proqramı çərçivəsində, Samur-Yalama» milli parkının layihəsi hazırlanmış və yaxın vaxtlarda icrasına başlanılacaqdır.

Qeyd etmək lazımdır ki, ölkə tarixində ilk milli parkların yaradılması digər məqsədlərlə yanaşı, turizmin əsas bölmələrindən biri olan ekoturizm üçün daha münasib şərait yaratmaq, təbii-coğrafi mühiti qorumaq və yaxşılaşdırmaq məqsədi daşımaqla öz növbəsində təbiət komplekslərinin qorunmasında mühüm amil kimi çıxış edir. Bu baxımdan Milli Parkların infrastrukturunun ən müasir standartlara uyğun təşkili, kadr potensialının gücləndirilməsi, ərazidə ekoturizmin inkişafı üçün zəruri şəraitin yaradılması mühüm əhəmiyyət kəsb edir.

Ekoloji turizmin əsaslandığı və həyata keçirdiyi əsas prinsiplər əbədi dəyərlər sırasındadır. Bunlar: istirahət; təbiət ərazilərinin bioloji müxtəlifliyinin qorunması; regionların iqtisadi davamlılıq səviyyəsinin yüksəldilməsi və onların ekoloji turizm sahəsinə cəlb olunması; ekoloji turizm fəaliyyətinin bütün iştirakçılarının ekoloji mədəniyyətinin artırılması; istirahət ərazilərinin etnoqrafik statusunun saxlanması.

Azərbaycan dünyanın çox az ölkələrindəndir ki, öz təbii sərvətlərini bu günə qədər qoruyub saxlaya bilmişdir. Hazırda ölkə qarşısında duran əsas vəzifələrdən biri bu sərvətlərin

dəyərini dərk etmək, qiymətləndirmək və onların istifadəsi zamanı savadlı yanaşmaqdır ki, bu da onları bərpa etməyə, artırmağa, yaxşılaşdırmağa və gələcək nəsillərə çatdırmağa xidmət etməkdir. Təbii ehtiyatların hər hansı formada istifadəsi ilə əlaqədar turizm fəaliyyətini həyata keçirən dünya ölkələrinin təcrübəsi göstərir ki, bu ehtiyatların istirahət məqsədi ilə istismarının düzgün təşkil olunmaması onların aşınmasına və dağılmasına aparıb çıxarır. Həmin ehtiyatları yenidən bərpa etmək isə böyük miqdarda maddi vəsait tələb edir.

Odur ki, təbiət yönümlü turizm sahəsində, xüsusən də ekoturizm üzrə davamlı turizm fəaliyyətini həyata keçirmək üçün bu sahəyə həm turizmi (turizm sənayesini, turizm menecmentini, turizm təhlükəsizliyini, turizm xidmətini), həm də ekologiyanı (flora və faunanı, ekosistemləri, ətraf mühitin mühafizəsini, insan ekologiyasını, ekologiya hüququnu) dərindən bilən ixtisaslı kadrlar cəlb olunmalıdır. Əks halda taleyin bizə bəxş etdiyi bu nadir və əvəzolunmaz təbiət incilərini çox tez bir zamanda əbədi itirə bilərik.

***Mikayılov N.K.***
*coğrafiya elmləri doktoru, BDU-nun "Ətraf mühiti mühafizə və təbii ehtiyatlardan səmərəli istifadə" kafedrasının professoru*



# Birinci fəsil

# EKOTURIZMƏ GİRİŞ

## 1.1. Ekoturizmin inkişaf tarixi və əmələ gəlməsinin ilkin şəraiti. Müasir turizmin dayanıqlı inkişaf konsepsiyası

Ekoturizmin əmələ gəlməsinin əsas şərtləri arasında aparıcı yeri turizmin kütləviləşməsinin güclənməsi səbəbindən təbiətə antropogen təsirin artması və mədəni-tarixi turizm ehtiyatlarının çoxalması tutur. Bu təsir turistlərin sayının artım tempinə mütənasib olaraq artır. BMÜTT proqnozlarına görə (yeri gəlmişkən qeyd edək ki, 2001-ci ilin sentyabrında Azərbaycan BMÜTT-na üzv qəbul olunub) XXI əsrdə turizmin inkişaf göstəricilərindən aydın olur ki, turistlərin tələbatının ödənilməsi və turizm ehtiyatlarının səmərəli istifadə olunması məsələsində ziddiyyətlər getdikcə artır.

Turizm ehtiyatlarına və ətraf mühitə kütləvi turizmin təsirinin neqativ aspektləri hələ keçən əsrin 70-ci illərində xarici və vətən alimlərinin tədqiqatlarında qeyd olunmuşdur. Hazırda antropogen pressinq və onun təsirinin tormozlayıcı inkişafı praktiki olaraq turizm sənayesinin bütün bölmələrində və turizmin bütün növlərində, əksər turizm rayonlarında müşahidə olunur. Məsələn, artıq 1973-1983-cü illərdə Polşada həmin səbəbdən çaylar və göllər üzrə turist marşrutları 40 %, dəniz üzrə 70 % ixtisara salınmışdır. Korlanmış meşələrin sahəsi 60 % artmışdır. ABŞ-da Balinqer kanyonunda turistlərə xidmət göstərən avtomobil nəqliyyatının hərəkəti nəticəsində torpağın və qruntun orta aşınma sürəti 86 dəfədən çox mümkün olan həddi ötüb keçmişdir.

Dünyada təsərrüfarların qloballaşma prosesi ilə Yer səthində və atmosferdə neqativ halların başvermə tempi artmaqdadır.

Dünya təsərrüfatında qloballaşma artdıqca Yerin coğrafi təbəqəsində gedən neqativ dəyişikliklər də artmağa başladı. Bura xüsusi ilə iqlimin dəyişməsi, torpaq-qruntların deqradasiyası, ekosistemin tarazlığının pozulması, biomüxtəlifliyin məhvi, torpaq, su, havanın çirklənmə dərəcəsinin artmaqda davam etməsi, insan fəaliyyətinin təsiri ilə təbiətin "yoxsullaşması", əhalinin qeyri bərabər məskunlaşmasının idarə olunmaması ilə sosial-iqtisadi inkişafın bərabər olmaması, ərzaq təhlükəsizliyi və əhalinin sağlamlığı, təbii sərvətlərin və enerji resurslarının tükənmə təhlükəsi və s. aiddir.

Bu problemlərin qlobal xarakterini nəzərə alaraq, onları milli və ya regional səviyyədə həll etmək mümkün deyildir.

Qlobal dəyişikliklər üzrə Alman məşvərət Şurası dünyanın bir çox regionlarında təkrar olunan problemlərin aşağıdakı tipik modelini təklif etmişlər. Onlar təbiətdə gedən deqradasiya proseslərini xəstəliklərə analoji olaraq sindromlar adlandırmışlar. Bura daxildir utilizasiya, inkişaf, tullantı sindromları. Sadalananlara aşağıdakı misalları nümunə kimi göstərə bilərik:

- Utilizasiya sindromu – korlanmış torpaqların həddən artıq bərpası (Saxalin sindromu), yaxud rekreasiya inkişafı ilə əlaqədar təbiətə vurulan ziyan (kütləvi turizm sindromu);
- inkişaf sindromu – adivikat olmayan proqramla landşaftın ekoloji korlanması hesabına iqtisadiyyatın inkişafı (Aral sindromu), yaxud ekoloji standartı nəzərə almadan iqtisadiyyatın sürətli inkişafına nail olmaq (Asiya pələngi sindromu),
- tullantılar sindromu – idarə olunan və ya idarə olunmayan tullantıların basdırılması ilə ətraf mühitin deqradasiyası (dampinq sindromu).

Sadalanan problemlər artdıqca dünyada təbii və mədəni-tarixi turizm ehtiyatlarının səmərəli istifadəsinə həsr olunmuş beynəlxalq konfransların, müxtəlif iclasların və nəşrlərin də sayı artmağa başladı. Təkcə 1999-cu ildə xaricdə bu mövzuya həsr olunmuş 400-dən artıq material çap edilmişdir. Gərgin



axtarışlar nəticəsində 1996-cı ildə BMÜTT, "Səyahətlər və turizm üzrə şura" (WTTC), «Yaşıl dünya» təşkilatı tərəfindən "XXI əsrdə turizmin dayanıqlı inkişafı konsepsiyası: "Səyahət və turizm sənayesi üçün 21 əsr gündəliyi" (Aqenda 21 for travel and tourizm industry) işlənib hazırlanmışdır. O, turizm üzrə milli idarələrə, turist, ticarət təşkilatlarına, həmçinin turist xidmətləri istehlakçılarına ünvanlanmışdır. Konsepsiya 14 iyun 1992-ci ildə BMT-nin ətraf mühit və inkişaf problemləri üzrə Konfransında (Rio-de-Janeyro şəhərində) 182 hökumətin qəbul etdiyi "Səyahət və turizm sənayesi üçün 21 əsr gündəliyi" olmaqla ətraf mühitin qorunmasına Dünya çağırışı oldu. Bu konfrans artıq bəşəriyyətin ətraf mühitin mühafizəsi problemi ilə sosial-iqtisadi inkişaf prosesinə iki ayrı sahə kimi baxmadığını nümayiş etdirdi. Bununla əlaqədar olaraq Konfransda növbəti 100 il üçün fəaliyyət planı qəbul edildi ki, bu da "XXI əsrin Gündəliyi" adı ilə tanınmaqla. əsas məqsəd qlobal miqyasda bütün dünya ölkələrində yüksək keyfiyyətli ətraf mühit və stabil iqtisadiyyata çağrış sənədi oldu. "XXI əsrin Gündəliyi" bəşəriyyətin davamlı inkişaf konsepsiyasının cizgilərini müəyyən etdi.

Dayanıqlı inkişaf dedikdə, turizm ehtiyatlarına zərər yetirmədən baş verən proseslər anlaşılır. Buna ehtiyatların istifadə olunma və bərpa olunma sürətlərinin idarə etməsi zamanı nail olunur. Yəni zəif bərpa olunan ehtiyatlardan tez bərpa olunan ehtiyatlara keçid zəruridir.

" 21-ci əsrin Gündəliyi " aşağıdakı tezislərə malikdir:

- turizm biznesinin əsasını təşkil edən təbiət resursları qorunmalıdır;
- uzunmüddətli inkişaf strategiyasının yaradılması üçün hökumət, sənaye və qeyri-hökumət təşkilatlarının birgə koordinasiyasının təşkili vacibdir;
- Turizmdə nailiyyətlərə çatmaq üçün prespektivli istiqamətləri seçmək və s.

**Sənəddə turizmin inkişafında aşağıdakı prinsiplərdən istifadə təklif olunur:**

- səyahət və turizm insanlara təbiətlə harmoniyaya nail olmaqda kömək etməlidir;
- səyahət və turizm ekosistemin saxlanması, müdafiəsi və bərpasında öz töhfəsini verməlidir;
- səyahət və turizm istehsal və istehlakın həyat qabiliyyətli modellərinə əsaslanmalıdır;
- turizm biznesi xatirinə təbiətə vurula biləcək təsirlərdən tamamilə uzaq olmaq;
- ətraf mühitin mühafizəsi turizmin inkişaf prosesinin ayrılmaz hissəsi olmalıdır;
- turizmin inkişaf problemi yerli səviyyədə, icmaların (yerli sakinlərin) iştirakı ilə həll olunmalıdır;
- dövlətlər birbaşa turistlərə və turizm sahəsinə zərər yetrə bilən hallar zamanı bir-birlərini xəbərdar etməlidirlər;
- yerli əhalini turizm sənayesi ilə məşğul olan müəssisələr iş yerləri ilə təmin olunmalarına yardım göstərməlidirlər;
- turizmin inkişafı yerli xalqların maraqlarını və mədəniyyətini dəstəkləməli və ona yardım etməlidir;
- səyahət və turizm sənayesi ətraf mühitin mühafizəsi sahəsində beynəlxalq hüquqa əsaslanmalıdır.

Milli idarələr tərəfindən turizmin sürətli və davamlı inkişafı baxımından aşağıdakı 9 əsas amilin olması təklif edilir:

1. Həyat qabiliyyətli turizmin təmin olunması məqsədi ilə mövcud infrastruktur tutumunun qiymətləndirilməsi;
2. Turist təşkilatlarının iqtisadi, sosial, mədəni və təbii imkanları;
3. Davamlı inkişafı prosesinin anlanması, təhsil ümumdünyagörnüşü;
4. Turizmin inkişafı üçün vacib olan planların varlığı;
5. İnkişaf etmiş və inkişafda olan ölkələrin turizm təcrübəsinin öyrənilməsi səviyyəsi;



6. İctimai bölmənin bütün sahələrində inkişafda iştirak;
7. Turizmin inkişafı üçün davamlı inkişaf pribsiplərinə əməl etmək;
8. Yerli şəraitdə inkişafa xidmət edən sahələri müəyyənləşdirmək;
9. Həyat şəraitinin inkişafına xidmət naminə əməkdaşlıq

Turist kompaniyaları üçün isə aşağıdakı 10 şərtləri yerinə yetirmək tələb olunur:

1. Turist ehtiyatlarından minimum istifadə
2. İstifadə və idarə oluna bilən enerjilərdən səmərəli istifadə
3. Şirin su ehtiyatlarını qorumaq onlara ziyan yetirməmək
4. Dayanıqlı su hövzələrini qorumaq
5. Təhlükəli maddələrlə ehtiyatlı davranmaq
6. Nəqliyyatdan və nəqliyyat vasitələrindən səmrəli istifadə
7. İstifadə olunan ərazilərin qorunması
8. Yerli əhalinin təbiəti və milli sərvətlərin qorunmasına cəlb etmək
9. Davamlı inkişaf layihələri həyata keçirmək
10. İnkişaf naminə əməkdaşlıq

Turizmin dayanıqlı inkişaf prinsipi hələ 1997-ci ildə BMÜTT ekspertlərinin üzərində işləməyə başladığı turizmin Qlobal etik məcəlləsində öz əksini tapmışdır. Sənədin preambulasında deyilir ki, «təntənəli şəkildə onu ÜTT-nin üzvlüyünə dünya turizm sənayesinin, dövlətlərin, ərazilərin, müəssisələrin, idarələrin və təşkilatların nümayəndəsi kimi qəbul edərkən, dünya bazar iqtisadiyyatının açıq və rəqabət şəraitində cəmiyyətin bütün bölmələrinə fayda gətirəcək ədalətli, məsuliyyətli və dayanıqlı dünya turizm qaydaları müəyyən olunmasına imkan yaradan arzunu ifadə edən və bütün xalqların ictimai seçiminə hörmət edərək istirahət və səyahət hüquqlarının həyata keçirilməsi çərçivəsində məsuliyyətli, dayanıqlı və əlverişli turizmin inkişafına yardım etmək məqsədinə malikdir».

Dayanıqlı inkişaf problemi turizmə cəlb olunmuş təbii rezervatlar, nadir təbiət obyektləri və hadisələri üçün xüsusən aktualdır. Çox vaxt belə obyektlərin ərazilərinə bitişik olan yerlərdə yaşayan əhali yalnız turistlərdən gələn gəlirlər hesabına yaşayırlar. Dağlıq ərazilər üçün bu hal daha çox xarakterikdir. Təsadüfü deyildir ki, BMT-nin Baş Assambleyasının qərarına görə 2002-ci il Beynəlxalq dağ ili və Beynəlxalq ekoturizm ili elan olunmuşdur. Bu həmin iki tədbirin həyata keçirilməsi zamanı mümkün olan maksimum nəticələrin əldə olunmasında bütün maraqlı tərəflərin səylərinin birləşdirilməsi üçün geniş imkanlar açır.

2002-ci ildə BMT sonrakı əlavələrlə gələcəkdə yerinə yetirmək və inkişaf üçün qəbul olunmuş «Gündəlik 21» proqramının Rio-de-Janeyroda ətraf mühit və inkişaf üzrə keçirilmiş konferensiyasının 10-cu ildönümünü qeyd etdi.

Bununla belə dayanıqlı inkişaf konsepsiyası turizm üzrə bir çox ekspertlər tərəfindən skeptik qəbul olunmuşdur. Buna əhəmiyyətli dərəcədə uğursuz söz birləşməsi olan – «dayanıqlı (sabit, hərəkətsiz) inkişaf (hərəkət, dinamika)» oldu. Yəqin ki, «həyat qabiliyyətli inkişaf» haqqında danışmaq daha doğru olardı.

Bundan başqa, regional səviyyədə «inkişaf» sözünü həyatın qərb standartlarına nail olmağa cəhd kimi başa düşmək lazım deyil. Yerli əhalinin sosial-iqtisadi hərəkatının istiqaməti hakimiyyətdə təmsil olunan adamlar tərəfindən deyil, həmin əhalinin özləri tərəfindən təyin olunur. Bu mənada daha çox reklam vədlərini yox, ənənələri nəzərə almaq lazımdır. Ekoturizm üzrə amerikalı ekspert Ron Maderin dediyi kimi: «İnkişaf – Qərbi təqlid etmə deyil. Bu təkcə maliyyə-sənaye kompleksi, kimyəvi gübrə və nəhəng su-enerji bəndi deyil. Qəlbi istehlak mallarına və tez varlanmaq sxeminə satmaq lazım deyil. İnkişaf – oyanışdır, öz daxili zənginliyini və şəxsiyyətin və cəmiyyətin həqiqi potensialını dərk etmək deməkdir».



## 1.2. Təbii turizm ehtiyatlarına turizmin təsirinin idarə olunması imkanları və ekoturizmin faydası

Məlum olduğu kimi müasir turizm növlərinin əhəmiyyətli hissəsi daha çox təbii turizm ehtiyatlarının istifadəsinə yönəlmişdir. **Təbiət turizmi** – (nature tourism, nature-based or nature-oriented tourism) anlayışına landşaft, relyef, su, bitki və heyvanat aləmini özündə birləşdirən, birbaşa təbii resurslardan istifadəyə yönəldilmiş turizmin bütün növləri aid olunur. Qeyd edək ki, insan özünü dərk edəndən bu günə kimi turizmin bu növündən məhdudiyyətsiz sui-istifadə edir. "Təbiət turizmi" turistlərin təbiətə gəzintisini təşkil edir və onların təbii mühitə ekoloji, mədəni və iqtisadi təsirini nəzərə almır. Buna görə də təbii resurslardan bu şəkildə istifadə heç də dayanıqlı və ağıllı hesab olunmur.

**Ekoturizm** - İngilis dilində olan «ecological tourism» və «ecotourism» söslərinin dilimizə keçmiş formasıdır. Regionun davamlı inkişafını təmin edən və yerli mədəni-sosial mühitin qorunmasına qayğı göstərən, təbiətlə mehriban münasibətləri formalaşdıran, ekologiya təhsili maarifçiliyinə istiqamətlənmiş, təbiətə ziyan vurmayan turizmdir (Bax:Turizm termin və anlayışlarının izahlı ensiklopedik lüğəti, Bakı,2004).

Elmi ədəbiyyata ekoturizm anlayışını ilk dəfə meksikalı iqtisadçı Hektor Seballos-Laskureyn (Ceballos-Lascurain) tərəfindən 1980-ci ildə daxil edilmişdir. Onun fikrincə "ekoturizm-təbiətə ekoloji həssas münasibətlə səyahətin uzlaşdırılmasıdır ki, nəticədə flora və fauna numunələri ilə tanışlıq. yaratmaqla onların qorunması imkanlarını birləşdirir".

BMÜTT tərəfindən qəbul olunmuş təyinatda deyilir:- "Ekoturizm təbiət turizminin bütün formalarını əhatə edir ki, bu zaman turistlərin əsas motivasiyası təbiəti seyr etmək və onunla ünsiyyət yaradır". Ümumdünya Vəhşi Təbiət Fonduna görə "ekoturizm-təbiətin qorunmasına yardım edən təbiət turizmidir".

PREZİDENT KİTABXANASI

Almaniyanın inkişafı və maliyyə əməkdaşlığı üzrə Federal nazirlikdə hesab edirlər ki, "ekoturizm turizmin elə növüdür ki, bu zaman ətraf mühitə mənfi təsirlərin minimuma endirilməsi, mühafizə edilən təbiət əarazilərinin maliyyələşdirilməsinə yardım edilməsi, yerli əhaliyə gəlir mənbəyi yaradılması üçün düşünülmüş cəhdlər edilir".

Ekoturizmin baza prinsipləri aşağıdakılardan ibarətdir:

- Rekreasiya təbiət ərazilərinin bioloji müxtəlifliyinin qorunması;
- Ekoturizm sferasına cəlb olunmuş regionların iqtisadi dayanıqlıq səviyyəsinin yüksəldilməsi;
- Ekoturizm fəaliyyəti iştirakçılarının ekoloji mədəniyyətlərinin yüksəldilməsi;
- Rekreasiya ərazisinin etnoqrafik statusunun saxlanılması.

Mütəxəssislər trekkinq və ya piyada turizmi, velosipedlə və atla (və ya digərləri ilə) səyahətləri, naturalist – alimlərlə gəzintini (botaniki, zooloji, ornitoloji, ixtioloji, geoloji və s. turlar), daxili sularda (raftinq) və dəniz səyahətini (dayvinq və s), speleoturizmi, xüsusi mühafizə olunan təbiət ərazilərində ovçuluğu ekoturizmə aid edirlər.

Dünya təcrübəsi göstərir ki, ekoturizm həqiqətən dayanıqlı inkişaf ideyasını həyata keçirən iqtisadiyyatın bir qoludur. Belə ki, o, əsasən asan dağıla bilən təbii komplekslərə toxunur, həmçinin istehlakçı «dəstəsinə» əvvəllər naməlum olan rayonları açır.

Turizmin təbii komplekslərə birbaşa və dolayı təsir miqyası və gedişi çətin təyin olunur.

Birbaşa təsirə aşağıdakılar daxildir:

1) ov, balıqçılıqla zamanı flora, fauna nümunələrinə təsirlə yanaşı, ərazilərin təsərrüfat fəaliyyətinə daxil edilməsi yolu ilə və s. təbii yaşayış şəraitinin məhv edilməsi;

2) bitkilərin və heyvanların onların yemlənməsi, süni yaradılmış şəraitdə artırılması, üzərilərində müşahidə aparılması, səs-küy təsiri, yuvalarının, kahalarının dağıdılması və s. yolu ilə təbii həyat fəaliyyəti prosesinə müdaxilə;

3) insanın həyat fəaliyyəti vasitəsi ilə (təcrübələr, üzvü qida tullantıları) infeksiya və xəstəliklərin gətirilməsi və yayılması, təsərrüfat fəaliyyəti (meşələrin qırılması, torpaqların korlanması və s.).

Dolayısı təsirə isə bunlar aiddir:

1) təbii qida mühitinin dəyişməsi;

2) coğrafi mühitin komponentlərinə qlobal antropogen təsir (torpaqların və səthi suların çirklənməsi, meşələrin qırılması və eroziyanın inkişafı, iqlimin qlobal dəyişməsi, atmosferin çirklənməsi və s.);

3) heyvanların süni yolla artırılması, təbii mühitə və insanın özünə son təsirinin hələ axıra qədər dəqiq öyrənilməməşi, əvvəlcədən planlaşdırılmış xüsusiyyətləri olan heyvanların və bitkilərin genlərinin dəyişdirilməsi. Belə proseslərdə nadir heyvanların və bitkilərin (endemiklər, reliktlər) kiçik populyasiyaları və ya gec nəsil verən növləri daha çox əziyyt çəkir.

Turizmin təbiətə təsir prosesini də həmçinin birbaşa və ya dolayısı ilə müəyyənləşdirmək olar. Birbaşa müəyyənləşdirmə variantına təbii kompleksə turist yüklənməsinin yol verilən həddə uyğun olaraq müştərilərin ümumi sayının məhdudlaşdırılması, turistlərə nümayişi olunan obyektlərin ərazilərinin və xüsusi mühafizə olunan təbii ərazilərin zonalaşdırılması, ətraf mühitin çirklənməsini minimuma endirən xüsusi texnologiyanın istifadə olunması daxildir. Obrazlı şəkildə desək, bu inzibati məsuliyyətə cəlbetməyə əsaslanmış (cərimələr, göstərişlər, tariflər, buraxılış vərəqələrinin tətbiqi və s.) güc siyasəti olub,turistlərin rahatlığının pozulmasına gətirib çıxarır.

Dolayı variant turistlərin yerli əhaliyə, heyvanlara və bitkilərə humanist münasibətin, hörmətin tərbiyə olunması, təhsil səviyyəsinin artırılması yolu ilə davranışının dəyişməsinə

əsaslanır. Turistlərə təsirin hər iki variantını uzlaşdırmaq lazımdır. Əks təqdirdə hər biri ayrı-ayrılıqda gözlənilən nəticəni verməyə də bilər.

Eyni zamanda ekoturizmin mahiyyətini və onu təşkil edən ünsürlər düzgün başa düşülən şəraitdə, aşağıda sadalananlar vasitəsi ilə regionların sosial-iqtisadi inkişafına arta bilər:

1) həm turizm sənayesində, həm də qarışıq sahələrdə yerli əhali üçün iş yerləri yaranar;

2) yerli iqtisadiyyatın gəlirli sahələrinin inkişafı (mehmanxana təsərrüfatı, ictimai iaşə, nəqliyyat kompleksi, suvenirlərin istehsalı, xalq sənətkarlığı və s.) sürətlənər.

3) valyuta mübadiləsinin stimullaşdırılması üçün münbit şərait yaranar;

4) istehsal olunan məhsula tələbatın artması və əlavə investisiyalar vasitəsi ilə kənd təsərrüfatının və qida sənayesinin inkişafı sürətlənər;

5) mənzil-kommunal təsərrüfatı müəssisələrinin və nəqliyyatın işinin yaxşılaşar;

6) turizm ehtiyatlarının (turistlərin diqqətinə layiq), o cümlədən xüsusi mühafizə olunan təbət ərazilərinin səmərəli istifadəsinin investisiyalaşdırılması prosesi baş verər;

7) intensiv kənd təsərrüfatına keçidlə, böyük torpaq sahələrinin təbii vəziyyətdə saxlanması zəruriliyi ortaya çıxar;

8) qlobal kommunikasiyanın inkişafı diqqət mərkəzində olar;

9) yerli mədəni və təbii irsin turizm ictimaiyyətinin onlara daimi diqqətinə görə mühafizəsinin stimullaşdırılar;

10) rekreasiya kompleksinin inkişafı və onun nəticəsi kimi yerli əhalinin istirahəti üçün şərait yaranar.



## 1.3. Ekoturizmin təyini

Çoxsaylı tədqiqatçıların qeyd etdiyi kimi «ekoturizm» anlayışı uzun müddət kifayət qədər qeyri-müəyyən sərhədlərə malik olmuşdur. Bunun səbəbi marketoloqlar tərəfindən turistləri cəlb etmək üçün təbiətə, onun müdafiəsinə və aktiv istirahətə (outdoor) yönəlmiş həmin sözün istifadə olunmasıdır. Əslində isə turoperatorları ətraf mühitin mühafizəsi az narahat edirdi. Odur ki, ekoturizm ideyası hələ uzun müddət turizm nəzəriyyəçilərində şübhəli münasibətə səbəb olmuş və olmaqdadır. Məsələn, V.Viller Kubada «ekoturda» olarkən avtobusun salonunda sərinkeş (kondisioner) işləsin deyə sürücünün bir saat ərzində turistlərin restoranda nahar etdiyi müddətdə mühərriki işlətdiyini müşahidə etmişdir. Bu zaman azacıq kənarda oturmuş yerli əhalidən olan adamlar turistlərin rahatlığına göstərilən bu qayğıdan çətin ki, zövq ala bilmişdir" kimi qeydlər etmişdir.

Avropada ÜTT nümayəndəsi P.Şeklfondun sözlərinə görə, «ekoturizm» termini turizm sənayesində uzun müddət istifadə olunur. Həmçinin bəzi mənbələr təsdiq edir ki, bu termin ilk dəfə 1978-ci ildə Miller tərəfindən turizmin dayanıqlı inkişaf variantlarından biri olaraq işarə kimi istifadə olunmuşdur.

Lakin bir halda bu sivilizasiyanın toxunmadığı təbiət guşəsinə edilən səyahət olaraq nəzərdə tutulur: ekoturizm – «yabanı bitki və vəhşi heyvan peyzajlara, həmçinin bu sahələrdə hər hansı mədəni təzahürlərə heyran qalmaq və zövq almaq üçün nisbətən toxunulmamış və çirklənməmiş nadir təbiət obyektləri sahələrinə səyahətdir». Digər halda isə bu təbiətdə ekoloji tarazlığı saxlamaq üzrə səydir: - «tərkibinə təbii və mədəni ətraf mühitin öyrənilməsi və bu mühitdə vəziyyətin yaxşılaşdırılması üçün xidmət göstərən təbii turizmdir».

Ekoturizmə baxışlardakı müxtəlifliklərlə əlaqədar olan təyinatlarda coğrafi fərqlər də müşahidə olunur. İnkişaf etmiş

ölkələrin ekspertləri ekoturistlərlə təchiz edən ölkələrin nümayəndəsi kimi ekoturizmi istehlakçıların (qonaqların) gözləri ilə görür, daha doğrusu onların arzuları və rekreasiya tələbatları ilə razılaşır. Qəbul edən ölkələrin (sahiblərin) turoperatorlarını və tədqiqatçılarını həmin ölkənin sosial iqtisadi inkişafında turizmə qoyulmuş investisiyalar və gəlir narahat edir.

Bir vaxtlar bizim ölkəmizin də tərkibində olduğu keçmiş SSRİ-də «ekoloji turizm» termini 80-ci illərin ortalarında meydana çıxmışdır. İrkutsk vilayət komitəsinin ÜİLKGİ-nin «Sputnik» Beynəlxalq gənclər turizm bürosunda mütəxəssislər tərəfindən «Baykal dairəvi dəmir yolu üzrə ekotur» kimi marşrutlar işlənib hazırlanmış və həmin dövrdə tətbiq olunmuşdur. Belə marşrutlar ilk dəfə ölkədə rəsmən «ekoloji turizm marşrutları» adlandırılmış və məhz bu ad altında «Sputnik» Beynəlxalq gənclər turizm bürosunun (BGTB) kataloquna daxil edilmişdir. O zamanlar «ekoloji turizm» söz birləşməsi adı altında turistlərin iştirakının təbii mühitdə minimum əks olunduğu, onların özlərinin isə təkcə istirahət etmələri yox, həm də Baykal gölünün ekoloji problemləri ilə tanışlığı, ən başlıcası isə mümkün qədər bu problemlərin həllində iştirakı olan marşrutlar nəzərdə tutulurdu. «Ekoturizm» anlayışı o vaxtlar daha çox iqtisadi yox, mənəvi kateqoriya kimi qəbul olunurdu, Belə ki, BGTB «Sputnik» öz marşrutlarının təşkilində Uldis Knakis adına İrkutst kənd təsərrüfatı institutunun ovşünaslıq fakültəsinin mübariz tələbə drujinasının yeni yaradılmış baykal ekoloji hərəkatı ilə sıx qarşılıqlı təsirdə idi.

«Ekoturizm» anlayışının özü «ekoloji turizm» söz birləşməsinin qısaldılmış variantı olub, onun istifadəsi ekologiya elmi nöqteyi-nəzərdən tam doğru deyildir.

Ekoturizmin ilk və ən uğurlu mənasını fikrimizcə, Q.S.Qujin, M.Y.Belikov və E.V.Klimenok 1997-ci ildə yazdıqları əsərdə vermişlər: «Ekoturizmin əsasında ətraf mühitə qayğı durur. İlk plana təbii ehtiyatların səmərəli istifadəsi və mühafizəsi üzrə müxtəlif layihələrin həyata keçirilməsi məqsədi ilə mədəni maraqları təmsil edən yerlərə baş çəkmək, təbii zonalara məhdud sayda iştirakçıların səyahətinin təşkili durur».



Həmin təyinin BMÜTT təyini ilə bir çox ümumi cəhətləri var: ekoturizm – «təbii zonalara, yerli əhalinin firavanlığına yardım edən və ətraf mühiti saxlayan sahələrə məsuliyyətli səyahətdir».

Bu turizm növünün daha yaxşı anlaşılması üçün ekoturistin TIES (The International Ecotourism Society) tərəfindən formalaşdırılmış 10 qaydası aşağıda göstərilmişdir:

1. Yer kürəsinin həssas olduğunu unutmamaq;
2. Özündən sonra izlər qoyub, yalnız şəkillər aparmaq;
3. Düşdüyün mühiti öyrənmək: xalqların mədəniyyətini, coğrafiyanı;
4. Yerli əhaliyə hörmət etmək;
5. Ətraf mühit üçün təhlükə yaradan istehsalçıların məhsullarını almamaq;
6. Yalnız keçilmiş cığırlarla hərəkət etmək;
7. Ətraf mühitin mühafizəsi üzrə proqramlara qoşulmaq;
8. Mümkün olan hər yerdə ətraf mühitin mühafizəsi metodlarından istifadə etmək;
9. Ətraf mühitin qorunmasınaköməklik göstərən təşkilatlarla əlaqələr saxlamaq;
10. Ekoturizm prinsiplərini dəstəkləyən şirkətlərin köməyilə səyahət etmək.

Bu qaydalar əsasında İngiltərənin "British Airways" aviaşirkətinin müştəriləri üçün aşağıdakı məzmunda yaddaş kitabçası hazırlanmışdır:

- Fil sümüyündən və ya nadir heyvanlardan hazırlanmış analoji məmulatları heç vaxt almayın;
- Yerli istehsal olan məhsul və xidmətlərdən istifadə etmək. Beləliklə də, Siz yerli əhaliyə gəlir gətirir və yerli iqtisadiyyatın inkişafına öz töhfənizi verə bilərsiniz;

- Heyvanları narahat etməyin və bitkilərə zərər verməyin. Həmişə Sizdən sonra çıxan zibili - butulka, banka, plastik və s. özünüzlə aparın, çünki onlar vəhşi heyvanların ölümünə səbəbə ola bilərlər;
- Mərcan rifləri ilə ehtiyatlı olun. Yadda saxlayın! Mərcan – canlı orqanizmdir və onu bir toxunuşla zədələmək olar;
- Bir çox ölkələr ətraf mühitin mühafizəsi istiqamətində işlər görürlər. Siz abidələrə, muzeylərə, milli parklara səyahət edərək onlara yardım göstərə bilərsiniz;
- Əgər ətraf mühitin mühafizəsi ilə bağlı problem ilə qarşılaşmısınızsa, bu problemlə əlaqədar öz fikrinizi irəli sürün;
- Canlı təbiət sakinlərini narahat edib, onların təbii həyat tərzini və yaşayış mühitini pozmayın;
- Qoruq və milli parklarda bitki örtüyünü zədələməmək üçün yalnız yol və şosse ilə hərəkət edin;
- Siqaret çəkərkən ehtiyatlı olun – söndürülməmiş siqaret yanğına səbəb ola bilər.

Nataşa K.Vard ekoturizmin mövcud təyinini passiv və aktivə ayırır. Birincilərin sırasına o, M.Mayyanın təyinini aid edir: «Ekoturizm yerli əhali və gələcək turistlər üçün sahənin (regionun) təbii ehtiyatlarını, yerli mədəni irsin qorunmasının vacibliyini diqqətə çatdıraraq, mədəni və təbii turizm ehtiyatlarının istifadəsini stimullaşdırır, koordinasiya edir və ona kömək edir». «Aktiv təyin» nümunəsi kimi Beynəlxalq yaşamaq cəmiyyətinin ideyaları xidmət edə bilər: «Ekoturizm ərazinin turistlər tərəfindən mənimsənilməsində yerli əhalinin maraqlarının əsas götürülməsini təqdir edir, yerli flora və faunanı müdafiə edir və ətraf mühiti qorumaqdan ötrü yerli əhalini iqtisadi stimulla təmin edir».

**Ekoturizm əlamətlərinin bütöv spektri aşağıdakı kimi səciyyələndirilir:**

- hər hansı səyahət zamanı səyahətçi ətraf mühiti öyrənir;
- səyahət zamanı təbiət əsas dəyərdir;



- ekoturizmdən gələn gəlirlər ətraf mühit mühafizəsinin maliyyə cəhətdən dəstəklənməsinə yönəldilir;
- ekoturistlər vəhşi təbiətin ehtiyatlarını qoruyan və ya bərpa edən hərəkətlərdə şəxsən iştirak edirlər;
- ekotur – bütün hərəkətlərin «ekoloji cəhətdən yumşaq» olduğu səyahətdir.

Ekoloji turizmin tipləri, məqsədi, əsas obyekti, təşkilati-hüquqi formaları, meyarları və əlamətlərini 27 aprel 1999-cu ildə Moskva şəhərində «Cənubi Moskva yaxınlığında turizmin inkişaf perspektivləri» mövzusunda keçirilən elmi praktik konfransda «Ekoturizm: təyinini, prinsipləri, əlamətləri, formaları» adlı çıxışında A.V.Drozdov da özünəməxsus formada göstərmişdir (sxem: 1, 2, 3, 4, 5).

Sxem 1




Sxem 2



Sxem 3




Sxem 4




Qeyd etmək lazımdır ki, yuxarıda araşdırılan variantlar ekoturizmin inkişafının dəqiq mahiyyətini almağa imkan vermir. Odur ki, BMÜTT ekspertləri turizm və ya ekoturizmin də aid olduğu «təbii turizm» (nature based tourizm) anlayışından istifadə edirlər. Maraqlıdır ki, anlayışlarda mövcud olan qarışıqlıq bəzi turfirmaları terminlərin istifadəsindən imtina etməyə məcbur etdi, belə ki, o müxtəlif istehlakçı qruplar tərəfindən müxtəlif cür başa düşülür.



Mənaca ekoturizmə oxşar olan digər terminlərin istifadə olunması ilə vəziyyət daha da ağırlaşır: «təbii turizm», «yumşaq turizm», «yaşıl turizm», «məsuliyyətli turizm», aqroturizm və s. Bununla əlaqədar olaraq Ekoturizm cəmiyyətinin prezidenti D.Vestern bəyanat vermişdir: «Turizm və ekoturizm arasında heç zaman kəskin fərq olmayacaq. Ekoturizm turist bazarına ən yaxşıları gətirən və bütün dünyada təqlid üçün nümunəvi sahə olub, qabaqcıl düşərgə kimi özünü təyin etməlidir».

Turun ekoloji əlamət və meyarları
(A.V.Drozdova görə)

Sxem 5



Markus Endikott göstərilən anlayışları aşağıdakı formada ayırmağı təklif etmişdir: «Əslində ekoturizm ətraf mühitə zəif antropogen təsirli səyahət və ya təbiətə təşkil olunmuş turdur. Hazırda yalnız nisbətən həqiqi ekoturizm və ya yalan ekoturizm haqqında danışmaq olar. Dayanıqlı turizmə gəldikdə isə termin kimi dayanıqlılıq BMT-nin Rio-de-Janeyrodakı konferansdan sonra əmələ gəlsə də, ideya kimi əlbəttə ki, o daha əvvəl meydana çıxmışdır. Markus Endikott yazır: - "Mənim fikrimə görə dayanıqlılıq ideyası nəticələrin yeddi nəsil əvvəlcədən proqnozlaşdırılması və planlaşdırılması olan və sanki bizim artıq orda olduğumuz doğma amerika konsepsiyasını yada salır. Mən dayanıqlı turizmi mədəniyyəti, ətraf mühiti birləşdirən geniş sahə kimi... nəhayət bütövlükdə turizm sənayesində maliyyə məsuliyyəti kimi görürəm. Odur ki, dayanıqlı turizmə həqiqi ekoturizmi və macəra turizm daxil olmalıdır. Biznes və ya industriya kimi turizm indi biznesin aparılmasının məsuliyyətli metodlarının rubrikası altına düşür və buradan da «məsuliyyətli turizm» termini yaranmışdır. İlkin olaraq məsuliyyətli turizm ideyası turizmin sosial və mədəni məsuliyyəti haqqında danışan xristian missionerləri və sosial aktivistlər tərəfindən istifadə olunmuşdur. Bu anlayışa ətraf mühitin (təbiətin) araşdırılması daxil edilmirdi. Mən isə turistin öz mədəniyyəti sərhədlərində səyahəti zamanı «sosial» termin, öz mədəniyyətindən kənarda səyahəti üçün isə «mədəni» terminindən istifadə etməyə üstünlük verirəm...» «Yaşıl turizm» termini daha çox siyasi mənşəyə malikdir və yaşıl partiyaların, siyasətçilərin və ictimai hərəkatların fəaliyyəti ilə bağlıdır".

Sonuncu izahla razılaşmaq çətindir, belə ki, əksər hallarda yaşıl turizm dedikdə kənd turizmi (aqroturizm) başa düşülür. Məsələn, İspaniyadan olan ekspert Montaner X.Montexano görə yaşıl turizmi «təbiətlə kontaktda keçən fəaliyyət, düşərgə və ya qəsəbələrdə həyat» kimi şərh edir. «Bu fəaliyyət kənd təsərrüfatı işləri ilə, kiçik qəsəbələrin həyatı ilə tanışlıqla, piyada



ekskursiyalarla, flora və faunanın öyrənilməsi ilə, çay idmanı ilə məşğuliyyətlə və digərləri ilə bağlıdır». Məsələn, İtaliyada aqroturizmin 3 istiqamətini ayırırlar: «təbiət və sağlamlıq», «ənənəvi qastrokomiya» və «idman». Ekoturizmlə daha çox kurort yerlərinin, qoruqların və milli parkların ərazilərində kənd yaşayış məntəqələrinin aid olduğu birinci istiqamət əlaqəlidir.

Ətraf mühit üzrə Kanada məsləhət şurası (Canadian Environmental Advisory Council) ekoturizmə öz təyinatını təklif etmişdir. O, həmin məsələyə müasir baxışları və yanaşmaları daha konkret birləşdirir, həmçinin ekoturizm təşkilatları tərəfindən geniş istifadə olunur.

«Ekoturizm – yerli əhalinin maraqlarına hörmətlə yanaşaraq ekosistemin qorunmasına öz töhfəsini verən və təbiətin dərk olunması ilə bağlı olan turizm növüdür».

Bütün araşdırılan variantları ümumiləşdirərək ekoturizmin üç əsas komponentini ayırmaq olar:

1) «təbiətin dərk olunması» yəni səyahətlə təbiət elementlərinin mövcudluğunun öyrənilməsi, turistlərin yeni biliklər, vərdişlər almasını nəzərdə tutur;

2) «ekosistemin qorunması» nəinki marşrutda qrupların müvafiq davranışını, həm də ətraf mühitin mühafizəsi üzrə tədbirlərdə, proqramlarda turoperatorların, turistlərin iştirakını nəzərdə tutur;

3) «yerli əhalinin maraqlarına hörmət» – təkcə yerli qanunlara və adətlərə riayət olunması deyil, həm də turizm bölməsinin sosial-iqtisadi inkişafında turizmə qoyulan vəsaitdir. Necə deyərlər, səyahətçi olmaq sənəti – yaxşı qonaq olmaq sənətidir.

Dünyanın müxtəlif regionlarında, xüsusən də dağlıq regionlarda təbiəti mühafizə tədbirlərinin aparılması təcrübəsi göstərir ki, işi «torpaqla yox, adamlarla» aparmaq lazımdır, yəni onların evinin və uşaqlarının gələcəyinin yaşayış mühitinin yaradılmasında və idarə olunmasında yerli əhalinin aktivliyini stimullaşdırmaq lazımdır.

Bu komponentlərin hər hansı biri olmazsa, o zaman ekoturizm haqqında danışmağa dəyməz.

Aşağıdakı cədvəldə ekoturizmin mahiyyətini müəyyən edən və çatışmayan cəhətləri verilmişdir.

**Ekoturizmin mahiyyətini müəyyən etmə və çatışmazlıqları**

| Ekoturizmin mahiyyətini müəyyən etmə | Çatışmazlıqlar |
|---|---|
| Bitki, heyvan növlərini, həmçinin yerli mədəniyyət nümunələrini müşahidə etmək, zövq almaq məqsədi ilə milli parklara və digər təbii obyektlərə baş çəkmə | Yerli əhalinin maraqları və ekosistem qorunması nəzərə alınmır |
| Təbiət haqqında bilikləri zənginləşdirən, ekosistemi qorumağa kömək edən, bu zaman təbii mühit sakinlərini toxunulmamış saxlayan dərkedici səyahət | Yerli əhalinin maraqlarının nəzərə alınmaması |
| Yerli əhalinin rifahını yaxşılaşdıran və təbiət obyektlərini qoruyan məsuliyyətli turizm | Turistlərin təbiəti dərk etməsini istisna edir |
| Vəhşi heyvanlar və yabanı bitkilərdən həmçinin mədəniyyət abidələrindən zövq almaq və tədqiq etmək məqsədilə nisbətən toxunulmamış yerlərə səyahətin daxil olduğu turizm | Ekosistem qorunur, yerli əhalinin maraqları nəzərə alınmır. |
| Mühafizə olunan ərazilərin uzunmüddətli müdafiəsi və idarə olunmasına kömək edən, adekvat menecment rejimində həyata keçirilən, dağıdıcı olmayan, nisbətən toxunulmamış təbii mühitə əsaslanan turizm | Yerli əhalinin maraqları nəzərə alınmır. |
| Ətraf mühitə həssas turizm | Yerli əhalinin maraqları və ekosistemin qorunması nəzərə alınmır |
| İqtisadi səmərə götürülməsi, eyni zamanda ekosistemə toxunmamaq, mədəniyyəti və təbiətin tarixini başa düşmək məqsədi ilə səyahət | Yerli icmaların maqaqlarının nəzərə alınması və ekosistemin qorunması yaddan çıxır. |



Bütün yuxarıda araşdırılan mənalar əsas suala cavab vermir: nə üçün məhz bu gün ekoturizm mövzusuna önəm verilir? Problem hələ 30 il əvvəl ortaya çıxmışdı və artıq o zaman turizm ehtiyatlarının səmərəli istifadəsinin vacibliyi haqqında danışırdılar. Bu turizm növünün digərlərindən prinsipial fərqi nədir? Bu suala cavab verməklə biz ekoturizmi necə və harada inkişaf etdirmək, kimə arxalanmaq, harada maneəni qarşılamaq lazım olduğunu anlaya bilərik.

Artıq yuxarıda qeyd olunduğu kimi «ekoturizm» termini alimlər, turizm analitikləri tərəfindən yox, marketoloqlar tərəfindən təklif edilmişdir, yəni ekoturizm ekotura tələbat göstərən turistlərin öz istehlakı nəticəsində meydana çıxmışdır. Əgər əvvəllər dayanıqlı inkişafla turistlərin təklifini formalaşdıran turizm təşkilatları (turfirmalar, turizm üzrə idarələr) məşğul olurdusa, lakin ekoturizm təbiətin, mədəni irsin öyrənilməsində və mühafizəsində yeni qrupların və ictimai istehlakın meydana çıxması, yəni tələb nəticəsində əmələ gəlmişdir. Beləliklə, ekoturizm – yeni, turoperatorların real təsirə iqtisadi cəhətdən daha çox malik olduğu niyyət formasıdır. Səyahət turizmi cəmiyyətinin sədri Ceyms Pirsonun fikri də təsadüfi deyildir: «Ekoloji məsuliyyətli turizm kimi qeyri-müəyyən terminləri istifadə edən adamlar praktikada turizmdən çox uzaqdır. Onlar sadəcə turistlərin təhlükəsizliyini təmin etmək, yerli əhali ilə gözəl münasibətləri qoruyub saxlamaq, sürücülərə, bələdçilərə haqq ödəmək, turist qruplarına xidmət etməklə asan olmayan bu çörəyi qazanmağın necə olduğunu təsəvvür etmirlər... Mübahisəsiz demək lazımdır ki, iqtisadiyyat – ekoturizmin ötürücü qayışıdır».

Beləliklə, bizim fikrimizə görə ekoturizmin mənası aşağıdakı kimi olmalıdır: «Ekoturizm yerli əhalinin maraqlarına hörmətlə yanaşaraq ekosistemin qorunmasında vəsaitlərin qoyulması və təbiətin dərk olunmasında turistlərin istehlakı ilə bağlı olan, turistlərin tələbatına əsaslanmış turizm növüdür».

Bütün bunları ümumiləşdirərək biz görürük ki, ekoturizmin hərəkətverici gücü – turbiznesdir. Ekoturizmin inkişafının aparıcı amilinin turizm ehtiyatları olduğu haqda təsəvvürlər tamamilə yanlışdır. Bu səhv hələ 1975-ci ildə rekreasiya coğrafiyası üzrə sovet alimlərinin əsərlərində göstərilmişdir. Ekoturizmi xüsusi mühafizə olunan təbii ərazilərin sistemi, turizm üzrə milli və regional idarələr vasitəsi ilə dövlət inkişaf etdirməlidir fikri də doğru deyildir.

Təəssüf ki, bəzi ekspertlər hələ də ekoturizm məsələsində yanılırlar və bu turizm növünün inkişafı üzrə öz layihələrini turizm üzrə regional idarələrə ünvanlayırlar. Belə işlərdə daha çox vəsaitlər, müxtəlif ekoturizm təşkilatlarının yaradılması layihələrinin maliyyələşdirilməsi üçün borc xarakteri daşıyır. Qonşu Rusiyanın regionlarında ekoturizmin inkişafı son nəticədə tez-tez müstəsna olaraq nəzəri müstəviyə keçir. Belə vəziyyətə misal olaraq Baykal gölündə ekoturizmin inkişafı üzrə birgə konfrans çərçivəsində ekoturizm üzrə almaniyalı və rusiyalı ekspertlərin görüşü xidmət etdi. Nəzəriyyəçi alimlərin konkret tətbiqi məsələləri araşdırmaqdan qaçması, «ümumiyyətlə» ekoturizm haqqında diskussiyaya çalışması tərəflərə ümumi dil tapmağa imkan vermədi.

Yuxarıda adları çəkilən mənaları nəzərə alaraq görmək olur ki, məhz turistlər və turbiznes ekoturizmi inkişaf etdirir. Təsadüfi deyildir ki, ekoturizm üzrə keniyalı ekspert Tereza Çerfas deyir ki, «ekoturizm – iqtisadi turizmdir», tələb və təklifə əsaslanır. Buna görə də ekoturizmin inkişafı heç də inzibati metodlarla yox, yalnız iqtisadi mexanizmlərin köməyi ilə mümkündür. Odur ki, söhbət büdcədən vəsait ayrılması haqqında xahişlərdən yox, turizm firmalarına, biznesmenlərə ünvanlanmış investisiya layihələri haqqında getməlidir. Əks təqdirdə biz bazar şəraitində işləmək qabiliyyətinə malik olan, güclü turizm sənayesi yerinə, ölkəmizdə turist müəssisələrinin inkişafını ləngidən, ziyanla işləyən müəssisələr əldə edəcəyik.



«Ekoturizmin» mənaları ilə məlumatlardan istifadə edərək ekoturist axınların coğrafiyasını və istiqamətini asanlıqla izah etmək olar. Çünki indi onların istiqaməti inkişaf etmiş ölkələrdən (ABŞ, Almaniya, Yaponiya, Böyük Britaniya) inkişaf etməkdə olan (Nepal, Hindistan, Pakistan) ölkələrə yönəlmişdir. Bu ideyanı işləyib hazırlayarkən ekoturizmin vətəni kimi ekoturistlərin ilk qruplarının əmələ gəldiyi, formalaşdığı yerləri hesab etmək lazımdır.

Buradan həmçinin aydın olur ki, nə üçün bizim ölkəmizdə daxili turizm növü kimi ekoturizm zəif inkişaf etmişdir. Belə ki, bizdə hələ həmin turizm növünə tələbat formalaşmamışdır, ekoturistlər çox azdır. Bizim həmvətənimiz olan turistlərin çox az bir hissəsi öz vəsaitini, vaxtını və gücünü ətraf mühitin mühafizəsinə sərf etməyə hazırdır. Bunun nəticəsidir ki, turist təklifi zəif inkişaf edir, daxili ekoturizmin azsaylı növünü isə çox vaxt dövlət vəsaiti hesabına maliyyələşən sosial turizmə aid edirlər.

### 1.4. Ekoturizmin növləri

Hazırda ekoturizmi və ekoturları dörd növə ayırırlar: 1.Elmi turizm, 2. Təbii tarixi tur, 3. Macəra turizmi, 4. Xüsusi qorunan təbiət ərazilərinə səyahət.

1. Elmi turizm. Turistlər elmi ekoturların gedişində təbiətin müxtəlif növlü tədqiqində iştirak edirlər, sahə müşahidələri aparırlar. Məsələn, Latın Amerikasında quşların davranışı üzrə müşahidə ilə bağlı olan, Sakit okeanda balinaların populyasiyalarının sayı ilə əlaqədar olan ekoturlar hamıya məlumdur. Adətən, belə qruplarda turist yerləri kimi xüsusi mühafizə olunan ərazilər çıxış edir: qoruqlar, yasaqlıqlar, milli parklar, təbiət abidələri. Elmi turizmə həmçinin xarici elmi-tədqiqat ekspedisiyaları, universitetlərin və institutların təbiət elmləri fakültələrində təhsil alan tələbələrin çöl praktikaları aid edilir.

2. Təbii tarixi turlar. Bu yerli mədəniyyəti və ətraf təbiəti dərk etməklə əlaqədar olan səyahətdir. Adətən, belə turlar xüsusi təchiz olunmuş ekoloji cığırlardan keçən, tədris, elmi-kütləvi və tematik ekskursiyaların məcmusunu özündə təmsil edir. Hər şeydən əvvəl onlar həmçinin qoruqların və milli parkların əraziləri üzrə təşkil olunur. Bura həm də hərəkət zamanı müəllimlərin, bələdçilərin təbiət haqqında ekskursiya və söhbət apardığı məktəblərin yürüşü də aiddir. Ekoturizmin bu növü daha çox Almaniyada məşhurdur. Bu səbəbdən də onu həm də «ekoturizmin inkişafının alman modeli» adlandırırlar.

3. Macəra turizmi. Bu növ idman nailiyyətlərinin qazanılması və turistlərin fiziki formalarının yaxşılaşdırılması, yeni hiss və təəssüratların alınması məqsədinə malik olan təbiətdə (out door) dincəlmək və aktiv üsullarla hərəkətlə bağlı olan bütün səyahətləri birləşdirir. Bura alpinizm, qayaya çıxma, buza çıxma, dağ və piyada turizmi, su, xizək və dağ xizəyi turizmi, kanon, at turizmi, mauntbayk, dayvinq və s. kimi turizm növləri aiddir. Bu turizm növlərindən çoxu yaxın keçmişdə əmələ gəlmişdir və ekstremal hesab olunur. Belə ki, böyük risklə əlaqədardır. Bununla belə o ən tez inkişaf edən, gəlirli lakin baha başa gələn ekoturizm növüdür. Macəra turizmini çox vaxt turistlərin macəra həvəsinin təbiəti mühafizə motivlərini burada üstələməyi ilə əlaqədar «ağır ekoturizm» adlandırırlar. Gələcəkdə ekoturizm haqqında danışdıqda biz həm də macəra turizmini nəzərdə tutacağıq.

Macəra turizmini çox vaxt turistlərin aktiv üsul adlanan üsulun köməyi ilə (piyada, velosipedlə, qayıqla, sal ilə və s.) yerlərini dəyişdiyi aktiv turizmlə və idman turizmi ilə (alpinizmlə və s.) eyniləşdirirlər. Əslində bu tam düzgün deyildir.

İdman turizmi yarışa getmək və ya idmanla məşğul olmaq məqsədi ilə səyahət kimi həm də səyahətlə əlaqədar olmayan, riskli turizm növlərini də özündə birləşdirir. Buna misal olaraq



təlim-məşq toplantısına yola düşən futbol komandasını və ya xaricdəki oyunlarda öz komandasının ardınca gedən azarkeş-fanatları göstərmək olar.

Eyni zamanda macəra turizmi aktiv hərəkət üsulu olmayan səyahət növlərini də özündə birləşdirir. Məsələn, cipinq – yüksək keçicilik qabiliyyətli avtomobillərdə dərə-təpəlik yerlərdə səyahət və ya BASE – xüsusi paraşütlə uçan aparatlardan, dik qayalardan, yüksək antropogen obyektlərdən (tağşəkilli körpülər, teleqüllə və s.) və ya dərinsulu ərazilərə tullanmalardır.

Hazırda dünya bazarında macəra turizmi (adventure tourism) sadəcə sərgüzəştlərlə dolu səyahət deyil, müstəsna olaraq turistlər üçün qeyri-adi elementləri olan turlardır. Eyni bir turoperator bazarın verilmiş hər hansı seqmentində xidmətin geniş spektrini: meşədə bayağı piyada gəzintidən Arktikaya ekspedisiyaya qədər təklif edə bilər.

Məsələn, aparıcı ingilis turoperatoru olan «Exodus» səyahət turlarının aşağıdakı növlərini təklif edir:

- Diskovery and Adventura Holiday – aktiv yerdəyişmə ilə planetin uzaq regionlarına səyahət;
- Europlan Destinations – piyada və ya velosipedlə hərəkət etməklə avropa ölkələrinin xüsusi mühafizə olunan təbiət ərazilərinə (XMTƏ) qısamüddətli baha olmayan turlar;
- Walkinq and Frekkinq – macəra turizminin əsas növüdür. Bu xüsusi ekoloji cığırla yükləri daşımadan (turistlərin yüklərini xüsusi yükdaşıyanlar əllərində və ya nəqliyyat vasitəsi ilə aparırlar) piyada səyahət yürüşüdür;
- Multi Aktivity Holidays – raftinq, kanoniq, speleologiya, qayaya dırmanmaq, balıq tutmaq, cippinqin daxil olduğu, bir həftəyə yaxın müddətə, əhəmiyyətli həcmdə fiziki iş nəzərdə tutan səyahətdir;
- Overland – yaşayış üçün yenidən xüsusi təchiz edilmiş yüksək keçicilik qabiliyyətinə malik olan yük avtomobillərində səyahətdir. Adətən, tur isti iqlimi olan ölkələrə (Afrika, Cənubi

Amerika, Cənub-Şərqi Asiya) təşkil olunur və turistlər bir səfər zamanı bir neçə ölkəyə gedirlər.

4. Xüsusi mühafizə olunan təbiət ərazilərinə, təbii rezervatlara səyahət XMTƏ-də olan nadir və ekzotik təbii obyektlərin və hadisələrin yüksək cazibədarlığı çoxlu turist cəlb edir. Məsələn, Latın Amerikasına gəlmiş turistlərin 48 %-i təbii rezervatlara səyahət etmək məqsədinə malikdir. Əksər milli parkların, qoruqların rəhbərliyi ekoloji ekskursiyanı əsl şouya çevirirlər. Nümunə kimi qeyzerlərin aktivlik dövrü ilə əlaqədar olan və davametmə müddəti dəqiqələrə görə hesablanmış, ABŞ-ın Yellostoun milli parkına təşkil olunmuş ekskursiyanı göstərmək olar. Təbii obyektlərin, xüsusən də mağaraların çox tez-tez nümayiş etdirilməsi aborigenlərin həyatından müxtəlif teatrlaşdırılmış səhnələri nümayiş etdirən, musiqi və altdan işıqlandırma ilə müşahidə olunur. Ekoturizmin bu növü daha çox Avstraliyada inkişaf etmişdir. Odur ki, onu "ekoturizmin inkişafının Avstraliya modeli" ilə eyniləşdirirlər.

### 1.5. Ekoturizm bazarının tutumu və inkişaf dinamikası

BMÜTT məlumatlarına görə 1993-cü ildə ekoturizmin payına bütün beynəlxalq səyahətlərin 7 %-i düşürdü, ümumdünya ehtiyatlar institutunun hesablamalarına görə isə dünya turizminin ümumi illik artımı zamanı səyahətə gələnlərin 4 % çoxalması ekoturizmdən gələn gəlirlərin dünyanın müxtəlif regionlarında hər il 10-30 % artması ilə nəticələnir. Ən yüksək göstəricilər Asiya-Sakit okean turizm regionu üçün xarakterikdir. Mütəxəssislərin fikrinə görə bütün beynəlxalq turistlərin 40 %-dən 60 %-ə qədəri ekoturizm mərkəzlərinə gəlir ki, onlardan da 20-40 %-i vəhşi təbiətin turizm ehtiyatları ilə tanış edilmişdir.

Eyni zamanda demək olar ki, elə həmin templə ovçuluq və balıqçılıq turlarının iştirakçılarının sayı artır. Məsələn, dünyanın



ən böyük ovçular təşkilatı olan Beynəlxalq safari klubuna (SCİ) hər il 500-ə yaxın yeni üzv daxil olur.

Dünya ekoturist bazarının böyümə dinamikası cədvəl 1 və -də göstərilmişdir.

Cədvəl 1

**Dünya ekoturizm bazarında beynəlxalq gəlmələrin artım dinamikası (mln. adam)**

| Göstəricilər | 1988 | 1994 | 2010 |
|---|---|---|---|
| Gəlmələrin ümumi sayı | 393 | 528,4 | 686,9 |
| Ekoturistlərin mənzil başına gəlib çatması | 157 | 211 | 274,3 |
| Ekoturistlərin vəhşi təbiətin bələd edilmiş yerinə gəlməsi | 79 | 106 | 137,8 |

Cədvəl 2

**Ekoturizmdən gələn gəlirlərin artım dinamikası (mld.dol. ABŞ)**

| Göstəricilər | 1988 | 1994 |
|---|---|---|
| Gəlmələrin ümumi sayından gəlirlər | 388 | 416 |
| Ekoturistlərin mənzil başına gəlib çatmasından gəlirlər | 93 | 166 |
| Vəhşi təbiətə bələd edilmiş turistlərdən gəlirlər | 47 | 83 |

ABŞ-ın Səyahətlər üzrə informasiya mərkəzinin məlumatlarına görə səyahət edən amerikalıların (8 mln.-a yaxın adam) 7 %-dən çoxu ən azı bir ekoturda iştirak etmişdir və 30 %-dən

çoxu bəyan etmişdir ki, yaxın üç il ərzində belə bir səyahət edəcəkdir. Beləliklə, 43 milyondan çox amerikalını ekoturist kateqoriyasına aid etmək olar. ABŞ-dan olan turistlər arasında aparılan tədqiqatlar göstərdi ki, onların 77 %-i ən azı bir dəfə öz məzuniyyətini təbiətlə, səyahətlə və ya digər xalqların mədəniyyətini öyrənməklə əlaqədar keçirmişdir. Məsələn, ABŞ-da ancaq Reynir dağına hər il 10000-dən çox turist gəlir. 1994-cü ildə 54 milyon amerikalı quşların müşahidəsində iştirak etmişdir ki, bu da 1982-1983-cü illərlə müqayisədə 157 % artım (21 mln.) deməkdir. ABŞ-ın XMTƏ-nə səyahət bu ölkəyə 14,2 mld. dollar ümumi gəlir gətirir və bu və ya başqa formada turizmlə əlaqədar olan 300 min iş yerini təmin edir.

Beynəlxalq ekoturizmdə işləyən ABŞ turoperatorlarının tədqiqatı 1987-ci ildə onların 78-indən yalnız üçü ildə 1000-dən çox müştəriyə malik olmuşdur. 1992-ci ilə təklifin artımı səksəninci illərin səviyyəsinin 125 %-ni təşkil etmişdir. 1994-cü ildə artıq 35 firma ildə 1000-dən çox beynəlxalq ekoturistə xidmət göstərmişdir, beş aparıcı firma isə ildə 49012 müştəri göstəricisi ilə bazarın 40 %-nə nəzarət etmişdir.

1980-1991-ci illərdə Nepalda trekinq turlarında iştirak etmiş turistlərin sayı 255 % artmışdır. Məsələn, 2000-ci ilin yazında Everest rayonunda 50-dən çox beynəlxalq ekspedisiya olmuşdur. Hər il Böyük Britaniya ekoturizmdən 200 mln. ABŞ dollarına qədər qazanc götürür. Koste-Rikada – dünyanın aparıcı ekoturist qəbul edən ölkəsində illik ekoturist gəlmələrin sayı 781 min nəfərə qədər artır. Ölkəyə gələn turistlərin 66 %-dən çoxu Xüsusi Mühafizə olunan Təbiət Ərazilərində səyahət edir. Hondurasda ekoturistlərin illik artımı 13-15 % təşkil edir. Keniyada 1983-1993-cü illər ərzində ekoturistlərin sayı 45 % artmışdır. Bu ölkəyə gələn turistlərin 80 %-dən çoxu təbii turizm ehtiyatlarına bələd olmaq arzusunda olmuşdur.



## 1.6. Ekoturistin marketinq biliyi

Məlumdur ki, turizm xidmətinin istehlakçısının marketinq biliyinin təyinatı turun seçilməsinin xarakterik psixoloji davranış və əsas aspektlərini ayırmağa imkan verir. Bu beş tərkib hissəni – məhsul, qiymət, yer, hərəkət, ictimaiyyətlə əlaqəyə görə turfirmaların marketinq strategiyasını dəqiq təyin etməyə imkan verir.

Beynəlxalq ekoturistin marketinq biliyinin tədqiqi Ekoturizm Beynəlxalq Cəmiyyətinin (TJES) sifarişi ilə «HLAHARA» amerika konsaltinq firması tərəfindən həyata keçirilmişdir. Nəticədə şimali amerikalı ekoturisti xarakterizə edən aşağıdakı məlumatlar alınmışdır:

- yaş – 35-54 yaşlarda, lakin orta göstəricidən müxtəlif kənaraçıxmalar mövcuddur;
- istehlakçıların cins tərkibi – 50 % qadınlar və 50 % kişilər;
- təhsili – ən azı kolleci bitirmişdir;
- səyahət üçün önəm verilən mühit – 60 % ikilikdə, 15 % ailəliklə, 13 % təkcə səyahət edir;
- turun önəm verilən davametmə müddəti – 8-14 gün;
- səyahətdə pul xərcləmək istəyi – qeyd olunmuşdur ki, ekoturistlər orta hesabla – 1-1,5 min ABŞ dolları, yəni adi turistlərdən daha çox pul xərcləməyə hazırdır;
- turun cazibədar elementlərinin mövcudluğu – vəhşi təbiət; canlı təbiətin öyrənilməsi; piyada gəzintilər, trekinq; yerli əhalinin tarixinin, mədəniyyətinin öyrənilməsi – bütün bunlar təcrübəli ekoturistlərin çox böyük marağına səbəb olur; səyahətə yollanmağa təhrik edən əsas səbəb – təbiət mənzərəsindən zövq almaq; yeni yerlərə olan həvəs, oranın dərk olunması.

Sonrakı tədqiqatlar müştərinin seçimini təyin edən ekoturun 3 ən vacib elementini ayırmağa imkan verdi: 1) gələcək səyahət rayonunun nadirliyi; 2) bələdçilərin mövcudluğu və peşəkarlığı; 3) aktiv istirahətin (gəzinti, piyada və atla keçidlər, idman turizmi ilə məşğul olmaq və s.) mümkünlüyü.

Yerli mədəniyyətlə maraqlanan ekoturistlər üçün qədim xarabalıqlara, muzeylərə getmək, yerli əhali ilə görüşmək imkanı da əlavə olunur. Təcrübəli ekoturistlərin 10 %-dən çoxu seçimin tərtibində ən vacib olanı bələdçilərin peşəkarlığı adlandırmışlar. Bu onunla əlaqədardır ki, turfirmaların müştərilərinin böyük əksəriyyəti onların getdikləri yerin təbiəti, mədəniyyəti və tarixi haqqında məlumatların çatışmazlığından şikayət edirlər.

Maraqlıdır ki, ekoturistlərin rekreasiya tələbatı çox tez dəyişir: yalnız 45 ekoturist özünün sonrakı səyahətini əvvəlki kimi keçirir. Qalanları isə yenilik, o cümlədən macəra axtarışına çalışır. Odur ki, turoperatorlar yeni turlar işləyib hazırlayarkən və təzə turistlər üçün düzəldilmiş proqramlar təklif edərkən müştərilərin təcrübəsinə həssas yanaşmalıdırlar.

Təcrübəli ekoturistlər adətən, su üzrə səyahətlərə böyük diqqət ayıraraq bir turda (trekinq, at keçidi, raftinq, kanoninq və s.) aktiv istirahətin bir neçə növünü uzlaşdırır.

Turistlərin yerləşməsi üçün vasitə seçiminə gəldikdə isə ekoturistlərin 40 %-i kənd yerlərində qalmağa, 27 %-i palatka düşərgələrə, 21 %-i rahat otellərə, 33 %-i digər otellərə üstünlük verir. Kanadanın Turizm Xidmətinin məlumatlarına görə macəra turizmində turistlərin 41 %-i kotteclərdə (şəhər kənarında birailəlik kiçik ev) və daxmalarda qalmağa, 40 %-dən çoxu isə – palatka düşərgələrdə və çadırda yaşamağa üstünlük verirlər.

## 1.7. Ekoturizmin inkişaf amilləri və proqnozları

Müxtəlif ölkələrin ekspertlərinin ideyalarını, beynəlxalq turizm təşkilatlarının proqnozlarını (BMÜTT, WTTC), beynəlxalq səyahətlərin dinamikasını təhlil edərək bütövlükdə müasir beynəlxalq turizmin və xüsusən də ekoturizmin inkişafında aşağıdakı tendensiyanı ayırmaq olar.

BMÜTT «Tourizm Vizion 2020»-nin proqnozlarına görə 2020-ci ilə beynəlxalq turist gəlmələrin sayı 1,6 milyarda qədər artacaqdır. 2000-ci ildə 702 mln. beynəlxalq turist gəlmələri gözlənilirdisə, 2010-cu ildə bu gözləntinin miqdarı 1,018 mld. 2020-ci ildə – 1,6 milyarddır olacağı ehtimal edilir. Bu isə 1996-cı illə müqayisədə (592 mln.) 3 dəfə çoxdur. Eyni zamanda yadda saxlamaq lazımdır ki, turizmin inkişafının milli uçot sisteminin unifikasiyası (vahid şəklə salınması) üzrə işlər hələ indi başlamışdır. Odur ki, göstərilən rəqəmlərə axırıncı variant kimi baxmaq olmaz. Lakin hətta indiki şəraitdə də bu sahənin inkişafının daha yaxşı proqnozu haqqında danışmaq olar.

Yaxın gələcəkdə turizmin ən perspektivli növləri kruizlər, ekoloji, macəra, dərketmə və mövzu turizmləri olacaqdır.

Bəzi müəlliflərin qeyd etdiyi kimi «turizm inkişaf etdikcə yeni turist peyda olacaq. Bu onu göstərir ki, haradasa dənizdə hər il öz məzuniyyətini keçirməklə məşğul olan ailə turizminin ənənəvi növü tədricən öz yerini yeni növlərə, məhz ekoturizmə, macəra və dərketmə turizminə verəcəkdir. Passiv istirahət dəbi keçib gedəcək, turist axınlarının oriyentasiyası dəyişməyə başlayacaqdır. Yüksək artım tempi dağlara getmək, həmçinin macəra və risk elementləri ilə zəngin olan səyahət üçün xarakterik olacaq».

Bir çox müəlliflər təqaüd yaşında (senorlar) turistlərin qrupunda turist xidmətinə olan tələbatın artmasını proqnozlaşdırırlar. Asudə vaxtın mövcudluğu, maddi firavanlıq, psixoloji və sosial gedonizm (həyatın zövq və səfa üçün yaranmış olduğunu iddia edən qədim yunan əxlaq nəzəriyyəsi) – bütün bunlar gələcək nəsillərə optimizmlə baxmağa imkan verir. Senyorların bir çoxu, xüsusən də ABŞ-dan, Almaniyadan və Yaponiyadan olanlar ekoturlarda iştirak edirlər. Bu ənənəni orta yaş həddi – 35-54 olan beynəlxalq ekoturistlər davam etdirir.

Beynəlxalq turizmin növ quruluşunda səyahətin davametməsinin 1995-ci ildə 24 % olduğu halda 2020-ci ildə 32 %-ədək artması proqnozlaşdırılır. Bu *zaman hər üçüncü turist* dünyanın başqa regionunun ayına düşəcək. Bu kütləvi

beynəlxalq ekoturizmdə hələ toxunulmamış dağlıq rayonlara, məsələn, Qafqaza marağı artıracaqdır.

Turizm və səyahətlər üzrə Beynəlxalq Şuranın yaydığı informasiyada qeyd olunur ki, gələcəkdə turizm milli və regional iqtisadiyyatların inkişafına böyük tövhələr verəcək, 100 mln. yeni iş yeri yaradacaq. Qeyd olunmuşdur ki, ekoturizm dünyanın geri qalmış rayonlarının dayanıqlı inkişafı və iqtisadi artımında ən təsirli alət olacaqdır. Bütün bunlar dağlıq ərazilərə də aiddir.

Yuxarıda sadalananları nəzərə alaraq ekoturizm dünya bazarının əsas inkişaf amillərini ayırmaq olar (Sxem 6)




**Sxem 6**

Ekoturizm dünya bazarının inkişafının müasir amilləri



## Yoxlama sualları və tapşırıqlar

1. Turizmin dayanıqlı inkişaf konsepsiyasının mahiyyətini xarakterizə edin.
2. Beynəlxalq turizmin inkişafının müasir tendensiyalarını sadalayın.
3. "Ekoturizm" anlayışının formalaşması tarixi necədir?
4. Ekoturizmi əsas təşkiledicilərin adlarını çəkin.
5. Beynəlxalq ekoturistin marketinq biliyini təsvir edin.

## İkinci fəsil

## Ekoturizmdə turoperatorluq (turist proqramlarının işlənib hazırlanması)

### 2.1. Turoperator anlayışı və onu təşkil edən amillər

"Turoperator" termin kimi leksikonda yaxın keçmişdə – 2001-ci ildə "E.N.İlinin " Turoperator: fəaliyyətin təşkili" kitabının nəşrindən sonra meydana gəlmişdir. Odur ki, hələlik bu terminin həyat qabiliyyəti haqqında danışmaq çətindir. Həmçinin həmin terminin təyinatının dəqiqləşdirilməsini gözləmək lazımdır. Lakin onun turoperatorların fəaliyyətinin əsası kimi mövcudluğunu inkar etmək mümkün deyil.

Turoperator biznesinin meydana çıxması kütləvi turist axınlarının formalaşmasının və turistlərə xidmətin çətinləşməsinin nəticəsi idi. Yuxarıda adı çəkilən kitabda bu belə izah olunur: "Öz xidmətini təklif edən təşkilatın, müəssisənin və firmanın, həmçinin müxtəlif tematik (mövzu) turların bu xidmətlərdən komplektləşdirilməsinin turist xidməti sahəsinə cəlb olunması – bütün bunlar spesifik biznesin – turoperator (turist proqramının işlənib hazırlanması) inkişafını tələb edirdi". Turoperator - turların komplektləşdirilməsi, turizm məhsulunun formalaşdırılması, hərəkətə gətirilməsi və satışı ilə məşğul olan turizm təşkilatıdır. Turoperator mövcud turist tələbatına uyğun olaraq və xidmət göstərənlərlə qarşılıqlı münasibət müqaviləsi əsasında turun komplektləşdirilməsi ilə məşğul olur. O turist marşrutlarını işləyib hazırlayır, turistlərə xidmət proqramını tərtib edir, turun satılması və hərəkəti üzrə kompleks tədbirlər təşkil edir. Turoperator əksər hallarda yerləşmə, nəqliyyat xidməti, qidalanma, rekreasiya fəaliyyəti və s. üzrə xidmətlərin topdan alıcısı kimi çıxış edir. Nəticədə o, fərdi, pərakəndə tariflərdən göstərilən xidmətlərə daha aşağı olan qrup tariflərinə malik olur.



Beləliklə, turistlər özbaşına turopereytinqlə məşğul olmadan, turoperatordan tur əldə edərək xeyli fayda əldə edə bilərlər. Turoperator xidmətləri ayrıca da sata bilər. Bu xidmətlərin satılmasını tam təmin etmək zəruri olduğu hallarda edilir. Belə ki, əmtəədən fərqli olaraq xidmətləri anbara yığmaq olmaz. Odur ki, məsələn, turoperator təyyarənin uçuş anına menecerdən satın aldığı bütün yerlərə biletləri satmalıdır. Turoperatorlar fəaliyyət növünə görə 2 yerə bölünürlər: 1) turistlərin ən çox getdiyi yerə çarter aviareyslə uçuşların daxil olduğu turları satan kütləvi bazar operatorları; 2) müəyyən coğrafi istiqamət üzrə və ya bazarın bir seqmentində işləyən ixtisaslaşmış operatorlar.

İxtisaslaşmış turoperatorlar aşağıdakı formalarda ola bilər:

- turizm növü üzrə turoperatorlar (məsələn, dağ-xizək və ya su və s.);
- istiqamət üzrə turoperatorlar (məsələn, İsveçrə və ya Avstriya üzrə və s.);
- bazar seqmenti üzrə turoperatorlar (məsələn, tələbələr və ya uşaqlı ailə cütləri üzrə və s.);
- xüsusi yerləşmə vasitələri üzrə turoperatorlar (məsələn, yataqxana və ya dağ sığınacağı və daxmalarda və s.);
- nəqliyyat üzrə turoperatorlar (məsələn, kruizlər və ya turist qatarları və s.).

Turoperatorlar fəaliyyət yerinə görə də bölünürlər:

- onların daxili bazarda satılması üçün öz ölkəsi, regionu üzrə turlar işləyib hazırlayan yerli (daxili) turoperatorlar;
- öz ölkəsindən turistlər üçün xaricə səfərlər təşkil edən səyyar turoperatorlar;
- xarici ölkələrdən gələn əcnəbi turistlərə qəbulda xidmət göstərən turoperatorlar.

Bundan başqa turoperatorları təşəbbüskar və qəbul edən olmaqla iki qrupa ayrırlar.

Təşəbbüskar turoperatorlar – onlar qəbul edən (reseptiv) turoperatorlarla və ya yerləşdirmə vasitəsi ilə müqavilə üzrə

digər regionlara və ya xarici turistləri göndərən operatorlardır. Turagentlərdən (turaqent - turoperator tərəfindən turların satışı, turizm məhsulunun hərəkətə gətirilməsi və satışı üzrə vasitəçilik fəaliyyəti göstərən fiziki və ya hüquqi şəxs) onları turopereytinq fərqləndirir. Həm də nəzərə almaq lazımdır ki, turun tərkibinə BMÜTT-nin normalarına görə ən azı üç xidmət (yerləşdirmə, nəqliyyat xidməti və hər hansı digər iki əvvəl göstərilənlərlə birbaşa əlaqəsi olmayan) daxil olmalıdır. Klassik təşəbbüskar turoperator turistlərin gəldiyi müxtəlif yerlərdə yerli turoperatorların və ya mehmanxana, ekskursiya və digər təşkilatların xidmətlərindən onları komplektləşdirərək mürəkkəb turlar formalaşdırır. O, həmçinin turistlərin səyahətin başladığı yerə və geriyə çatdırılmasını təmin edir, onları daxili nəqliyyat marşrutuna təqdim olunmasını təşkil edir.

Qəbul edən turoperator xidmətlə təchiz edənlə birbaşa müqavilədən istifadə edərək turistlərin qəbulu və xidmət göstərilməsi yerinə tur və xidmət proqramını komplektləşdirir.

Turfirmalar tez-tez təşəbbüskar və qəbul edən turopereytinqin funksiyalarını birləşdirir. Bu, təşkilat beynəlxalq getmə və gəlmə turizmində ixtisaslaşanda baş verir.

Turoperatorlar turagentliklər (turaqentlik - turizm və ekskursiya yollayışlarının satışı, habelə turizm - ekskursiya fəaliyyətinin təşkili üzrə (informasiya, reklam, marketinq və s.) digər xidmətlər göstərilməsi ilə məşğul olan vasitəçi təşkilat) və turistlər üçün ayrı-ayrı xidmətləri təklif edənlər və ya turistlər arasında mövqe tutur. Faktiki olaraq onlar nəinki turist tələbatına cavab verərək turları – təklifi formalaşdırır, həm də turistlərə xidmətin yeni formalarını və səyahətin yeni istiqamətlərini yetirmək yolu ilə tələbatın formalaşmasına təsir edir.

Əgər istehlakçı (turist) və turist xidmətləri ilə təchiz edənin (mehmanxana, restoran, bələdçi, muzey və s.) qarşılıqlı təsir sxemini onlar arasındakı kommunikasiyaların səmərəliliyi nöqteyi-nəzərdən təhlil etsək, o zaman onlar arasında çoxlu sayda vasitəçilər problemi olduğu aydın olacaq. Xidmətin keyfiyyəti haqqında turistlərə verilən informasiyanın yanlış olduğu labüd olacaq. Odur ki, turistlərə və təchizatçılara reklam prospektləri, internetin köməyi ilə səyahətin təşkili üçün lazım olan məlumatların alınması məsələsində yaxınlaşmağa çalışması zəruridir.



**Sxem 7**

**Beynəlxalq turların bazar iştirakçılarının qarşılıqlı təsir sxemi**

Qəbul edən tərəf Göndərən tərəf




## 2.2. Ekoturların layihələndirilməsi

Ekoturizm ölkəmizin turist firmaları üçün yeni biznes növüdür. Yeni bazarın «işğalının» cəlbedici perspektivi heç də həmişə uğursuzluq qarşısında qorxu hissi üzərindən aşıb keçmir. Bu daha çox kiçik və orta operatorlara aiddir. Hətta iqtisadi cəhətdən firavan və sabit olan Avstraliyada hər il 30000-ə qədər turfirma ləğv olur. Turizm biznesində uğursuzluğun 6 əsas səbəbi müəyyən olunmuşdur:

1) maliyyə menecmentində olan problemlər;

2) bazarın və firmanın xarici mühitinin qeyri-sabitliyi, inflyasiya;

3) uçotda olan çatışmazlıqlar;

4) marketinqdə olan problemlər;

5) insan resurslarının idarə olunmasındakı problemlər;

6) xarici məsləhətləşmələrin qeyri-düzgün istifadə olunması.

Bunlardan savayı ailə turfirmalarında tez-tez emosional xarakterli problemlər meydana çıxır.

Göründüyü kimi ölkəmizdə fəaliyyət göstərən turfirmalar üçün səmərəli işə, təcrübəyə və menecmentdə və marketinqdə ehtiyatlara malik olan, yalnız təcrübəli operatorlar üçün turist bazarının bu yeni seqmentinə çıxış məqsədəmüvafiqdir. Belə firmaların menecerləri üçün yeganə mürəkkəb moment marşrutda və ondan kənarda turistlərə birbaşa xidmət olunması və ekoturist məhsulunun işlənib hazırlanmasıdır. Həmin moment sonra ətraflı araşdırılacaq.

Ölkəmizdə mövcud olan standartlara uyğun olaraq turist-ekskursiya xidmətlərinin turlarının layihələşdirilməsi turistlərin sorğusu ilə müəssisələrin imkanlarının uyğunlaşdırılması əsasında aparılır.

Layihələşdirilən turist xidmətlərinə olan tələblər məcburi və tövsiyə xarakteri daşımaqla iki yerə bölünür. Məcburilərə həyat təhlükəsizliyi tələbləri, turistlərin sağlamlığı, onların əmlakının qorunması və ətraf mühitin mühafizəsi aiddir. Tövsiyə olunan tələblər – bu təyinata uyğunluq, icranın dəqiqliyi və öz vaxtında olması, kompleksliyi, estetikliyi, erqonomikliyidir. Turistlərin nöqteyi nəzərincə onlar çox vacibdir. Odur ki, onları daha ətraflı araşdıraq.

Təyinata uyğunluq – xidmət istehlakçının gözləntilərinə və fiziki imkanlarına cavab verməlidir. Təsəvvür etmək çətindir ki, məhdud fiziki imkanları, xroniki xəstəlikləri olan adamlar beş min metr yüksəkliyə qalxmağı və ya gün ərzində 20 kilometrdən



çox kələ-kötür yerdə olan məsafəni qət etməyi bacarar. Odur ki, turoperatora ekoturistlərin fiziki hazırlığına olan tələblərin siyahısını tərtib etmək lazımdır.

İcranın dəqiqliyi və öz vaxtında olması – həcminə və müddətinə görə təqdim olunan xidmətlər müqavilədə və proqramda əks olunmuş xidmətə, yol vərəqəsinə, vauçerə (turizm vauçeri - xarici turistlərə xidmət göstərilməsi və firma ilə qarşılıqlı ödəmələr aparılması üçün əsas olmaqla, turun tərkibinə daxil olan xidmətlər üzərində turistin hüququnu müəyyənləşdirən və xidmətlərin göstəriləcəyi faktını təsdiq edən sənəd) və s. uyğun olmalıdır. Bu onu göstərir ki, nəqliyyat da qida kimi vaxtında verilməli və xidmət səviyyəsinə uyğun gəlməlidir. Mehmanxana müqavilədə müəyyən olunmuş kateqoriyadakı kimi olmalı və bircə ulduz da əskik olmamalıdır, ekskursiyalar isə tam həcmdə aparılmalıdır.

Komplekslik – təqdim olunan xidmətlər ekoturistlərin həyat fəaliyyəti üçün normal şərait yaradan digər xidmətlərin alınması imkanını təmin etməlidir. Məsələn, dağdakı sığınacaqda yerləşməyə görə xidmətlərə qidanın hazırlanması (mətbəx, qaz, peç) daxil edilməli, marşrut üzrə turistlərin yerdəyişməsi isə bədbəxt hadisədən əziyyət çəkənlərin və ya xəstələnənlərin köçürülməsi, daşınması üzrə xidmətlər göstərilmədən mümkün deyildir.

Xidmətin etikaya uyğunluğu – ekoturistə başqalarına nümunə olacaq bələdçilər və işçi heyətin nəzakətliyi, mehribanlığı, işgüzarlığı təmin olunmalıdır. Əgər bələdçilər özləri plastik paketləri, sarğı kağızını hara gəldi atırlarsa, o zaman ekoturistlərdən onların yaddaş kitabçasındakılara əməl edəcəklərini gözləmək çətindir.

Rahatlıq – istənilən turizm növü, hətta ekstremal növlər belə hər şeydən öncə istirahətdir. İstirahət zamanı isə ən azı minimum rahatlıq olmalıdır.

Estetiklik – ekoturist marşrut estetik cəhətdən ən cazibədar, gözəl mənzərəli və ekskursiya görüntülü maraqlı obyektləri olan yerlərdən keçməlidir.

Erqonomiklik – turistlərə təqdim olunan ləvazimatlar, avadanlıqlar onların istismarı zamanı imkanlarına görə ən son modellərə uyğun gəlməlidir. Əgər turistlər istifadə etməyi bacarmırlarsa, onlara radiostansiya verməyə ehtiyac yoxdur. Eyni zamanda onlara verilən ayaqqabı, paltar, kiçik xalça döşənək, yatmaq üçün kisələr, kürək çantası turistlərin fiziki ölçülərinə uyğun olmalıdır.

Layihə sənədləşməsi turizm bazarının və tələbinin marketinq tədqiqatına, ekoturistlərə xidmət texnologiyasının təyinatına və təsvirinə, qanunvericiliyə uyğun olaraq ətraf mühitin mühafizəsinin, turistlərin əmlakının və sağlamlığının, bütövlükdə həyatının təhlükəsizliyinin tələblərinə əsaslanmalıdır.

Turist tələbatının marketinq tədqiqinin strukturu aşağıdakılardır:

1. Gələcək turizm xidmətləri istehlakçılarının seqmentləşdirilməsinin əsaslandırılmasına giriş.

2. Təsvirinin də daxil olduğu seqmentin xarakteristikası (qruplararası heterogenlik, homogenlik, ölçülmə qabiliyyəti, həcmlik, turfirmalar üçün əlverişlilik, mənimsəmənin mümkünlüyü və s.).

3. Geodemoqrafik əlamətlərə görə (estetik cazibədarlıq, nadirlik, ekzotiklik və s.) turistlərə nümayişdən ötrü təbii obyektlərin istehlakçılar üçün seqmentləşdirilməsi, məsafədən limitləşdirmə nəzəriyyəsinə uyğun olaraq nəqliyyat əlverişliyi, dünyanın və ölkələrin müxtəlif regionlarından olan turistlərin davranışındakı eynilik (şablonluq), cins, yaş xarakteri, yaşayış yeri və ailə tərkibi və s.

4. Sosial-iqtisadi əlamətlərə görə seqmentləşdirmə: gəlirlərin səviyyəsi; sosial statusu; peşəsi; təhsilinin səviyyəsi; müxtəlif təşkilatlarda üzvlük və s.



5. Psixoloji-davranış əlamətlərinə görə seqmentləşdirmə: rekreasiya tələblərinin xarakteri; daha yaxşı hesab edilən istirahət tərzi; dəbdə olan turist xidmətlərinə və rayonlarına münasibət; turlara və xidmətlərə tələbatın intensivliyi və s.

6. Tədqiq olunan seqmentdən ekoturistin marketinq biliyi.

7. Turizm xidmətindən (xidmətin keyfiyyəti, dəyəri, xidmətin göstərildiyi yer, qrupun ölçüsü, ekskursiya xidmətinin xarakteri və s.) ibarət olanlar üzrə tərkibində nəticələr, turun planlaşdırılması (işlənib hazırlanma mərhələləri və müddətləri, turist xidmətləri ilə təchiz edənlər və s.) reklam kompaniyalarının təşkili (seqmenti əhatə edən KİV-ə göndərmələrin siyahısı; reklam əlaqələrinin vaxtı və tezliyi, reklam təqdimatları sxemi və s.) olan xülasə.

Layihələşdirmənin əsasını həmçinin E.N.İlin tərəfindən təklif olunmuş, tərkibində aşağıdakıların yer aldığı turistlərə xidmətin şifahi modeli təşkil edir:

- ekoturistlərə xidmətin proseslərinin, forma və metodlarının təsviri və xarakteristikası;
- istifadə olunan avadanlıqların, ləvazimatların tipinə, miqdarına və xidmət göstərmək qabiliyyətinə tələblər;
- işçi heyətin zəruri miqdarı və onların peşə hazırlığının səviyyəsi;
- turistlərə xidmətin zəmanəti;
- turizm ehtiyatlarının mülkiyyətçiləri, sanitar-epidemioloji nəzarət orqanları, Fövqəladə Hallar Nazirliyi və Ekologiya və Təbii Sərvətlər Nazirliyi ilə razılaşma.

Turun layihələndirilməsi zamanı yekunda düzgün və tam doldurulması üçün aşağıdakılar olmalıdır:

- turist səyahətinin texnoloji xəritəsi;
- turizm xidməti göstərən müəssisə – təchizatçıların iş qrafiki;
- turist yollayışına əlavə olunan məlumat vərəqi;
- turistlərə xidmət proqramı.

Sonda həmçinin xidmətin ekoturistlərin gözləntilərinə uyğun gəlməsini, xidmətin keyfiyyətinə nəzarət metodlarını qabaqcadan nəzərə almaq lazımdır. Praktikada ən çox yayılan vizual (turfirmanın ekspertləri tərəfindən marşruta, mehmanxanaya, nəqliyyata, ekskursiya nümayişi obyektlərinə baxış), analitik (xidmət təchizatçılarının təqdim etdiyi sənədlərin, prospektlərin, menyuların və s. təhlili) və sosioloji (turun eksperiment kimi həyata keçirilməsindən sonra turistlərin sorğusu və anketləşdirilməsi, işçi heyətin sorğusu) metodlardır.

Ekoturların layihələşdirilməsinin bəzi mərhələlərini dağ macəra turizmi əsasında araşdıraq. Bu materialın əsasında Alp dağlarında ekoturizmin inkişafı üzrə alman firmasının təcrübəsi durur.

Turun formalaşmasının əsas şərti üçdür: 1) təbii turizm ehtiyatları (dağlar); 2) məqsədli auditoriya; 3) turizm sənayesi müəssisəsi (nəqliyyat, yerləşmə vasitəsi, qidalanma, bələdçilər, xilasedicilər, reyncerlər (səyyahlar) və s.).

Birinci mərhələdə seçilmiş ərazidə ekoturizmin inkişafının təbii ehtiyatlarını qiymətləndirmək lazımdır. Belə qiymətləndirmənin texnoloji aspekti müxtəlif mövsümlərdə turistlərin fəaliyyətinin ən perspektivli növlərini ayırmağa imkan verir. Məsələn, relyeflə uzlaşan dayanıqlı qar örtüyü dağxizək turunun qışda inkişafına imkan verir. Yayda isə buzlaqlarda və qayalıqlarda qayaya və buza çıxmaq mümkündür.

Bu mərhələnin yekunu – ekoturist fəaliyyəti rayonlarının və marşrutlarının xəritə-sxemlərinin tərtib olunmasıdır. Bundan sonra təbii ehtiyatların fizioloji qiymətləndirilməsi aparılır. Təhlükəli və əlverişsiz hava şəraiti, onların təkrarlanma dərəcəsi təyin olunur. Burda da turistlərin çox yüksəkliyə uyğunlaşması proqramı işlənib hazırlanır və marşrutlar qruplaşdırılır. Ayrı-ayrı hallarda qrup və fərdi ləvazimatlı səyahətlər üçün lazımi siyahı formalaşdırılır.



Sonrakı mərhələyə turistlərin fiziki hazırlığına olan tələblərin işlənib hazırlanması daxildir. Trekinq turları və təbii tarixi turlar zamanı dağa səyahətə həkimin sadəcə icazəsi və gün ərzində 8-12 km piyada getmək qabiliyyətinin olması kifayətdir. Macəra turizminin ekstremal növləri iştirakçıların fiziki, texniki və mənəvi hazırlığına daha ciddi tələblər irəli sürür.

Turun formalaşmasının üçüncü mərhələsi – ən çox tutumlu və məsuliyyətlidir. Turizm xidmətinin «bir paketə» yığılması üzrə operatorun adi, vərdiş etdiyi iş məhz burdan başlayır. Turun proqramına nəinki onun ümumi davametmə müddəti və uzunluğu, həm də istirahət üçün yer, yüksəklikdə bir yerə yığılma, relyefin mürəkkəbliyi göstərilməklə günlər üzrə hərəkət qrafiki daxil olmalıdır. Turistlərin gəlməsi üçün nəqliyyat növünün seçilməsi qrupların və transfertin (əcnəbi turistlərə xidmət edən zaman turist formallıqlarının keçilməsi ilə bağlı mürəkkəblikləri də nəzərə almaq lazımdır) qarşılanmasının təşkilinin mürəkkəblikləri, müntəzəm və çarter sərnişin xətlərinin imkanları ilə diktə olunur.

Marşrut üzrə turist daşımaları üçün nəqliyyat Xüsusi Mühafizə Olunan Təbiət Ərazilərinin müdiriyyətinin təbiəti mühafizə tələbləri, nəqliyyat təşkilatlarının imkanları, yol-cığır şəbəkəsinin inkişafı nəzərə alınmaqla seçilir. Məsələn, ABŞ-da bütün təbii rezervatlar çox gözəl avtomobil yolları ilə əlaqələndirilmişdir. Çin, Nepal, Keniya kimi digər ölkələrdə ciplər istifadə olunur. Elbrus dağı ətrafında mikroavtobuslar, Cənubi Amerika (Akonkaqua) dağında atlar nəqliyyat vasitəsi rolunu oynayır.

Yerləşmə vasitəsinin seçimi konkret dağ rayonunda qonaqpərvərlik müəssisələri sənayesinin inkişaf səviyyəsi nəzərə alınmaqla təyin olunur. Bu həm dağ otelləri, həm də dağda sığınacaqlar və çadır düşərgələri ola bilər.

Turistlərin yükünün nəqliyyatla və ya yükdaşıyanlarla (parterlərlə) çatdırılması mümkünlüyünü nəzərə almaq, turist-

lərin və onların əmlakının sığortalanmasının münasib sxemini seçmək də vacibdir.

Yol bələdçisi (gidin) –seçilməsi turun formalaşdırılmasının olduqca mühüm mərhələsidir. O, hər şeydən əvvəl marşrutu yaxşı bilməli və orada qrupun təhlükəsizliyinə zəmanət verməlidir. Bundan başqa bələdçi incə psixoloq və mehriban insan olmalıdır. Qrupun əhvalını duymaq bacarığı, xoşrəftarlıq və turistlərə təkəbbürsüz münasibət – bələdçi əsas peşə vərdişidir. Onun üçün yerli əhali ilə yaxşı münasibətə malik olmaq, əcnəbi turistləri müşayiət edən zaman isə tərcüməçi kimi çıxış etmək bacarığı çox vacibdir. Əlbəttə ki, o yerli əhalinin mədəniyyəti, səyahət rayonunun təbiəti haqqında biliklərə malik olmalı və gözəl hekayəçi, ekskursiya rəhbəri olmalıdır. Bir çox avropa ölkələrində dağ bələdçiləri –xüsusi assosiasiyada birləşmişdir. Bələdçi sertifikatı almaq üçün pedaqogikanı, dağ relyefinin müxtəlif formalarını keçmək texnikalarını, ilk tibbi yardım və həkiməqədərki vərdişlərin nümayişini, geologiyanı, iqlimi, rayonun flora və faunasını, əcnəbi dilləri bilmək üzrə dövlət imtahanı (test) verməli və bələdçi məktəbi tədris kursunu bitirməsi zəruridir. Bir bələdçinin payına düşən turistlərin sayı marşrutun mürəkkəbliyi nəzərə alınaraq təyin olunur. Trekkinq turlarda onların sayı bir yol bələdçisinə 5 nəfərdən 20 nəfərədək ola bilər.

### 2.3. Bələdçilərin qonaqlarla işləməsi

Bələdçilər tərəfindən qruplara xidmət onların öz turistləri ilə görüşməsindən xeyli əvvəl başlayır. Hər şeydən əvvəl müəyyən məqsəd üçün qabaqcadan ayırma vərəqindən alınmış məlumatlar əsasında ona turistlərin milliyyətini və ailə vəziyyətini, qrupun cins-yaş strukturunu təhlil etmək lazımdır. Bu qonaqların önəm verdiyi mədəniyyəti və mətbəxi, onların mentalitetini, fiziki imkanlarını təyin etməyə imkan verir. Bəzi turistlərin ad günü-



nün səyahət müddətinə düşməsi də tamamilə mümkündür. Belə ki, xaricdə tez-tez macəra turunda iştirakçı turistlərin yubileyinə hədiyyə edirlər. Odur ki, turfirmanın təbriki və kiçik hədiyyəsi həmin firma haqqında yaddaşlarda yaxşı xatirə kimi qalır və onu şöhrətləndirir. Bu səyahət zamanı turistlərə verilmiş kiçik suvenirlərə də aiddir: döş nişanları, kepkalar, dağ rayonunun və firmanın simvolikası olan futbol köynəkləri və s. Xarici ölkələrdə həmçinin turistlərə onların təbiəti mühafizə proqramlarında, zirvəyə qalxmada, ekspedisiyada iştirakı haqqında sertifikat təqdim etmək qəbul olunmuşdur.

Gəldiyi hava limanında qrupu qarşılayarkən avtobusun sürücüsü ilə daşıma proqramını razılaşdırmaq lazımdır. Turoperatorun ingilis dilində adı yazılmış lövhəcik hazırlamaq və qonaqların gəlməyini gözləmək gərəkdir. Onlarla turist formallıqları keçildikdən sonra bütün qrupu yığmaq, özünü təqdim etmək, gəlib çatmaqları münasibəti ilə hamısını təbrik etmək və firmanı seçdiyinə görə təşəkkür etmək zəruridir. Sonra siyahı üzrə iştirakçıları yoxlamaq və onlara öz yüklərini almaqda köməklik göstərmək lazımdır. Turistlərin həmişə kriminal elementlərin və dilənçilərin diqqət mərkəzində olduğu nəzərə alaraq onları bu barədə xəbərdar etmək lazımdır.

Avtobusa minib hava limanından uzaqlaşan zaman ilk növbədə ölkədə turistlərin davranışının əsas təhlükəsizlik qaydalarını onların yadına salmaq vacibdir. Uçuşdan sonra qrupun yorğunluq dərəcəsindən asılı olaraq daşımanı avtobus ekskursiyası ilə birləşdirmək olar. Əcnəbi qruplar üçün turistlərin gəldiyi ölkənin dilində səyahət regionunun yerləşdiyi ölkənin haqqında informasiya olan kaset hazırlamaq kifayətdir. Kasetə baxdıqdan sonra bələdçi meydana çıxan suallara cavab verir.

Dayanacaq zamanı və mağazalara girəndə bələdçi turistlərə alacaqları şeyin seçilməsində və onun qiymətinin hesablanmasında öz köməyini təklif edə bilər. Bu zaman qrupu avtobusun yola düşməsi vaxtı barədə xəbərdar edirlər. Belə ki, qrupun bir

yerə vaxtında gedib çıxmaması başqa bir proqramda nəzərdə tutulmuş tədbirin pozulması ilə nəticələnir.

Bələdçilərdən biri otelə çatan kimi qonaqların yerləşdirilməsi ilə məşğul olur, digəri isə onların yüklərinin boşaldılması və avtobusun sürücüsü ilə hesablaşmanı həyata keçirir. Bələdçi turistlərin harada və kiminlə yaşadığını, turistlər isə bələdçini istənilən anda harada tapmaq lazım olduğunu bilməlidir. Qonaqlara həmçinin bar, diskoteka və restoranın harada yerləşdiyini göstərmək lazımdır.

Turistlər gəldiyi gün şam yeməyindən sonra bələdçi ilə qrupun «tanışlıq axşamının» təşkil olunması qəbul edilmişdir. Turistlərdən onların dağ təcrübəsi haqqında soruşan kimi bələdçiyə özü haqqında danışmağı xahiş edirlər. Sonra turun proqramı və qarşıdakı günün proqramı haqqında ətraflı danışılır. Paltar, ayaqqabı və ləvazimatların seçilməsi ilə əlaqədar məsləhət vermək lazımdır. Xüsusən də səhər qrupun toplanması yeri və vaxtına diqqəti cəlb etmək çox vacibdir. Müxtəlif içkilər, günəşdən müdafiə kremləri və eynəkləri kimi mühüm xırdalıqları da yada salmaq lazımdır.

Adətən bələdçinin iş günü saat $6^{00}$-dan $23^{00}$-dək uzanır. O, qrupu marşrutda aparır, hər bir turistin davranışına nəzarət edir, qidalanmanı və istirahəti təşkil edir, rayonun mədəniyyəti, tarixi, təbiəti haqqında danışır, marşrut haqqında yerli əhalidən və qarşılaşdıqları qruplardan soruşur, havanın dəyişməsini proqnozlaşdırır və daha çoxsaylı digər əməliyyatları yerinə yetirir. Bələdçi peşəsi ağır, yorucu və məsuliyyətli işdir. Eyni zamanda o, çox maraqlı, vacib, lazımlı işdir. Belə ki, bələdçi turistlərə nəinki istirahət etməyə, güclərini bərpa etməyə, həm də öz dünya görüşlərini genişləndirməyə, çoxlu maraqlı bilgilər, vərdişlər almağa, bəzən isə daxili qorxunu və sədləri, psixoloji diskomfortu (rahatsızlığı) aşıb keçməyə imkan verir.



## 2.4. Turizm xidmətinin menecment keyfiyyəti

Ölkəmizdə ekoloji və macəra turizmi sahəsində turoperatorların fəaliyyəti sertifikatlaşdırılmalıdır. Belə olan halda dövlət keyfiyyətli xidmətin minimal şəraitinə riayət olunmasına nəzarət edir. (İşçi heyətin müvafiq hazırlığı, lazımi avadanlıqların mövcudluğu, firmanın turizm qanunvericiliyinin tələblərinə riayət etməsi və s.).

Qeyd etmək lazımdır ki, turistlərin keyfiyyətli xidmət hüququ və ətraf təbii mühitə qayğı ilə yanaşmaq öhdəliyi Azərbaycan Respublikasının «Turizm haqqında» Qanununun müvafiq maddələrində təsbit olunmuşdur.

Əcnəbi ekoturist firmalarda keyfiyyət dedikdə turistlərin gözlədikləri xidmət səviyyəsinə uyğunluq başa düşülür. Bu gözləntilərin yerinə yetirilməsi aşağıdakıları nəzərdə tutur: istehlakçının nə gözlədiyini dəqiq bilmək; rəhbərliyin tələb etdiyi keyfiyyət standartı haqqında turfirmanın işçi heyətinin məlumatlı olması və onların mühafizə edilməsində işçilərin özlərinin rolu haqqında xəbərdar edilmək; işçilər keyfiyyət standartlarına uyğun gəlməyən əlamətləri və əməlləri dəqiq bilməlidirlər.

Nə qədər ki, turizm xidməti, qonaqpərvərlik hər şeydən əvvəl turistlər və işçi heyət arasında insani münasibəti nəzərdə tutur, onda çox vaxt xidmətin keyfiyyəti işçilərin peşəkar hazırlığından və mənəvi keyfiyyətindən asılıdır. Restoranların, otellərin və turfirmaların texniki təchizatı çox vaxt oxşar olur. Odur ki, müasir rəqabət şəraitində işçi heyətin daimi peşəkar inkişafı müvəffəqiyyətin yeganə şərtidir.

Təşbehlərlə danışsaq, işçi heyət ürəkdən inanmalıdır ki, yalnız «keyfiyyətin diktaturası» firmanı turbiznesin lideri etməyə qadirdir.

Məsələn, «Nioqara Nature Fours» müntəzəm olaraq pedaqoji təcrübəyə malik olan, yəni insanlarla işləməyə qadir olan və onlara təbiət haqqında danışmağı bacaran: elmi işçilər,

müəllimlər və s.-dən, öyrənilməsi asan olan insanlardan seçərək öz bələdçiləri üçün ixtisası artırma kursları təşkil edir.

Turizm xidməti təchizatçılarını seçən zaman (oteli, restoranı, yükdaşıyanı və s.) həmçinin xidmətin keyfiyyətinə onların münasibətini nəzərə almaq lazımdır. Bişməmiş və soyuq kabab bələdçiyə, turoperatora turistlərin iddia qaldırmasına səbəb ola bilər. Halbuki onların bu konfliktdə praktiki olaraq heç bir günahı yoxdur. Ölkənin dağlıq rayonlarında və kənd yerlərində olan mehmanxanalarda yerlərin saxlanma vəziyyətinə xüsusi diqqət ayırmaq lazımdır. Mehmanxanalar ən azı uyğunluq sertifikatına malik olmalıdırlar. Çox vaxt böyük olmayan, lakin yeni və rahat xüsusi mehmanxanaya müraciət etmək 20 il əvvəl tikilmiş böyük oteldən daha sərfəlidir.

Ekoturizmin turizmin digər növlərindən əsas fərqi odur ki, bələdçi və qrupu müşayiət edən təbiətin mühafizəsi işində turistlərin müəllimi rolunu yerinə yetirir. Beləliklə, onlar izah edə bilərlər ki, öz rahatlığın ön plana qoyan qonaqların ənənəvi davranışı ekoturlarda qəbuledilməzdir. Burada təbiətin mühafizəsinin xeyrinə rahatlığı qurban vermək lazımdır. Təcrübəli ekoturistlər rahatlıqlarının məhdudlaşmasına və «çöl» həyat şəraitinə asanlıqla razılaşırlar.

Məsələn, «Earth Rhythms» şirkəti öz müştərilərinə onlar gələnə qədər rahatlığın məhdudlaşdığı siyahını təqdim edir. Bu qonaqların kompaniya tərəfindən müvafiq və gözlənilən mədəni və ekoloji davranışının əsasını qoymağa, həmçinin yeni gələnlər arasında rahatlıq haqqında yalan təsəvvürlərin qarşısını almağa imkan verir.

«Espirit Raftinq» şirkətində deyilir: «Bizdə müştərilər üçün rəsmi «davranış norması» yoxdur, lakin onlar əvvəlcədən səfər zamanı spirtli içkilərin və narkotiklərin tələb olunmasına qadağa haqqında xəbərdar olunurlar. Biz xahiş edirik ki, bizim qruplar «bizim turistlərlə problemin bir hissəsi yox, təbiəti mühafizə probleminin həllinin bir hissəsi» olsunlar, xüsusən bu ekoloji



cəhətdən mübahisəli məsələ olan yeməkdən sonra üzvi qalıqların və bütün zibilin kiçik hissələr halında hər yana atılması yox, onların toplanmasına aid olduqda bizimlə olsunlar. Bu «davranış normalarının» bir çoxu həyat nümunələrində formalaşmışdır. Bu, bizim fikrimizcə, əslində ekoloji cəhətdən məsuliyyətli turistləri bizə cəlb edir».

Əlbəttə ki, ekoloji və macəra turlarının iştirakçılarının davranışında əhəmiyyətli fərq müşahidə olunur. Sonuncular təbiətə münasibətdə özlərini daha xudbin aparırlar. Çox vaxt onlar təbiətin çirklənməsinin minimuma endirilməsinin vacibliyini dərk edirlər, lakin öz vaxtlarının, xüsusən rahatlıqlarının bir hissəsini qurban verməyə hazır deyillər ki, ekoturistlərin ümumi işinə öz töhfələrini versinlər.

Ekoturizmdə xidmətin keyfiyyəti həmçinin təbiətin mühafizəsinin və dərk olunmasının öyrənilməsinin keyfiyyətini və yerli əhalinin mədəniyyətini nəzərdə tutur. Lakin, yadda saxlamaq lazımdır ki, ekoturistləri öyrədərkən biz uşaqlarla yox, öz nəzər nöqtəsi olan yaşlı adamlarla iş görürük. Odur ki, adi öyrətmə metodları (mühafizə, monoloq və s.) və müəllimlik burada qəbul edilməzdir. Ekoturistləri zəhlə aparmadan, həyatdan gözəl nümunələr gətirərək öz şəxsi təcrübələrindən çiyrəndirməmək lazımdır.

Məsələn «Niaqara Nature Yours» şirkətində turistlərin praktiki qarşılıqlı təsiri və nəzəri təhsilini birləşdirən, humanitar və təbii fənlərin daxil olduğu, ekoturistlərin öyrədilməsi proqramını işləyib hazırlamışlar:

- hekayəçilərin, musiqiçilərin, yerli artistlərin və öz ənənəvi sənətlərini nümayiş etdirmək üçün sənətkarların muzdla tutulması;
- çöl şəraitində müştərilərə görəcəklərindən aldığı təəssüratı gücləndirmək üçün informasiyalı, şəkilli, diaqrammalı, məxsusi işlənib hazırlanmış laminasiyalı kartoçkaların istifadəsi;

- gözəl fon yaratmaq üçün heyvanların, quşların yazılmış səslərinin istifadəsi;
- sərgilərdə və müzakirələrdə təbiət nümunələrinin istifadəsi;
- turistləri çox cəlb edən, birgə şəkil çəkdirmək üçün imkan verən, yırtıcı quşları nümayiş etdirmək üçün lisenziyası (xüsusi icazəsi) olan yerli qızılquşların muzdla tutulması.

Bütün bunlar öyrənənlərlə müəllimlər arasında qarşılıqlı təsiri gücləndirir. Nümayişin sonunda turistlərə aldıqları bilikləri möhkəmləndirmək üçün reklam vərəqələri, bukletlər, müxtəlif regional orqanların ətraf mühitin mühafizəsi üzrə kitabçalar (broşyuralar) verirlər.

Bələdçilər yaşlı ekoturistlərlə öz iş prinsiplərini aşağıdakı şəkildə şərh edir: «Zəhmət olmasa təklif olunan informasiyaya xüsusi diqqət verin. Biz öz işimizi sevsək də çalışırıq ki, qruplara mühazirə oxumayaq, onun yerinə müxtəlif vəziyyətləri bizim həyatımızın nümunələrində izah edirik. Məsələn, biz torpağın, ana suxurun və üzümün çeşidli nümunələrinin şəkillərinin də daxil olduğu şərab zavoduna ekskursiya zamanı slaydlar göstəririk. Sonra qrupu dequstasiya zalına aparırıq və müxtəlif şərabların dadma baxmağa icazə veririk. Bundan sonra biz birbaşa üzümlüklərdə nümunə göstərərək üzümün bu və ya digər növünün becərilməsinə torpağın təsirini izah edirik və sonra üzümün harada becərilməsindən asılı olaraq onların dadına baxdıqları şərabın dadma görə fərqini izah edirik. Bu metod insanlara özünün bütün təcrübəsini, bütün hissələrini istifadə etməyə imkan verir».

Xidmətin keyfiyyətinə qrupda bələdçilərin və turistlərin say nisbəti də böyük təsir göstərir. Təcrübə göstərir ki, bu aparılan ekskursiyanın mürəkkəbliyindən və marşrutun çətinliyindən asılıdır: macəra turizmində – 1:1 (1 bələdçi – 1 turist), lakin orta hesabla 1:5; təbiətin tarixi turlarında və elmi turizmdə – 1:10-dan 1:20-yə qədər; təbii rezervatlarda (milli parklarda, qoruqlarda) səyahət üçün – 1:8.



Beləliklə, ekoturizmdə tədrisin və turistlərə xidmətin keyfiyyəti bir-birindən birbaşa asılıdır. Məsələn, «Warner Guidinq» şirkətində təsdiq edirlər ki, «vəhşi öz fəaliyyət istirahəti, kempinq və s. hələ ki, inkişaf edir, bizim müştərilərimizə təklif etdiyimiz təlimi biz özümüzün rəqabətdə üstünlüyümüz hesab edirik. Baxmayaraq ki, yaxşı yeməklər, xoşrəftar bələdçilər, yaxşı atlar və səyahətin maraqlı ssenarisi həmişə çox vacibdir və özfəaliyyət turizmini mütəşəkkildən fərqləndirir».

## 2.5. Ekoturistlərin istirahət tələblərinin öyrənilməsi

Turistlərdən sorğu vərəqələrində soruşdurda ki, onlar nəyə qarşı özlərində kin hiss edirlər, sualı tərtib edənlər çox vaxt turoperatorun nəzarətində olmayan: hava, qiymətlər və elektrik şəbəkəsindəki gərginlik, teleaparatura, yaz selləri və s. aid olduğu digər «xırdalıqlar» kimi şeyləri nəzərdə tuturlar.

«Waldens Guidinq Outfittinq»-də bu vəziyyəti belə şərh etdilər: «Düzünü desək, bizdə, bizim müştərilərin xoşuna gəlməyən heç nə yoxdur. Bizdən heç kim heç vaxt narazı qalmayıb və bizim bir çox müştərilərimiz bizdə səyahət sifariş etməkdən ötrü vaxtaşırı qayıdırlar».

Burda qeyd etmək yerinə düşər ki, turizm və qonaqpərvərlik üzrə aparılmış tədqiqatların nəticələrinə görə daimi müştəriləri saxlamaq üçün çəkilən xərclər yeniləri cəlb etmək üçün olanların 20 %-ni təşkil edir.

Alıcıların xoşuna daha çox nəyin gəldiyini soruşduqda operatorlar uzun və rəngarəng cavab variantlarını ortaya gətirirlər. Bəziləri təsdiq edir ki, bu gözəl təbiət və keyfiyyətli xidmət proqramı idi; digərləri – əməkdaşların ştatının, qidanın, təchizatın, rahatlığın, uşaqlara diqqətin olduğunu söyləyirlər. Təcrübəli operatorlar qonaqlarının nə istədiyini və onların xoşuna nəyin gəldiyini yaxşı bilirlər və bütün gözlənilənləri ötməyə çalışaraq öz adlarını doğrultmağa çalışırlar.

## Amerikanın böyük turoperatorları ilə turistlərin nəyi üstün tutmalarının tədqiqinin nəticələri

| Turoperatorun adı | Aşkara çıxarılmış üstünlük |
|---|---|
| «Bereal Wilderness Guides» | «Onlar işçi heyətin çox yaxşı öyrəndiyi nəzakət qaydalarını, peşəkarlığı, ekologiyanı əla bilməyi, yalnız 1 sinif ləvazimat və ancaq Kanadada tapılması mümkün olan ən nadir turları sevirlər». |
| «Smoothwater Outfitters» | «Yoxlamadan keçmiş 1 sinif ləvazimat. Bizim işçi heyət yaxşı təlim alıb və biz gördüyümüz işi diqqətlə təhlil edirik. Bizim qidalarımız çox yaxşıdır. Bizim verdiyimiz sözü yerinə yetirməyimizi müştərilər yüksək qiymətləndirir. Onlara həmçinin bizim ekosistemi mühafizə etmək öhdəliyimiz və proqramların müxtəlifliyi xoş gəlir». |
| «Ocean Explorations» | «Kiçik qruplar» |
| «Biq Sand Lanc Lodge» | «Qonaqlar tez-tez bizim işçi heyətin səmimiliyini qeyd edirlər. Onlar həmçinin bizim özümüzün tikdiyimiz Cahadian Wilderness şəhərciyinin təqdim olunan imkanları ilə təəccüblənməkdə davam edirlər». |
| «Smootrwater Outfitters» | «Müştərilərə bizim balaca, rahat evciklər və dostcasına xidmət xoş gəlir». |
| «Mountain Quest» | «Müştəriləri onların praktikada təcrübə qazanmaq faktı cəlb edir. Əslində onlara 99,9 % turistin heç vaxt arzulamadığı belə təcrübəni aldığı turun bu xüsusiyyəti xoş gəlir. Çoxları həmçinin turistlərin yığınından qaçmaq istəyir». |
| «Remote Passages» | «Müştərilərə bizim maarifləndirici proqramlar, təhlükəsiz turlar və təqdimatlar xoş gəlir». |
| «Quoddy Link Marina» | «Müasir, yaxşı təchiz olunmuş rahat gəmi; çeşidli məşğuliyyət (kitlərin müşahidəsindən savayı özünün onun bığcıqlarına toxunmaq |



| | |
|---|---|
| | imkanı); bizim hekayət bəzəyən «mühüm əhəmiyyətli detallar (hisə verilmiş qızıl balıq, qlintveyn - ədviyyat və şəkər qatılaraq çaxırdan hazırlanan isti içki, binokl)». |
| «Expeditions Ean Vive» | «Avadanlığın keyfiyyəti (biz ən yaxşı palatkalardan, çadırdan, hava döşəyindən, kanoedən və s. istifadə edirik); menyu (biz yerli qidaların dadına baxmaq istəyən əcnəbi müştərilərin gözləntilərini, turistlərin enerji tələbatını nəzərə alırıq), bizim fəlsəfəmiz (biz öz qonaqlarımızı məşq zamanı ilhama gətiririk ki, onların arzuları həyata keçsin)» |
| «Earth Rhythms» | «Uşaqların nəzərinə: ekoturizmdə vacib olan suvenirlər, nadir yerləşmə, landşaftın gözəlliyi, təlimdə ustalıq və anlaşıqlı təqdimat, tam xidmət paketi» |
| «Sosiete Duvetnor» | «Bizim göstərdiyimiz təbiətin guşələrinin gözəlliyi, xidmətin keyfiyyəti, təklif olunan məhsulun qeyri-adiliyi, yerləşmə və nəhayət məhdud sayda gələnlər üçün xarakterik olan, heç bir şeylə müqayisə olunmayan komanda ruhu və özünü xüsusi müştəri hiss etmək». |
| «Lazy M ranch» | «Bizim müştərilərə özünü bizim ailənin bir hissəsi kimi dərk etmək xoş gəlir. Onlar özlərini evdəki kimi hiss edir. Ona görə də bu onlara kanada fermalarının necə işlədiyini anlamağa kömək edir». |

Bir çox turoperatorlar qeyd edir ki, müxtəlif ölkələrdən olan qonaqların həvəsi və qabaqcadan əmələ gəlmiş yanlış fikri kəskin fərqlənir. «Wilderness Spirit»in göstərdiyi kimi «avropalılar vəhşi təbiətə üstünlük verir və tənhalığı qiymətləndirirlər; onlar böyük yırtıcı ilə qəflətən qarşılaşmaqda maraqlı və təşviş içərisində olurlar. Onlar həmçinin piktroqrafiya (şəkillər vasitəsi ilə ifadə edilən ən qədim yazı üsulu) və ya kanada aborigenlərinin olması haqqında hər hansı digər dəlillər tapmaqda çox maraq-

lıdırlar. Kanadalıların macəra turlarına böyük həvəsi var. Onlar kandar üzrə kanoedə üzməkdən çoxlu zövq alırlar».

Eyni zamanda turoperatora xidmətdəki öz çatışmazlıqlarını ayıq başla qiymətləndirmək lazımdır. Güclü turoperator həmişə özünün zəif tərəflərini bilir və onların təkmilləşdirilməsi üzərində işləyir. Məsələn, «Wilderness Spirit»də marketinqdə öz təcrübəsizliklərini hiss edirlər, Manitobedə kanoedə gəzintinin mümkünlüyü haqqında çox az adamın bildiyini və turizmin bu növünün təhlükəsizliyinin artmasını bu zaman qeyd edirlər. Vəziyyəti düzəltmək üçün onlar xarici məsləhətləşmədən istifadə edirlər.

## 2.6. Qonaqlarla informasiya əlaqəsi

Nümunəvi turoperatorlar özləri üçün aydınlaşdırdılar ki, qonaqların ehtiyacının ödənilməsi – biznesdə müvəffəqiyyətin açarıdır. Bunun üçün turfirmanın imkanlarını və müştərinin arzusunu dəqiq şərtləşdirmək lazımdır.

Bunu gələnlərə təqdim olunan broşüraların nəşri hesabına etmək olar. Orada: turun proqramı və davametmə müddəti, lazımi təchizat, qidalanmanın və yaşayışın detalları və s. göstərilir. Səyahət zamanı özünlə nəyi götürməyin lazım olduğu yazılmış tövsiyələrin əks olunduğu yaddaş kitabçası həmin broşüraya əlavə kimi xidmət edə bilər. Bütövlükdə hələ səfər başlayana qədər tur haqqında belə ətraflı informasiyanın təqdim olunması çox faydalıdır.

Hazırlanmış videomateriallar və ədəbiyyat realist olmalı və turun məhsullarını düzgün göstərməlidir. Materialda bunlar olmalıdır:

- aktiv istirahətin mümkün növləri;
- təlim üzrə təqdim olunan xidmətlər;
- həmin regionun təbii ehtiyatlarının cazibədarlığı;
- regionun infrastrukturunun inkişaf səviyyəsi;



- qrupun ölçüsü, yerləşdirmə vasitələrinin tutumu;
- yerli əhaliyə və təbiətə zərər vurulmasının qarşısının alınması üzrə tövsiyələr (davranış qaydaları).

Məsələn, «Voyageur Quest» şirkətində turistlərə kompaniya haqqında danışılan) turun hər bir günü qeydlər aparılan, turistlərin ən çox verdiyi sualların cavabları olan, müxtəlif məsləhətlərin yer aldığı broşüralar təklif olunur. Həmçinin onlara məxsusi sorğularla müştərilərin qidalanma xüsusiyyətləri, allergik reaksiyası, fiziki uyğunluğu haqqında suallar olan qeydiyyat formaları və səyahət regionunu öyrənmək üçün tövsiyə olunan ədəbiyyatın siyahısı verilir.

Belə yanaşma həddən artıq dəqiq görünsə də, yalnız o, müştəriyə maksimum informasiya almağa imkan verir.

«Sawyer Lake Adventures» şirkətində nəinki belə bir broşüranı buraxıblar, həm də qarşıdakı turdan qonaqların gözləntiləri haqqında suallar olan xüsusi anketləri müştərilərə paylayırlar ki, bu da müştərilərin fərdi arzuları nəzərə alınmaqla proqramı daha yaxşı layihələndirməyə imkan verir.

«Fresh Fracks» şirkətində bütün müştərilərə yola düşməzdən 70 gün əvvəl qarşıdakı tur haqqında ətraflı məlumatları və onunla əlaqədar olan tövsiyələri paylayırlar, uçuşa 3-5 gün qalmış isə hamısına zəng edirlər. «Biz müştəriləri çoxlu informasiya ilə təchiz etmək və onların səyahətini asanlaşdırmaq istəyirik. Çox vaxt biz onlara nəqliyyat təqdim edirik, lakin bu müqavilədə şərt kimi olmasa da, onları təəccübləndirmək bizim üçün xoşdur» - deyə firmada belə hesab edirlər.

«Smoothwater Ouffitters» şirkətində müştərilər tur haqqında bütün zəruri informasiya ilə dolu paket alırlar: tövsiyə olunan paltarların siyahısı və xüsusi avadanlıq, sığorta forması, sorğu kitabı və xəritələr və s. Turistlərdən tibbi arayış təqdim etmək, qidalanma xüsusiyyəti və allergiyanın olması haqqında xəbərdarlıq etmək tələb olunur. Onlar təlimatçılarla

(bələdçilərlə) hazırlıq toplantılarında iştirak edirlər və yükün yığılması üzrə tövsiyələr alırlar.

«Nahanni River Adventures» şirkətində çox hissəsi əvvəlcədən hazırlığa həsr olunmuş və müvafiq ədəbiyyatlara istinad edən, 200-dən çox səhifəsi olan böyük veb-sayt yaratmışlar.

Səyahətdən sonra da turistlərlə əlaqə saxlamaq çox vacibdir. Yenidən müraciət etməyə müştərini inandırmaq – əksər kompaniyaların almaq istədiyi nəticədir. Bunun üçün isə təkcə müştəriyə keyfiyyətli xidmət yox, həm də tur qurtardıqdan sonra onunla həmişə əlaqə saxlamaq lazımdır.

«Timberline Tours» şirkəti öz turistlərinə milad günü münasibəti ilə səyahət haqqında gözəl xatirə kimi açıqcalar və fotoşəkillər göndərir, «Sawyer Lake Adventures» şirkəti adətən qeyri-adi hədiyyələr vasitəsi ilə, məsələn, böyük ağ bayquşun (əgər bu quş tur zamanı turistlərin marağına səbəb olmuşsa) lələyini göndərərək əlaqə saxlayır. «Ekstre» dağ klubunda bələdçilər tur qurtardıqdan sonra turistlərlə öz şəkillərini mübadilə edirlər və gələcək marşrut barədə müştərilərlə məsləhətləşirlər.

«Bathurst İntel Lodge»şirkətində turistlərlə 30 ildən çox yazışaraq müştərilərin 25-30 %-nin yenidən onlara müraciət etmələrinə nail olmuşlar. Bu zaman qonaqlara nə lazım olduğunu da özləri üçün anlamışlar. «Fərdi əlaqə və daimi xidmət. Yerləşdikləri vasitələrin sahibləri ilə fərdi ünsiyyətin mümkünlüyü və bu yerin gözəlliyi, həmçinin işgüzar ləyaqəti ləkələnməmiş peşəkar – səyahətçilərlə ünsiyyət faktı və tədrisin mümkünlüyü onların xoşuna gəlir» - həmin firmanın nümayəndələri belə hesab edirlər.

Qonaqların şikayətləri ilə işləmək bacarığı da çox əhəmiyyətlidir. Burada formal yox, həqiqi qayğı nümayiş etdirmək lazımdır.



«M və W Guides» şirkətində müştərilərin bütün şikayətləri araşdırılır. Onlara yazılı formada cavab verilir və müştərinin nəticədən razı qalıb-qalmadığını yoxlayırlar.

«Boreal Wilderness Guides» şirkətində əvvəlcə qeyrət nümayiş etdirərək şikayətdə qeyd olunan problemləri həll etməyə çalışırlar. Sonra isə ardıcıl olaraq ilkin dəyərini azaldaraq 50 % güzəştlə turlar təklif edirlər.

Təşəkkür etməyə gəldikdə isə, o zaman, məsələn, «İnside Out» şirkətində müştərilərə müsbət rəy yazılmış məktublara görə telefonla təşəkkür edirlər və reklam məqsədi üçün onlardan sitat kimi istifadə etməyə icazə istəyirlər.

Geriyə əlaqənin hər hansı növünə müştərilərin həvəsini oyatmaq lazımdır: diskussiyalar, rəy kitabları, menecerlərin və xidmətçi heyətin daimi görüşləri, agentlər vasitəsi ilə geriyə əlaqə, pres-relizlər, müxtəlif tədqiqatlar, məktublara cavablar və müştərilərin zəngləri.

Bununla əlaqədar olaraq qonaqlardan onlarla məktub və fotoqrafiya alan «Voyagwur Quest» şirkətinin təcrübəsi maraqlıdır. Bütün məktublar ofisin divarında asılmışdır, fotoşəkillər isə xüsusi albomda saxlanılır. İlin axırında fotoqrafiya müsabiqəsi keçirilir. Qalib gələni 4 günə qədər müddətə pulsuz putyovka (yollayış) gözləyir.

### Yoxlama sualları və tapşırıqlar

1. «Turopereytinq» anlayışının mahiyyətini açın.
2. Layihələşdirilən turist xidmətinə hansı tələblər irəli sürülür?
3. Bələdçinin qonaqlarla işi nədən ibarətdir?
4. Ekoturistlərin rekreasiya tələbatı haqqında danışın.
5. Turoperatorların qonaqlarla informasiya əlaqəsi necə həyata keçirilir?

# Üçüncü fəsil

# Ekoturistlərin xidmət menecmenti

## 3.1. Ekoturistlərin yerləşdirilməsinin təşkili

Ümumdünya Turizm Təşkilatı gecələmək üçün turistlərə mütəmadi və ya epizodik olaraq yer təqdim edən hər hansı obyekt kimi yerləşmə vasitələrini təyin edir. Yerləşmə vasitələri kollektiv və fərdi olmaqla iki yerə bölünürlər (Cədvələ bax).

**Ekoturistlərin yerləşmə vasitələrinin standart təsnifatı**

| Yerləşmə vasitəsinin kateqoriyası | Dərəcə | Qrup |
|---|---|---|
| Kollektiv | Mehmanxana və analoji müəssisə | Mehmanxanalar |
| | | Dağ otelləri |
| | | Turbazalar |
| | | Ovçu və balıqçı evi |
| | İxtisaslaşdırılmış yerləşmə vasitələri | Turist sığınacaqları |
| | | Alpdüşərgə (alpinist düşərgəsi) |
| | | Turist dayanacaqları |
| | Digər kollektiv yerləşmə vasitələri | Stasionar çadır düşərgəsi |
| | | Baza düşərgəsi |
| | | Gecələmə yeri |
| Fərdi | Fərdi yerləşmə vasitələri | Xüsusi yaşayış sahəsi (bağ evi, ev) |
| | | Ailəvi evlərdə icazə olunan otaq |
| | | Şəxsi adamlarda və ya agentlikdə icazə verilən yaşayış sahəsi |
| | | Qohumların və ya tanışların pulsuz təqdim etdiyi yerləşmə |
| | | Fərdi əsasda (avtofurqon, çadır və s.) digər yerləşmə növləri |

Kollektiv yerləşmənin fərqi ondan ibarətdir ki, onlarda yerlərin sayı müəyyən minimumdan çox olmalıdır, obyektin



vahid rəhbərliyi olmalıdır, idarə etmə isə kommersiya əsasında qurulmalıdır.

Kollektiv yerləşmə vasitələrinə ümumi tələbat (o cümlədən ixtisaslaşdırılmış) xüsusi dövlət standartının tərkibində olur.

Mehmanxanalar – adi turistləri yerləşdirməyin əsas klassik tipi olub, ekoturizmdə bir qədər fərqlidir. Yerləşmə vasitəsi kimi mehmanxanaların əlamətləri – ayrıca nömrələrin olması, standartlara uyğun zəruri xidmətlər dəsti (otağın təmizlənməsi, mələfələrin dəyişdirilməsi, yataqların yığışdırılması, qiymətli əşyaların, yükün saxlanması, müştərini təyin olunmuş vaxtda oyatmaq, nömrəyə qəzetlərin çatdırılması və s.) və əlavə xidmətlər.

Dağ otelləri – binanın arxitekturası, əlavə xidmətlər dəsti ilə fərqlənir. Məsələn, Niderlandda səyahət edən turistlər bürünc dövrün kənd həyatında vaxtı qısaldaraq Lelistadda ağsaçlı qocalığı hiss edə bilərlər, Anmendə torfdan tikilmiş komada gecələyə bilərlər. İrlandiyada bəzi otellər qədim qəsrlərdə yerləşmişlər, Qütb dairəsi arxasında olan İsveçin Yukkasyarvi şəhərciyində hər il buzdan və qardan restoranı, kiçik kilsəsi, kinoteatrı və sərgi zalı olan mehmanxana kompleksi «Arktik Holl» tikilir.

Riu-Neqru çayının Amazonka çayına töküldüyü yerdə «Arou Canql Tauer» oteli yerləşmişdir. Onun nömrəli ağac gülləsi böyük bir ağacın üzərində yerləşmişdir. Ən yüksək – «Aşiq Tarzan» qülləsi yerdən 60 m yüksəyə qaldırılmışdır. Mehmanxananın bu cür yerləşməsi inşaatçıların, arxitektorların, ən başlıcası – turistlərin Amazonka çayının təbiətinə qayğıkeş münasibəti ilə izah olunur. Tikinti zamanı bir dənə də olsun ağac kəsilməmişdir. Bundan savayı, qüllə altındakı ərazi yağışlar dövründə 15-20 m su ilə dolur.

İxtisaslaşdırılmış yerləşmə vasitələri mehmanxanadan təqdim olunan məcburi və əlavə xidmətlərin minimum dəsti, nömrələrin və kotteclərin (şəhər kənarında bir ailəlik kiçik ev)

azacıq rahatlığı, həmçinin daha çox müəyyən turist kateqoriyalarına (balıqçılar, ovçular, alpinistlər, «su» turistləri, yerli əhalinin mədəniyyətini və təbiəti tədqiq edənlər və s.) xidmətlə fərqlənirlər. Təqdim olunan xidmətlərin siyahısı birbaşa göstərilən şəxslərin ehtiyacları ilə bağlıdır. Alpinistlər üçün – dağ marşrutlarının təsviri və ləvazimatların kirayəsi, balıqçılar və ovçular üçün – ovun bölünməsi üçün alətlər, ov itlərinin saxlanması, patron alınması, ləvazimatların təmiri və s. Burada avtoturbazaları da misal göstərmək olar. Belə ki, adi turbazadan fərqli olaraq onlar əsasən avtoturistlər üçün təyin olunmuşlar və avtomobil dayanacağına, avtoyuyucuya, avtomobillərin texniki baxışı və təmiri üçün yerə malikdirlər.

İxtisaslaşdırılmış və digər kollektiv yerləşmə vasitələrinin növlərini dağ turizmi və alpinizmin nümunəsində araşdıraq.

Turist bazaları (turbazalar) – turist qruplarına gecələmək, qidalanmaq imkanı verən və onların turist-ekskursiya, mədəni-məişət və fiziki-sağlamlıq xidmətini təmin edən mehmanxana tipli müəssisələrdir. Əvvəllər turbazalar planlı turist marşrutları adlanan yerlərin başlanğıcında, sonunda və ya bir neçə marşrutun kəsişdiyi yerdə tikilirdi. Onlar turistlərin uzunmüddətli yaşamaları üçün yönəldilməmişdir. Odur ki, burada nömrələr böyük həcmli və minimal rahatlığa malik olmuşlar. Mehmanxanalardan fərqli olaraq turbazalar üçün bir neçə binada yerləşmə, həmçinin mövsümü yaşayış sahəsinin mövcudluğu xarakterikdir. Bəzi turbazalar marşrutlarda öz turist sığınacaqlarına malikdirlər. Turist bazalarının orta tutumu 200 nəfərdən 1500 nəfərədək dəyişir. MDB ölkələrində turbazalar daxili ekoturistlərin kollektiv yerləşdirilməsinin geniş yayılmış növlərindən biridir.

Alpinist düşərgəsi (alpdüşərgə) – alpinistlərin təlimi və onların ustalıqlarının təkmilləşdirilməsi üçün nəzərdə tutulmuş idman bazasıdır. Hazırda onlar adi turistlərin də – orta dağlıq şəraitində hazırlıq keçən turistlərin, idmançıların (güləşçilərin, yüngül atletikaçıların və s.), uşaq turist qruplarının, fərdi turistlərin xidmətinə istiqamətləndirilmişdir. Adətən, alpinist düşərgəsində yay daxmaları, əsaslı tikintilər (inzibati və yaşayış binaları), metodiki və həkim kabinetləri, alpinist və dağ-xizək ləvazimatlarının kirayə məntəqəsi, xilasedici dəstə – palatka düşərgələri üçün yer olur. Onlarda turistlərin yerləşdirilməsi və qidalanması, onların mədəni-kütləvi və məişət xidməti, alpinistlər tərəfindən təlim-məşq və idman planlarının yerinə yetirilməsi nəzərdə tutulmuşdur. Əksər alpinist düşərgələri (mövsümi və il boyu) əvvəllər həmkarlar ittifaqına, az bir hissəsi isə – müxtəlif idarələrə və təşkilatlara məxsus idi.



İlk sovet alpinist düşərgəsi olan «RotFront» (indi «Baksan» adlanır) Şimali Qafqazda Kabardin-Balkar Muxtar Respublikasında Baksan dərəsində kino- və foto işçilərin həmkarlar ittifaqı tərəfindən 1932-ci ildə yaradılmışdır. 1989-cu ildə keçmiş SSRİ-də təkcə 22 həmkarlar ittifaqı alpinist düşərgəsi fəaliyyət göstərirdi ki, onların da xidmət qabiliyyəti ildə 20 min nəfər idi. Onlardan 15-i Qafqazda, 7-si isə Orta Asiya və Qazaxıstanda yerləşmişdi. Qışda alpinist düşərgələri – dağ-xizək bazası kimi fəaliyyət göstərirlər.

Alp dağlarında və XX əsrin əvvəllərindən başlayaraq Qafqaz dağlarında geniş yayılmış daha bir xüsusi yerləşmə vasitəsi – dağ komaları və sığınacaqlarıdır. Adətən onlar müxtəlif turist, alpinist klubları, federasiyaları, bəzi hallarda dövlət və ya xilasetmə xidmətləri üçün tikilir və onlara məxsus olur və havanın dəyişməsini gözləmək üçün zirvəyə qalxmamışdan əvvəl və ya sonra alpinistlərin və ya turistlərin qısamüddətli qalmaları üçün nəzərdə tutulmuşdur. Çox vaxt gecələmək üçün otaq, mətbəx, tualetlə təchiz olunurlar və radioəlaqəyə malik olurlar. Dağ turistləri və alpinistlər arasında daha çox məşhur olan yerlərdə tikilir. Bunlara misal kimi Elbrus dağlarında «Qara-başı» sığınacağını, Monblan dağlarında «Kosmik» komasını göstərmək olar.

Dayanacaq – gecələmək, istirahət üçün turist qruplarının yerləşmə yeridir. Macəralı turizmdə dayanacağın bir neçə növünü fərqləndirirlər – çadır, gecələmək yeri, baza aralıq dayanacaqları. Dayanacaqlarda adətən, çadır və yataq kisələrindən istifadə olunur, qidanın hazırlanması, tualet üçün yer ayrılır. Dayanacağın yerinin seçilməsinə olan əsas tələblər – turistlərin təhlükəsizliyi, istirahətin rahat olmasıdır (suyun, meşə zonasında – doğranmış ağacın, çadır qurmaq üçün düz sahənin, küləkdən qorunmaq üçün yerin mövcudluğudur. Yadda saxlamaq lazımdır ki, dayanacaqdan zibilləri xüsusi ayrılmış yerlərdə basdırmaq və ya sonradan öz gücü ilə daşınmalıdır.

Düşərgə (almanca biwak, fransızca bivauak) – gecələmək və ya istirahət üçün marşrutda turist qruplarının yerləşməsi üçün yerdir. Qışda yüksək dağlıq şəraitində düşərgə bəzən qar mağaralarının, komalarının, çaparxanalarının qurulması yolu ilə təşkil olunur. Mürəkkəb divarşəkilli qalxmalar zamanı adi çadırları qurmaq mümkün olmadıqda (üfüqü sahə olmadıqda) platformalarda xüsusi asılqan çadırlardan istifadə olunur.

«Aralıq düşərgə» termini öz mənasına görə «bivak» (düşərgə) termininə çox yaxındır. O, daha çox yüksəklik yürüşlərində (dəniz səviyyəsindən 6000 m. yüksək) və qalxmalarında istifadə olunur. Düşərgədən fərqi odur ki, turistlər, alpinistlər burada öz ləvazimatlarını, ərzaqlarını qurulmuş çadırlarda (və ya qazılmış qar mağaralarda) saxlayırlar və yenidən bura qayıdırlar. Adətən, aralıq düşərgə qruplar marşrutdan qayıtdıqları zaman və ya qalxmalardan sonra ləğv olunur.

Gecələmə yeri – qalxmaların planlaşdırıldığı dağların altında alpinist qruplarının yerləşməsi yeri kimi məlumdur və çox vaxt istifadə olunur. Gecələmələr daha çox Qafqazda geniş yayılmışdır. Onların öz adları var (Alman gecələmələri, Yuxarı-Sofrucin gecələmələri, Yaşıl mehmanxana və s.) və çox vaxt turist xəritələrində qeyd olunur.



Baza düşərgəsi – dəfələrlə və uzunmüddətli istifadə olunan, qrupların bütün iştirakçıları tərəfindən təşkil olunan, turistlərin (alpinistlərin) təlim və məşqə, marşrutlara və qalxmalara yola düşdüyü düşərgədir. Bu dayanacaq növü daha çox idman və elmi ekspedisiyalarda, alpiniadalarda (alpinistlərin kütləvi yürüşü) və turiadalarda (turistlərin kütləvi yürüşü) alpinistlərin və turistlərin təlim-məşq toplantısının təşkili zamanı istifadə olunur. Burada səyahət üçün zəruri olan ərzaqlar, ləvazimatlar, radiostansiya, hamam, xilasedici dəstə, təchiz edilmiş tualet, zibil çalası olur. Çox vaxt burada mətbəxin təşkili üçün böyük çadırlar da, qaz balonu ilə işləyən yeməkxana da, tibb məntəqəsi də olur. Düşərgənin bu növü 10 gün və daha çox müddətə xeyli sayda adamlar üçün təşkil olunur, odur ki, burada ətraf mühitin mühafizəsi və bütün təhlükəsizlik tədbirləri görülməlidir.

Fərdi yerləşmə vasitələri arasında ekoloji və macəra turizmində istifadə olunan, aqrar turizmdə və etnoqrafik turlarda geniş istifadə olunan, xüsusi sektorda yerləşdirilən və Himalay dağlarında yayılmış lociyaları (yerli əhalidən icarəyə götürülmüş xüsusi tikinti) qeyd etmək lazımdır.

Ekoturun marşrutu və onun keçmə taktikası, turizm xidməti proqramından asılı olaraq göstərilən müxtəlif yerləşmə növlərindən yalnız biri istifadə oluna bilər.

### 3.2. Ekoloji və macəra turlarında turistlərin qidalanmasının təşkili

Ekoloji və macəra turizmində qidalanmanın təşkili aşağıdakılardan formalaşır:

1) turistlərin enerji məsrəflərinin təyini və qidalanmanın kaloriliyinin hesablanması;

2) turistlərin önəm verdiyi təamların təyini;

3) qida rejiminin işlənib hazırlanması;

4) nümunəvi menyunun işlənib hazırlanması;

5) ərzaqların lazımi miqdarının hesablanması;

6) mətbəx ləvazimatlarının (mətbəx qabları, yanacaq və soba, tullantı qabları, yuyucu vasitələr), yeməkxana geyimlərinin və qabların zəruri miqdarının hesablanması.

Yadda saxlamaq lazımdır ki, keyfiyyətli qidalanma – nəinki bütövlükdə xidmətin keyfiyyətinin, həm də turistlərin təhlükəsizliyinin rəhnidir. Məsələn, kələ-kötür yerlərdə aktiv hərəkət üçün xarakterik olan turistlərin çoxlu tərləməsi həmin tər vasitəsi ilə mikroelementlərin itirilməsinə gətirib çıxarır. Turistlərin dağ çaylarından içdiyi buzlu suda praktiki olaraq mikroelementlər olmur, odur ki, orqanizm sümüklərin, dişlərin emalının və s. öz növbəsində nazikləşməsinə səbəb olan kalsium çatışmazlığı hiss edir. Odur ki, çoxlu yüklənmə zamanı (məsələn, dağın yamacındakı cığırla düşdükdə) ayağın sınması riski dəfələrlə artır.

Turistlərin enerji məsrəflərinin təyini və qidalanmanın kaloriliyinin hesablanması zamanı Beynəlxalq alpinizm federasiyasının Tibbi komissiyasının və idman dietoloqlarının tövsiyələrini əldə rəhbər tutmaq lazımdır.

Hər şeydən əvvəl qeyd etmək lazımdır ki, çoxlarının şəhərdə, adi qidalanma şəraitində əməl etdiyi aclıq və toxluq hissi dağlarda qidalanmada, xüsusən də yorğunluq zamanı tələbatın qeyri-dəqiq indikatorlarıdır. Böyük yüksəkliklərdə iştahanın olmaması adi haldır. Hətta, elmi cəhətdən müəyyən olunmuşdur ki, turist susuzluğunu orqanizmdə su çatışmazlığı iki litrə bərabər olduqda hiss etməyə başlayır.

Tibbi komissiyanın məlumatlarına görə yüksəkliyə qalxma zamanı enerji itkisi kürək çantası olmadan 6 kkal /kq çəki/ saat səviyyədə və 20 kq çəkili kürək çantası ilə 9 kkal /kq/ saatdan çox olur. Beləliklə, marşrutda gündə 10 saat işləyən, çəkisi 80 kq olan dağa çıxan adama yalnız itirdiyi enerjini bərpa etmək üçün gündə 4800 kkal lazımdır. Müqayisə üçün qeyd edək ki, əqli işlə məşğul olan menecerin enerji tələbatı gündə 2200 kkal-



dən çox deyil. Göründüyü kimi adi rejim və qida rasionu şəraitində bu tələbatı ödəmək mümkün deyil. Hətta ayrı-ayrı makroelementlərin (zülalların, karbohidratların, yağların) qidanın birdəfəlik qəbulu zamanı mənimsənilməsi də həmçinin sonsuz deyil. Yüksəkliyə qalxmaq kimi ağır işdən sonra itirilmiş enerjinin bərpasına keçmək üçün 24-36 saat vaxtın lazım olduğu indi aydın olur. Hətta əgər turistlər yorulmasa belə, istənilən halda yüksəkliyə qalxma ilə çoxlu miqdarda zülalı olan qida ilə güclü qidalanma arasında turistlərə bir gün istirahət verilməlidir.

Turistlərə lazım olan enerjinin miqdarını təyin etdikdən sonra onun mənbəyini təyin etməyə keçmək olar. Qidanın markoelementləri arasında aşağıdakılar daha çox əhəmiyyətə malikdir (əhəmiyyətinin azalması sırası ilə).

Karbohidratlar – səyahət zamanı ən vacib enerji mənbəyidir. Orqanizm karbohidratdan enerjini yağlara nisbətən 3 dəfə tez və daha az oksigen sərf etməklə alır. Turistlərin qida rasionunun yarıdan çoxu karbohidratdan ibarət olmalıdır. Onları hər 2 saatdan bir formanın (qanda qlükozanın səviyyəsinin), hissetmə qabiliyyətinin sabitləşməsi üçün qəbul etmək lazımdır. Bu zaman karbohidratlar mədənin həddən çox yüklənməməsi üçün asan mənimsənilən formada olmalıdırlar. Karbohidratların ən yaxşı mənbəyi – quru meyvələr, şəkər, şokolad, biskvit və s.-dir.

Yağlar – həmçinin vacib qida komponentidir, lakin daha az qiymətlidir. Buna səbəb onların enerji mənbəyi kimi istifadəsi zamanı mənimsənilməsinə daha çox vaxtın və kalorinin sərf olunmasıdır. Bundan savayı orqanizm yağdan enerji almaq üçün çoxlu su sərf edir. Yağdan alınan kalorinin miqdarı isə gündəlik rasionun 30-35 %-ni ötməməlidir. Odur ki, onların məqsədyönlü şəkildə qəbuluna ehtiyac yoxdur. Belə ki, ərzaqların və xörəklərin çox hissəsi yağlardan təşkil olunmuşdur. Döş ətindən hazırlanmış qızartma, kolbasalar və digər hisə verilmiş ərzaqlar yağ mənbəyidir.

Zülallar – fiziki formanı saxlamaq və yaxşılaşdırmaq üçün çox vacibdir. Bitki və heyvan zülallarının balanslaşdırılmış uzlaşmasına diqqət yetirmək çox zəruridir. Təəssüf ki, vegetarian rasionu orqanizmin əvəz olunmayan amin turşularına olan tələbatını ödəmir. Odur ki, onları həb şəklində əlavə qəbul etməklə çıxış yolu tapmaq olar. Zülallarla alınan kalorinin miqdarı 10-20 %-i ötməməlidir. Zülal mənbələri – ət, süd, pendir, yumurta, qoz, bəzi tərəvəzlər və s.-dir.

Vitaminlər – orqanizm sisteminin fəaliyyətini tənzimləyir və onu müdafiə edir. Onlar orqanizmə təzə halda istifadə olunan qida ilə birlikdə daxil olurlar. Lakin multivitamin kompleksləri şəklində orqanizmə kömək etmək davametmə müddəti həftədən çox olan ekspedisiyalar zamanı, balanslaşmamış qidalanma, vitamin çatışmazlığı dövründə, qəbul olunan qidanın tərkibində onların miqdarı az olduqda (konservləşdirilmiş ərzaqlar) mütləq lazımdır.

Su orqanizmdə bir çox vacib funksiyaları, o cümlədən ürək fəaliyyətinin tənzimlənməsini yerinə yetirir. Yüksək dağlıq şəraitində və soyuqda ağır iş saatda 2 litrdən çox su itkisinə səbəb olur. Su həmçinin sidiklə, tərlə, tənəffüslə, xüsusən də diarei zamanı (itki gündə 8 litrdən çox olur), həmçinin «dağ xəstəliyi» zamanı ayrılır. Su itkisi vaxtında bərpa olunmalıdır, əks təqdirdə dağa qalxan şəxs tromboflebit, ürək çatışmazlığı kimi ürək pozuntusu xəstəlikləri ilə xəstələnmək riskinə məruz qalır. Odur ki, bələdçi həmişə marşrutda turistlərin kürək çantasında içmək üçün (çay, vitaminli içkilər və s.) maye doldurulmuş termosun olmasında israr etməlidir.

Mikroelementlər orqanizmdə elektrolitik balansa riayət olunmasına, sümüklərin, dişlərin, hormonların, enzimlərin, hemoqlobin üçün tikinti materialı kimi vacibdir. Belə ki, əksər hallarda buzlaq sularının tərkibində mikroelementlər olmur. Onların isə orqanizmdən aktiv «yuyulması» baş verir ki, bu da mikroelement çatışmazlığına (xüsusən də kalsium) gətirib



çıxarır. Nəticədə bir çox dağa çıxanlar arasında tez-tez sümüklərin və dişlərin nazilməsi, oynaqların zədələnməsi müşahidə olunur. Kalsium preparatlarının əlavə qəbul olunması (ən azı kalsium qlyukanatın) bundan qaçmağa imkan verir.

Sellüloza mədə və həzm üçün, xüsusən də səyahət zamanı orqanizmin yeni qidalanma rejiminə keçidi dövründə yüksək dağlıq şəraitində çox faydalıdır. Lakin onu yüksək dağlıq ərazilərə səyahət zamanı yüksəklik meteorizminin inkişafına səbəb olduğu üçün qəbul etməyi məsləhət görmürlər.

Tamlı əlavələr (souslar – mayonez, ketçup, xardal, xren və s., ədviyyələr, sarımsaq, soğan və s.) iştahanı artırır ki, bu da akklimativasiya zamanı onun müvəqqəti itirilməsi dövründə çox vacibdir. Bəzi tərəvəzlər isə (istiot, sarımsaq, soğan) bir çox xəstəliklərə qarşı çox yaxşı profilaktiki vasitədir. Bundan başqa sarımsaq xəstəlik törədən mikroorqanizmlərin qarşısını alır və həzm prosesinin yaxşılaşmasına kömək edir. Yadda saxlamaq lazımdır ki, yüksəklik şəraitində hansı qidaya üstünlük verilməsi tez-tez dəyişir və səyahət təcrübəsi artdıqca bu daha çox çeşidli olur.

Qida rejimi və menyu tərtib olunan zaman Tibbi komissiyanı tövsiyə etdiyi aşağıdakı qaydalara əməl etmək lazımdır:

- gündüz rasionunda mümkün qədər daha çox müxtəliflik;
- çalışın ki, qida konsentratlarından yemək hazırlamayasınız və eynicinsli qida ilə (məsələn, yalnız vegetarian) qidalanmayasınız;
- səhər gəzintiyə çıxmamışdan qabaq yüngül qəlyanaltı ilə çoxlu maye qəbul etmək tövsiyə olunur;
- gəzinti hərəkəti zamanı hər iki saatdan bir qısa istirahət edin ki, turistlər az da olsa yeyib-içsinlər. Alkoqollu içkilər yolverilməzdir;
- gəzinti günü qurtardıqdan sonra turistləri tərkibində karbohidratların və mayenin çox olduğu qida ilə təcili yedizdirin, belə ki, bu ən vacib qida qəbuludur.

Tibbi komissiya enerji cəhətdən qiymətli maddə kimi vitaminlər, L-karnitin, qlyukoza həbləri və məhsullarını, həmçinin alkoqollu içkilərin müxtəlif formalarını istifadə etməyi tövsiyə etmir.

Qidalanma üzrə dünyanın müxtəlif elmi-tədqiqat institutları tərəfindən səyahətdə tövsiyə olunan ən düzgün qidalanma rejim qida qəbulu arasında 4-5 saatlıq interval olan dörd dəfəlik qidalanmaqdır. Göründüyü kimi vəhşi təbiət üzrə səyahət şəraitində belə rejimi saxlamaq asan deyir. Odur ki, isti yemək gündə 2-3 dəfə təşkil olunur, qalan qida qəbulu isə böyük aşırımlarda (hər 2-3 saat yol getdikdən sonra) həyata keçirilir. Bunun üçün turistlərə gündüz marşrutlarına çıxmamışdan qabaq içərisində karbohidratlarla (şokolad, konfet, enerji batonları, quru meyvələr və s.) zəngin olan ərzaqlar olan lanç-paketlər paylanır və turistlərin fərdi termosu çay, kofe, qaynar su və s.-lə doldurulur.

Nümunəvi menyu turist mövsümünün əvvəlində, günlər üzrə bölünməklə həftəlik müddətə, hər qrupa turist xidməti proqramı nəzərə alınmaqla tərtib olunur. Səyahətin davam etmə müddəti 7 gündən çox olduqda nümunəvi menyu təkrar olunur.

Səyahətin ilk günləri yaxşı olar ki, gündüz keçidləri zamanı iki dəfə «qəlyanaltı» ilə üçdəfəlik isti yeməklə qidalanmaya tərəfdar olsunlar. Bu yeni qidalanma şəraitinə uyğunlaşmağa və orqanizmin iqlimləşməsinə kömək edir. Bu zaman milli mətbəx xörəklərinin qəbulu, xüsusən də əcnəbi turistlər üçün istisna olunur.

Səhər yeməyi bir tərəfdən işləmək üçün (turistlər öz işlərinin çox hissəsini nahara qədər görürlər) enerji ehtiyatı yaratmaqdan ötrü yüksək kalorili olmalıdır, digər tərəfdən çox az adam tapılar ki, səhər çoxlu qida qəbul etsin. Gündəlik kalorilik rasionun 30 %-i səhər yeməyinin payına düşməlidir. O, asan mənimsənilən karbohidratlarla (şəkər, peçenye, bal, quru meyvələr, təbii şirələr və s.) zəngin olmalıdır.



Nahar yeməyi qidalanmanın ümumi kaloriliyi və marşrutda 2500 kkal və daha çox tələb edən işin intensivliyi arasında uyğunsuzluq nəticəsində orqanizmdə əmələ gələn enerji məsarifi qıtlığını doldurmalıdır. O, ümumi sutkalıq kaloriliyin 30 %-ə qədərinə malik olmalıdır. Nahara tərkibində çətin mənimsənilən inqrediyentlər, məsələn, sellüloza olan məhsullardan hazırlanmış xörəklər hazırlamaq lazımdır.

Şam yeməyinin məqsədi – gündüz işləri zamanı sərf olunmuş kalorilərin yerin doldurmaq və orqanizmi sonrakı gün üçün hərəkətə hazırlamaqdır. O, bir tərəfdən enerji çatışmazlığı nəticəsində əzələ toxumalarının labüd parçalanmasının yerini doldurmalı olan böyük miqdarda zülallara malik olmalı, digər tərəfdən tərkibində minimal miqdarda çətin mənimsənilən və əsəb sisteminin fəaliyyətini artıran məhsullar olmalıdır. Bu xüsusən çadırlarda yerləşdirilən qış səyahətləri üçün aktualdır. Belə ki, tezliklə turistlər şam yeməyindən sonra yatmaq üçün uzanırlar və dolmuş mədə diafraqmanı sıxmağa başlayır, ürəyin və ciyərin normal fəaliyyətinə mane olur. Belə şəraitdə yuxu keyfiyyətsiz olur və lazım olan istirahət alınmır.

Səhər yeməyi hazırlayan aşbazın işində böyük kömək avtoklavlardır (tezbişirən). Səhər yeməyini axşamdan hazırlamaq olar, sonra avtoklavı yatacaq kisələrinə qoyub saxlasaq, səhər tezdən turistlərin isti yeməyi olacaqdır. Bu onlara səhərin soyuğunda qızınmağa, tezliklə iş rejiminə daxil olmağa kömək edər, isti yeməyin hazırlanması üçün dayanacaqların ləğv olunması hesabına hərəkət saatlarının sayını artırmağa imkan verərdi.

Nümunəvi tipik üçgünlük menyu Mərkəzi Qafqaz üzrə turda alman turistlərin qidalanmasının təşkili praktikasından götürülmüşdür (cədvələ bax).

**Nümunəvi üçgünlük menyu**

| | I gün | II gün | III gün |
|---|---|---|---|
| Səhər yeməyi | Südlü sıyıq<br>Paştetli buterbrod<br>Çay, kofe, bal, peçenye | Pendirli makaron<br>Hisə verilmiş kolbasa ilə buterbrod<br>Kakao, bal, peçenye | Quru meyvə ilə yulaf aşı<br>Soyutma yumurta<br>Pendirli sendvic<br>Çay, kofe, bal, peçenye |
| Nahar yeməyi | Təzə tərəvəzdən hazırlanmış salat<br>Borş<br>Dənizçi makaronu<br>Kisel | Dəniz məhsullarından salat<br>Sup<br>Ət ilə qaynadılmış düyü<br>Südlü kofe | Göy noxuddan hazırlanmış salat<br>Xarço (bozbaşa oxşar xörək)<br>Qızardılmış kartof<br>Quru meyvədən hazırlanmış kompot |
| Şam yeməyi | Ət ilə qaynadılmış kartof<br>Kakao<br>Konservləşdirilmiş ananas | Qızardılmış döş əti ilə qayqanaq<br>Konservləşdirilmiş şaftalıdan hazırlanmış kompot | Ət ilə konservləşdirilmiş pörtülmüş tərəvəz<br>Kisel |

Menyunu tərtib etməmişdən əvvəl turistlərin hansı dadları xoşladıqlarını dəqiqləşdirmək lazımdır. Məsələn, qarabaşaq sıyığı rus turistləri arasında çox məşhurdur və alman turist üçün qəbuledilməzdir (Almaniyada qarabaşaq yarması ilə donuzları yedizdirirdilər). Diabet xəstəliyindən əziyyət çəkənlər üçün şəkərin süni əvəz edicisinə, vegetarianlar üçün məxsusi menyu variantlarına malik olmaq lazımdır və s.

Ərzaq məhsullarının fərdi qaydada tərəzidə çəkilib-bükülmüş və zavod qablaşdırılmasında lanç-paketlərdə istifadə olunmasına fikir vermək lazımdır.

### 3.3. Xidmət proqramının yerinə yetirilməsi

Bir çox hallarda xidmət proqramının yerinə yetirilməsi qonaqlarla işləmək üçün işçi heyətə verilmiş ümumi daxili göstərişdən asılıdır. Hava şəraiti deyil, məhz işçi heyət turistlərlə xidmət müqaviləsinin yerinə yetirilməsinə görə məsuliyyət daşıyır.



Adətən xidmət proqramının könülsüz yerinə yetirilməsi, turistlərin fiziki və emosional vəziyyətinin nəzərə alınmaması onların narazılığına gətirib çıxarır.

Məsələn, əcnəbilərin Qafqazın ən yüksək zirvəsi olan – Elbrus dağlarına (5642 m) qalxmasının təşkili zamanı iki nümunəvi, lakin prinsipial olaraq fərqli xidmət proqramından istifadə edirlər.

Birinci proqram yüksəklikdə turistlərin olması xərclərinin ixtisar olunmasına istiqamətlənmişdir. Belə ki, yüksəklikdə olan sığınacaqlarda yaşamaq və qidalanma xərcləri vadiyə nisbətən çoxdur. Uyğun olaraq dağlarda qalmağın ümumi davametmə müddəti və iqlimləşmə proqramı da ixtisara düşür. Zirvəyə qalxma artıq Elbrusa çatan gündən üç gün sonra başa çatır. Bu zaman mövsüm ərzində xidmət olunmuş qrupların sayı artır ki, bu da həmin yanaşmanın ekstensiv kimi təyin olunmasına imkan verir. Xidmət müqaviləsində göstərilir ki, əgər turist zəif fiziki hazırlığına görə zirvəyə qalxa bilməmişdirsə, buna görə turoperator məsuliyyət daşımır. Birinci xidmət proqramı qruplarında dırmaşıb çıxanların sayı 70 %-i ötmür.

İkinci proqram zirvəyə dırmaşıb çıxanların sayının maksimum olmasına istiqamətlənmişdir. Lakin burda da zəif fiziki hazırlığa görə məsuliyyət haqqında xəbərdarlıq edilir. İqlimləşmə proqramı uzunmüddətlidir (ən azı 5 gün) və ora qalxmadan əvvəlki istirahət günü də daxildir. Bələdçi zirvədən əvvəl qonaqlar «təslim» olduğu hallarda onları müstəqil olaraq aşağı göndərmir, onun kürək çantasındakı şeyləri boşaldaraq öz əşyalarının yanına yığır. Zirvəyə dırmaşanların faizi, uyğun olaraq həmin xidmət proqramından razı qalan müştərilərin və bələdçilərin işi 95 %-i ötür ki, bu da belə yanaşmanı intensiv yanaşma kimi təyin etməyə imkan verir.

Odur ki, xidmətçi heyətin xidmət proqramının keyfiyyətli yerinə yetirilməsi və müştərinin razı qalmasına görə daha çox məsuliyyət daşıdığı fikri tamamilə ədalətlidir. «Lazy M Ranch Country Vacations» şirkətində deyilir: «Biz adətən, müştərilərin gözləntilərini onların həyatında onlar üçün ən yaxşı istirahəti təmin etməyə çalışaraq ötüb keçirik. Biz buna onlara öz ailə üzvlərimiz kimi münasibət bəsləyərək nail oluruq və biz istərdik ki, onlar da bizə belə münasibət bəsləsinlər. Belə siyasət səhvsizdir».

Fərdi yanaşma həmişə turistlərdə heyranlıq hissi doğurur. «Clearwater Raft Tours» kompaniyası öz təcrübəsini bölüşür: «Bizim tur bir çox şeydə digərlərindən fərqlənir: müştəri vəhşi təbiət üzrə turda ərköyünləşmiş olmağı gözləmir. Biz çayları, şəlalələri göstəririk, bizim müştərilər qayalara çıxır, haqqında hətta yerli əhalinin də bilmədiyi mağaralara gedirlər. Turun sonunda müştərilərin hər biri səyahət haqqında yadigar kimi suvenir alır.

Turistlər üçün sürpriz olan əlavə tədbir və xidmətlərin pulsuz olaraq xidmət proqramına daxil edilməsi – onlarda coşqun rəy yaratmağa doğru atılmış daha bir addımdır. Məsələn, turistlərin gəldiyi gün tanışlıq gecəsi, istirahət günü ekskursiya, dükana getməkdə kömək, yadigar olaraq suvenir və hədiyyə mübadilə etmək və s.

Lakin bütün turoperatorlar istənilən halda bir məsələdə eynidirlər: bacarmadığın şeyi müştərilərə söz vermə. «Waldens Guiding and Outfitting» şirkətində bu belə şərh olunur: «Biz heç vaxt mümkün olmayan şeyə söz vermirik. İnsanlar şimal parıltısını görmək istədikdə, biz onları xəbərdar edirik ki, onlara hava şəraiti manc ola bilər. Əgər onlar onu görsələr o zaman sevinəcəklər, görməsələr, məyus olmayacaqlar. Biz hətta onları əla yeməklə və keyfiyyətli avadanlıqla təmin edirik».



Beləliklə, asanlıqla xidmət proqramını yerinə yetirən zaman sadəcə verilən sözü yerinə yetirmək yox, turistlərin gözləntilərindən daha çox etmək inamına gəlmək olar.

Məsələn, «Niagara Natere Tours» firmasının rəhbəri deyir: «Mən bütün turlarda şəxsən iştirak edirəm. Bu onların keyfiyyətini qiymətləndirməyə, müştərilərin reaksiyasını görməyə, bələdçilərin işini qiymətləndirməyə imkan verir. Mənə elə gəlir ki, bir sahibə kimi mənim özümün bütün bunlarla məşğul olmağım müştəriyə xüsusi diqqət hissi verir. Onlar özlərinə qarşı ciddi münasibət görürlər. Biz yeni standartlar yaradırıq, bizim bələdçilər isə sadəcə bələdçi deyil.»

«Zorizon Nature Adventure» firmasının menecerinin fikri isə belədir: «Turların birində məşhur bir vəkil idarəsini qəbul edərkən, biz onları qabların üstündə onların adı yazılmış şəraba qonaq etdik. Axşam isə artıq otaqların divarlarında onların elə həmin gün çəkilmiş şəkilləri asılmışdı. Xırdalıqlar həmişə vacibdir».

İstənilən qonağın ona xüsusi diqqətlə yanaşılması, onun şəxsi arzularının nəzərə alınması xoşuna gəlir.

Məsələn, «Western Canadian River Adventures» şirkətində aşağıdakılar təklif olunur:

- zərif qida – holland sobasının köməyi ilə yeməyi elə keyfiyyətli hazırlamaq olar ki, kempinqdə beləsini gözləmək heç kimin ağlına gəlməz (əla quzu qabırğalarından kabab, qızardılmış bekon (hisə verilmiş, duzlanmış donuz əti), təzə qovurma və s.);
- bizim müştərilərin əvvəllər heç harada görmədikləri saunalar. Bu onlara imkan verir ki, yerli mədəniyyəti tədqiq etsinlər və öz sağlamlıqlarını qaydasına salsınlar;
- diqqətəlayiq yerlərlə tanış olmaq üçün qonaqlara məxsusi ədəbiyyatın təqdim olunduğu kitabxana;
- musiqi – belə ki, bələdçilər həmişə özləri ilə gitara götürürlər.

«Monnatain Quest» şirkətində xidmət proqramının yerinə yetirilməsi daha təsirli görünür: «Biz çalışırıq ki, az söz verək,

lakin çox iş görək. Kiçik bir misal: bir günlük yürüşdə turistlər adətən yalnız səhər yeməyi gözləyirlər, biz isə onlara təzə bişirilmiş, içərisi yaxşıca doldurulmuş iri sendviclər təklif edirik, sonra isə bələdçi yürüş sobası ilə bir qədər əlləşərək təzə meyvə ilə şokolad yeməyi hazırlayır. Günün axırında hər bir müştəri təşəkkür kartı ilə şokolad dəsti alır. Başqa bir misal: hədiyyə olaraq bir şüşə şampan sərabı. Daha uzunmüddətli səfərlərdə bələdçilərə hər müştəriyə 30 dollar hesabı ilə pul verilir ki, onların seçimindən asılı olaraq suvenir hədiyyə etsin, gözlənilmədən restoranda nahar versin və ya qayıqla gəzinti təşkil etsin».

**Yoxlama sualları və tapşırıqlar.**

1. Ekoturizmdə ən çox istifadə olunan yerləşmə vasitələrini sadalayın.
2. Ekoturlarda qidalanmanın təşkilinin ilkin şərtlərinin adlarını çəkin.
3. İstirahət günü treninq yürüşü keçirən, 6 adamdan ibarət qruplar üçün üçgünlük nümunəvi menyu və bölgü üsulunu tərtib edin.
4. Tur başlayana qədər və qurtardıqdan sonra qonaqlarla kommunikasiyanın zəruriliyini izah edin.



## Dördüncü fəsil

### Ekoturizmdə təhlükəsizlik (dağ səyahəti nümunəsində)

Ekoturun təşkilatçılarının işinin bu aspektinin aktuallığı bütün səviyyələrdə müasir turizmin təhlükəsizlik məsələlərinin müəyyənedici əhəmiyyətindən ibarətdir. Bu, turistlərin marşrutda təhlükəsizliyindən tutmuş turizmin inkişafında regionların iqtisadi təhlükəsizliyinə qədər bütün sahələri əhatə edir. Dünya praktikasında təbii, sosial, epidemioloji və digər təhlükələrə etinasızlıq göstərmə hallarının, terrorizmin mümkünlüyünün turistlər arasında qurbanlara gətirib çıxardığı yaxşı məlumdur. Belə hadisələrin nəticələrinin aradan qaldırılması külli miqdarda maddi xərc və vaxt tələb edirdi.

Hələ 1983-cü ildə turizmin təhlükəsizliyi üzrə keçmiş SSRİ-də birinci və praktiki olaraq yeganə nəşrin ərsəyə gəldiyi vaxt həmin dövrün turizm üzrə məşhur ekspertləri sayılan V.Tixomirov və K.Bardin yazırdı: «Səyahətin təhlükəsizliyinin təmin olunması problemi – turist hərəkatının ən vacib problemlərindən biri (əgər ən vacibi deyilsə!) və eyni zamanda ən mürəkkəb problemlərindəndir».

Məsələn, Fransada və Yaponiyada hər il dağ marşrutlarında 100-dən çox adam həlak olur. Alp dağlarında bu rəqəm 300-400 adama çatır, sahəsinə görə böyük olmayan Tatrada (Polşada) 30-a qədər səyahət həvəskarı həyatını itirir. Təkcə Şamonidə (Monblan rayonunda) hər il 60-a qədər alpinist həlak olur. Bir sıra xilasedici xidmətlərin məlumatlarına görə ölümlə qurtaran bədbəxt hadisələrin sayı ildən-ilə 13,5-17 %-ə qədər artır. Adətən, bütün bu bədbəxtliklər cəmiyyətin ən aktiv və perspektivli üzvləri ilə baş verir.

Turizmdə səyahətin ekstremallığı, xüsusən də macəra və idman turizmində ildən-ilə artır. İlk növbədə buna elmi-texniki

tərəqqi və yeni ləvazimat növlərinin meydana çıxması səbəb olur. İlk baxışda paradoksal vəziyyət əmələ gəlir – səyahət etmək asanlaşır, lakin marşrutda təhlükə nəinki azalmır, hətta daha da artır. Bu vəziyyəti Everestə kommersiya çıxışına uyğun olaraq adamları planetin ən yüksək zirvəsinə dəfələrlə aparmış A.Bukreev belə şərh edir: «Hazırda, yüksək qiymətlərə baxmayaraq Everestə çıxmağın məşhurluğu artır. Kommersiya alpinizmi inkişaf edir. İnsanlar özlərini çətinliklərdə və yüksəkliklərdə sınamaq üçün Everestə gedir. Onların Everesti xeyli asan, keçilən və deməli Tensinq və Hillarininkinə (Everesti fəth edənlərə) nisbətən daha alçaqdır və Messnerin (1979-cu ildə əvvəlcə oksigen istifadə etmədən, sonra isə musson mövsümündə təkcə bu zirvəyə çıxmışdır) Everesti ilə müqayisə edilə bilməz. Lakin o, hazırlıqsız adamlar üçün daha az təhlükəli olmadı, hətta əksinə bu təhlükə artdı... Belə çıxışların təhlükəsizliyi haqqında əfsanə-diletantlar üçün yanlış fikirdir. Onu dəstəkləmək yox, əlavə oksigen istifadə etməklə və təcrübəli bələdçilərin və şerplərin (yerli xalqların) köməyi ilə böyük yüksəkliklərin keçirilməsini reklam etməklə dağıtmaq lazımdır.

Yüksəkliklərə kommersiya çıxmalarını qadağan etmək mümkün deyil. Lakin Everestə gedən adamlar başa düşməlidirlər ki, onların təhlükəsizliyinə yüz faiz təminatı heç bir bələdçi verə bilmir. Əgər belə bir təminat verilirsə, deməli onun arxasında yalan durur. Oksigen haqqında əfsanə Everestdə biznesə faydalıdır, lakin ora gedən adamlar üçün təhlükəlidir. Yadda saxlamaq lazımdır ki, son sözü həmişə Dağ deyəcək».

Müasir kütləvi turizmin özünəməxsusluğu onun xarici mühit şəraitinə zəifliyindən ibarətdir. Turizm iqtisadi, siyasi, sosial sabitlik tələb edir. Bu, xüsusən bizim ölkəmizə aiddir. Mövcud və xəyali terrorizm təhlükəsi, əcnəbi və yerli turistlərə qarşı neqativ münasibət dünyanın bir çox regionlarında, xüsusən də



dondurulmuş münaqişələrin özünə yer aldığı ölkələrdə turizmin inkişafını ləngidir.

Hazırda ekoloji və macəra turizminin təhlükəsizlik məsələlərinə, xüsusən elmi-tədqiqat işləri səviyyəsində çox az fikir verilir. Halbuki, ölkəmizin çətin keçilən guşələrinə turistlərin gəlməsi ilə əlaqədar olan belə səyahətlər həmişə risk elementləri ilə bağlıdır. Bu daha çox macəra turizminə aiddir. Həyat fəaliyyətinin təmin olunması texnologiyasının inkişafı indiyə qədər qeyri-mümkün hesab olunan şəraitin yaradılması və turistlərin təhlükəsizliyində saxta inam yaradır. Səyahətin «ekstremallıq» həddinin yüksəlməsinin müasir tendensiyası, fiziki, texniki və psixoloji cəhətdən hazırlıqsız adamların turizm tarixinə düşmək hüququ qazanmaq üçün çoxlu pul ödəməyə razılaşması bədbəxt hadisələrin və katastrofların sayının artmasına aparıb çıxarır.

## 4.1. Turizmdə təhlükəsizliyin təmin olunması

Turizm haqqında Azərbaycan Respublikasının Qanununa görə (04 iyun 1999-cu il) turistlərin təhlükəsizliyi – səyahət müddətində turistlərin şəxsi təhlükəsizliyi və onların əmlakının qorunmasıdır (maddə 12). Göründüyü kimi qanunvericilikdə təhlükəsizlik təhlükənin olmaması kimi təfsir edilir.

Məlum olduğu kimi təhlükə insanı hər zaman və hər yerdə, hətta gündəlik həyatda da güdür. Ay Yerin peyki olduğu kimi, təhlükə də insanın peykidir. Buna misal olaraq aktiv turistlərin peşə xəstəliklərini göstərmək olar (Cədvəl 3-ə bax). Odur ki, söhbət yalnız təhlükəli vəziyyətin baş verməsi ehtimalının hansısa yol verilən həddindən, yəni risk haqqında gedə bilər. Ekoturizmdə, haqqında danışdığımız bu məsələ daha aktualdır, belə ki, ektorizmin tərkib hissəsi olan təbii mühit təhlükələrlə doludur.

Beləliklə, «Turizm haqqında» Azərbaycan Respublikasının Qanununa uyğun olaraq ekoloji və macəra turizmində təhlükəsizlik 3 komponentdən əmələ gəlir: ekoturistlərin şəxsi təhlükəsizliyi; onların əmlakının təhlükəsizliyi; turistlərin səyahət etdiyi təbii ətraf mühitin təhlükəsizliyi, yəni istifadə olunan təbii turist ehtiyatlarının faktiki təhlükəsizliyi.

**Cədvəl 3**

**Macəra turizmində peşə xəstəlikləri**

| Təhlükənin növləri | Xəstəliyin tipləri |
|---|---|
| Kəskin meteoroloji şərait | Soyuqdəymə xəstəliyi |
| Yüksək dağ iqlimi | Ürəyin fəaliyyətinin pozulması, dağ xəstəliyi |
| Günəş radiasiyası | Göz xəstəlikləri, günəşin təsirindən əmələ gələn yanıqlar |
| Adi gündəlik rejimdən fərqli qidalanma | Bağırsaq pozuntusu, qastrit, mübadilə proseslərinin pozulması, bədənin susuzlaşması, oynaq xəstəlikləri |
| Uzunmüddətli fiziki gərginlik, ağır kürək çantası ilə dərə-təpəli yerlərlə hərəkət zamanı yaranan çətinliklər | Onurğa sütununun əyilməsi, vena damarlarının genişlənməsi, oynaqların xəstələnməsi |
| Həşaratların dişləməsi | Gənə ensefaliti |

Praktikada turizmdə təhlükəsizlik anlayışı daha genişdir. Axı fövqəladə vəziyyətlər, böhranlar bu sahədə baş verənlərdən nəinki birbaşa itkidən asılı olaraq təhlükəlidir, həm də iqtisadi nəticələrinə, hər şeydən öncə bu regiona səyahətə turist



tələbatının aşağı düşməsi ilə təhlükəlidir. Bu halda iqtisadi itkilər və istehlakçıların inamının bərpasına çəkilən xərclər o qədər böyükdür ki, regionda turizmin iflasına səbəb ola bilər. Məsələn, 1989-cu ildə İraq ordusunun Küveytə soxulmasından əvvəl Fransada müxtəlif istiqamətlərdə 18 min qrup halında və 50 minə yaxın fərdi səyahət ləğv edilmişdir. «Səhrada fırtına əməliyyatından sonra beynəlxalq turist gəlmələrinin hesablanması göstərdi ki, Avropa 1991-ci ili sıfır artımla, İtaliya, Böyük Britaniya, Almaniya və İsveçrə isə bu sahədə geriləmə ilə başa vurmuşdur. Amerikadan turist axını 5 mln. nəfərə qədər azalmışdır. 2001-ci ildə 11 sentyabrda ABŞ-da baş vermiş terror aktı nəticəsində beynəlxalq səmişin aviadaşımalarına olan tələbat demək olar ki, üç dəfə aşağı düşmüşdür.

Regional turizm bazarının iqtisadi təhlükəsizliyi həm də yerli turizm sənayesinin daxili müqavilə münasibətlərinin hüquqi xarakteri ilə təyin olunur. Göndərən və qəbul edən tərəflər arasında müqavilənin pozulması turistlərin «göndərilməsinin» azalmasına, onlara xidmətin keyfiyyətinin pisləşməsinə və turist tələbatının aşağı düşməsinə aparır. Verginin ödənilməsindən yayınma da həmçinin turizm infrastrukturunun təkmilləşdirilməsi üçün yerli büdcədə vəsaitin çatışmamasına gətirib çıxarır. Bunu həmçinin regionda turizmin iqtisadi təhlükəsizliyinin tərkib hissələrindən biri kimi araşdırmaq olar. Məsələn, Rusiya Federasiyasının Kuba şəhərinin vergi polisinin apardığı «Kurort-2001» əməliyyatının gedişində ilin birinci yarısında sanitar-kurort xidmətlərinin realizə olunmasında 2 mlrd. rubldan çox məbləğdə qeydə alınmamış mədaxil aşkara çıxarılmışdır. Bu zaman 14 cinayət işi qaldırılmış və 8 mln. rubldan çox pul cərimə formasında alınmışdır.

Qanunvericiliyə uyğun olaraq ölkəmizdə turoperatorlar və turagentlər turistlərə onların rastlaşa biləcəyi səyahətin xüsusiyyətləri və təhlükələr haqqında ətraflı məlumatları təqdim etməyə, həmçinin turistlərin təhlükəsizliyinin təmin olunmasına

yönəlmiş xəbərdaredici tədbirləri həyata keçirməyə borcludurlar. Analoji tələblər başqa ölkələrin də turoperatorlarının qarşısında qoyulur. Məsələn, 2001-ci ilin dekabrında İsveçrədə «Səyahət dünyası» gənc turoperator firmasının rəhbərlərinə 15 əcnəbi turistin və 3 bələdçinin qəsddən edilməyən ölümünə görə ittiham hökmü çıxarılmışdır. Belə ki, başlayan leysan yağış nəticəsində onları İsveçrə Alpının dar kanyonunda sel aparmışdır. Turoperator vaxtında havanın pisləşməsinin mümkünlüyü haqqında onları xəbərdar etməmişdir.

Turist xidməti göstərilən zaman turistlərin həyatı və sağlamlığı üçün riskin qəbul oluna bilən səviyyəsi təmin olunmalıdır. Göründüyü kimi riskin qəbul oluna bilən səviyyəsini ölçmək nəinki müxtəlif turizm növləri üçün (məsələn, macəra və işgüzar turizm üçün), həm də müxtəlif adamlar (turistlər) üçün çox mürəkkəbdir.

Qeyd etmək lazımdır ki, turistin həyatı və sağlamlığı üçün risk aşağıdakı şərtlər zamanı meydana çıxa bilər:

- riskin mənbəyi mövcud olduqda;
- həmin mənbənin insan üçün təhlükəli səviyyədə olduğu ortaya çıxdıqda;
- insan təhlükə mənbəyinin təsirinə meylli olduqda.

Turizmdə təhlükəli vəziyyətin araşdırılması praktikasında tez-tez «bədbəxt hadisə» termini istifadə olunur. Onu qəsddən edilməyən travma kimi və ya turist səyahəti zamanı gözlənilmədən zədə yetirmiş təsir nəticəsində baş vermiş insan ölümü kimi müəyyən etmək olar.

### 4.2. Turizmdə təhlükənin növləri

Turizmdə təhlükələrin aşkara çıxarılmasının əsas problemi turistlərlə əlaqədar bədbəxt hadisələrin təhlili üzrə aparılmış məqsədyönlü işlərin olmamasıdır. Qəza vəziyyətlərinin uçotu və təhlili idarələr tərəfindən bir-birindən ayrılmışdır. Məsələn, turist daşımalarının həyata keçirilməsi zamanı baş vermiş qəzalar – Yol Patrul Xidməti (YPX) tərəfindən, dənizdə və daxili sututarlarda səyahətçilərin həlak olması – su xilasetmə işini həyata keçirən Fövqəladə Hallar Nazirliyi (FHN) tərəfindən, dağlarda baş vermiş bədbəxt hadisələr – alpinist federasiyaları və klubları tərəfindən və s. qeydə alınır. Nəticədə əgər zədələnmələr ölümlə qurtararsa və bu zaman hər şey məlum olarsa, o zaman orta ağırlıqlı hər on zədələnmədən yalnız biri nəzərə alınır. Faciə ilə qurtarmayan yüngül zədələr və qəza vəziyyətləri isə ancaq bir qrup insana məlum olur. Bütün bunlar turizmdə təhlükələrin bütün növlərinin aşkara çıxarılmasını və dərindən təhlilini mümkünsüz edir.



Bununla belə bəzi mütəxəssislərin etdiyi kimi aktiv turizmdə və turist fəaliyyətinin digər növlərində baş vermiş təhlükələri və bədbəxt hadisələri süni şəkildə bir-birindən ayırmaq, sonuncuları məişət hadisələrinə aid etmək düzgün deyil. Müasir turizm – geniş anlayışdır, belə ki, turizm xidmətində bir çox proseslər bir-biri ilə vahid şəkildə bağlıdır. Odur ki, xidmətin bir sistemində baş vermiş xəta (məsələn, qidalanma) nəticəsində turistlərlə bədbəxt hadisə baş verir (qida zəhərlənməsi) ki, bu da öz növbəsində bütün turist kompleksinin sıradan çıxmasına aparıb çıxarır (turist tələbatı aşağı düşür, cərimə sanksiyaları tətbiq olunur, turizmdən gələn gəlirlər azalır).

Elə ona görə də turistlərlə baş vermiş bədbəxt hadisələrin əksər hissəsi təkcə mürəkkəb marşrutlarda yox, «məişət» həyatı zamanı düşərgədə (ocağın odundan yanma, balta ilə yaralanma), mehmanxanada (hamamda sürüşüb yıxılmaq), restoranda (isti xörəkdən yanma) baş verir.

İstirahət edən insanın psixologiyası belədir. Gündəlik həyat qaydalarından qopub ayrılmağa can atarkən o, təhlükəli, düşünülməmiş və adi həyatda ona xas olmayan hərəkətlərə yol verir və bu zaman daha az ehtiyatlı və səhlənkar olur. Vəziyyətin bu cür inkişaf etməsinə həm də turistlərdə yaranmış belə

bir yanlış inam səbəb olur ki, onların şəxsi təhlükəsizliyi problemi onların yox, pul ödədikləri şəxslərin problemidir.

Bundan başqa yerli turistlərə, xüsusən də xarici ölkələrdə səyahət edənlərə pul ödədiyi hər şeyi yemək istəyi, mümkün qədər az pul ödəmək, daha hərtərəfli dincəlmək, həmçinin öz sağlamlığına və gigiyena etinasız yanaşmaq kimi xüsusiyyətlər xasdır. Bu mənada nümunə kimi Türkiyəni göstərmək olar. N.Aleksevskinin məlumatlarına görə 100 nəfər rusiyalı turistin 80 nəfəri bu və ya başqa səbəbdən orada sığortadan istifadə etməli olur. Səbəb isə çox mənasızdır. Belə ki, rusiyalı turistlər qidalanmada və yeməyin keyfiyyətində qənaət edərək daha ucuz kafelərdə və dönərxanalarda nahar edirlər. «İsveç stolu» hər şeyin dadına baxmağı, hətta bir-biri ilə uyuşmayan yeməkləri yeməyi nəzərdə tutur. Bir çox turistlər dənizdə çimdikdən sonra duş qəbul etməyi lazım bilmir. Qulaqlarda çirkin və duzun yüksək qatılıqda toplanması havanın yüksək temperaturu zamanı xəstəliyə səbəb olur. Unudurlar ki, isti ekzotik ölkələrdə təmiz su ilə yuyulmamış meyvə-tərəvəzi yemək olmaz.

Ekoturizmdə təhlükələrin bütün növlərini təhlükəli vəziyyətlərin meydana çıxmasında hadisələrin təbiətinə və turistlərin roluna (başqa adamların) görə təsnifləşdirmək olar. (Cədvəl 4-ə bax)

Təhlükələrin subyektiv (insanların səhvi ucbatından baş vermiş) və obyektiv (dağın təbiəti ilə şərtlənmiş) formalarını ayırırlar.

Eyni zamanda turizmdə risk amilləri onların təbiətinə görə təsnif olunur:

- travma təhlükəli – mexanizmlərin və predmetlərin yerdəyişməsi (daş uçqunu, sürüşmə və s.), təchizatın yaxşı olmayan erqonomik xarakteri (dar ayaqqabı, keyfiyyətsiz sığorta sistemi və s.), təhlükəli atmosfer hadisələri (ildırım çaxması və s.) nəticəsində;
- ətraf mühitin təsiri – kəskin hava şəraitinin ortaya çıxması təhlükəsi;



- yanğın təhlükəsi;
- bioloji təsir – insan orqanizminə zəhərli mikroorqanizmlərin düşməsi, heyvanların, zəhərli həşəratların, infeksiya daşıyıcılarının dişləməsi riski;
- psixofizioloji gərginlik – marşrutun çətin, təhlükəli sahələrinin keçilməsi zamanı turistlərdə fiziki və ruhi-əsəb yüklənməsinin meydana çıxması riski;
- ultrabənövşəyi və radioloji şüalanma təhlükəsi;
- kimyəvi təsir – zəhərli, qıcıqlandırıcı, sensibilizasiya edici (bir təsirə qarşı orqanizmin, onun hüceyrə və toxumalarının həssaslığının artması);
- yüksək toz və qaz yığılması – daha çox otaqlarda və nəqliyyat vasitələrində;
- digər risk amilləri – xidmət haqqında zəruri məlumatların olmaması ilə əlaqədar olan təhlükələr;
- spesifik risk amilləri – marşrutda təbii və texnogen katastrofların, digər fövqəladə vəziyyətlərin meydana çıxmasının mümkünlüyü; turizm obyektlərinin maddi-texniki bazasının (qaldırıcıların, yerdəyişmə vasitələrinin və s.) pis texniki vəziyyəti; marşrutu keçmək üçün turistlərin və xidmətçi heyətin aşağı hazırlıq səviyyəsi; marşrutda informasiya təminatının (marşrutun nişanlanması, hava proqnozu və s.) çatışmazlığı.

Cədvəl 4

**Ekoturistlər üçün təhlükələr**




Hər bir ölkədə təhlükəsizlik tələblərinin yerinə yetirilməsinə görə nəzarət turizm mövsümünün əvvəlində və carı yoxlamaların gedişində öz səlahiyyətlərinə uyğun olaraq müvafiq idarəetmə orqanları tərəfindən həyata keçirilir.

Hazırda dünyada turizmin müxtəlif növləri üçün xarakterik olan təhlükələrlə şərtlənmiş tipik bədbəxt hadisələrin dəstı mövcuddur. (Cədvəl 5-ə bax)



Cədvəl 5

**Ekoloji və macəra turizminin müxtəlif növləri üçün xarakterik olan təhlükələr və bədbəxt hadisələr**

| Turizmin növü | Təhlükənin xarakteri | Bədbəxt hadisələrin və zədələrin tipləri |
|---|---|---|
| Piyada | Dərə-təpəli relyefin xarakteri, ayaqqabının, paltarın düzgün seçilməməsi | Sürtülmə, əzələ bağlarının dartılması |
| Su ilə | Paltarın, təchizatın islanması, üzmə vasitələrinin çevrilməsi, suya düşmə, köpək balığının hücumu, dayvinq üçün ləvazimatların istifadəsində buraxılmış səhvlər | Soyuqdəymə xəstəlikləri, suda batma, soyuqdan donma, yaralanma, orqanizmdə mübadilə proseslərinin pozulması |
| Dağ ilə | Dağlıq relyefin təhlükələri (daş uçqunu, torpaq sürüşməsi, sel), günəş radiasiyası, meteoroloji şəraitin kəskin dəyişməsi, istiqamətin itirilməsi və s. | Sınıq, çıxıq, donvurma, göz xəstəlikləri, kəsici predmetlərlə (buzqıran, qarmaq və s.) yaralanmalar |
| Velosiped ilə | Yıxılma, ayaqqabının və paltarın düzgün seçilməməsi, ləvazimatların olmaması | Çıxıq, sınıq, beyin sirkələnməsi, gözə yad cisimlərin düşməsi |
| Qış | Qar relyefinin xarakteri, asılqan əşyaların buz bağlaması (ağacların budaqlarının, məftilin və s.), qar karnizlərinin qırılması, buz çatları vasitəsi ilə körpülərin uçması, sürüşmə | Çıxıq, sınıq, sürüşmə altında qalaraq boğulub ölmək, donmaq, isti qıdadan, qızdırıcının alovundan əməl gələn yanıq |
| Elmi | Vəhşi heyvanların hücumu, infeksiya | Yaralanma, çıxıq, beyin sirkələnməsi, orqanizmin müdafiə funksiyasının, immunitetin zəifləməsi, infeksion xəstəliklər |

Y.A.Ştyumerin verdiyi məlumata görə (1983) bədbəxt hadisələrin böyük hissəsini (87 %-ə yaxın) yüngül travma təşkil

edir ki, bunlar da əmək qabiliyyətinin itirilməsinə səbəb olmur. Əmək qabiliyyətini müvəqqəti (2 aya qədər) itirməyə səbəb olmuş orta travmalar on bədbəxt hadisədən birində rast gəlinir. Ağır (əmək qabiliyyətinin tam itirilməsi) və çox ağır (ölümlə nəticələnən) hallar – cəmi 3 %-ə yaxın olur, yəni ölümlə nəticələnən bir hala 20-30-a qədər orta ağırlıqlı travma, 100-200-ə qədər yüngül travma düşür.

Adətən, bədbəxt hadisələrin əksər hissəsi coğrafi olaraq təhlükələrin çox olduğu ərazilərlə yox, turistlərin daha çox gəldiyi və daha yaxşı mənimsənilmiş rayonlarla bağlıdır.

Məsələn, Rusiya Federasiyasının turizm rayonlarında bədbəxt hadisələr haqqında məlumatların 10 illik təhlili göstərir ki, Dağlıq Qafqaz turizm makrorayonunda bədbəxt hadisələr daha çox Mərkəzi Qafqazın çətin keçilən dağlarının yox, Qara dəniz ətrafı yamaclarda yerləşən Qərbi Qafqazın payına düşür. Ən az bədbəxt hadisələr ənənəvi olaraq yüksək təhlükəli ərazilər hesab olunan Uzaq Şərqdə və Kola yarımadasında qeydə alınmışdır. Belə vəziyyət təkcə rayona çoxsaylı turist axını və bədbəxt hadisələrin miqdarı arasında birbaşa əlaqə ilə deyil, həm də ilk baxışda paradoksal görünən, rayonun nəqliyyat üçün əlverişliliyi və bədbəxt hadisələrin miqdarı arasında olan birbaşa əlaqə ilə şərtlənmişdir. Bu isə yenə də turistlərin psixologiyası və davranışı ilə əlaqədardır.

Turizm infrastrukturunun inkişafının nəticəsi kimi istirahətə gələnlərdə onların müdafiəsi və təhlükəsizliyi haqqında yalan təsəvvür formalaşır. Onlar səhlənkar, sadəlövh, gözlənilməz və riskli hərəkətlərə meylli olurlar. Eyni zamanda, turistlər çətin keçilən rayonlarda olarkən və köməyin tezliklə gəlməyəcəyini bilərək həmişə ehtiyatlı olurlar, hər addımların diqqətlə götür-qoy edirlər. Bundan başqa, səyahətə hazırlıq daha diqqətlə və uzunmüddətli aparılır.

Turizm firmasına turistləri təkcə marşrutda davranış qaydaları ilə «qol çəkdirməklə» tanış etmək yox, həm də olduqları ölkədə, rayonda, şəhərdə, mehmanxanada mövcud olan davranış qaydaları ilə tanış etmək lazımdır. Ekoturizmdə yüksək dərəcəli təhlükəsizliyə bu işlə əlaqəsi olan bütün şəxslərlə yalnız, hərtərəfli profilaktiki iş zamanı nail olmaq olar: dövlət turizm idarələrindən başlamış turoperatorlara və bələdçilərə qədər bu tədbir hamıya aid olmalıdır.



### 4.3. Dağlıq ekoloji və macəra turlarında təhlükələrin profilaktikası

Turistlərin məlumatlandırılması, marşrutun hazırlanması və iqlimə uyğunlaşma.

Turizmdə bədbəxt hadisələrdən qaçmağın əsas üsulu onunla əlaqədar həyata keçirilən profilaktiki tədbirlərdir. Təhlükəli vəziyyətlərin faciəsi ondadır ki, orada baş verən hadisələr adətən sürətlə inkişaf edir. İnsanlar o zaman həmişə vaxt çatışmazlığı hiss edirlər, sanki seytnota düşürlər. Fikirləşməyə, vəziyyəti analiz etməyə və yeganə düzgün qərar qəbul etməyə vaxt olmur. Odur ki, təhlükələri və böhran vəziyyətlərini aradan qaldırmaq üçün əvvəlcədən hazırlaşmaq lazımdır. Praktikada təhlükəli vəziyyətlərin qarşısını almağın aşağıdakı metodları daha geniş yayılmışdır:

- «məlum naməlum» tipli obyektiv təhlükələr üçün «əvvəlcədən görmək mümkün olan, lakin nə vaxt və kimin başına gələcəyi aydın olmayan) – bütün mümkün aspektlərdə təhlükəli vəziyyətlərin meydana çıxması ehtimalı haqqında informasiyanın analizi (müvəqqəti, yəni ilin, sutkanın hansı dövründə, baş vermə ehtimalı daha çox olan, coğrafi olaraq – hansı ərazilər üçün ehtimalı daha çox olan və s.), davranış alqoritminin işlənib hazırlanması, ən çox ehtimal olunan təhlükəli vəziyyətlərin yaranması halında hərəkətlər və bu alqoritmin bələdçilər komandası və turistlərlə məşq edilməsi;

- subyektiv təhlükələr üçün – daha çox ehtimal olunan təhlükəli vəziyyətlərdə turistlərin xilasetmə vərdişlərinə yiyələnməsi, lazım olan bələdçilərin və ləvazımatların seçilməsi, səyahətdə iştirak edən turistlərin hazırlanmasına tələblərin, xidmət proqramının (səyahətin taktikasının), səyahət qrafiki və rejiminin işlənib hazırlanması, yuxarıda araşdırılmış informasiyaya uyğun olaraq səyahətin marşrutunun dəqiq işlənilməsi, Bu tədbirlərə etinasızlıq və ya onların həyata keçirilməsi üçün müəyyən vərdişlərin olmaması səyahətlərin təhlükəliliyinin artmasına aparır. Təsadüfi deyildir ki, özfəaliyyət turizmi təşkil olunmuş turizmdən həmişə daha təhlükəlidir. Bədbəxt hadisələrin sayı özfəaliyyət turistlərində turfirmalara nisbətən 2 dəfə yüksəkdir.

Göstərilən tədbirləri həyata keçirən zaman yadda saxlamaq lazımdır ki, turizmdə bədbəxt hadisələrin sayı xidmət olunmuş turistlərin sayı ilə düz mütənasibdir. Statistikaya görə bədbəxt hadisələr şənbə və bazar günləri, yəni istirahət günləri turlarında və bir günlük ekskursiyalarda daha təhlükəlidir. Odur ki, xidmət olunmuş turistlərin sayı artdıqca menecerlərdə əvvəllər bədbəxt hadisənin olmadığı üçün yalan təsəvvür yaranmamalıdır. Əksinə, təhlükəsizliyə xüsusi fikir vermək lazımdır.

Bundan başqa aşkar olmuşdur ki, sutkalıq dinamikada bədbəxt hadisələrin ən çox miqdarı günün ikinci yarısında baş verir. Bu isə həmin vaxtlarda turistlərin yorulması və mümkün təhlükələrə diqqətin azalması ilə izah olunur. Belə vəziyyət dağlıq şəraitdə həmçinin daş uçqunu təhlükəsinin artması (küləyin intensivliyinin artmasına görə), qar uçqunu, dağ çaylarında suyun səviyyəsinin yüksəlməsi (buzlaqların ərimәsinin güclənməsi) və s. ilə izah olunur.

Qeyd etmək lazımdır ki, «əlverişsiz hava şəraiti» və «təhlükəli təbiət hadisələri» anlayışları kifayət qədər şərti anlayışlardır. Təbiət hadisəsinin təhlükəli olduğuna aid edilməsinin meyarı



kimi turistləri bədbəxt hadisəyə apara biləcək belə bir vəziyyətin meydana çıxması ehtimalı xidmət edir.

Y.A.Ştyumerin verdiyi məlumata görə Rusiya Federasiyasında dörd il ərzində turistlərlə baş vermiş və ölümlə nəticələnmiş bədbəxt hadisələr arasında hava şəraitinin əsas və yeganə səbəb olduğu haqqında heç bir dəqiq məlumat yoxdur. Hətta ildırım, güclü külək, sel, fırtına kimi təbiət hadisələrindən zərərçəkmişlərin müdafiə vasitələri olmuşdur ki, bu da vaxtında hansısa profilaktik tədbirlərin görülmədiyi haqqında danışıqların əsassız olduğunu göstərir.

Yuxarıda qeyd olunduğu kimi turizmdə bədbəxt hadisələrin profilaktikası tədbirlərindən biri də qarşıdakı səyahətə turistlərin fiziki hazırlığıdır. Dağ turlarında o hər şeydən əvvəl insan orqanizminin yüksək dağ şəraitinə – havada oksigenin miqdarının, atmosfer təzyiqinin aşağı olduğu, günəş radiasiyasının yüksək olduğu və s.-lərə adaptasiyası (uyğunlaşması) ilə əlaqədardır. Odur ki, turistlərin belə şəraitə məqsədyönlü adaptasiyası prosesi – akklimatizasiyası (iqlimə uyğunlaşması) – da həmçinin bədbəxt hadisələrin profilaktikası üzrə tədbirlərin sırasına daxildir.

Hazırda bütün dünyada vaxtilə SSRİ-nin dağaçıxanları tərəfindən işlənib hazırlanmış aktiv iqlimə uyğunlaşma sxemindən istifadə olunur. Onun mənası istirahət üçün turistləri sərbəst buraxmaqla yüksəkliyə tədricən qalxmaqdan ibarətdir. Dağlara səyahətin xidmət proqramı akklimatizasiya (iqlimə uyğunlaşma) proqramına müvafiq olaraq qurulur. (Cədvəl 6-ya bax)

**Cədvəl 6**

**Aktiv iqlimə uyğunlaşmanın turist xidməti proqramına daxil edilməsi nümunəsi**

| vaxt | Turizm xidməti proqramı | |
|---|---|---|
| | Tur - Monblana çıxma | Tur - Elbrusa çıxma |
| 1-ci gün | Le Tour kəndinə ekskursiya Albert Ler Hut (2770 m) daxmasına qalxma və orada gecələmə | Çeqet şəhərinə ekskursiya 2800 m yüksəkliyə qalxma. Enmə və «İtkol» mehmanxanasında gecələmə |
| 2-ci gün | Aiguille du Tour zirvəsinə (3516 m) qalxma. Chamonix qəsəbəsinə enmə və orada gecələmə | Cankuat buzlağına ekskursiya. Lojnıy Qumaçi (3200 m) aşırımına qədər qalxma. Enmə və «İtkol» mehmanxanasında gecələmə |
| 3-cü gün | Tete Rousse (3150 m) daxmasına qədər qalxma | «Onbirlər sığıncağına» (4200 m) qalxma. Enmə və «Qara-Başı» (3800 m) sığınacağında gecələmə |
| 4-cü gün | Gouter (3818 m) daxmasına qədər qalxma və orada gecələmə | Pastuxova (4800 m) qayasına qalxma. Enmə və «Qara Başı» sığınacağında gecələmə |
| 5-ci gün | Monblana (4808 m) çıxma | İstirahət günü. Azay (2800 m) qəsəbəsinə enmə. «Qara Başı» sığınacağında gecələmə |
| 6-cı gün | Chamonix qəsəbəsinə enmə | Elbrus (5642 m) dağına çıxma |



## 4.4. MDB ölkələrində ekoloji və macəra dağ turizmində bədbəxt hadisələrin strukturu və səbəbləri

MDB ərazisində ekoloji və macəra dağ turizmində bədbəxt hadisələrin strukturu və səbəblərinin analizi 1978-1981, 1989-1990 və 1999-2001-ci illərin məlumatları əsasında aparılmışdır.

Dağ turizmində və alpinizmdə bədbəxt hadisələrin göstəricilərinin turizmin digər növləri üzrə analoji məlumatlar toplusu ilə müqayisəsi göstərir ki, dağ turizmi itkilərə görə liderlik edir. Belə ki, 1987-ci ildə zərərçəkənlərin miqdarı ümumi sayın 71,0 %-ni, 1988-ci ildə – 31,8 %-ni, 1989-cu ildə isə – 69,8 %-ni təşkil etmişdir.

Analiz göstərdi ki, ənənəvi olaraq Qafqaz üzrə səyahətdə ən çox sayda bədbəxt hadisə baş verir: 1989-cu ildə 45,3 %. Bu göstəricilərə görə stabil olaraq «liderlər» sırasında olan Pamirin payına zərərçəkənlərin ümumi sayının 29,7 %-i düşür. Eyni zamanda o ölənlərin sayına görə (18 adam) də liderlik edir. Tam özfəaliyyət turizmində, yəni idman turizmi və alpinizm orqanları tərəfindən nəzarət olunmayan turizmində zərərçəkmişlərin sayının çox olması – 21,9 % zərərçəkmiş və 13 nəfər həlak olmuş şəxsin mövcudluğu da özünə diqqəti cəlb edir.

Araşdırılan dövrdə qrupların və iştirakçıların sayının artması tendensiyası müşahidə olunmuşdur. Yalnız 1989-cu ildə qrupların və iştirakçıların sayının qismən azalması qeyd olunmuşdur ki, bu da Qafqaz və Pamir-Alay rayonlarında millətlərarası münasibətlərin mürəkkəbləşməsi ilə izah oluna bilər.

Bütün illər üzrə nisbi itkilərə görə məlumatları məşhur bir həqiqət də təsdiq edir ki, səyahətlərin və yürüşlərin mürəkkəbliyi artdıqca zərərçəkənlərin nisbi sayı (faizi) də artır. Əksər hallarda zərərçəkənlərin miqdarı iştirakçıların ümumi misli sayından 1 % az olur. Yalnız 1987-ci ildə VI kateqoriyalı mürəkkəbliklə yürüşlərdə itkilər 1,57 %, 1989-cu ildə isə V kateqoriyalı mürəkkəblikli yürüşlərdə – 1, 16 % təşkil etmişdir.

Bədbəxt hadisələrin ortaya çıxması vəziyyətinin öyrənilməsi müəyyən etməyə imkan verdi ki, onların əsasında – dağ turizmi üçün tipik olan qəza növləri durur və bunlar da əvvəlki illərin qəza növlərindən çox az fərqlənir.

1989-cu ildə baş vermiş qəzalar içərisində birinci yerdə enişdən qopardılmadır ki, bu 15 dəfə baş vermiş və bu zaman 20 adam (9-u ölüb) zərər çəkmişdir. Zərərçəkmişlərin ümumi sayının 31,3 %-ni bu qəza növü təşkil edir. İkinci yerdə – 6 dəfə baş vermiş, zərərçəkənlərin 26,6 %-ni təşkil edən (17 nəfər) qar uçqunu qəzasıdır. Üçüncü yeri zərərçəkmişlərin sayma görə – 15,6 % (10 zərərçəkmiş və 45 ölmüş) göstərici ilə daş uçqunu tutur. Bu üç qəza növü uzun illər ərzində dağ turizmində baş vermiş bütün qəza növləri arasında qabaqcıl yerləri tutur. Digər qəza növləri içərisində həmçinin bədbəxt hadisələr arasında müntəzəm olaraq yer tutan və hər il 2-3 insan həyatına son qoyan «boğulmanı» qeyd etmək lazımdır. 1989-cu ildə dağ səyahətlərində 4 nəfər boğulmuşdur ki, bu da zərərçəkənlərin ümumi sayının 6,3 %-ni təşkil edir.

Bədbəxt hadisələrin ortaya çıxması səbəbinin əsas hissəsi turistlərin davranışı, hər şeydən əvvəl isə zərərçəkmişlərin özlərinin davranışı ilə şərtlənmişdir.

«Pis hazırlıq» tipi səhvlərin böyük bir qrupunu birləşdirir və səyahətə turun təşkilatçılarının və turistlərin əvvəlcədən hazırlıqsız olduqlarını müxtəlif tərəflərinin ortaya çıxması faktını əks etdirir. Səhvlərin bu tipi ən çoxsaylıdır və ümumi səhvlərin 35,7 %-ni təşkil edir. Şəxsi hazırlığa aid tiplər arasında yalnız sadə səyahətlərdə qeyd olunan texniki və taktiki hazırlığı olmayanlar liderlik edir (32,5 %). Əgər təşkil olunmuş turizmdə taktiki səhvlərə görə məsuliyyət bütövlükdə turoperatorların və bələdçilərin üzərinə düşürsə, özfəaliyyət turizmində bu məsuliyyət iştirakçıların öz üzərilərinə düşür. Yerlərdə olduğu ərazinin səmtini zəif müəyyən etməklə ifadə olunan, səyahət edilən rayonu pis bilmək hallarının sayı həddən artıq çoxdur. Turistlərin öz gücü ilə xilasetmə işlərini apara bilməməsi faktı və bunun özfəaliyyət səyahətləri üçün daha çox xarakterik olması da təhlükəlidir.



«Texniki səhvlər» tipi konkret meydana çıxma formalarını xarakterizə edən şəxsi səhvlərin beş yarımtipini birləşdirir. Belə səhvlər onların ümumi sayma nisbətən aparıcı yerlərdən birini tutur (17,8%), əsas səhvlərin sayına görə isə birinci yerə çıxır (48,2 %). Sığorta ilə bağlı səhvlər (sığortanın olmaması və ya özünü sığorta, keyfiyyətsiz sığorta) daha çox çəkiyə malikdir. Bu tip səhvlər hamısından çox mürəkkəb səyahətlərdə ortaya çıxır.

«Taktiki səhvlər» tipi yeddi yarımtipi birləşdirir. Bunlardan ən çox rast gəlinənlərin siyahısına aşağıdakılar daxildir: «marşrut üzrə hərəkət qrafikindən geri qalma və ya onu qabaqlama» və «təhlükəni proqnozlaşdırmağı bacarmamaq». Birinci halda bu turistlərdə dağ xəstəliyinin inkişaf etməsinə və iqlimə uyğunlaşmanın kifayət etməməsinə, həmçinin xroniki xəstəliklərin ağırlaşmasına gətirib çıxarır. Bədbəxt hadisələrin təhlili göstərir ki, bu zaman taktiki səhvlər 20,1 % təşkil edir. Sayına görə bu tip səhvlər ikinci yeri tutur. Taktiki səhvlərin ən çox miqdarı turistlərin nadir hallarda getdiyi marşrutlardakı mürəkkəb səyahətlərin payına düşür. Ənənəvi olaraq «gec çıxış» və «uzunmüddətli kəskin hava şəraitindən sonra marşruta çıxış» tipli səhvlərin payı çox olur. Turist qrupları rəhbərlərinin və bələdçilərin hazırlığının aşağı səviyyədə olduğunu göstərən «hərəkət yolunun düzgün seçilməməsi» kimi səhvlərin payı da qeyri-adi dərəcədə yüksəkdir. «Zəif rəhbərlik» – səhvin ənənəvi tipidir. O bütün səhvlərin 9,4 %-ni təşkil edir. Görünür ki, turistlərin təhlükəsizliyinin təmin olunmasından özfəaliyyət turistlərinin qrup rəhbərlərinin və bələdçilərinin rolu həddən artıq böyükdür. Bir çox taktiki, texniki və təşkilatı səhvlərin zəif rəhbərliklə əlaqədar olduğu faktı indi heç kimdə şübhə doğurmur.

Turistlərin təkcə gəzməkdə özünü göstərdiyi intizamsızlığı da, həmçinin tez-tez faciə ilə qurtarır. Dağ turizmində son illər

bədbəxt hadisələrin səbəbi kimi intizamsızlıq daha çox təsadüf edilir.

«Turist» stajının turistlərin yaşı ilə sıx bağlı olduğu müşahidə olunmuşdur. Dünyanın bir çox psixotexnikləri əmək fəaliyyətinə görə statistik məlumatlardan istifadə edərək belə bir nəticəyə gəlmişlər ki, 25 yaşma qədər olan şəxslər bədbəxt hadisələrə qarşı çox yüksək meylliyə malikdir. Gənclik amili ona xas olan bütün xüsusiyyətləri ilə birlikdə özü-özlüyündə travmaların alınmasına kömək edir. Halbuki, travmatizmi yaşla yox, stajla əlaqələndirmək daha məqsədəuyğundur. Travmatizmin ən çox baş verməsi və ya səyahətçinin «turist» həyatında ilkin laqeydlik macəra turizminin mənimsənilməsinin başlanğıcında (3-4-cü il) olur. O, bilik və təcrübənin az olması, mürəkkəb vəziyyətlərdə düzgün qərar qəbul etmək və tez oriyentasiya etməyi bacarmamaqdan irəli gəlir. Travmatizm ikinci dəfə daha çox təqribən 7-9-cu illərdə müşahidə olunur. Onun səbəbi artıq ehtiyatsızlıq amili, onda olan bütün imkanlardan turistlərin istifadə etməməsi və ya hazırlıq zamanı müvəffəqiyyətsizliyə uğramaqdır. O, sanki dağlarla «zarafat» edir, halbuki onun çox olmayan stajı, birtərəfli və tam olmayan təcrübəsi hələ ona bu hüququ vermir. Öz imkanlarını belə həddən artıq qiymətləndirmək və həddən artıq özünə inam sonda bədbəxtliyə gətirib çıxarır. İkinci laqeydlik daha çox yüksək intellektual səviyyəli və özfəaliyyətinə gözəl münasibət bəsləyən, yaxşı turist hazırlığı olan adamlarda aşkara çıxır. Odur ki, dağ bələdçisi, qrup rəhbəri həm gənc turistlərə qarşı, həm də artıq xeyli staja malik olan səyahətçilərə qarşı çox diqqətli olmalıdır.



## 4.5. Ekoloji və macəra dağ turizmində təbii təhlükələr və davranış qaydaları

Ekoloji və macəra dağ səyahətlərində baş verməsi mümkün olan əsas təbii təhlükələri qısaca xarakterizə edək.

Daş uçqunu təhlükəsi süxurların küləyin təsiri ilə aşınması nəticəsində dağın dağılması prosesi ilə şərtlənmişdir. Daş uçqununa səbəb kimi həmçinin turistlərin ehtiyatsız hərəkəti – hərəkət zamanı yerdə qalmış daşın atılması, qayadan qopub ayrılmış daş parçasına söykənilməsi və s. ola bilər. Adətən, məhz daş uçqununun bu növü bədbəxt hadisələrə səbəb olur. Onun qurbanları daş uçqununun baş verdiyi nöqtədən aşağıda hərəkət edən və qayalıq relyefin aşağı formalarında yerləşən turistlər olurlar.

Daş uçqunundan qaçmaq üçün aşağıdakı əsas qaydalara riayət etmək lazımdır:

1) təpəliklərdə daş uçqunu ehtimalının minimum olduğu daha çox səhər saatlarında hərəkət etməli;

2) bütün turistlər daş təhlükəsi olan sahələrdə hərəkət edən zaman başlarına kaska (qoruyucu papaq) qoymalıdır;

3) turistlər arasında minimum ara məsafəsi olmaqla sıx qruplar halında hərəkət etmək lazımdır, çünki bu zaman düşən daş arxadan gələn turistlər tərəfindən dayandırılacaq;

4) əgər daş uçqununu dayandırmaq artıq mümkün deyilsə, o zaman aşağıdakı gedənləri «Daş!» deyə qışqıraraq xəbərdar etmək lazımdır. Bu zaman sonuncu turist təcili olaraq qayalıqlarda olan sığınacaqlarda gizlənməlidir. Əgər belə sığınacaqlar yoxdursa, o zaman turistlər arxa çantasının altında gizlənməlidirlər.

Dağlarda daha bir təbii təhlükə hadisəsi qar uçqunudur. Qeyd etmək lazımdır ki, qar uçqunundan xilas olmağın ən yaxşı üsulu onun altına düşməməkdir. Mailliyi $12^0$-dən çox olan yamaclarda qar uçqunu ola bilər. Meşəlik zonalarda məlum

səbəblərə görə qar uçqunu baş vermir ki, bunu qarlı zonalara aid etmək olmaz.

Qarın vəziyyətindən asılı olaraq: yaş tozşəkilli qar uçqunu, qar «taxta»sından qar uçqunu ayrılır. Birinci, yüksək qar sıxlıqlı və dayanan zaman onun tez kipləşməsi, ikinci – boğucu təsiri olan qar tozu və güclü dalğa zərbəsi, üçüncü – geniş hərəkət cəbhəsi təhlükəsidir. Hər bir dağlıq rayon üçün qar uçqunu əmələ gəlməsi təhlükəsinin öz şəraiti xarakterikdir. Qar uçqunu təhlükəsi üzrə məlumatlar nəzarət xilasedici məntəqələrin işçiləri tərəfindən toplanır və təhlil edilir.

Qar uçqunu təhlükəsinin əsas əlamətləri aşağıdakılardır:

- güclü qar yağması;
- havanın kəskin dəyişməsi;
- havanın kəskin dəyişməsi;
- güclü külək nəticəsində qarın sovrulması;
- xarakterik səslə qarın yatması;
- öz-özünə əmələ gələn və yamac üzrə qar topalarının yuvarlanması – “ilbizin” əmələ gəlməsi;
- öz ağırlığı altında qarın aşağı “sürüşməsi”.

Qar uçqunu quyusunda qar qatlarının yerləşməsini “oxumaqla” qar uçqunu təhlükəsini daha dəqiq təyin etmək olar. Bu işi təşkil olunmuş turizmdə bələdçilər yerinə yetirir.

Qar uçqunu təhlükəsi zamanı davranış qaydaları aşağıdakılardır:

1) qar uçqunu təhlükəsi olan yamac üzrə hərəkət etməkdən qaçmağa çalışmaq lazımdır;

2) sakitliyə riayət etməklə, bir qayadan o birisinə hərəkət etməklə lazım olduğu halda yamacı kəsib keçmək, müşahidəçi qoymaq və tək-tək, mümkün qədər tez və yüngül yerişlə getmək. Bundan əvvəl kürək çantasındakı boyun qayışını boşaltmaq, əlləri xizək ağacının qayışlarından çıxarmaq, paltarları düyməmələmək, qar uçqunu mayakını qoşmaq və ya qar uçqunu məftilini buraxmaq lazımdır;



3) qar sürüşməsi zamanı ondan qaçmağa çalışmaq lazımdır. Əgər bu mümkün deyilsə, o zaman kürək çantasını, xizəkləri, onun ağaclarını atmaq və uçqunda “üzürmüş” kimi güclü üzgəc hərəkətləri etməklə uçqunun səthində qalmağa çalışmaq lazımdır. Əgər uçqun dərinə çəkib aparsa, o zaman əllərlə üzü tutmaq və ağızın ətrafında nəfəs almaq üçün boş sahə saxlamaq lazımdır. Qar uçqunu dayandığı anda şaquli olaraq öz vəziyyətini təyin etməyə çalışmaq lazımdır (bunun üçün ağızdan tüpürcək buraxmaq vacibdir). Sonra cəld hərəkətlərlə ağız boşluğu ətrafında sahəni genişləndirmək və ya əgər yuxarıda işıq görünürsə, səthə çıxmağa çalışmaq lazımdır;

4) əgər insanların səsi eşidilirsə, qar uçqunu dayanan zaman insanları uca səslə köməyə çağırmalı; Qar – çox güclü səs izoləedicidir;

5) çadırı yalnız qar uçqunu təhlükəsi olmayan yerdə – karniz formalı qayaların müdafiə etdiyi təpəlik ərazilərdə qurmaq olar;

6) qar uçqununda itkin düşənlərin axtarışına turist qruplarının köməyi ilə təcili olaraq başlamaq lazımdır.

Dağlarda adları çəkilənlərlə yanaşı birlikdə turizmin təhlükəsizliyinə ciddi təhlükə yarada bilən bir sıra təbii təhlükələr də müşahidə olunur:

- qar düşməsi istiqamətin müəyyən olunmasının, hərəkətin və çadırın qurulmasının mürəkkəbliyi ilə təhlükəlidir;
- külək və qar fırtınası təpəlik ərazilərdən keçən marşrutlarda çox böyük gücə malik ola bilər, gözlənilmədən əsən küləyin ani şiddəti isə tarazlığın itməsinə, çadırın cırılmasına və s. səbəb ola bilər;
- yağış və sulu qar turistlərin orqanizminin həddən artıq soyumasına səbəb ola bilər;
- ildırımlı yağış – dağlarda ən təhlükəli təbiət hadisəsidir. Onun yaxınlaşması zamanı təpəlik ərazilərdən qaçmaq, bütün metal ləvazimatları kənara qoymaq və qayaların altında quru yer tapıb gizlənmək lazımdır;

- dumanlı havada əsas təhlükə – görüntünün itməsi və qar uçqunu təhlükəsi olan yamaca çıxmağın mümkünlüyüdür;
- buzlaqlarda yaranmış çatlar, xüsusən də qarla örtülü buzlaqlarda buzun altına düşmək təhlükəsinə görə qorxuludur. Odur ki, turistlər qarla örtülü buzlaqlarda yıxılanın çıxarılması kimi hərəkətə hazır vəziyyətdə dəstə halında getməlidirlər.

### 4.6. Ekoloji və macəra turizmində axtarış və xilasetmə işlərinin təşkili

Artıq qeyd olunduğu kimi turizm həddən artıq mürəkkəb sistemdir. Onun fəaliyyət göstərməsi bir çox amillərdən, xüsusən də insan amilindən asılıdır. Odur ki, hətta bədbəxt hadisələrin hərtərəfli profilaktikası da onlardan tam qaçmağı mümkünsüz edir.

Bununla əlaqədar olaraq baş vermiş bədbəxt hadisələrin nəticələrinin tez və səmərəli şəkildə neytrallaşdırılması haqqında sual ortaya çıxır. Göründüyü kimi zərərçəkmişlərin həyatı, sağlamlıqları uğrunda mübarizəyə daha operativ şəkildə bələdçilərin rəhbərlik etdiyi turist qruplarının özü başlaya bilər. Bu həmçinin mürəkkəb hava şəraiti ucbatından (duman, çovğun və s.) və ya bir və ya bir neçə turistin özünü pis hiss etdiyinə görə yollarını azdıqlarından, geridə qaldıqlarından aparılan axtarış işlərinə də aiddir. Lakin çətin vəziyyətlərdə və ya zərərçəkmişləri daşımaq üçün Fövqəladə Hallar Nazirliyinin axtarış-xilasetmə dəstələri və yaxınlıqda yerləşən turist qruplarının xilasetmə dəstələri işə cəlb oluna bilərlər.

Xilasedici dəstənin vəzifəsi ondan ibarətdir ki, qısa müddətdə zərərçəkmişləri relyefin mürəkkəbliyindən, hava şəraitindən və marşrutun uzunluğundan asılı olmayaraq xəstəxanalara çatdırsınlar. Odur ki, bütün turistlər müxtəlif relyef formalarında zərərçəkmişləri daşımaq və ilkin tibbi yardım göstərmək vərdişlərini təkmilləşdirməlidirlər.



Xilasetmə işlərinin müvəffəqiyyətlə aparılması bütövlükdə bələdçilərin və turistlərin hazırlıq dərəcəsindən, onların təcrübəsindən, ixtisaslaşmasından asılıdır. Yüksək mənəvi keyfiyyətlər, cəsarət, dözüm və fərasət – dağlarda bədbəxtliyə düçar olanlara müvəffəqiyyətlə köməklik göstərmək üçün lazım olan keyfiyyətlərdir.

İlk xilasedici dəstələr keçmiş SSRİ-də XX əsrin 30-cu illərində yaradılmağa başladı. Onlar daha çox Qafqazda yerləşmişdir (Bəzəngi, Çəgəm, Adır-su, Elbrus, Dombay). 1938-ci ildə sonralar ilk xilasedici məntəqələrə rəhbərlik etmiş xilasetmə xidmətinin işçilərinin hazırlığı üzrə ilk kurslar təşkil olunmuşdur. II Dünya müharibəsi zamanı onlar hamısı dağılmışdır. Xilasedicilərin hazırlığı 1947-ci ildə yenidən bərpa olunmuş və həmin vaxtdan etibarən hər il qısa müddətli kurslar aparılır. Turizm və alpinizm təlimatçılarının hazırlığı proqramına «Xilasetmə işləri» bölməsi daxil edilmişdir.

1958-ci ildə bütün il boyu fəaliyyətdə olan və 1960-cı ildən Ümumittifaq həmkarlar ittifaqının sərəncamına verilən nəzarət-xilasetmə məntəqələrinin yaradılmasına başlanmışdır. Nəzarət-xilasetmə məntəqəsinin (NXM) fəaliyyətinin əsasını – bədbəxt hadisələrin profilaktikası, xilasedici kadrların hazırlığı və fəlakətə düçar olanlara kömək edilməsi təşkil edir.

Bədbəxt hadisələrin qarşısının alınması məqsədi ilə NXM işçiləri turistlərin düşərgələrinin, cığırlar, aşırımlar, dolaylar və zirvələrdən keçən marşrutlarında olduğu yerin yoxlanılmasını həyata keçirir, qar uçqunu təhlükəsi haqqında məlumatların toplanması və müşahidə aparır, hava haqqında proqnozların yayılması ilə məşğul olur, rayonda səyahətin xüsusiyyətləri üzrə turistlərə məsləhətlər verir, qrupların marşrutdan qayıtmasının nəzarət müddətlərini işləyib hazırlayır.

Bədbəxt hadisələr haqqında informasiya daxil olduğu halda NXM-nin işçiləri axtarış və xilasetmə işlərinə rəhbərliyi öz üzərinə götürür və onları koordinasiya edir, zərərçəkmişlərə təcili

tibbi yardım göstərmək üçün tədbirlər görür, hadisənin miqyasından və vəziyyətdən asılı olaraq digər qruplardan olan turistləri xilasetmə işlərində iştirak etmək üçün cəlb edir.

NXM işçiləri bədbəxt hadisələrin başvermə səbəbinin araşdırılmasını aparır və turizmin təhlükəsizliyinin təmin olunmasında turist qruplarının rəhbərlərinin və bələdçilərinin gördüyü tədbirlərə nəzarəti həyata keçirir.

Rusiyada xilasedici dəstələr adətən, alpinistlərin və turistlərin təlim-məşq toplantısı iştirakçılarından yaradılır. Onlar 6-12 nəfər yaxşı hazırlanmış insandan ibarətdir və ixtiyarında xilasedici fond-xilasetmə işlərinin aparılması üçün vacib olan ləvazimatlar və ərzaqlar olan xilasedici dəstənin rəisi tərəfindən rəhbərlik edilir.

Axtarış və xilasetmə işləri qarşıya qoyulmuş vəzifələrin xarakterinə uyğun olaraq aparılır: əlaqə kəsilmiş və ya nəzərdə tutulmuş vaxtda qayıtmamış qrupun axtarışının təşkili, bədbəxtlik üz verənlərə kömək etmək üçün çıxış həyata keçirilir. Çox vaxt axtarış və xilasetmə işləri qarşılıqlı əlaqəli olur – axtarış işləri xilasetmə işlərinə keçə bilər və əksinə, xilasetmə işləri aparılan zaman məsələn, qar uçqununda qəzaya düşmüş qrupun ayrıca bir üzvünün axtarılmasını tələb edən vəziyyət ortaya çıxa bilər.

Axtarış qrupu aşağıdakı hallarda öz işinə başlayır:

- turist qrupu nəzərdə tutulmuş vaxtda geri qayıtmamışdırsa və onların təhlükəsiz yerdə olduqları barədə dəqiq məlumat yoxdursa;
- daimi əlaqə saxlamaq üçün bütün vasitələrə malik olan (radiostansiya, siqnal raketləri və s.) qrupla əlaqə itərsə;
- turist qrupu marşrutun mürəkkəb sahəsində olduğu zaman qəflətən və kəskin şəkildə hava şəraiti pisləşərsə.

Axtarışa ləvazimatla, qida ilə, tibbi vasitələrlə, rabitə və siqnalizasiya ilə, həmçinin yerlərə baxmaq üçün binoklla təchiz olunmuş, dörd adamdan çox olmayan mobil qruplarla çıxırlar.



Onların vəzifəsi – itənləri tapmaq, onlara ilk tibbi yardım göstərmək, zərərçəkmişləri köçürmək üçün hazırlamaq, xilasedici dəstənin çıxışı üçün lazım olan məlumatları NXM-ə çatdırmaq, həmçinin mümkün qədər xilasedici dəstənin yaxınlaşmasını asanlaşdırmaqdır (qarda iz açmaq, mürəkkəb və təhlükəli yerlərdə kəndir çəkmək və s.).

Xilasedici dəstənin çıxışı bədbəxt hadisə haqqında informasiya alındığı halda həyata keçirilir. Adətən, altı nəfərdən təşkil olunmuş əsas dəstə aşağıdakı şəkildə formalaşır:

1) iki xilasedici ilk tibbi yardım göstərmək və daşımanın üsulunu təyin etmək üçün rabitə vasitələri və tibbi ləvazimatlarla birbaşa qəza yerinə gedir;

2) qalan dörd nəfər xilasetmə işlərini həyata keçirmək üçün onların arxasınca gələn yüklü dəstə üçün yol hazırlayaraq qəza yerinə hərəkət edir.

Xilasetmə işlərinin planı tərtib olunanda aşağıdakılar təyin olunur:

- hər bir xilasetmə və axtarış dəstəsi üçün ümumi və konkret mərhələli vəzifələr;
- dəstələrin nümunəvi hərəkət vaxtının hesabatı;
- dəstələrin və onlarda olan xilasedicilərin sayı;
- rabitə və siqnal sxemi;
- qarşısında qoyulmuş vəzifəyə uyğun olaraq hər bir dəstənin təchizatı.

## 4.7. Azərbaycan Respublikasında əcnəbi turistlər üçün təhlükələr

Təhlükəsizlik – turizmdə ən vacib məsələlərdən biridir. Ekoloji turizm bu mənada istisnalıq təşkil etmir. Əksinə, bu turizm növü ilə məşğul olanların səyahət etmək istədiyi ərazilər adətən az məskunlaşmış və ya məskunlaşmamış ərazilər olub, çox vaxt insan ayağı dəyməmiş yerlər hesab olunurlar. Artıq bu

faktın özü ekoloji turizmlə məşğul olanların təhlükəsizliyinə daha çox diqqət ayrılmasını tələb edir. Ölkəmizdə ekoloji turizm nöqteyi-nəzərdən təhlil olunduqda, belə ərazilərin daha çox Ermənistan silahlı qüvvələri tərəfindən (20 %-ə yaxın) keçən əsrin 90-cı illərində işğal olunduğu və bu gün də işğal altında qaldığı, həmçinin bu ərazilərlə həmsərhəd olan rayonların və işğalçı Ermənistanla həmsərhəd rayonların torpaqları olduğu nəzərə alınmalıdır.

Belə ki, həmin ərazilərdə I Qarabağ müharibəsi zamanı qoyulmuş və ya erməni kəşfiyyat qruplarının basdırdığı minalar, işğal olunmuş ərazilərdən su ilə axdılmış üzən minalar, təhlükəli radioaktiv maddələr, zəhərli kimyəvi birləşmələr və onların tullantıları təkcə yerli əhali üçün deyil, həm də turistlər üçün təhlükə mənbəyidir. Bu ərazilərdə müxtəlif yoluxucu xəstəliklərə tutulmuş gəmirici və yırtıcı heyvanların tez-tez görünməsi də təsadüfi hadisə olmayıb, düşmənin planlı şəkildə həyata keçirdiyi tədbirlərin bizə məlum olan hissəsidir.

Odur ki, təhlükəsizlik baxımından bu yerlərə turizm marşrutlarını hələlik təxirə salmaq və ya çox ciddi təhlükəsizlik tədbirləri görülməli, əcnəbi qonaqlara bu barədə ətraflı məlumat verilməlidir.

Son vaxtlar ABŞ, Böyük Britaniya və İsrail kimi dövlətlər öz vətəndaşlarını internet saytlarında Azərbaycana getməkdən çəkindirməsi və burada onların terror təhlükəsi ilə üzləşmək ehtimalı olduqlarını yazmaları da həmin ölkələrin xüsusi xidmət orqanlarında belə təhlükələrin olması haqqında informasiyanın mövcudluğundan irəli gəlir. Təəssüflər olsun ki, bu zaman həmin saytlarda ehtimal olunan təhlükənin dəqiq mənbəyi və onu həyata keçirməyə çalışan terrorçu təşkilatların adı və ünvanı açıqlanmır. Lakin 90-cı illərin acı təcrübəsi bizi daha çox bu mənfur «qonşulardan» qorunmağa sövq edir. Eyni zamanda digər dünyada tanınmış terrorçu təşkilatları da nəzərdən qaçırmaq olmaz.



Son vaxtlar Avropa İttifaqının aparıcı dövlətləri olan Almaniya və Fransanın dövlət orqanları öz internet saytlarında Dağlıq Qarabağın və onun ətrafındakı ərazilərin Azərbaycan ərazi olduğu və Ermənistan ordusu tərəfindən işğal olunduğu qeyd olunması və bu səbəbdən də o yerlərə hər hansı formada səyahətin təhlükəli olduğundan öz vətəndaşlarını xəbərdar etməsi, həmçinin oradakı qondarma qurumun viza rejimini təsdiqləyən möhürün vurulduğu pasportların sahiblərinin sonradan Azərbaycan Respublikası ərazisinə girişinin bizim dövlət qurumları tərəfindən qadağan olunduğunu açıqlaması, bir tərəfdən həmin ölkələrin Azərbaycan Respublikasının ərazi bütövlüyünü tanımasını göstərirsə, digər tərəfdən bizim yuxarıda dediklərimizi təsdiqləmiş olur.

Ölkəmizdə insanların tarixən müxtəlif dinə, irqə və etnik qrupa məxsus olan digər insanlara qarşı tolerant olması və bu səbəbdən də Azərbaycanda, xüsusən də onun mərkəzi şəhərlərində dini və irqi zəmində toqquşmaların qeydə alınmaması, qonaqpərvərliyi dünyanın bütün aparıcı dövlətləri tərəfindən xüsusi qeyd olunur. Lakin bütün bunlar ekoloji turizm üzrə ölkəmizə gəlmiş qonaqları baş verə biləcək digər təhlükələrdən: oğurluq, quldurluq, soyğunçuluq, xuliqanlıq, dələduzluq, zorakılıq, etibardan sui-istifadə etmə və s. kimi hallardan sığortalamır.

Eyni zamanda gəlmə turistlərə nadir və əntiq əşyaların ölkə ərazisindən çıxarılmasına qanunla icazə verilmədiyi, əks təqdirdə cəzalandırılacağı, yabanı flora və fauna növlərinin ölkədən çıxarılmasının «Heyvanlar aləmi haqqında» Qanunla və digər qanunvericilik aktlarına uyğun həyata keçirildiyi bildirilməli və qanunvericiliyin pozulduğu zamanı baş verə biləcək məsuliyyət növləri onların diqqətinə çatdırılmalıdır.

Ekoloji turizmdə ərazinin sanitar-epidemioloji vəziyyəti xüsusi əhəmiyyətə malikdir. Belə ki, ekoloji turlar az mənimsənilmiş, təbii ekosistemlərin qorunub saxlandığı, o

cümlədən onların elementi kimi yoluxucu xəstəliklərin təbii ocaqları olan ərazilərdə həyata keçirilir.

İnfeksion xəstəliklərə yoluxma riski isti iqlimli ölkələrdə yüksək olur ki, bizim ölkəmiz də onların sırasındadır. Burada aşağıdakı xəstəliklərə yoluxma ehtimalı daha böyükdür: malyariya, sarı qızdırma, qarın yatalağı, QİÇS-infeksiya, hepatit B, hepatit C və s. Odur ki, dünyanın digər subtropik və mülayim iqlimli ölkələrində olduğu kimi burada da xəstəliklərə yoluxmamaq üçün turistlər bir sıra profilaktiki tədbirlər görməli: şəxsi gigiyena qaydalarına əməl olunmalı, çiy su içilməməli, meyvə və tərəvəz yeməzdən qabaq yuyulmalı, sterilizasiyadan keçməmiş süd və süd məhsulları istifadə olunmamalı, kiçik yeməkxanalarda və yol kənarında hazırlanan xörəklərdən mümkün qədər qidalanmamalı, cinsi əlaqədən çəkinməli, ev heyvanları ilə təmasdan qaçmalıdırlar.

Ekoturizm zamanı hər bir turistin tibbi ləvazimat qutusu olmalıdır. Orada getdiyi ölkəyə uyğun antiseptik və göbələyə qarşı müxtəlif mazlar, antibiotiklər, allergiyaya qarşı preparatlar, ağrıkəsici dərmanlar, birdəfəlik şprislər, sarğı materialları, dezinfeksiya edici maddələr – yod, marqanes, təmiz spirt və s. olmalıdır. Bütün bunlar ilkin tibbi yardım zamanı istifadə olunmalıdır. Lakin şəhərə qayıdan zaman mütləq həkimə müraciət etmək lazımdır. Bunun üçün yaşadığınız otelin müdiriyyətinə, səfirliyə və ya konsulluğa müraciət olunmalıdır.

### 4.8. Beynəlxalq turistlər üçün təhlükəsizlik üzrə yaddaş

Turistlərin təhlükəsizliyinin təmin olunmasının yuxarıda araşdırılmış xüsusiyyətlərini nəzərə almaqla, həmçinin ABŞ Dövlət Departamentinin tövsiyələri əsasında aşağıda təqdim olunmuş beynəlxalq turistin fərdi təhlükəsizlik yaddaşı tərtib olunmuşdur:



**1.Ön söz**

Əziz səyahətçilər. Yadda saxlayın ki, ancaq Siz səyahətin təhlükəsizlik və uğurlu olmasında daha çox maraqlısınız. Meydana çıxmış təhlükənin qarşısını almaq, dəymiş zərəri neytrallaşdırmaq və əvəzini ödəməkdən, xüsusən də əgər söhbət insanların sağlamlığından gedirsə, daha asandır. Təhlükəli vəziyyətdə davranmağın ən yaxşı üsulu – belə vəziyyətə heç vaxt düşməməkdir. Odur ki, aşağıda göstərən tövsiyələrə əməl etməyiniz xahiş olunur.

**2. Səyahətə hazırlıq.**

Səyahətin təhlükəsizliyinin təmin olunması məsələsinə diqqət yetirmək hələ turun planlaşdırılması mərhələsində lazımdır.

Konservativ geyinin. Sizi yerli əhalidən fərqləndirən dəbdəbəli paltar, Sizin turist olduğunuzu dəqiq təyin etməyə imkan verir. Çalışın öz var-dövlətinizi nümayiş etdirməkdən çəkinin.

Səyahəti sutkanın gündüz vaxtlarına planlaşdırın. Özünüzlə turda zəruri olan mümkün qədər az miqdarda qiymətli əşyalar götürün. Onları harada saxlayacağınız yeri fikirləşin. Pasport, nağd pullar, kredit kartlarını mehmanxananın seyfində saxlamaq ən təhlükəsiz yerdir. Qiymətli şeyləri bir yerdən başqa yerə apardıqda onları bir neçə müxtəlif yerlərə qoyun. Yükün bükülməsində polietilen paketlərdən (torbalardan) mümkün qədər istifadə etməyin. Paltarın üst cibləri oğrular üçün girməyə daha asandır. Alt ciblər və uzun kəmərli möhkəm çantalar daha təhlükəsiz olardı. Ən yaxşısı isə paltarın altından taxılan, pul üçün xüsusi kəmərdən istifadə etmək lazımdır.

Sizə lazım olan dərmanları da həmçinin bütün yüklərdən ayrıca saxlamaq lazımdır. Hava limanında nəzarət yoxlanışından, gömrük nəzarətindən keçən zaman problemlərdən qaçmaq üçün dərmanları onların istehsal edildiyi qablarda saxlamaq zəruridir. Əgər dərmanın tərkibində qadağan olunmuş birləşmələr varsa, o zaman özünüzlə həmin dərmanın qəbul edil-

məsinin vacibliyi haqqında Sizi müalicə edən həkimin verdiyi arayışı və ya resepti götürün.

Nağd pul əvəzinə kredit kartlarından, yol çeklərindən istifadə edin.

Pasportla biletlərin və kredit kartlarının surətlərinin bir dəstini ayrıca bükük özünüzlə götürün, daha bir dəstini evdə saxlayın. Belə ki, surətlərin mövcudluğu onların itməsi və ya oğurlanması halında həmin sənədlərin dublikatının alınmasını asanlaşdırır.

Adınız, ünvanınız və telefon nömrələriniz yazılmış kartınızı yükün həm içərisində, həm də üzərində yerləşdirin. Bunları evdə saxlayın: a) itirməkdən qorxduğunuz əşyaları; b) qiymətli və bahalı əşyaları; c) əvəzolunmayan əşyaları; ç) səyahət zamanı lazım olmayan kredit kartlarını.

Öz qohumlarınıza, dostlarınıza Sizinlə çətin vəziyyətlərdə əlaqəyə girə bilmələri üçün səyahətin marşrutu haqqında informasiya saxlayın.

Hər ehtimala qarşı öz sığorta sənədlərinizi qaydaya salın.

Unutmayın ki, səyahət zamanı Siz yerli qanunlara tabe olmalısınız. Odur ki, əvvəlcədən Sizin turagentin köməkliyi ilə səfirliyin səyahətçilərə tələblərini dəqiqləşdirin. Bundan başqa yerli KİV-in nəşrlərinə müraciət edin və nəzərdə tutulan səyahət yerində baş vermiş son hadisələrlə tanış olun.

Böyük mehmanxanalarda yerləşməyi planlaşdırın. Onlar daha mürəkkəb təhlükəsizlik sisteminə malikdirlər. Bu zaman təhlükəsizlik baxımından ikinci mərtəbədən yeddinci mərtəbəyə kimi olan nömrələr ən yaxşı hesab olunurlar.

Səyahət edəcəyiniz yerə təyyarə ilə uçacağınız halda birbaşa reyslərdən istifadə edin, belə ki, qalxma və enmə – uçuş zamanı ən təhlükəli mərhələdir. Əmin olun ki, Sizin sığortanız xaricdə də öz qüvvəsini saxlayır. Əks halda səyahətçilər üçün sığorta vərəqi alın.



### 3. Şəhərdə təhlükəsizlik

Adamlarla dolu olan metro stansiyalarından, vağzallardan, qaldırıcılardan, bazardan, həmçinin adamların olmadığı şəhər ətrafı ərazilərdə olmaqdan çəkinin.

Gecələr küçədə tək qalmayın.

İctimai nümayişlər, tətillər, vətəndaş itaətsizliyi, kütləvi qarışıqlıqlar olan yerlərdən kənar olun.

Özünüzü təmkinli, diqqətli aparın.

Ucadan danışmaq lazım deyil.

Öz planlarınızı tanış olmayan adamlarla müzakirə etməyin.

Cibəgirənlərdən özünüzü qoruyun. Çox vaxt onların cinayətkar yoldaşları olur ki, bu adamlar Sizi itələyə, hər hansı bir sual verə, əyninizdəki çatışmazlıqları göstərə və bununla da Sizin diqqətinizi yayındıra bilər. Cibəgirən hətta uşaq və ya körpəsi olan qadın ola bilər. Çox vaxt isə səfil uşaqlar belə işlərlə məşğul olur.

İdman çantası götürün, onun boyun qayışını isə çiyninizə yox, boynunuzdan keçirərək sinənizə keçirin.

Küçə ilə gedəndə, hətta azanda da özünüzü aydın məqsədli adam kimi göstərin, hay-küy salmayın.

Olduğunuz yer və mehmanxanaya gedən yol, görüş yeri haqqında suallarınızı çalışın ki, yalnız hakimiyyət nümayəndələrinə verəsiniz.

Əl çantanızı, onu sizin əlinizdən alıb qaçmasınlar deyə çiyninizə keçirin və səkinin kənarı ilə hərəkət edin.

Ödənişli telefondan istifadə etmək qaydalarını aydınlaşdırın və özünüzlə xırda pul götürün.

Siz lazım gəldikdə polisi və ya həkimi köməyə çağırmaq üçün yerli xalqın dilində bəzi sözləri deməyi öyrənin.

Lazım olan telefon nömrələrini özünüzlə yazıb götürün: polis, yanğınsöndürən, yaşadığınız otelin telefonu, səfirlik və ya konsulluğun telefon nömrələri.

Əgər Siz cinayətkarla qarşı-qarşıya gəlsəniz, o zaman müqavimət göstərməyin, öz qiymətli əşyalarınızı, pullarınızı, pasportunuzu Sizdən tələb etsə, ona verin. Belə ki, bütün bunları yerinə qaytarmaq olar, Sizin həyatınızı isə – yox.

Bir çox ölkələrdə Sizi polis və ya hərbi müəssisələrin, hökumət binalarının və sərhəd ərazilərinin, həmçinin hərbi nəqliyyat vasitələrinin istehsalı üzrə zavodlarının şəklini çəkdiyinizə görə tuta bilərlər. Odur ki, bu zaman Sizdə şübhə yaranarsa, şəkil çəkməmişdən əvvəl müvafiq qaydada icazə istəyin.

Sizi əntiq əşya olan və ya əntiq əşya kimi görünən, habelə yerli hakimiyyət orqanlarının fikrinə görə ölkənin milli sərvəti hesab olunan suvenirləri aldığınıza və ya əldə etdiyinizə görə həbs edə bilərlər. Belə hallar daha çox Türkiyə, Misir və Meksika üçün xarakterikdir. Bu cür qəbildən olan problemlərin meydana çıxa biləcəyi ölkələrdə aldığınız əşyaların əntiq olmadığını sübut etmək üçün onu sənədləşdirmək lazımdır. Əgər həmin əşyalar həqiqətən əntiqdirsə, o zaman onların ölkədən çıxarılmasına icazə almağın qayğısına qalın. Adətən belə icazələri milli muzeylər verir.

**4. Oteldə təhlükəsizlik.**

Çalışın ki, oteldəki nömrənizin giriş qapısını açarla bağlayasınız.

Qonaqlarla otelin vestibülündə görüşün.

Siz əgər harasa çıxıb gedirsinizsə, o zaman pullarınızı və digər qiymətli əşyalarınızı oteldəki nömrənizdə qoymayın. Onların saxlanması üçün otelin seyfindən istifadə edin.

Əgər Siz gecə yarısına kimi küçədə gəzirsinizsə, o zaman qayıtmağınızın vaxtı barədə qrupunuzdan kimisə xəbərdar edin.

Əgər liftdə şübhəli adam varsa, o zaman ondan istifadə etməməyə çalışın.

Nömrədə texniki təhlükəsizlik üzrə təlimatla tanış olun. Ehtiyat çıxışın harada olduğunu bildiyinizə əmin olun.



Yaxınlıqdakı çıxışla Sizin nömrəniz arasındakı qapıların sayını öyrənin. Bu Sizə yanğın zamanı tüstü ilə dolu olan dəhlizdən sürünərək çölə çıxmağa kömək edər.

**5. İctimai nəqliyyatda təhlükəsizlik.**

Avtomobilə yalnız onun üzərində rəsmi taksi işarəsi olduğuna tam əmin olduqdan sonra əyləşin.

Tanınmış turist marşrutları ilə hərəkət edən qatarlarda sərnişinlərin, xüsusən gecə saatlarında sistematik olaraq yaxşı təşkil olunmuş qarət edilməsi ciddi problemdir.

Əgər tanış olmayan şəxsin Sizin yolunuzu kəsdiyini, arxadan isə tanış olmayan adamın Sizə həddən artıq yaxınlaşdığını müşahidə etmişsinizsə, o zaman kənara qaçmağa çalışın və köməyə adam çağırın.

Tanımadığınız adamlardan, xüsusən də onlar Sizə yemək və ya içmək təklif edirlərsə, qida və ya içki götürməyin, belə ki, cinayətkarlar ora narkotik tökə bilərlər. Onlar həmçinin kupeyə gözyaşardıcı qaz buraxa bilərlər.

Əgər mümkünsə, o zaman kupeni bağlamağa çalışın. Əgər bu mümkün deyilsə, onda öz yol yoldaşınızla növbə ilə yatın və ya heç yatmayın. Ən nəhayət yükünüzü və qiymətli əşyalarınızı özünüzə yaxın çəkib, onların üstündə yatın.

Əgər Siz təhlükəni hiss edirsinizsə, bu barədə hakimiyyət orqanlarını xəbərdar etməkdən qorxmayın. Çox vaxt cinayət baş verməsi təhlükəsi böyük olan marşrutlarda polis müşayiəti təyin olunur.

**6. Avtomobil sürən zaman təhlükəsizlik.**

Maşın icarəyə götürdüyünüz zaman Siz ekzotika axtarmayın, yolun yaxşısını seçin. Əgər mümkünsə, icarəyə götürülmüş maşınlarla adətən, hansı yolla hərəkət edildiyini soruşun.

Maşının texniki cəhətdən saz olduğuna əmin olun. Əgər imkan varsa, qapılarında universal qıfılı olan, sürücüyə idarəetməni asanlıqla nəzarətdə saxlamağa imkan verən möhkəm şüşələri və kondisioneri olan maşın seçin.

Maşının qapılarını və pəncərələrini açıq qoymayın.

Təhlükəsizlik kəmərlərini bağlayın.

Maşında qiymətli əşyalar saxlamayın.

Gecə maşını küçədə saxlamayın. Əgər yaşadığınız otel və ya bələdiyyə xidməti qaraj və ya digər mühafizə olunan ərazi təqdim etmirsə, maşını saxlamaq üçün yaxşı işıqlanan yer seçin.

. Heç vaxt özünüzlə təsadüfi yol yoldaşı götürməyin.

Əgər yaxınlıqda Sizi müşahidə edən şübhəli adamlar görmüsünüzsə, maşından çıxmayın. Tez maşını sürüb oradan uzaqlaşın.

Siz turistlərin yığışdığı yerə gəldiyiniz zaman soyğunçulardan necə qaçmaq haqqında maşını icarəyə verənlə məsləhətləşməlisiniz.

Qarətçilər yol boyu tikilmiş çoxsaylı yanacaqdoldurma məntəqələrində «işləyirlər». Siz maşında oturarkən və ya onun yanında dayanarkən Sizi salamlayan və ya diqqətinizi cəlb etməyə çalışan şəxslərlə ehtiyatlı olun. Cinayətkarlar müxtəlif hiylələrdən istifadə edirlər. Onlar, əgər Sizin maşının təkəri deşilibsə, Sizə öz köməyini təklif edən nəcib insan kimi özlərini göstərə bilərlər. Onlar həmçinin maşınlarını saxlayıb Sizdən kömək xahiş edə bilərlər və bu zaman Sizin əşyalarınızı və ya maşınınızı qarət edə bilərlər. Adətən onlar qrup halında «işləyirlər» və biri hiylə işlədərək Sizin diqqətinizi özünə cəlb edir, digərləri isə bu zaman Sizi qarət edir.

Elə cinayətkarlar var ki, Sizi təhqir edib özünüzdən çıxarır və bununla da diqqətimizi özünə cəlb edir. Digərləri isə Sizin maşınınızı yolun kənarına itələməyə çalışır və ya bədbəxt hadisə təşkil edir.

Şəhər daxilində cinayətkarların hiylə işlətməyə vaxtı yoxdur, onlar sadəcə avtomobilin şüşəsini sındırır, oradan qiymətli əşyaları oğurlayır və dərhal oradan qaçırlar və ya maşını qaçırdırlar.

Dünyanın bütün şəhərlərində yollarda bədbəxt hadisələrdən qorunmaq üçün ehtiyat tədbirlərin daxil olduğu «müdafiə



idarəetmə» terminindən istifadə edilir. Avtomobili sürən üçün bu potensial cinayətkardan: piyadadan, velosipedçidən və motoroller sürücüsündən gözünü ayırmamaq deməkdir.

**7. Pulu təhlükəsiz yerdə necə saxlamalı.**

Əgər Sizə valyuta lazımdırsa, o zaman böyük məbləğdə pulların özünüzlə daşınmasından xilas olmaq üçün çekləri dəyişdirin (mübadilə edin).

Aldığınız şeylərə görə hesablaşma zamanı böyük məbləğdə pulunuz olduğunu göstərməyin, ödənişdən sonra kredit kartınızın qayıtdığına əmin olun.

Pullarınızı «qara bazarda» yox, xüsusi ixtisaslaşdırılmış müəssisələrdə dəyişdirin, aviabilet və suvenirləri də elə oradan alın.

Əgər Sizin şəxsi əşyalarınız itmişsə və ya oğurlanmışsa, o zaman bu barədə yerli polis bölməsinə təcili xəbər verin. Ərizənizin surətini yaranmış, vəziyyəti aydınlaşdırmaq və sığorta kompaniyası qarşısında tələb irəli sürmək üçün özünüzdə saxlayın.

İtmiş əşyaları polisə xəbər verdikdən sonra itki və ya oğurluq haqqında ayrıca ərizə yazın:

- turist çeki haqqında – onu buraxmış kompaniyanın yaxınlıqdakı nümayəndəliyinə;
- kredit kartı haqqında – onu buraxan kompaniyaya;
- aviabiletlər haqqında – avia- və turagentliyə;
- pasport haqqında – yaxınlıqdakı səfirliyə və ya konsulluğa.

**8. Terrorçulardan müdafiə.**

Terror aktı gözlənilməz olduğundan ondan tam müdafiə mümkün deyil.

İlkin və ən yaxşı müdafiə – terror faktının və adamların oğurlandığının qeydə alındığı ölkələrə səyahət etməkdən çəkinməkdir. Bir çox regionlarda terror aktının qarşısının alınması və ictimai asayişin qorunması üzrə təcrübə vardır, həmçinin

turistlərin və daimi əhalinin təşkili üzrə tədbirlər nəzərdə tutulmuşdur.

Əksər terror aktları – uzun və dəqiq planlaşmadan sonra baş tutur. Qapısı bağlanmamış, üstündə açarı qalmış maşın əvvəlcədən maşın qaçıranları cəlb etdiyi kimi, müdafiə olunmayan ərazilər, asanlıqla daxil olunması mümkün olan ərazilər də terrorçuları cəlb edir.

Az məlum olan marşrut və ya proqram üzrə səyahət edən turistin terrorun qurbanı olması şansı çox böyükdür. Bir çox terrorçu qruplar öz ölkələri və ya regionları çərçivəsində siyasi xarakterli reklamlar axtardığı üçün tutmaq obyekti kimi əcnəbi turistləri seçə bilərlər.

Aşağıda göstərilən məsləhətlər terror hücumlarının obyekti olmamağınız üçün Sizə kömək edə bilər. Onlar cinayətin qurbanı olmaq ehtimalından özünü qorumaq kimi yuxarıda göstərilən məsləhətlərə əlavə kimi baxıla bilər. Bu ehtiyat tədbirləri Sizə bəzi müdafiə dərəcələrini təmin edər:

- çalışın ki, aviasəyahət zamanı yüksək riskli ərazilərə və ölkələrə getməyəsiniz. Qatar kimi digər nəqliyyat növlərini də nəzərdən keçirin;
- cəhd edin ki, ictimai yerlərdə keçirdiyimiz vaxtı, məsələn, ən az müdafiə olunan hava limanında, minimuma endirəsiniz;
- kassa aparatı olan yerdən təhlükəsiz zonaya mümkün qədər tez aralanın. Gəldiyiniz zaman hava limanını mümkün qədər tez tərk edin;
- yükünüzün və paltarınızın üstündə olan yarlıqdan, Sizin əcnəbi olduğunuzu təyin etməyə imkan verən davranış tərzindən çəkinin;
- bağlama və ya digər əşyaları qoyub gedən şübhəli şəxslərə qarşı diqqətli olun. Həmin fakt haqqında hava limanının mühafizəsinə və ya digər xidmətlərə xəbər verin və o ərazini tezliklə tərk edin.



Əgər Siz əvvəllər terror aktı törədilmiş və ya adam oğurlanmış rayona səyahətə yola düşürsünüzsə, Sizə aşağıdakılar vacibdir:

- əvvəlcədən gözlənilməz vəziyyət yarandıqda hərəkətlərinizi müzakirə etmək. Getməmişdən qabaq işlərinizin və sənədlərinizin qaydasında olduğuna əmin olun;
- həmin yerə gəlib çatan kimi konsulluqda və ya səfirlikdə qeydiyyatdan keçin;
- səyahətin proqramına və ya marşrutuna aid olan şəxsi məsələləri müzakirə edən zaman mehriban olun, lakin ehtiyatlı olun;
- şəxsi (işgüzar) kağızları otel otağında qoymayın;
- Sizin gəlməyinizi və getməyinizi izləyən adamları müşahidə edin;
- polis bölməsi, otel, xəstəxana kimi təhlükəsiz yerləri həmişə yadda saxlayın;
- qrupdan kimsə qoy Sizin planınız haqqında bilsin, əgər öz planınızı dəyişsəniz ona məlumat verin;
- polisin hər hansı şübhəli aktivliyi haqqında yaxınlıqda olan səfirliyə və ya konsulluğa xəbər verin;
- bəxtə-bəxt taksi seçməyin. Taksiyə oxşamayan avtomobilə əyləşməyin. Sürücünün sifət quruluşunu sürücülük vəsiqəsindəki şəkildə müqayisə edin;
- mümkün qədər təkcə səyahət etməyin;
- öz otel otağınızın qapısını açdığınız adamı tanıdığınıza əmin olun. Naməlum və ya uzaq yerdə tanımadığınız adamlarla ünsiyyətə girməyin;
- naməlum bağlama və ya çantadan imtina edin. Silahdan atəş açılarkən və ya bomba partladılması zamanı hərəkət planının təyin edin;
- sizin maşınınızın ətrafında hər hansı şübhəli məftil, naqil və ya əşyanın mövcudluğunu yoxlayın;

- əgər Sizə sürətli şose ilə getmək lazım gələrsə, əyləşəcəyiniz avtomobilin (taksinin) saz vəziyyətdə olduğuna əmin olun;

- çalışın ki, adamların çox olduğu küçə ilə getdiyiniz zaman avtomobilin pəncərələri bağlı olsun, belə ki, bombanı açıq pəncərədən içəri ata bilərlər;

- əgər Siz olduğunuz yerdə qəflətən atışma başlasa, o zaman yerə uzanın. Təhlükənin keçdiyinə əmin olmayınca, hərəkət etməyin. Xilasedicilərə köməklik göstərməyə cəhd etməyin, silahı qaldırmayın. Əgər mümkünsə, özünüzü hər hansı bərk şeylə örtün, qarnı üstə sürünərək hərəkət edin.

Hər bir girov götürülməsi halının fərdi və girov düşmək ehtimalının çox az olduğuna baxmayaraq, bu məsələnin müzakirəsi çox vacibdir. Ən təhlükəli olan isə təyyarəni qaçırmaq məqsədi ilə edilən hücumdur.

Belə ki, bu zaman terrorçular əvvəlcə adətən gərgin, asanlıqla özündən çıxan olurlar və özlərini ağılsız apara bilərlər. Bu halda çox vacibdir ki, Siz öz təmkinliyinizi qoruyasınız, hərəkətlərinizə nəzarət edəsiniz və hər şeyə hazır olasınız:

- müqavimət göstərməyin və kəskin hərəkətlərdən qaçın. Əgər müvəffəqiyyətə inamınız yoxdursa müqavimət göstərməyə və ya qaçmağa cəhd etməyin. Bir qədər özünüzə gəlmək, dincəlmək üçün tədbir görün. Dərindən nəfəs alın və özünüzü mümkün ola bilən çətin sınağa mənəvi, fiziki və emosional olaraq hazırlayın;

- çalışın ki, diqqətdən kənarda qalasınız, terrorçuların gözlərinə baxmaqdan, həmçinin onlara irad tutmaqdan və onlara qarşı digər münasibətlərdən qaçın;

- həmin vəziyyətdə sərxoş olmamaq üçün alkoqollu içkilər qəbul etmək, həmçinin çoxlu yemək və içmək lazım deyil;

- əməkdaşlıq etməkdə passiv olun. Sakit danışın. Öz narazılığınızı bildirməyin, konfliktdə girməkdən çəkinin və bütün əmrlərə və təlimatlara tabe olun;



- əgər Sizdən nəyisə soruşurlarsa, qısa cavab verin. Könüllü olaraq informasiya təklif etməyin və danışıqlarda lüzumsuz təşəbbüs göstərməyin;

- özünüzü və ətrafınızdakıları təhlükə altında qoyaraq, qəhrəman olmağa çalışmayın;

- özünüzü ləyaqətli aparın və tədricən öz rahatlığınıza olan tələbləri artırın. Tələbləri təqdim etmək üçün ağıllı danışıq tonu seçin;

- çalışın ki, hansısa əqli və ya fiziki işlə məşğul olasınız. Sizə lazım olan şeyləri – dərmanları, kitabları, karandaşları, kağızları istəməkdən qorxmayın;

- terrorçuların təklif etdikləri hər şeyi, hətta onlar iştahaaçan və dadlı görünməsələr belə yemək lazımdır. Bu ilk növbədə banditləri qıcıqlandırmamaq üçün, sonra isə fiziki gücünüzü qorumaq üçün vacibdir;

- yadda saxlayın, Siz terrorçular üçün çox qiymətlisiniz. Onlara lazımdır ki, Siz sağlam və toxunulmaz qalasınız.

Əgər Siz xaricdə bir yerdə iki həftədən çox qalmağı planlaşdırırsınızsa, Sizin olduğunuz ərazidə vətəndaş müharibəsi və ya təbii fəlakət baş verirsə və ya əgər Siz hansısa uzaq bir yerə yola düşməyi planlaşdırırsınızsa, yaxşı olar ki, ölkəmizin səfirliyində və ya konsulluğunda qeydiyyatdan keçəsiniz.

Konsulluqla əlaqə yaratmağın digər səbəbi – Sizin getməyə hazırlaşdığınız ölkədəki vəziyyət haqqında informasiyadır.

Əgər Siz yaralanmısınızsa və ya xəstələnmisinizsə, o zaman ölkəmizin yaxınlıqdakı səfirliyindən və ya konsulluğundan tövsiyə olunan yerli dərman vasitələrinin siyahısını soruşun. Əgər xəstəlik ciddidirsə, onda konsulluğun nümayəndəsi Sizə tibbi yardım göstərilməsi üçün yer tapmalı və sizin xahişinizlə qohumlarınızı və dostlarınızı xəstəlik haqqında məlumatlandırmalıdır. Lazım gələrsə, konsul qohumlardan və dostlardan pul vəsaiti alınmasında köməklik göstərə bilər. Xəstəxanadakı xidmətlər və digər xərclərə görə ödənişləri Siz etməlisiniz.

Əgər xaricdə olduğunuz zaman pulunuz qurtararsa və Sizə heç kim borc pul vermirsə, konsulluğun nümayəndəsi Sizə ailənizlə, dostlarınızla, bankla, iş yeri ilə əlaqə yaratmağa kömək edə bilər və onları Sizə lazım olan pul vəsaitlərini necə çatdırmaq haqqında məlumatlandıra bilər.

Əgər Sizdə qanunla bağlı hansısa çətinliklər yaranıbsa, onda təcili olaraq konsulluğun nümayəndəsi ilə əlaqə yaradın. Dəqiq başa düşmək lazımdır ki, konsulluğun nümayəndəsi Sizi həbsxanadan azad etdirə, vəkil xidməti təklif edə və ya hüquqi məsləhət verə bilməz. Onun xidməti təklif edə və ya hüquqi məsləhət verə bilməz. Onun edə biləcəyi və ya bacardığı iş – Sizə ingilis və rus dillərində danışan və ölkəmizin vətəndaşlarının maraqlarını qorumaq təcrübəsi olan yerli vəkillərin adları və soyadları yazılmış siyahını təklif etməkdir.

Əgər Siz həbs olunubsunuzsa, konsulluğun nümayəndəsi Sizə baş çəkəcək, yerli qanunvericiliyə uyğun daraq Sizin hüquqlarınız haqqında danışacaq və Sizin normal məişət şəraitində olacağınıza və Sizinlə yerli qanunlara riayət olunmaqla davranılacağına zəmanət verəcək. Sizin arzunuzla konsulluğun nümayəndəsi həmçinin ailənizə və dostlarınıza yaranmış vəziyyət haqqında xəbər verir. Əgər lazım gələrsə, o həmçinin evdən pul vəsaitinin alınmasına kömək edə bilər və ehtiyac olduğu halda Sizin üçün ərzaq və paltar almağa çalışar.

Əgər Siz həbs olunmuşsunuzsa, yadda saxlayın ki, beynəlxalq müqaviləyə görə Sizin ABŞ-ın konsulluğu ilə danışmaq hüququnuz vardır. Bundan imtina olunarsa, təkidlə tələb edin.

**9. İnfeksiya və virus xəstəliklərindən müdafiə.**

Yoluxmuş qida və su mədə-bağırsaq xəstəliklərinin başlıca səbəbidir. Ən təhlükəsiz içkilər bunlardır: kofe, çay, qaynadılmış su, qablaşdırılmış mineral su, pivə, şərab və s. Suyu içmək üçün təhlükəsiz etməyin ən yaxşı üsulu onun qaynadılmasıdır. Bundan başqa sirkə məhlulu, yod, tetrasiklin



həbləri və digər kimyəvi dezinfeksiyaedici vasitələrdən də istifadə etmək olar.

Qidaları, xüsusən də salatları, termiki cəhətdən emal olunmamış meyvə-tərəvəzləri, pasterizə olunmamış süd məhlullarını, molyuskaları ehtiyatla seçmək lazımdır. Bəzi balıq növləri (tropik rif balıqları, qırmızı balıq, dəniz xanı balığı, dəniz durnabalığı) özünə zəhərli toksinlər yığmaq qabiliyyətinə malikdir, odur ki, onların istifadəsindən çəkinmək lazımdır.

Mədə-bağırsaq xəstəliklərinin profilaktikası məqsədi ilə aşağıdakı tövsiyələrə əməl edin:

- əllərinizi tez-tez sabunla yuyun;
- yalnız qaynadılmış və ya qablaşdırılmış mineral su için;
- əsaslı şəkildə termiki emal olunmuş qidaları yeyin;
- tərəvəzləri, meyvələri istifadə etməzdən əvvəl özünüz yuyun və təmizləyin və ya istifadə etməyin;
- içkiləri buzla içməyin. Ola bilər ki, buz çiy, qaynadılmamış sudan hazırlansın;
- həşəratlardan qorunmaq üçün hər dörd saatdan bir xüsusi dərman vasitələrindən istifadə edin. Əyninizə uzun qolu olan köynək və çəkməyə qədər çatan şalvar geyinin. Ayaqyalın gəzməyin (bu daha çox tropik ölkələr üçün aktualdır);
- yalnız özünüzə məxsus fərdi diş fırçası, daraq, tikiş iynəsi, birdəfəlik şprisdən istifadə edin;
- cinsi yolla keçən xəstəliklərdən qorunmaq üçün təsadüfi cinsi əlaqələr zamanı xüsusi qoruyucu vasitələrdən istifadə etməyi unutmayın;
- dişləmədən və yoluxmadan, o cümlədən quduzluq və ya taun xəstəliklərində qorunmaq üçün heyvanlara toxunmayın.

Yaxşı məlumatlandırılmış səyahətçi olmaq üçün vaxtınızı sərf etdiyinizə görə Sizə təşəkkür edirik. Biz Sizə təhlükəsiz və gözəl səyahət arzulayırıq.

## Yoxlama sualları və tapşırıqlar

1. Turizmin təhlükəsizliyinə tərif verin.
2. Səyahətin təşkili zamanı təhlükəsizlik üzrə tələbləri müəyyən edən sənədləri sadalayın.
3. Dağlarda turistləri gözləyən təhlükələri sadalayın və xarakterizə edin.
4. Ölkəmizdə əcnəbi turistlər üçün əsas təhlükələrin adlarını deyin.
5. Ölkəmizdə ekoloji turizmdə bədbəxt hadisələrin strukturu necədir?
6. Macəra turizmində bədbəxt hadisələrin profilaktikası üçün hansı tədbirlərdən istifadə olunur?



# Beşinci fəsil

## Ekoturizmdə insan ehtiyatlarının menecmenti

Əvvəlki fəsillərdən göründüyü kimi ekoturizmdə personal, hər şeydən öncə isə bələdçilər səyahətin müvəffəqiyyətlə keçməsində ən vacib amildir.

Turizmin müasir inkişafı və qonaqpərvərlik təbii, sosial-iqtisadi, mədəni-tarixi və əlbəttə ki, əmək resurslarına əsaslanır. Turizm fəaliyyət sahəsi kimi insanlar tərəfindən və insanlar üçün yaradılmışdır, çünki məhz qonaqpərvərlik onlara xasdır. Hər hansı digər resurs, süni mexanizm qonaqpərvərliyi o səbəbdən əvəz edə bilməz ki, bu bizim başqa insanlara qarşı və onlara münasibətdə duyduğumuz hissdir. Odur ki, turizmin inkişafının əsas ehtiyatları həmişə adamlar, insan ehtiyatları olacaq.

Turizm sənayesində əməyin mexanikləşdirilməsi dərəcəsi sənayenin digər sahələri ilə müqayisədə həddən artıq aşağıdır. Hazırda insanların idarə olunması maddi (təşkilatı texnika, sıra fondu və s.) və təbii (kurort yerləri, təbiət abidələri və s.) ehtiyatların idarə olunması ilə yanaşı hər bir turist təşkilatının menecmentinin ən vacib komponentidir və məcburidir.

Əmək resursları ehtiyatların digər növlərindən xeyli fərqlənir və müvafiq olaraq idarə etmənin xüsusi metodlarının tətbiq olunmasını tələb edir. Turizmdə və qonaqpərvərlikdə insan ehtiyatlarının məxsusiliyi aşağıdakılardan ibarətdir:

1) insanlar turizm sahəsinə «turfirmalara şüurlu şəkildə və müəyyən məqsədlərlə, niyyətlərlə gəlir. Onlar özlərini reallaşdırmaq üçün kömək gözləyirlər. Onları daha çox bu sənayenin xarakteri, maddi üstünlükləri, karyera qurmaq cəlb edir;

2) maşın və xammaldan fərqli olaraq insanları idarəetməyə reaksiyası, xarici təsiri – emosional-şüurludur;

Turizm üzrə menecer həmişə iki haldan birində olur: ya təşkilatın işinə kömək edir, ya da mane olur. O işə ac, yuxusuz

gələ bilər və odur ki, qonaqlarla və əməkdaşlarla qıcıqlandırıcı, kobud davrana bilər. Təcrübəli menecer personalı (işçi heyəti) əməyinin nəticəsinə görə maraqlandıra bilər, qarşıya qoyulmuş vəzifənin yerinə yetirilməsinə nail olmağa ruhlandıra bilər. Məhz turizm sahəsində və qonaqpərvərlikdə insan amilinin inkişafının bu aspekti xüsusən daha aydın ifadə olunmuşdur.

3) insanlar, başqa ehtiyatlardan fərqli olaraq daha yaxşı, peşəkar, təcrübəli olaraq, özünü təkmilləşdirməyə və özünü inkişafa qadirdir.

İşçi heyətə və onun təkmilləşdirilməsinə münasibətin bir neçə əsas aspektləri bunlardır:

- insanlara daha çox əmək haqqı xərcləri kimi yox, ehtiyat kimi baxın;
- firmanın inkişaf strategiyasını həyata keçirən zaman bütün əməkdaşları mükafatlandıraraq komanda işini dəstəkləyin;
- cari biznes – tapşırıqların yerinə yetirilməsində işçiləri stimullaşdırmaq üçün açıq görüşlər təşkil edin;
- əməkdaşlar üçün, xüsusən də xidmətin keyfiyyətinin artırılması sahəsində tədris proqramlarını mütəmadi olaraq təkrar edin;
- onların peşəkarlıq səviyyəsini yüksəltmək üçün əməkdaşların nəinki iş vaxtı, həm də istirahət vaxtı (lazım gələrsə) hazırlanmasını və öyrədilməsini həyata keçirin;
- işçilərin öz peşəkarlığını müstəqil şəkildə artırmasını mükafatlandırın;
- əməkdaşların turoperatorların işləməsi problemini necə başa düşdüyünü görmək üçün onların təlim qabiliyyətini qiymətləndirin və onları inkişaf etdirin.

İxtisaslaşdırılmış və təlimatlandırılmış işçi heyət istehlakçıların gözündə kompaniyanın peşəkarlıq səviyyəsini qaldırır və onların yüksək keyfiyyətli xidmətə inanmasına kömək edir. Bu bütün əməkdaşlara, lakin daha çox kafenin ticarət zalında, turistlərin yerləşdiriləsi və onlara xidmət sahəsində



çalışan işçilərə, bələdçilərə aiddir. Bu adamlar hamıdan çox turistlərlə əlaqədə olur, odur ki, turistlərin gözündə məhz onlar kompaniyanın «görünən üzü» hesab olunurlar. Xarici ölkələrdə işçilərin həmin kateqoriyasını, turistlər uğurunda rəqabət mübarizəsinin ön cəbhəsində onların mövqeyini xüsusi vurğulayaraq «front-ofis» və ya «front-layn» termini ilə birləşdirirlər. Sözsüz ki, bələdçilər – macəra və ekoturizm üzrə kompaniyanın «front-ofisinin» əsas zərbə gücü, onların müştəriləri turun təhlükəsiz və cəlbedici olmasına inandırmaq qabiliyyəti isə həllediciidir.

## 5.1. Turizm firmasının strukturu və strategiyası ilə işçi heyətin idarə olunması arasında əlaqə

İşçi heyətin (kadr planlaşdırılması) idarə olunmasının planlaşdırılmasının məqsədi turist təşkilatının inkişafının strateji məqsədlərinə nail olmaq üçün lazımi olan insan ehtiyatlarına tələbatın ödənilməsidir. Beləliklə, işçi heyətin idarə olunmasının planlaşdırılmasına turist firmasının strukturu və təşkilinin inkişaf strategiyası təsir edir. Strategiyanın köməyi ilə zəruri insan ehtiyatlarının kəmiyyət və keyfiyyət tərkibi, yəni nə vaxt, necə və hansı miqdarda işçilərin tələb olunduğu müəyyən olunur. Kadr planlaşdırması necə və harada firmanın əməkdaşlar alacağı və onların səmərəli işini necə təşkil etməyi təyin edir.

Ekoturizmdə strateji idarəetmə – turizmin dayanıqlı inkişafının əsası kimi təbii və insan ehtiyatlarına söykənən; qonaqların və yerli əhalinin ehtiyaclarına turfirmanın fəaliyyətini yönəldən; turizm bazarının konyunkturasının dəyişməsinə vaxtında reaksiya verən və turfirmanın inkişafının strateji məqsədlərinə çatmağa bütövlükdə imkan verən xarici mühitin digər xarakteristikalarının idarə edilməsidir.

Strategiyada onu təşkil edən hər şey – həm onun işlənməsi, həm də tətbiqi eyni dərəcədə vacibdir. O, təşkilatın inkişaf

resurslarına söykənir və turfirmanın idarəetmə fəlsəfəsini, missiyasını əks etdirir.

Turfirmanın strukturu işçi heyətin idarə olunmasının planlaşdırılmasının daha bir komponentidir. Turizm sənayesi və qonaqpərvərliyin tərkibi həddən artıq çeşidli olduğu üçün onun strukturunun təşkili, onu təşkil edənlər də həmçinin çeşidlidir. Bu ekoturizmdə də belədir. Kruiz kompaniyasının strukturu otel və ya restoranın strukturundan fərqlənir. Lakin istənilən halda məhz təşkilatı struktur təşkilatın əməkdaşlarının, bölmələrin yerinə yetirdiyi funksiyalar arasında nisbəti (qarşılıqlı tabeçiliyi) təyin edir. O özünü əmək bölgüsündə, ixtisaslaşdırılmış bölmələrin yaradılmasında, vəzifələrin iyerarxiyasında göstərir. Təşkilatı struktur inkişaf resurslarının, o cümlədən insan ehtiyatlarının istifadəsində qayda yaratmağa nail olmağa imkan verərək hər hansı turist təşkilatının idarə olunmasında vacib element kimi çıxış edir.

Turizmdə və qonaqpərvərlikdə daha çox təşkilatı strukturun aşağıdakı 7 tipinə rast gəlinir: 1) funksional; 2) məhsuldar; 3) matris; 4) ərazi; 5) bazar kanalları prinsipi üzrə; 6) müştəri prinsipi üzrə; 7) kombinasiya olunmuş. Məsələn, yerləşdirmə vəsaitləri, o cümlədən ekoturizmdə ənənəvi olaraq bölmələrin ayrı-ayrı funksiyaların yerinə yetirilməsi prinsipi üzrə təşkil olunduğu funksional təşkilatı struktur istifadə olunur: xidmət bölməsi, marketinq bölməsi, qida bloku, kadrlarla iş üzrə bölmə, mühasibatlıq.

Təşkilatı strukturun məhsuldar tipində əmək bölgüsünün əsasında göstərilən turizm xidmətləri və ya realizə olunan turizm məhsullarının fərqi qoyulmuşdur. Belə struktur daxili turizm şöbəsi, beynəlxalq turizm şöbəsi, kruizlər şöbəsi və s. mövcud olduğu bir çox turoperator və turagent firmaları üçün xarakterikdir.

Matris təşkilatı struktur özündə həm funksional, həm də məhsuldar strukturun xarakterik əlamətlərini birləşdirir. Bu zaman funksional şöbələrin menecerləri məhsuldar yarımşöbələrə təhkim olunur və sonunculara köməklik göstərir. Məsələn, menecer – turoperator daxili turizm şöbəsi üçün turlar işləyib hazırlayır.



Ərazi təşkilatı struktur dünyanın müxtəlif regionlarındakı ölkələrdə filialları, nümayəndəlikləri olan turist təşkilatları üçün xarakterikdir. Belə struktur daha çox turizm üzrə milli idarələrdə, mehmanxana zəncirləri ilə və françayzinq (françayzinq müqaviləsi müstəqil müəssisələrin zərurət olduqca spesifik öhdəliklərin icrası yolu ilə malın istehsalına, satışına və xidmətlərin göstərilməsinə kömək etməyi qarşılıqlı surətdə öhdəliklərinə götürdükləri uzunmüddətli öhdəlik münasibətləridir) müqaviləsi əsasında idarəetmədə rast gəlinir.

Bazar kanalları prinsipi üzrə təşkilatı struktur turist xidmətlərinin müxtəlif kanallarla yayılması ilə bağlı olan şöbələrin menecerləri arasında əmək bölgüsünə əsaslanır. Məsələn, böyük turoperator firması və ya oteldə turagentlərlə iş üzrə şöbəni nümunə kimi qeyd edək. Belə ki, Havay adalarında «Aston» kurortları və otelləri ümumilikdə 4500 nömrəsi olan, müstəsna şəkildə turagentliklər və turist xidmətlərinin topdansatış alıcıları (85 %-dən 90 %-ə qədər) vasitəsi ilə satılan şəbəkəyə malikdir.

Müştəri prinsipi üzrə təşkilatı struktur «vasitəçi müştərilərin» mövcudluğuna əsaslanır. Məsələn, işgüzar turizmdə bunlar kommersiya təşkilatlarıdır. Turfirmada onlara xidmət üçün korporativ müştərilərlə (bir peşəyə, silkə və s. mənsub adamların ittifaqı, birləşməsi, cəmiyyəti) iş üzrə şöbə yaradılır.

Matrisa kimi kombinə olunmuş təşkilatı struktur yuxarıda adları çəkilən bütün elementləri özündə birləşdirir. O, mehmanxana şəbəkəsinin böyük turist təşkilatları üçün xarakterikdir, belə ki, bircə – yeganə struktur, məsələn, «Sheraton» və ya «Holiday İnn» kimi belə müxtəlif çeşidli şəbəkənin bütün otellərində eyni cür müvəffəqiyyətlə fəaliyyət göstərə

bilməz. Bundan başqa, turist təşkilatlarının strukturunun mürəkkəbləşməsi – firmanın böyüməsinin qanunauyğun nəticəsidir.

Beləliklə, işçi heyətin idarə olunması strategiyasının işlənib hazırlanması və həyata keçirilməsinin ilkin şərti bunlardır:

- turizm təşkilatının inkişafının strateji məqsədləri;
- təşkilatı struktur;
- təşkilatda insan ehtiyatlarının idarə olunmasında daxili məhdudiyyət (maliyyə, zaman, yaş, sosial);
- əmək bazarında vəziyyət.

Qolferə görə işçi heyətin idarə olunmasının strateji modelində adları çəkilən müddəalar nəzərə alınır və onların qarşılıqlı əlaqəsi göstərilir (Sxem 7-yə bax).

**Sxem 7**

**Təşkilatın işçi heyətinin idarəolunması strategiyası modeli**






Turizmdə işçi heyətin idarə olunmasının strategiyasının əsas, ümumi qəbul olunmuş variantlarını gözdən keçirək.

Sahibkarlıq strategiyası, fəaliyyətinin yeni istiqamətlərini inkişaf etdirən turist təşkilatı üçün xarakterikdir. Belə turfirmalar ya öz fəaliyyətinə yenicə başlayan, ya da yeni biznesə vəsait yatırtmağı özünə rəva bilən müəssisələrdir. Nümunə kimi Türkiyə kompaniyası olan «Üçlər»i göstərə bilərik. On il əvvəl o, tikinti və nəqliyyat daşımaları ilə məşğul olurdu. İndi isə rusiya bazarında ən məşhur əcnəbi turist firmasıdır. Professor B.A.Kvartalnovun fikrinə görə «hər il onlarca faiz təşkil edən iqtisadi artım Rusiyada fəaliyyətin prinsipial cəhətdən yeni sahəsinə Qərbi Avropada ilişib qalmış biznesin kapitalının keçirilməsi nəticəsində mümkün olmuşdur».

Turizmdə və qonaqpərvərlikdə sahibkarlıq strategiyası (Kotlerə, Bouekə, Meykenhə görə – «diversifikasiya olunmuş artım») üç istiqamətə malik ola bilər. Birinci, kompaniya artıq firma tərəfindən buraxılan məhsulla öz texnoloji və marketinq xüsusiyyətləri sinergetik olan yeni məhsulların buraxılmasına başlaya bilər. İkinci, kompaniya onun əvvəlki istehlakçıları üçün maraqlı olan, lakin artıq istehsal olunan məhsulla heç bir texnoloji və digər qohumluq əlaqəsi olmayan (üfüqi diversifikasiya strategiyası) yeni məhsulların buraxılmasına başlaya bilər. Bir çox otellər, restoranlar, avia və kruiz kompaniyalar suvenirlər, idman formaları, ətirlər və s.-in istehsalı və satışına keçərək bu strategiyadan istifadə edirlər. «Hard Rock Cafe» kompaniyası çoxlu gəlir əldə edir, onların simvolları paltarlarda çox gözəl reklam şəbəkəsidir. Üçüncü, kompaniya əmtəəyə, xidmətin təşkilinə, texnologiyaya, bazara (konqlomerat – müxtəlif şeylərin və hissələrin nizamsız yığımı, birləşməsi – diversifikasiyası strategiyası) heç bir aidiyyəti olmayan biznesin yeni sferasına başlaya bilər. Məsələn, «Hyatt» kompaniyası «Senior Living» qocalar üçün evlərin təşkili ilə məşğul olur.

Sahibkarlığın strategiyası üçün çevik düşüncəyə malik, idarə etmə riskinə görə məsuliyyəti öz üzərinə götürməyə qadir olan yenilikçi-menecerlər tələb olunur. İşə qəbul daha çox yüksək potensiala və səlahiyyətlərə malik olan, gənc menecerlərin sıralarından həyata keçirilir. Fəaliyyətin qiymətləndirilməsi fərdi xarakter daşıyır və az formallaşdırılmışdır. Mükafatlandırma kifayət qədər tez-tez, o cümlədən firmanın strategiyasının realizə olunmasında əməkdaşların birbaşa iştiraka cəlb olunması şəklində həyata keçirilir. Peşəkarlığın artması mümkünlüyü çox vacibdir, belə ki, strategiya böyük fərdi imkanlara malik olan, qeyri-adi qabiliyyətli menecerlərin işinə əsaslanır.

Dinamik artım strategiyası (inteqrasiya olunmuş artım) tez-tez təşkilatın strukturu və ya məqsədlərinin dəyişilməsi prosesində istifadə olunur. Əsas problem – zəruri dəyişikliklər və sabitlik arasında balansdır.

Bu strategiyanın 3 növmüxtəlifliyini fərqləndirirlər. Birincisi, «geriyə inteqrasiya» (F.Kotlerə və digərlərinə görə), bu zaman məsələn, otel mal göndərən müəssisələrdən birini (qidalanma distribüteri) alır. İkincisi, «irəliyə inteqrasiya», bu zaman, məsələn, turoperator öz turizm məhsullarını və xidmətlərini hərəkətə gətirmək üçün turagentliyi (turbüronu) alır. Üçüncüsü, «üfüqü inteqrasiya», bu zaman məsələn, mehmanxana digər rəqabət aparan mehmanxananı alır.

Göründüyü kimi bütün bu alqı-satqılar, birləşmələr təşkilatın bəzi strateji məqsədlərinin, vəzifələrinin yenidən qurulmasını və təşkilatı strukturunun yenidən təşkilini tələb edir.

Məsələn, «Marriott» kompaniyası restoranların təchizatı üzrə özünün distributor sistemini işləyib hazırlamışdır. Təchizat işi ona qədər «Marriott's Fairfield Farms» ərzaq mağazası vasitəsi ilə həyata keçirilirdi. Sonralar mağaza bağlanmış və «Marriott Hotels»ə xidmət göstərən altı distributor mərkəzi yaradılmışdır. «Marriott» restoranları qarşısında öhdəliklərini yerinə yetirərək, mərkəzlər digər restoranlarla da əməkdaşlıq edirlər.



Dinamik artım strategiyası üçün mütəxəssislərin seçilməsi turist firmasının ən qabiliyyətli işçiləri sırasından həyata keçirilir. Başlıcası – təşkilatın həqiqətən ona ehtiyacı olan yüksək qabiliyyətli menecerlərin cəlb olunmasıdır. Mükafatlandırma qrupun işinə hər kəsin verdiyi faydanın qiymətləndirilməsinə əsaslanır. Əməkdaşların qabiliyyətlərinin artması onların ixtisasının yüksəlməsi hesabına təmin olunur. Təşkilatın genişlənməsi ilə əlaqədar ən yaxşı menecerlərin peşəkarlığına görə irəli çəkilməsinin real imkanları mövcuddur.

Gəlir strategiyası (intensiv artım) yetkinlik mərhələsində olan və özünü yaxşı cəhətdən göstərmiş xidmətlərin, turizm məhsullarının, mənimsənilmiş texnologiyaların köməyi ilə daimi gəlir götürməyə hesablanmış turist təşkilatları üçün xarakterikdir. Turfirma, otelin əsas devizi – «daha çox xidmət, daha az xərc»dir.

Bazara daxil olma strategiyasının əsas məqsədi artıq göstərilmiş turist xidmətlərinin realizə olunması payının artmasıdır. Buna üç üsulla nail olmaq mümkündür:

1) daha çox almaq üçün istehlakçıları stimullaşdırmaq. Bu daimi müştərilərlə baş tuta bilər;

2) öz rəqiblərinin turistlərini, qonaqlarını, müştərilərini aldadıb öz tərəfinə çəkmək;

3) adi müştəri olmağa çalışmayan qonaqları, turistləri cəlb etmək. Bu üsul adamların təklif olunan xidmətlərə hələ vərdiş olmadığı yerlərdə hazırlanır və həyata keçirilir. Məsələn, adamları inandırmaq lazımdır ki, tez xidmət göstərən restoranlar adi restoranlardan daha üstündür.

Bazarın inkişafı strategiyası – köhnə xidmətlər, turizm məhsulları ilə maraqlandırılması mümkün olan yeni istehlakçıların axtarışı və xidmətə cəlb olunmasıdır. «McDonalds»ın vitse-prezidenti D.Qrinberqin şüarı belədir: «Siz istehlakçıların yaxınlığında nə qədər çox ictimai iaşə məntəqəsi açsanız, sizin biznes bir o qədər intensiv olacaq».

Əmtəənin inkişaf strategiyası – köhnə məhsulların, xidmətlərin yeni imkanları haqqında həmişə düşünmək lazımdır. Həmin «McDonalds» qamburqerlər və qızardılmış kartoflarda ixtisaslaşaraq, məsələn, Havay adalarında yerli mətbəxə məxsus xörəkləri də təklif edə bilər.

Gəlir strategiyası üçün mütəxəssislərin seçilməsi (intensiv artım) standart prosedura və qaydaların istifadəsi ilə baş verir. Yalnız o işçilər yaxınlaşır ki, həmin anda onun xidmətinə təşkilatın ehtiyacı var (dar istiqamətli seçim). İdarəetmədə iştirak etmək zəruri deyil və mükafatlandırılmır.

Ləğvetmə strategiyasını gəlir götürmək nöqteyi-nəzərdən əsas fəaliyyət istiqamətləri tənəzzüldə olan təşkilatlar seçirlər. Bu halda işçilərin sosial müdaxiləsi tədbirləri böyük əhəmiyyət kəsb edir – işçilərin sayının ixtisar olunmasının maksimum ağrısız üsullarının axtarışı:

- natamam iş həftəsinə keçid;
- qısaldılmış iş günü;
- daxili yerdəyişmə.

İşçilərin mükafatlandırılması müstəsna olaraq vəzifə maaşlarına uyğun şəkildə həyata keçirilir.

Əlbəttə ki, işçi heyətin idarə olunması strategiyasının gətirilmiş variantları ilə bütün mümkün variantlar heç də qurtarmır.

### 5.2. İşçi heyətə tələbatın təyin olunması, kadrların axını və əmək məhsuldarlığı

İşçi heyətə tələbatın təyin olunması – müəyyən zaman ərzində işçi heyətin zəruri kəmiyyət və keyfiyyət tərkibini təyin etməyə imkan verən, işçi heyətin idarə olunmasının planlaşdırılmasının vacib mərhələlərindən biridir. İşçi heyətdə təşkilatın tələbinə təsir edən amillərin dinamikasının başa düşülməsi,



turizmdə və qonaqpərvərlikdə insan ehtiyatlarının planlaşdırılmasının əsasıdır.

Keyfiyyət tələbatı adı altında peşəsinə, ixtisasına, əxlaqı keyfiyyətlərinə və s. görə işçilərə olan tələbat başa düşülür. İşçi heyətə miqdarca tələbatın müəyyən olunması vəzifəsi həm əməkdaşların sayının hesablanması metodunun seçilməsinə, həm də hesabat üçün başlanğıc məlumatların və müəyyən zaman ərzində işçilərin zəruri sayının birbaşa hesablanmasının təyin olunmasına müntəzir olunur.

Turizm və qonaqpərvərlikdə işçi heyətə tələbatın təyin olunmasının əsas mürəkkəbliyi – kadrların böyük axınıdır. F.Kotlerin məlumatlarına görə keçən əsrin 80-ci illərinin axırlarında kadrların axınının dəyəri 1 saat ərzində (saathesabı ödəniş zamanı) orta hesabla 2100 ABŞ dolları təşkil edirdi. Bu onu göstərir ki, 200 xidmətçisi və 100 % axını olan mehmanxanalar üçün bu rəqəm artıq 400.000 ABŞ dolları təşkil edir. Bu gün kadr axınının «qiyməti» daha yüksək olmuşdur.

Odur ki, işçi heyətə tələbatın təyin olunması zamanı kadrların axını əmsalı (F) nəzərə alınır. O, isə bu formulla hesablanır:

$$F = \frac{N}{M}$$

Burada N – işdən çıxarılanların 100-ə vurulmuş orta illik sayı; M – işçi heyətin orta illik sayıdır

Görünən fakt odur ki, hər şeyi olduğu kimi saxlamaqdandırsa, işçi heyətin axını ilə mübarizə aparmaq daha düzgündür. Məsələn, «La Quinta Motor İnns» mehmanxanasının menecerləri işçi heyətlə işlərin planlaşdırılmasının dörd maraqlı prinsiplərinin köməyi ilə axını il ərzində 36 %-dən 21 %-ə qədər azaltmağı bacarmışlar:

1) işçi heyətin seçilməsi – işə qəbul zamanı ər-arvadlara daha çox oriyentasiya olunması;

2) peşəkarlığa oriyentasiya – hər bir ailə (ər-arvad) 13 həftəlik intensiv təlim kursunu və əlavə olaraq iş yerində təlimi bitirməlidir;

3) sabitlik – ər-arvadlar bir illik iş müddəti qurtarana qədər başqa vəzifəyə köçürülmələri barədə xahiş edə bilmirlər;

4) inkişaf və karyera – «La Quinta»da işçi heyətin ixtisasının həmişə yüksəldilməsinə çox fikir verilir.

Restoran biznesində kadr axını problemini öyrənən ekspertlər aşağıdakı nəticələrə gəlmişlər:

- böyük kadr axını vəsaitlərin yerləşdirilməsində qidalanmanın təşkili üzrə menecerlər arasından daha çox, restoran menecerləri arasında müşahidə olunur;
- baş menecerlərə nisbətən menecerlərin köməkçiləri iş yerlərinin dəyişdirilməsinə daha çox meyllidir;
- baş menecerlər öz köməkçilərinə nisbətən simasızlaşdırılmaqdan daha çox əziyyət çəkirlər;
- kadr axını tendensiyası tənha adamlar arasında evli adamlara nisbətən daha yüksəkdir;
- kişilər qadınlara nisbətən bu hadisəyə daha az məruz qalırlar;
- baş menecerlər tərəfindən göstərilən yaxşı münasibət onların köməkçiləri arasında kadr axınını azaldır.

Əlbəttə ki, ixtisaslaşdırılmış menecerləri müxtəlif amillərin (əmək haqqı və maddi nemətlərlə yanaşı) köməyi ilə saxlamaq olar ki, bunlardan əsas olanları aşağıdakılardır:

- xidmətdə yüksəlmək imkanları;
- maraqlı iş;
- menecerin məsuliyyətinin artması;
- yaxşı iş şəraiti;
- özün komandanın bir hissəsi olduğunu dərk etmək hissi;
- menecerin yerinə yetirdiyi işin vacibliyinin yüksək qiymətləndirilməsi;
- işin təhlükəsizliyi;



- yaxşı hazırlanmış təlim proqramı;
- kompaniyanın menecerə şəxsləndirilmiş loyallığı (işə vicdanla yanaşan adam kimi baxması);
- yaxşı əməkdaşların kollektivi – komanda;
- əlavə güzəştlər (pensiyalar, ödənişli məzuniyyətlər, mükafatlandırma kimi turlar və s.);
- coğrafi mövqeyi;
- rahat iş yeri;
- şəxsi problemlərin həllində köməklik.

İşçi heyətə olan miqdarca tələbatı təyin etmək üçün zəruri, əsas, başlanğıc məlumatlar istehsal normaları və əmək məhsuldarlığıdır. İstehsal norması praktiki olaraq hər bir iş yerində müəyyən oluna bilər. Məsələn, əməliyyatın və ya tapşırığın yerinə yetirilməsi üçün xronometrləşdirilməsi, yəni orta vaxtın təyin olunması. Beləliklə bir xidmətçi üçün növbə ərzində 15-20 nömrənin təmizlənməsi – nömrə fondunun xidməti üçün gündəlik istehsal normasını təyin etmək olar. Mehmanxanaların yerlərinin proqnozlaşdırılan doldurulmasını hesablamaqla mövsüm ərzində xidmətçiyə olan ümumi tələbatı hesablayırlar. Ofisiantların əmək məhsuldarlığını xidmət göstərilmiş qonaqların orta sayını ofisiantların sayına bölməklə təyin etmək olar. Analoji olaraq əmək məhsuldarlığını yerləşdirmə xidməti üçün yerləşdirilmiş qonaqların sayını baş inzibatçının ofisində olan xidmətçilərin sayma bölməklə hesablamaq olar.

Turist təşkilatının bütün işçi heyətinin əmək məhsuldarlığı K aşağıdakı formulla təyin olunur:

$$K = \frac{S}{R}$$

Burada S – satışdan hasil olan ümumi mədaxil;

R – işçi heyətin xərcləri (əmək haqqı, maddi mükafatlandırma və s.)

Məsələn, 5 əmsalla təyin olunan əmək məhsuldarlığı onu göstərir ki, işçi heyətə sərf olunmuş 1 manatdan 5 manat gəlir alınmışdır. Əmək məhsuldarlığının hesablanmasının daha bir üsulu satışdan hasil olan pulun ümumi məbləğini xidmətçilərin sayına bölməklə orta xidmətçidən gələn gəlirin təyin olunmasıdır.

Müasir turist təşkilatları işçi heyətə tələbatın təyin olunmasının aşağıdakı metodlarından istifadə edirlər.

Ekstrapolyasiya metodu – ən sadə və tez-tez istifadə olunan metod olub, mahiyyətcə bugünkü vəziyyətin gələcəyə keçirilməsidir. Məsələn, «Qlobus» turagentliyi 1999-cu ildə beş agentə və 100.000 dollarlıq satış həcminə malik idi. 2000-ci ildə firmanın strateji vəzifəsi satış həcmini 140.000 ABŞ dollarına çatdırmaq idi. Müvafiq olaraq daha iki agent tələb olunurdu.

Metodun cəlbediciliyi onun sadəliyindədir. Əsas çatışmazlığı isə xarici mühitin və təşkilatın inkişafında baş verən dəyişikliklərin nəzərə alınmasının qeyri-mümkünlüyüdür. Odur ki, bu metod sabit xarici mühitdə fəaliyyət göstərən, sabit təşkilatı strukturlu təşkilatlarda qısamüddətli planlaşdırma üçün uyğundur. Bu isə vətən turizmində çox nadir hadisədir. Bir çox firmalar əməkdaşların sayını müəyyən edən amillərin – əmək məhsuldarlığının yüksəldilməsi, kadrların axınının azaldılması, yerləşdirmə vasitələrinin doldurulmasının artırılması və s. nisbətinin dəyişməsini nəzərə alın ekstrapolyasiyaya təshih olunmuş metoddan istifadə edir.

Ekspert qiymətləndirilməsi metodu işçi heyətin tələbinə münasibətdə bölmələrin rəhbərlərinin fikrinə əsaslanır. İşçi heyət üzrə menecer onların verdiyi qiyməti toplayır, təhlil edir və xülasələşdirir. Bunun üçün aşağıdakılar istifadə oluna bilər: qrup şəklində müzakirələr; yazılı hesabatlar; Delfi metodu (təkrar ekspert qiymətləndirməsi). Sonuncunun mahiyyəti ondan ibarətdir ki, işçi heyətə tələbatın ilkin ekspert qiymətləndirilməsinin nəticələri ekspert qrupunun bütün üzvlərinin diqqətinə



çatdırılır və tənqidi analizə məruz qalır. İkinci ekspert qrupunun ümumiləşdirilmiş nəticəsi işçi heyətə tələbatın proqnozunu təşkil edir.

Ekspert qiymətləndirilməsi metodunun üstünlüyü – xətti menecerlərin işçi heyətin idarə edilməsində iştirakıdır. Çatışmazlığı isə – ekspert rəyinin toplanması və emalı prosesinin çox zəhmət tələb etməsi, həmçinin sonuncunun subyektivliyidir.

Kompüter modeli işçi heyətə tələbatın təyin edilməsi metodu kimi ekstrapolyasiya, ekspert qiymətləndirilməsi, həmçinin işçi qüvvəsinə tələbata təsir edən bütün yuxarıda adları çəkilən amillərin dinamikası haqqında informasiya metodlarını eyni zamanda istifadə etməyə imkan verən riyazi formullar toplusunu ifadə edir. Modellər daha dəqiq proqnozlar əldə etməyə imkan verir. Metodun çatışmazlığı – modellərin yüksək qiyməti və onlarla işləmək üçün xüsusi vərdişlərin vacibliyidir.

### 5.3. Turizm biznesində işçi heyətin hazırlanmasının peşə (kvalifikasiya) standartları və ekoturizm üçün qonaqpərvərlik

İşçi heyətə keyfiyyətli tələbatın təyin olunmasının əsasını turist təşkilatına kimin lazım olduğu prosesinin aşkarlanması təşkil edir. Bu proses ənənəvi olaraq vəzifə təlimatının, yəni həmin vəzifəni tutan əməkdaşın əsas funksiyalarının yazıldığı sənədlərin işlənib hazırlanması ilə sıx bağlıdır. Vəzifə təlimatı işçiyə tələbatı formalaşdıran birbaşa rəhbərliklə, onları sənədləşdirən, işçi heyət üzrə menecerlərin birgə səyi ilə yaradılır. Sənəddə aşağıdakılar əks olunur:

1) işçinin işə təyin olunması, işdən azad olunması, tabeçiliyi qaydalarını müəyyən edən ümumi müddəalar;
2) vəzifə borcları;
3) işçinin biliklərinə və vərdişlərinə olan tələblər;
4) təhsilə, iş stajına və s. olan tələblər.

Vəzifə təlimatına əlavə kimi ixtisas xəritəsi və səlahiyyət xəritəsi («ideal» əməkdaşın profili) istifadə oluna bilər.

İxtisas xəritəsi «ideal» əməkdaşın malik olmalı olduğu ixtisas xasiyyətnaməsinin dəqiq təsvirini özündə ifadə edir. Seçim zamanı ixtisas xasiyyətnaməsini müəyyən etmək vəzifə borcunu yerinə yetirməyin mümkünlüyündən daha asan olduğundan, müvafiq olaraq ixtisas xəritəsi həmin vəzifəyə iddiaçıların seçim prosesini xeyli asanlaşdırır. İxtisas kartının çatışmazlığı – iddiaçının əvvəlki xidmətlərinə (təhsilinə, təcrübəsinə və s.) diqqətin, onun müasir potensialına, peşə inkişafına verilən qiymətin zərərinə olaraq cəmləşdiriləsidir.

Səlahiyyət xəritəsi turizmdə və qonaqpərvərlikdə çox vacib olan «ideal» əməkdaşın şəxsi xasiyyətnaməsinin təsvirini ifadə edir. Məsələn, qonağa xüsusi yanaşma, qrupda işləmək bacarığı, möhkəm xarakterli olma, qeyri-adi düşüncə qabiliyyəti və s.

Müəyyən vəzifə öhdəliklərinin yerinə yetirilməsi üçün menecerlərin hazırlanması peşə təhsilinin məqsədidir. Ölkəmizdə belə təhsil ənənəvi olaraq orta xüsusi təhsil müəssisələrində (kolleclərdə) və ali təhsil müəssisələrində (institutlarda, universitetlərdə, akademiyalarda) həyata keçirilir. Yalnız bələdçilər macəra və idman turizmində qısamüddətli kursların bazasında hazırlanmışdı və onun hazırlandığı kateqoriyaya müvafiq olan təlimatçı ixtisasına malik olmuşlar. Turizm və qonaqpərvərlik üzrə gələcək menecerləri necə və nəyə öyrətməyi təyin edərkən tədris müəssisələri bir tərəfdən «menecment» ixtisası üzrə hazırlığın Dövlət təhsil standartlarını, digər tərəfdən turizm sənayesinin işçilərinin bilik və vərdişlərinin ən mühüm tələblərini əldə rəhbər tuturlar. Sonuncular turizm sənayesi üçün işçi heyətin hazırlanmasının peşə (ixtisas) standartlarını təşkil edir. Onlar 1998-ci ildə Avropa Şurası TASİS layihəsi çərçivəsində «Turizm Sənayesi üçün tədris bazasının möhkəmləndirilməsi» olaraq işlənib hazırlanmışdır.



Peşə (ixtisas) standartlarının işlənib hazırlanmasının əsas vəzifələrinə bunlar aiddir:

1) turizm xidmətlərinin keyfiyyətinin yüksəlməsi əsasında müasir ölkə turizm bazasının formalaşmasına köməklik göstərilməsi;

2) turizm xidmətlərinin standartlaşdırılması və sertifikatlaşdırılması üzrə normativ bazanın inkişafı və təkmilləşdirilməsi;

3) ölkəmizdə mövcud olan peşə standartlarının analoji beynəlxalq standartlara unifikasiya olunması;

4) turizm sahəsində kadrların hazırlanması, yenidən hazırlanması və ixtisasının artırılmasının müasir sisteminin yaradılmasına köməklik göstərilməsi;

5) turizm sahəsi və onun ixtisaslaşdırılması üçün müasir təhsil standartlarının işlənib hazırlanmasından ötrü əsasların yaradılması;

6) turizm sənayesi üçün mütəxəssislərin hazırlanması və ixtisasartırma tədris proqramının işlənməsindən ötrü əsasların yaradılması.

Ölkəmizin turizm sənayesi və qonaqpərvərliyinin aşağıdakı bölmələri üçün peşə standartları işlənib hazırlanmışdır:

- turbiznes (turagentlik, turoperatorlar, ekskursiya büroları);
- mehmanxanalar – dörd əsas xidmət üçün: qəbuletmə və yerləşdirmə, qidalanma, qidaların hazırlanması və mehmanxana fondu;
- turizm sahəsində dövlət icra hakimiyyəti orqanları.

Təqdim olunan sənədin forması, strukturu və mahiyyəti Böyük Britaniya, Fransa və Almaniya kimi ölkələrin analoji avropa standartlarına əsaslanmışdır.

Standartlar turizm və qonaqpərvərliyin yuxarıda adları çəkilən bölmələrinin işçilərinə qarşı qoyulan bütün tələblər kompleksini müəyyən edir. Onlarda aşağıdakılar göstərilir:

- turizm təşkilatının bölmələrindən hər birində işləmək üçün vacib olan əsas vəzifələrin adları;
- hər bir vəzifə üçün tələb olunan təhsilin səviyyəsi;
- müxtəlif vəzifələrə və menecment səviyyələrinə uyğun olan vəzifə öhdəliklərinin siyahısı;
- hər bir vəzifə öhdəliyinin yerinə yetirilməsi üçün zəruri olan mühüm bilik və vərdişlərin siyahısı.

İşlənmiş standartların əsasında Moskva, Sankt-Peterburq, Soçi turizm sənayesinin işarə edilmiş bölmələrində işləyən 650 nəfər peşəkar mütəxəssisin anket sorğusu durmuşdur. Standartlar bütün böyük turist şirkətlərinin idarə heyəti tərəfindən müzakirə olunmuş və qəbul edilmişdir. Rusiyanın bir çox aparıcı turizm firmalarından müsbət rəy alınmışdır ki, onların da bir çoxu (İnna – Tur, Akademservis, NTK «Turkurortservis», QAO «Moskva» və s.) artıq öz işində bu standartlardan istifadə edir.

Rusiyanın bir sıra ali təhsil müəssisələri, xüsusən də Kuban Dövlət Universiteti turizm ixtisası üzrə tədris planı layihəsinin əsasına artıq peşə (ixtisas) standartlarını qoymuşlar. Standartlar öncədən aparıcı turizm firmalarının və Rusiyanın cənubunun yerləşdirmə vəsaitlərinin top-menecerləri ilə müzakirə edilmişdir ki, bu da göstərilən standartlara turizmin inkişafına regional aspekt gətirməyə imkan vermişdir.

Əgər turoperator üzrə menecerlər və mütəxəssislər üçün vəzifə borclarını və zəruri ixtisası ekoloji turizmin spesifik sahəsinə cəsarətlə «keçirmək» olarsa, ekoloji və macəra turizmı üzrə dağ bələdçilərinin hazırlanması ilə bağlı hər şey daha mürəkkəbdir. Hazırda ölkəmizdə ixtisas standartları və onlara uyğun belə mütəxəssislərin hazırlanması kursu yoxdur. Odur ki, aparıcı turoperatorlar təkcə bizdə deyil, həm də xarici ölkələrdə yaranmış belə vəziyyətdə bələdçilərin hazırlanmasını öz gücü ilə və özünün firmadaxili standartları üzrə təşkil edir.

«Chocpaw Expeditions»-da deyilir ki, turların it qoşqularında həyata keçirən bələdçilər üçün rəsmi sertifikat və standartlar



mövcud deyil. Odur ki, onlar özlərinin xüsusi standartlarını yaratmışlar. Belə turlar üçün soyuq havada səyahət etməyə fiziki hazırlıq və qoşqunu idarə etmək bacarığı lazımdır. Firmada təsdiq edirlər ki, «Standartlar ona görə lazımdır ki, bizim bələdçilər başqa firmaların bələdçilərinə nisbətən fiziki və psixoloji olaraq daha yaxşı hazırlanmış olsunlar».

### 5.4. Turizm firmasında işçi heyətin seçilməsi

İşçi heyətə keyfiyyətcə və kəmiyyətcə tələbat müəyyən olunduqdan sonra birbaşa onun seçilməsinə keçmək olar. Seçimin əsas vəzifəsi – elə bir əməkdaşı tapmaqdır ki, onun qarşısına qoyulmuş tapşırıqları yerinə yetirməyi bacarsın, təşkilatın inkişafında strateji məqsədlərə nail olmaq üçün öz töhfəsini versin.

Ənənəvi olaraq muzdla tutulmuş işçi heyətin mənbələrini xarici (təşkilatın ətraf mühitindən olan namizədlər) və daxili («öz evindən» olan namizədlər) olmaqla iki yerə ayırırlar. Hər iki mənbənin üstünlükləri və çatışmazlıqları var. Belə ki, xarici mənbənin əsas üstünlükləri namizədlərin seçim zamanı çoxluğu, yeni ideyaların, üsulların, iş təcrübəsinin gətirilməsi; çatışmazlıqları isə yeni işçinin firmaya, həmin sahəyə uzun müddətli adaptasiyası, ilkin tədrisin vacibliyi, təşkilatdan həmin vəzifəyə olan namizədlər tərəfindən mənəvi mühitin korlanmasıdır. Daxili mənbənin əsas üstünlükləri namizədin bir işçi kimi bütün müsbət və mənfi tərəflərinin firmada məlum olması, seçim prosesinə xərclərin azalması, öz əməkdaşlarının vəzifəcə irəli aparılmasının mümkünlüyü; çatışmazlıqları isə yeni ideyaların aşkarlanmasında durğunluğa aparan «ailəlik» qaydaları, seçimin məhdudluğu, vəzifə işinin digər sahələrinin, müdafiəsiz qoyulmasıdır.

Turizmdə və qonaqpərvərlikdə namizədlərin axtarışının xüsusi mənbəyi kimi aşağıdakılar istifadə oluna bilər:

1) turizm təşkilatı daxilində xidmət üzrə irəliləmə;

2) bölmədən bölməyə köçürmə;

3) xüsusi rəhbər ehtiyatdan top-menecerlərin təyin olunması;

4) əməkdaşların tövsiyəsi ilə işə qəbul;

5) sənayedə özü iş axtarmaqla məşğul olan və bu zaman aşkarlanmış namizədlər;

6) KİV-də elanlar;

7) turizm üzrə kolleclərin və universitetlərin məzunları və yuxarı kurs tələbələri;

8) dövlət məşğulluq xidməti;

9) işçi heyətin seçimi üzrə xüsusi agentlik.

Bir çox mütəxəssislər eyni zamanda bir neçə mənbədən istifadə etməyi məsləhət görürlər: iddiaçını həmişə firma daxilində axtarmaq; ən azı iki xarici mənbədən istifadə etmək.

İşçi heyətin sonrakı seçimini aşağıdakı sxem formasında təsəvvür etmək olar:

**Sxem 8**






Seçim qaydalarının müəyyən olunması namizədlərin qiymətləndirilməsinin əsas prosedurunu, dəqiqləşdirməyə, həmçinin iddiaçıların müqayisə edilməsinin mühüm məqamlarını ayırmağa imkan verir.

İlkin seçki namizədlərin siyahısının və sənədlərinin analizindən başlayır. Onun məqsədi – vakant vəzifələri tutmaq üçün zəruri olan minimal xasiyyətlərə malik olmayan şəxsləri ələkdən keçirib ayırmaqdır. Hər bir təşkilat iddiaçıların sənədlərinə öz tələblərini müəyyənləşdirmək hüququndadır. Lakin əmək müqaviləsi bağlayan zaman əmək qanunvericiliyində nəzərdə tutulanlardan savayı sənədlər tələb etmək qadağan olunur.

İlkin seçkinin ən geniş yayılmış metodları bunlardır: anket məlumatlarının analizi; testləşdirmə; xəttin ekspertizası.

Anket məlumatlarının analizi ilkin seçkinin ən sadə, ucuz və kifayət qədər səmərəli metodudur. Metodun çatışmazlığı – namizədin keçmiş xidmətlərinə onun önəmli olmasıdır ki, bu da işçinin indiki və gələcək potensialını ayırmağa imkan vermir. Anket məlumatların sənədləşdirilməsi üçün daha çox aşağıdakılar istifadə olunur: kadrların şəxsi uçot vərəqəsi; namizədin peşə və əxlaq xüsusiyyətləri sadalanmaqla arayış-xülasə. Əgər kadrların şəxsi uçot vərəqəsi daha çox namizədin həyatında ictimai əhəmiyyətli faktların aşkarlanmasına yönəlmişdirsə, arayış-xülasə - onun peşəkarlığına, həmçinin əvvəlki iş təcrübəsinə aiddir.

Testləşdirmə həm iddiaçının peşə biliklərinin səviyyəsini təyin etmək üçün, həm də onun əxlaqi keyfiyyətlərini aşkarlamaq üçün istifadə olunur. İlkin seçki olaraq bu metodun yaxşı cəhəti odur ki, təşkilatın və vəzifənin gələcəyinin xüsusiyyətləri nəzərə alınmaqla namizədin hazırkı, bugünkü səlahiyyətləri qiymətləndirilir. Çatışmazlığı – xərclərin çoxluğu, testlərin tərtib olunmasında və işlənməsində əlavə köməklərin vacibliyi, namizəd haqqında tam təsəvvür yaratmayan testlərin şərtiliyi və məhdudluğudur. Son vaxtlar testləşdirmə böyük kompaniyaların

işçi heyət üzrə menecerlərində daha çox məşhurluq qazanır. Məsələn, S.V.Şekşninin məlumatına görə işçi heyətin seçilməsində ən yüksək keyfiyyətlərə diqqəti cəlb etdirən «Mars» multimilli kompaniyasında rəhbər vəzifələrə bütün namizədlər üç testdən keçirlər: şəxsiyyət tipinin testi, analitik qabiliyyət testi, məntiqi düşüncə testi.

İlkin seçkidən sonra təşkilatın tələblərinə daha çox uyğun gələn namizədlərin siyahısı tərtib olunur. Bütün qalan namizədlər iddia olunan vəzifəyə onların namizədliyinin baxılmasının dayandırılması qərarı haqqında xəbərdar edilirlər.

Sonrakı mərhələdə insan ehtiyatları bölməsi seçilmiş namizədlərlə fərdi söhbət (müsahibə) aparır. Bu çox məsuliyyətli mərhələdir və ona görə də bir çox turist firmaları ona böyük diqqət ayırırlar. Məsələn, «Guest Quarters» mehmanxanasında işə düzələn, qabyuyandan auditora qədər bütün namizədlər şifahi müsahibənin dörd mərhələsini keçməlidirlər.

«Disney World» gələcək xidmətçiləri seçməyi ən yaxşı əməkdaşlarına həvalə edir. Onları üç həftə seçim proseduruna öyrədirlər, sonra ən yaxşı namizədləri seçmək üçün 45 dəqiqəlik müsahibə aparmağa yönəldirlər. «Disney World»ın meneceri Ceyms Roysant bu üsulu belə izah edir: «kompaniyanın ən yaxşı xidmətçiləri özlərinə oxşayan namizədləri seçirlər. 45 dəqiqəlik söhbət əsnasında onlar dərhal kimin onları axmaq yerinə qoyduğunu, kimin isə doğru danışdığını görürlər».

Başa düşmək lazımdır ki, söhbət (müsahibə) – ikitərəfli prosesdir. İşçi heyət üzrə menecer, firmanın potensial imkanlarının kiminsə gözləntiləri ilə uyğun gəlməyən şəxsi işə qəbul etməkdən qaçmaq üçün təşkilat haqqında namizədə maksimum obyektiv və tam informasiya təqdim etməlidir. Bundan savayı hər bir təşkilat, onun kollektivi öz mədəniyyətinə, dəyərlərinə, rituallarına, əməkdaşlarının davranış stilinə malikdir. Bu dünyagörüşü xüsusiyyətləri, mövqeləri namizədlə rəhbərlik, turfirmanın işçi heyəti ilə uyğun gəlməyə bilər.



Müsahibənin ən geniş yayılmış növü «təkbətək» söhbətdir. Lakin bu gün başqa formalardan da istifadə olunur. Məsələn, işçi heyət üzrə bir menecer eyni zamanda bir neçə namizədlə görüşür ki, həmin stress vəziyyətdə onları davranışına görə müşahidə edə bilsin və ya təşkilatın bir neçə nümayəndəsi bir namizədlə görüşür ki, bu da müsahibənin keyfiyyətinə və qiymətləndirilməsinə obyektivlik verir.

Müsahibənin aşağıdakı üç tipini ayırırlar: 1) bioqrafik (tərcümeyi-hal); 2) vəziyyət; 3) meyar.

Bioqrafik müsahibə namizədin həyatında baş vermiş faktlar ətrafında qurulur. Bu zaman aşağıdakı tipdə xarakterik suallar verilir: "özünüzün əvvəlki işiniz haqqında danışın. Nə üçün Siz hazırda oxuduğunuz universiteti seçdiniz? Nə üçün Siz məhz bu ixtisası seçdiniz?!"

Müsahibənin vəziyyət tipinin gedişində namizədə bir və ya bir neçə problemi (praktiki vəziyyətdə) həll etmək təklif olunur. Bunun üçün gələcək vəzifə borcu ilə əlaqədar olan real və ya hipotetik vəziyyətdən istifadə olunur. Həm nəticə, həm də problemin həlli metodları qiymətləndirilir.

Müsahibənin meyar tipi zamanı bütün namizədlərə standart suallar verilir, cavablar isə əvvəlcədən hazırlanmış meyarlar üzrə qiymətləndirilir.

Ən yaxşı nəticəyə müsahibənin bütün üç tipini uzlaşdırmaqla nail olmaq olar. Lakin müsahibənin tipindən asılı olmayaraq o, dörd mərhələdən ibarət olmalıdır: 1) «inam mühitinin yaradılması»; 2) informasiya mübadilələri (əsas hissə); 3) yekun; 4) qiymətləndirmə.

«İnam mühitinin yaradılması» – müsahibə mərhələsində namizədə gərginlikdən çıxmağa və özünün ən yaxşı keyfiyyətlərini nümayiş etdirməyə kömək etmək lazımdır. Bunun üçün aşağıdakı tipdə neytral suallardan istifadə olunur: «Bizim ofisi tapmaqda Siz çətinlik çəkmədiniz ki? Kabinetdəki vəziyyəti Siz necə qiymətləndirirsiniz?» Həmçinin namizədin

əlini sıxmaq, üzünə gülümsəmək, harada rahatdırsa, orada əyləşməyi təklif etmək və s.

İnformasiya mübadiləsi işçi heyət üzrə menecer tərəfindən tam nəzarət altında baş verməlidir. Əgər nəyinsə haqqında ətraflı öyrənmək lazımdırsa, o zaman açıq tipli suallar verilir: «Bu barədə Siz necə fikirləşirsiniz?», «Zəhmət olmasa o barədə danışın» və s. Əgər yalnız namizədin fikrini bilmək lazımdırsa, o zaman qapalı tipli suallar verilir: «Siz həmin təsdiqlə razısınızmı?», «Xidmətçi gün ərzində neçə nömrə yığışdırmalıdır».

Müsahibə götürən yalnız informasiyanı qiymətləndirmək üçün bütün lazım olanları aldıqdan sonra müsahibə başa çatır. Bunun üçün standart qeyri-verbal (qeyri-şifahi) siqnal vermək kifayətdir ki, söhbət başa çatsın (məsələn, axırıncı sualı verməyi təklif etmək, stol arxasından qalxmaq və s.) Sonra namizədə təşəkkür etmək və gələcək seçim qaydasını, həmçinin əlaqə saxlamağı aydınlaşdırmaq lazımdır.

Namizədin qiymətləndirilməsi müsahibədən dərhal sonra baş verməlidir, əks təqdirdə müsahibə mühitinin qavranılmasının kəskinliyi itəcəkdir.

Müsahibənin nəticələri namizədlərin qiymətləndirilməsinin xüsusi formasının köməyi ilə mütləq sənədləşdirilir. Namizədin qiymətləndirilməsinin nümunəvi forması (S.V.Şekşnə görə) aşağıda verilmişdi.



**Namizədin qiymətləndirilməsinin nümunəvi forması**

A. S. A. ______________________

Yerləşdirməyə namizəd ______________________
(vəzifənin adı)

Müsahibə keçirilmişdir ______________________
(əməkdaşı vəzifəsi və.A S A )

Vaxtı ______________________

| Xasiyyətnamə | Qiymətləndirmə | | |
|---|---|---|---|
| | Ortadan yüksək | orta | Ortadan aşağı |
| İş təcrübəsi | | | |
| Təhsili | | | |
| Yetişkənlik dərəcəsi | | | |
| Liderliyi | | | |
| Qrupda işi | | | |
| Analitik qabiliyyəti | | | |
| Özünə inamlılığı | | | |
| Müştərinin maraqlarına yönəmliliyi | | | |
| Ünsiyyətlilik | | | |
| Ümumi qiymət | | | |

Kommentariyası:
İşə qəbul üçün tövsiyə etmək
Sonrakı müsahibə üçün tövsiyə etmək
Başqa vəzifəyə namizəd kimi araşdırmaq
İmtina etmək
İmza:

Seçimin sonrakı mərhələsi namizəd haqqında yoxlama, informasiya alınmasıdır. Qərb ölkələrində namizədi birgə işlədikləri yerdən, təhsildən, idmanla məşğul olduqları vaxtdan və s. yaxşı tanıyan adamların yazılı tövsiyələri geniş yayılmışdır. Adətən

onlarda müstəsna olaraq müsbət rəy yazılır. Odur ki, belə qiymətləndirmələrin kifayət qədər subyektivliyi şübhəsizdir. İddiaçının göstərdiyi təşkilatlarda onun barəsində yoxlama alınması özünün keçmiş vəzifəsini «yüksəldən» və ya mövcud olmayan təşkilatı göstərən vicdansız namizəddən firmanı qoruyur.

Bölmə rəhbəri ilə müsahibə namizədin peşəkarlıq keyfiyyətini dəqiqləşdirmək və bölmədə firmanın kollektivi ilə namizədin bir-birinə nə qədər uyğun gəldiyini qiymətləndirmək məqsədi ilə aparılır. Bundan başqa bölmənin birbaşa rəhbəri öz bölməsi, vakant vəzifələr və vəzifə borcları haqqında namizədə ətraflı məlumat verir.

Bu söhbətdən sonra hansı namizədin təşkilata daha çox dərəcədə uyğun gəldiyi haqqında qərar qəbul olunur. Lakin namizədin özü üçün seçim bununla qurtarmır.

Sınaq müddəti işçi heyət üzrə menecer və namizəd üçün sonuncu imtahandır. O, namizədin nəinki peşəkar kimi yararlılığını, həm də işçi heyət üzrə menecer tərəfindən verilmiş rəylərin, nəticələrin əsaslılığını, seçim üçün sərf olunmuş güc və vəsaitlərin səbəbini göstərir.

Əmək müqaviləsi bağlanan zaman tərəflərin razılığı ilə 3 aya qədər, top-menecerlər üçün isə 6 aya qədər sınaq müddəti müəyyən oluna bilər. Aşağıda sınaq müddəti müəyyən olunması icazə verilməyən şəxslərin siyahısı göstərilir:

- 18 yaşına çatmamış şəxslərə;
- hamilə qadınlara;
- ibtidai, ali və orta peşə təhsil müəssisələrini yenicə bitirmiş gənc mütəxəssislərə;
- əmək haqqı ödənilən seçkili vəzifələrə seçilmiş şəxslərə;
- işəgötürənlər arasında razılığa görə digər işəgötürəndən köçürmə qaydasında işə dəvət olunmuş şəxslərə.

Sınaq müddətini keçmə nəticələrinin qiymətləndirilməsi prosedurunu dəqiq təyin etmək və namizədin diqqətinə çatdırmaq lazımdır. Əgər o, öz işinin öhdəsindən gəlməmişdirsə, o zaman onu işdən çıxarırlar.



## 5.5. Əmək müqaviləsinin bağlanması

Əmək sazişinin – müqaviləsinin (kontraktının) bağlanması işçi heyətin seçim prosesinin müvəffəqiyyətlə başa çatmasıdır. Əmək müqaviləsi (kontraktı) yazılı formada bağlanmalıdır. Müqavilənin şifahi formada bağlanması əmək qanunvericiliyinin kobud şəkildə pozulmasıdır. Əmək müqaviləsinin bağlanması zamanı əmək qanunvericiliyi ilə müəyyən olunmuş forma və mahiyyətə riayət etmək lazımdır.

Kontraktın bağlanmasının ən mühüm elementi əmək müqaviləsinin təsir müddətidir. O, qeyri-müəyyən müddətə və 5 ildən çox olmayan müddətə bağlana bilər. Bir çox hallarda həmçinin müəyyən işin yerinə yetirilməsinə lazım olan müddətə, məsələn, turun işlənib hazırlanması müddətinə, otelin bərpasına və s. müqavilə bağlamaq məqsədəuyğundur. Belə kontraktın üstünlükləri aşağıdakılardır:

- müqavilədə işçinin nail olmalı olduğu işin nəticəsi konkret təyin olunur;
- işi yerinə yetirdikdən sonra müqaviləni konfliktsiz ləğv etmək olar;
- işçi konkret nəticəyə yöndəmli olur.

Əmək müqaviləsində (kontraktda) hətta tərəflərin razılığı ilə belə aşağıdakı şərtlər müəyyən oluna bilməz:

- işdən çıxarmaq üçün əsas;
- qanunvericilikdə nəzərdə tutulmamış intizam tənbehinin müəyyən olunması;
- ölkəmizin əmək qanunvericiliyində nəzərdə tutulmuş hallardan savayı, işçilər üçün maddi məsuliyyətin daxil edilməsi.

Bağlanmış müqavilə əsasında tanış olmaq üçün işçiyə qol çəkdirilib təqdim olunmuş, təşkilat üzrə əmr (sərəncam) rəsmiləşdirilir.

## 5.6. Peşə yönümü və əməyə uyğunlaşma

İşçi heyətin seçimi və işə qəbulu qeyd olunduğu kimi çox uzun və baha başa gələn prosesdir. İşçi hələ öz öhdəliklərini yerinə yetirməyə başlamamış artıq ona xeyli vəsait xərclənmişdir. Həm də bu xərclər gələcəkdə getdikcə artacaq: peşə təlimləri, əmək haqqı və s. Odur ki, təşkilat çox maraqlıdır ki, yeni gəlmiş adam təşkilatda qalsın və öz əməyi ilə sadalanan xərclərin yerini doldursun. Lakin, statistik məlumatlara görə işə qəbul olunanların əksər hissəsi ilk üç ay ərzində təşkilatı tərk edir. Onların getməsinin əsas səbəbi isə gözləntilərin reallıqla uyğun gəlməməsi və yeni kollektivə inteqrasiyanın mürəkkəbliyidir. Əməkdaşa yeni turist təşkilatına tez və müvəffəqiyyətlə qaynayıb-qarışmaqda köməklik göstərmək işçi heyət üzrə menecerin və birbaşa bu işlərə rəhbərlik edən şəxslərin mühüm vəzifəsidir.

Yeni işə başlayanların peşə yönümü və əməyə uyğunlaşma prosesi ümumi yönəltmədə başlayır. İşçi heyət üzrə menecer əməkdaşı təşkilatın inkişaf strategiyası, dəyərləri, bu günkü vəziyyəti, tarixi, idarəetmə strukturu, daxili davranış qaydaları, simvolları və ritualları, öz əməkdaşları üçün olan güzəştlərlə tanış edir. Bunun üçün: videofilmlər, xüsusi broşüralar, kompaniya rəhbərlərinin çıxışlarının videoyazılarından istifadə olunur.

«Centennial Hotel Management Company of Canada» kompaniyasında yazılı şəkildə yönümün fəlsəfəsi əks olunmuşdur: «Kompaniyada xidmət edənlərin yönətiminin məqsədi ondan ibarətdir ki, yeni əməkdaşlar düzgün qərarlar qəbul etməyi öyrənsin və özlərinin kompaniyaya, kollektivə, turizm sahəsinə mənsubluğunu qiymətləndirsin. Yönətim (oriyentasiya) xidmətçiləri onların uğurlu fəaliyyəti üçün lazım olan dəstəklə kompaniyanın onları təmin etdiyini öyrədir. O, həmçinin firmanın əsas qiymətli yönəmləri və onun əsas xidmət strukturları ilə tanışlığı nəzərdə tutur».



«Opryland» mehmanxanasında ümumi yönətim yeni işçilərin kompaniya ilə tanışlığından başlayır ki, onlar mehmanxananın tarixi, mədəniyyəti və yüksək statusu ilə fəxr etsinlər. «Disney» kompaniyasında bütün yeni xidmətçilər «ənənə» adı altında təlim kursu keçirlər ki, orada kompaniya, onun əsasını qoyanlar, dəyərlər sistemi, inamlar haqqında öyrənirlər.

Əməyə uyğunlaşmanın sonrakı mərhələsi – peşə yönümu əməkdaşın birbaşa iş yerində keçir. Peşə yönümunə görə məsuliyyəti birbaşa rəhbər daşıyır. O, yeni gəlmiş işçini həmkarları ilə, onun vəzifə borcları ilə tanış edir, iş rejimini aydınlaşdırır, texnika təhlükəsizliyi üzrə təlimat keçirir.

Fəaliyyətini müəyyən istiqamətə yönəltmə və əməyə uyğunlaşma üzrə yaxşı hazırlanmış proqram yeni əməkdaşların işdən getməsi faizinin əhəmiyyətli dərəcədə azaltmağa imkan verir, lakin tamamilə ondan qaçmaq təəssüf ki, praktiki olaraq mümkün deyil. İşçi heyət üzrə menecer yeni işçinin təşkilatdan nə üçün çıxıb getdiyini bilməlidir. Bunun üçün söhbət aparılmalı və gedişin səbəbi aydınlaşdırılmalıdır. Bu işçi heyətin seçim prosesinə düzəliş etməyə imkan verir, mənasız vaxt və vəsait itkisini azaldır.

## 5.7. İşçi heyətin turizmdə və qonaqpərvərlik üzrə təlimi

İşçi heyətin təlimi prosesi – turist təşkilatlarının insan ehtiyatlarının peşə inkişafının məcburi elementidir, yəni əməkdaşların yeni istehsal funksiyalarının, vəzifə borclarının, turfirma qarşısında duran vəzifələrin həllinə, yerinə yetirilməsinə hazırlıq prosesidir.

Həm bizim ölkəmizdə, həm də xaricdə mövsüm başlamazdan əvvəl bələdçilər üçün treninqlərin keçirilməsi praktikası yaranmışdır. Adətən, treninqlər gələcək marşrutların olduğu

rayonda aparılır və əsas diqqət səyahətin təhlükəsizliyinin təmin olunmasına verilir. Bu zaman bələdçilər tərəfindən cığırlar bələdlənir və təmizlənir, müvəqqəti çadırlar üçün yerlər hazırlanır və s.

Xarici ölkələrdə, məsələn, «Expeditions Eau Vive» kompaniyasında bələdçilərin təlimi xidmətin keyfiyyətinin təminatı kimi istifadə olunur: «Bizim əməkdaşların təlim keçməsi kompaniyanın yaşaması üçün çox zəruridir. Mövsüm qabağı həftə boyu onlar hər il birinci səviyyəni keçirlər. Bu kursun gedişində müxtəlif mövzulara toxunulur: qrupun qeydiyyatı, rayonda turist axınının idarə olunması, suda təhlükəsizlik, qidanın hazırlanması, ətraf mühitin qorunması üsulları. Həmin təlim kursu bələdçilərin səyahət zamanı istənilən vəziyyətdə özlərini inamlı aparacaqlarını nəzərdə tutur».

Peşəkarlığın inkişafına çəkilən xərclər məhsuldarlığın yüksəldilməsi formasında gözlənilən gəlir gətirməsi, əməkdaşların inkişafına qoyulan vəsaitdir. S.V.Şekşninin məlumatına görə dünyanın aparıcı təşkilatları bu işə əmək haqqı fondunun 10 %-ni xərcləyirlər.

«At Esprit Raftinq» kompaniyasında təlim kursu istirahət günləri keçirilir. Kompaniya iş cədvəlini elə dəyişir ki, əməkdaşları öz iş vaxtlarını sərf etməsinlər. Onlara kurs zamanı pulsuz yemək və yaşayış yeri verilməsi təmin olunur. Kompaniya həmçinin təlimə görə ödəniş zamanı güzəştlər edir, təlimə görə avansla ödəniş edir, sonra isə bu məbləği əməkdaşların məvaciblərindən çıxır, yəni əməkdaşlar öz əmək haqlarını işləməklərindən və oxumaqlarından asılı olmayaraq alırlar.

Peşə təlimi fasiləsiz prosesdir. İşçi üçün o artıq sınaq müddətinin gedişində başlayır və təşkilatda işlədiyi bütün müddət ərzində davam edir. Məsələn, satış şöbəsinin əməkdaşları mütəmadi olaraq aşağıdakı təlim növlərini, treninqləri keçməlidirlər (F.Kotler və başqalarına görə):



1) xidmətlərə, məhsullara görə treninq. Yeni texnologiyalar qonaqpərvərlik və turizm sənayesinə həmişə mühüm düzəlişlər edir. Ehtiyat yaratma sistemi, rabitə texnikası, nəqliyyat vasitəsi dəyişir ki, bu da müvafiq olaraq idarəetmə sistemində, xidmət, çatdırılma və s.-də dəyişikliyə səbəb olur;

2) planlaşdırma və təşkilatı siyasət üzrə treninq. Bir menecerin firmanın siyasətinə uyğun hərəkət etməyə qadir olmaması onun inkişaf strategiyasının reallaşmasında ümumi çatışmazlıqlara gətirib çıxarır;

3) satış texnologiyası üzrə treninq. İndi artıq bir çox mütəxəssislər belə bir nəticəyə gəlmişlər ki, insanda satmaq qabiliyyəti anadangəlmə olmur, müvafiq olaraq, satış üzrə mütəmadi treninqlərin keçirilməsi müstəsna dərəcədə səmərəlidir.

İşçi heyətin inkişafında aşkar edilmiş tələbatın analizi əsasında təlimin konkret, ölçülüb-biçilmiş məqsədlərini formalaşdırmaq lazımdır. Məsələn, X turist firması təlimə 10.000 ABŞ dolları xərcləyib, hər il əlavə olaraq qəti surətdə 1000 ABŞ dolları gəlir götürməyi hesablayır (kapital qoyuluşunun 10 % həcmi). Lakin bu cür təlim proqramının səmərəliliyini qiymətləndirmənin dolayı metodlarından istifadə olunur: təlimə qədər və təlimdən sonra testləşdirmə; təlim keçənlərin anketləşdirilməsi; onların işinə görə müşahidə olunması.

Sonra təlim proqramı işlənib hazırlanır, onun metodları və mahiyyəti təyin olunur. Turizmdə və qonaqpərvərlikdə aşağıdakı metodlar daha geniş yayılmışdır:

- təlimatlandırma – özündə birbaşa iş yerində iş üsullarının aydınlaşdırılmasını və nümayişini təqdim edir. O, həm həmin funksiyanı çoxdan yerinə yetirən əməkdaşlar tərəfindən, həm də xüsusi təlimatçılar tərəfindən aparıla bilər. Məsələn, «McDonalds» kompaniyasının hər bir əməkdaşı təcrübəli işçinin yanında gələnləri necə istifadə etmək, sifarişi yerinə yetirmək və s. məsələlər üzrə təlimatlandırma keçir.

Təlim metodlarına aşağıdakılar aiddir:

- rotasiya (çarpaz təlim) – yeni vərdişlər qazanmaq üçün işçinin müvəqqəti olaraq başqa vəzifəyə keçirildiyi təlim metodudur. Bu metod mehmanxanalarda, tez xidmət göstərən restoranlarda, kiçik turagent və turoperator firmalarında geniş istifadə olunur. «Delta Airlines» aviaşirkətinin stüardessası havada işləməyə başlamazdan əvvəl firmanın daxili ofisində bir neçə ixtisası öyrənməlidir. «James Coney İsland» restoranlarında qonaqlara keyfiyyətli xidmət göstərmək üçün birgə komanda işinin vacibliyini dərk etmək və restoranda digər ixtisasların mahiyyətini anlamaq üçün yeni işçilərə çarpaz təlim keçirirlər;

- şagirdlik və müəllimlik – öz işinin ustası ilə yanaşı işləməklə gənc işçilər tez bir zamanda peşələrinin müdrikliyinə yüksəlirlər. Bu metod turizmdə öz-özünə təhsil alma («üzməsən batarsan») metodunun səmərəsizliyini nəzərə çarpdırır. Bir çox gənc menecerləri – yeni işçiləri o çox qorxudur. Bu isə kadr axıcılığı və psixoloji problemlərlə nəticələnir;

- mühazirə – qısa zaman intervalına görə böyük miqdarda informasiyanın əla ifadə vasitəsidir. Bir mühazirəçi eyni zamanda yüzə qədər dinləyici ilə işləyir. Odur ki, bu metod iqtisadi cəhətdən çox sərfəlidir. Lakin yaşlı adamların təlimində o az səmərəlidir. Belə ki, dinləyicilər passiv rol oynayırlar və məşğələlərə tez bir zamanda maraqlarını itirirlər;

- praktik vəziyyətin analizi qrup halında müzakirələr aparmağa imkan verir. Turizm sahəsində olan nisbətən real problemlər bu diskussiyanın predmeti olur. Bu zaman təlimatçı, müəllim dinləyicilərin təcrübəsinə apelyasiya verir və məsələnin həllinə öz variantlarını təklif edir;

- işgüzar oyun – həm praktiki, həm də davranış vərdişlərini inkişaf etdirməyə imkan verən, işçilərin real peşə fəaliyyətinə ən çox yaxınlaşdırılmış təlim metodudur. Məsələn, «Sabre və Apollo» sisteminə daxil olan aviakompaniyalar üçün ehtiyat



yaratma agentliklərində gələcək agentlər işə buraxılmamışdan qabaq xüsusi metodika üzrə müştərilərlə bütün mümkün dialoqları ifa edırlər;

- müstəqil təlim – ən sadə və ucuz təlim növüdür. O, təşkilatın işçiyə təlim vasitəsi – kitablar, videofilmlər, kompüter proqramları təqdim etdiyi zaman səmərəli ola bilər.

### 5.8. Turizm təşkilatlarında işçi heyətin qiymətləndirilməsi

Hər hansı təşkilatda çalışan əməkdaşlar öz vəzifə borclarını eyni cür yerinə yetirmirlər: liderlər, orta səviyyəli işçilər, autsayderlər var. Odur ki, firmanın inkişafında strateji məqsədlərə nail olmaqda hər bir işçinin verdiyi töhfəni qiymətləndirmək vəzifəsi ortaya çıxır. Bu proses işçiləri qorxutmağa yox, onların işlərinin nəticəsinə görə bu işçiləri mükafatlandırmağa və daha da ruhlandırmağa yönəlməlidir. Məsələn, «Esprit Raftik» kompaniyasında mövsüm vaxtı həftənin qiymətləndirilməsi prosedurunda nəticələrə görə «Həftənin qəhrəmanı» adlanan mükafatlandırma mövcuddur. Daha çox sayda «Qəhrəmanlıq» qazanmış əməkdaş mövsümün sonunda 500 ABŞ dolları və stimul - səyahət üçün mükafat olaraq vauçer alır.

İşçi heyətin qiymətləndirilməsi aşağıdakı məqsədləri güdür:

- inzibati – xidmətə görə yüksəlmə, başqa işə keçmə, mükafatlandırma, cəzalandırma, oxumağa göndərmə və s.;

- informasiya – onlara öz davranışlarında müəyyən düzəlişlər etməyə imkan verən, menecerlərin işinin keyfiyyəti haqqında məlumat;

- motivləşdirmə (oyatma) – işçi hansı nəticələrə nail olduğunu (o cümlədən öz həmkarları ilə müqayisədə) və ona daha nə etmək lazım olduğunu bilir.

İşçi heyətin qiymətləndirilməsinin S.V.Şekşnə görə aşağıdakı prinsiplərini ayırırlar:

- qiymətləndirmə sisteminin universallığı. Qiymətləndirmə sistemi bütün əməkdaşlar üçün (qəti surətdə hər bir menecment səviyyəsində) vahid olmalıdır və birmənalı izah edilməlidir;

- qiymətləndirmə normalarının və standartlarının müəyyən olunması. Bunun üçün hər bir konkret əməkdaşın işində müvəffəqiyyəti və ya uğursuzluğu təyin edən göstəriciləri ayırmaq lazımdır;

- qiymətləndirmə metodunun seçilməsi. Qiymətləndirməni həyata keçirən menecerlərin verdiyi həm keyfiyyət qiymətləndirməsindən («əla», «yaxşı» və s.), həm də kəmiyyət qiymətləndirməsindən (əməliyyata sərf olunan vaxt, məhsuldarlıq, xərclər və s.) istifadə etmək olar.

İşçi heyətin aşağıdakı qiymətləndirilməsi sistemi daha geniş yayılmışdır:

1. İşçi heyətin attestasiyası (şəxsin bilik dərəcəsini və bacarığını təyin etmə). Bu əməkdaşların öz vəzifə borclarını yerinə yetirməyin səmərəliliyini qiymətləndirməyin onun birbaşa rəhbəri tərəfindən həyata keçirilən prosesdir. Attestasiyanın əsas məqamı – attestasiya müsahibəsidir ki, bu zaman rəhbər və işçinin görüşü prosesində əməkdaşın keçən dövr ərzində gördüyü işlərin nəticələri müzakirə olunur, həm əməkdaşın özü həm də rəhbər tərəfindən bu işlərə qiymət verilir, sonrakı illər üçün məqsədlər və iş göstəriciləri qeyd olunur. Qiymətləndirmə metodundan istifadə edə bilər: standart qiymətləndirmə metodu (rəhbər tərəfindən standart şkala ilə hər bir əməkdaşa attestasiya vərəqi doldurulur); müqayisəli metod (ən yaxşıdan ən pisə qədər – əməkdaşların reytinqi təyin olunur); məqsədin qoyulması vasitəsi ilə idarəetmə (hər bir əməkdaş üçün fərdi tapşırıqlar müəyyən olunur, müsahibə zamanı isə onların yerinə yetirilməsi faizi təyin olunur).

2. $360^0$-yə attestasiya. Attestasiyanın bu sistemi zamanı əməkdaş öz rəhbərliyi, həmkarları, tabeçiliyində olanlar tərəfindən qiymətləndirilir. Qiymətləndirmə metodları ən



müxtəlif ola bilər, mahiyyət isə attestasiya olunanın hərtərəfli qiymətləndirilməsidir.

3. Müstəqil hakimlər sistemi. Qiymətləndirməni bir neçə müstəqil ekspertlər aparır. Onlar işçiyə müxtəlif suallar verir, cavabları qiymətləndirir və bu məlumatları qiymətləndirmə vərəqəsinə yazırlar.

4. Qiymətləndirmə mərkəzləri sistemi. Xüsusi psixologiya testlərinin köməkliyi ilə əməkdaşda müəyyən xasiyyətlərin mövcudluğu və inkişaf dərəcəsini təyin edir, bununla da onun potensialını müəyyənləşdirirlər. Bu sistem tez-tez gələcək rəhbərlərin əməkdaşları arasında liderləri aşkar etmək üçün istifadə olunur.

### 5.9. İşçi heyətin azad edilməsi, işdən çıxarılması

İşçinin işdən çıxarılması – intizam cəzasının qəti ölçüsüdür. Lakin müdiriyyət işçini işdən çıxarmağa çox vaxt məcburiyyət üzündən və qanunvericilikdə nəzərdə tutulmuş digər səbəblərdən gedə bilər. Hazırda qüvvədə olan AR-sı Əmək Məcəlləsinə görə (29 aprel 1999-cu il) işçinin işdən azad olunmasının aşağıdakı növləri vardır:

1) işçinin öz təşəbbüsünə görə işdən azad olma – bu işdən azad olma haqqında işçi tərəfindən ərizə verildikdən sonra baş verir;

2) işçilərin sayı və ya ştatlar ixtisar edildikdə;

3) müəssisə ləğv edildikdə;

4) peşəkarlıq səviyyəsinin, ixtisasının (peşəsinin) kifayət dərəcədə olmadığına görə işçinin tutduğu vəzifəyə uyğun gəlmədiyi barədə səlahiyyətli orqan tərəfindən müvafiq qərar qəbul edildikdə;

5) işçi özünün əmək funksiyasına və ya əmək müqaviləsi üzrə öhdəlikləri yerinə yetirmədikdə;

6) özünün xəstəliyi, yaxın qohumlarının xəstələnməsi və vəfat etməsi istisna olunmaqla heç bir üzrlü səbəb olmadan bütün iş günü işə gəlmədikdə;

7) alkoqollu içkilər, narkotik, toksik və digər zəhərli maddələr qəbul edərək sərxoş vəziyyətdə işə gəlmə, habelə işə gəldikdən sonra iş yerində həmin içkiləri və ya maddələri qəbul edərək sərxoş vəziyyətdə olduqda;

8) təqsirli hərəkətləri (hərəkətsizliyi) nəticəsində mülkiyyətçiyə maddi ziyan vurduqda;

9) təqsirli hərəkətləri (hərəkətsizliyi) nəticəsində əməyin mühafizəsi qaydalarını pozaraq iş yoldaşlarının səhhətinə xəsarət yetirməsi və ya onların bu səbəbdən həlak olması halında;

10) qəsdən istehsal, kommersiya və ya dövlət sirrinin və ya bu sirrin gizli saxlanılması üzrə öhdəliklərini yerinə yetirmədikdə;

11) əmək fəaliyyəti zamanı yol verdiyi kobud səhvləri, hüquq pozuntuları nəticəsində işəgötürənin, müəssisənin və ya mülkiyyətçinin qanuni mənafeyinə ciddi xələl gətirdikdə;

12) əmək funksiyasını pozduğuna görə əvvəllər işəgötürən tərəfindən verilmiş intizam tənbehindən nəticə çıxarmayaraq 6 ay ərzində təkrarən əmək funksiyasını pozduqda;

13) iş vaxtı ərzində bilavasitə iş yerində inzibati xətalara və ya cinayət tərkibi olan ictimai-təhlükəli əməllərə yol verdikdə;

14) işçi hərbi və ya alternativ xidmətə çağırıldıqda;

15) əvvəllər müvafiq işdə (vəzifədə) çalışan işçinin işinə (vəzifəsinə) bərpa edilməsi barədə məhkəmənin qanuni qüvvəyə minmiş qətnaməsi (qərarı) olduqda;

16) qanunvericilikdə daha uzun müddət müəyyən edilməyibsə, əmək qabiliyyətinin fasiləsiz olaraq 6 aydan çox müddətə tam itirməsi ilə əlaqədar işçi əmək funksiyasını yerinə yetirə bilmədikdə;



17) məhkəmənin qanuni qüvvəyə minmiş qərarı ilə işçinin fəaliyyət qabiliyyətsizliyi təsdiq edildikdə;

18) əmək müqaviləsi bağlanan zaman işəgötürənə saxta sənədlər və ya əvvəlcədən hazırlanmış yalan məlumatlar verildikdə;

19) işçi icbari tibbi müayinə olunmaqdan boyun qaçırdıqda və ya keçirilmiş müayinələrin nəticələrinə əsasən həkim komissiyalarının verdikləri tövsiyələri yerinə yetirmədikdə;

20) əxlaqsız hərəkətlərə yol verdikdə. Bu halda işçinin mübahisəsiz olaraq törətdiyi əxlaqsız əməl (psixi və ya fiziki zorlama) nəzərdə tutulur. Sonunculara cinsi tənkə gətirməni də aid etmək lazımdır ki, bu son vaxtlar bir çox müəlliflərin fikrinə görə turizm sənayesi və qonaqpərvərlik üçün çox aktualdır.

Dövlət, bələdiyyə və təhsil müəssisələrində işdən çıxarmanın ayrı-ayrı növlərinə olan hüquqların mövcudluğu haqqında qeyd etmək də lazımdır.

İşçi heyətin azad edilməsi təkcə işdən çıxma növündə yox, həm də aşağıdakı formalarda həyata keçirilə bilər:

- işəmuzdun dayandırılması və kadr axını hesabına işçi heyətin azad edilməsi;
- iş gününün uzunluğunun ixtisar olunması;
- qısaldılmış iş həftəsinin daxil edilməsi. Praktika göstərir ki, iş vaxtının 10 % qısaldılması muzdlu işçi heyətin olmadığı şəraitdə iş qrafikinin xeyli sıxlaşmasına aparıb çıxarır.

## Yoxlama sualları və tapşırıqlar

1. Ekoturizmin inkişafında insan ehtiyatlarının vacibliyini və spesifikliyini izah edin.
2. İşçi heyət üzrə menecerin müntəzəm olaraq keçməli olduğu treninq növlərini sadalayın.
3. İşçi heyətin attestasiya növlərinin adlarını çəkin və xarakterizə edin.
4. Baş idarənin işçi heyətinin keyfiyyətli işinin təşkilində öz motivləşmə (oyadıcı) sisteminizi işləyib hazırlayın.



# Altıncı fəsil.

## Ekoloji və macəra turizmində ətraf mühitin çirklənməsinin azaldılması texnologiyaları

Ətraf mühitin çirklənməsinin azaldılması texnologiyaları və metodlarının istifadə olunması iqtisadi cəhətdən hamıya – yerləşdirmə vasitələri və turfirma menecerlərinə, ekoturistlərə, yerli əhaliyə, xüsusi mühafizə olunan təbiət ərazilərinin (XMTƏ) rəhbərlərinə sərfəlidir. Adətən, belə texnologiya və metodlar turizm xidmətində təbii ehtiyatların (enerji, su, torpaq, rekreasiya (istirahət) və s.) səmərəli istifadəsinə yönəlmişdir. Bu isə xərclərin azalmasına və turun ucuzlaşmasına gətirib çıxarır, həmin turizm rayonunu daha əlverişli, məşhur edir və yeni ekoturistləri bura cəlb edir. Əksinə, həmin texnologiyalara etinasızlıq göstərmək ekoturizm bazasında itkilərə, təbiəti mühafizə təşkilatları ilə konfliktlərə aparıb çıxarır ki, bu da birinci böhran vəziyyətinə malikdir (turist fəaliyyətinə verilmiş lisenziya və sertifikatların geri alınması, xüsusi mühafizə olunan təbiət ərazilərində görülən işlərə qadağalar qoyulması, böyük məbləğdə cərimələr tətbiq olunması).

Bu bölmə «Commonwealth Departament of Tourism»in sifarişinə görə Australion Conservation Foundation tərəfindən işlənib hazırlanmış Şimali Qafqazın Kuban və Adıgey dağlıq rayonlarında ətraf mühitin çirklənməsinin azaldılması texnologiyalarının praktiki aprobasiyası (təsdiq olunması) əsasında hazırlanmışdır. Onun strukturu işin gedişi zamanı ən çox miqdarda tullantıların və çirkləndirici maddələrin əmələ gəldiyi turistlərə xidmətin əsas əməliyyatına uyğun gəlir. Hər bir yarımbölmədən sonra isə qonaqpərvərlik və turizm sənayesindən nümunələr gətirilir.

## 6.1. Yeməklərin hazırlanması

Yemək hazırlamaq üçün yanacaq kimi qaz və ya benzin istifadə etmək daha yaxşıdır. Bu zaman onların səmərəli istifadəsi üzrə tədbirlər görmək, küləkdən müdafiə və istiliyi əks etdirən divarlar (ekranlar) qurmaq, qablarda, avtoklavlarda, xörək bişirən qurğularda qapaqlardan istifadə etmək lazımdır. Quru ağacları, odunları yanacaq kimi tətbiq etmək lazım deyil, belə ki, bu təbii proseslərə müdaxilə etməyə gətirib çıxarır, yanma məhsullarının (tullantıların) əmələ gəlməsinə kömək edir və çox vaxt meşə yanğınlarına səbəb olur. Həmçinin bu, quru odun axtarışı, qabların hisdən təmizlənməsi kimi işlərə sərf olunan xeyli vaxt və güc itkisinə gətirib çıxarır.

Xörəklərin təkrar qızdırılmasından çəkinmək lazımdır. Çünki bu onların dadını pisləşdirir və artıq yanacaq sərfinə səbəb olur. Xörək bişdikdən sonra qazanı istilik qoruyucu mühitdə yerləşdirmək (xüsusi örtüyə bükmək) lazımdır.

Menyu (yemək siyahısı) tərtib olunan zaman tez hazırlanan salatlara və xörəklərə daha çox diqqət ayırmaq gərəkdir. Bu, təkcə insan üçün yox, həm də təbiət üçün faydalıdır. Belə ki, bitki tullantıları heyran mənşəli qidalara nisbətən daha tez utilizasiya olur (parçalanır).

Məsələn, Tasmaniya adasında Meşə departamenti 1994-cü ildə turist dayanacaqlarında cəmdəyi bütövlükdə qızartmaq üçün olan manqalları odun yanacağından qaz yanacağına keçirmişdir. Bu xüsusi mühafizəsi olunan təbiət ərazilərində (XMTƏ) ağacların qanunsuz qırılmasını kəskin şəkildə azalmasına kömək etdi.



## 6.2. Dəyişəklərin (alt paltarlarının) və qabların yuyulması

Dəyişiklərin və qabların yuyulması da həmçinin ənənəvi olaraq torpağı və suyu çirkləndirən tullantıların ortaya çıxmasına səbəb olur.

Qabları yumaq üçün isti suyun istifadəsini minimuma endirmək lazımdır. Bunun üçün: qabları təkrarən yaxalamaq əvəzinə onları qida qalıqlarından diqqətlə təmizləmək; bütün qabları ayrı-ayrı deyil, birdən yumaq – bu yuyulmadan sonra çirklənmiş suyun miqdarını azaldır və həmin suyun qızdırılmasına sərf olunan enerjinin ixtisarına gətirib çıxarır; qabları axşam, gündüz keçidindən sonra yumaq (buna qədər isə onu ayrıca kisədə daşımaq).

Birdəfəlik istifadə olunan qablardan istifadə etməmək lazımdır. Turun əvvəlində turistlərə verilən çoxdəfəlik istifadə olunan müxtəlif rəngli qablardan istifadə daha yaxşıdır. O zaman turistlər öz stəkanlarını, boşqablarını «tanıyacaq» və onları tez-tez yaxalamağa ehtiyac olmayacaqdır.

Paltarların və qabların yuyulmasında tərkibinə fosfor olmayan (NP nişanlı) və ya az miqdarda olan (+ nişanlı) kimyəvi vasitələrdən istifadə etmək zəruridir.

Paltarları və qabları yaxınlıqda olan su obyektlərindən (bulaq, göl, çay və s.) ən azı 50 m. məsafədə yumaq lazımdır. Çirkli suyu torpağa çiləmək lazımdır ki, torpaq onu süzüb özündən keçirtsin.

Məsələn, «Odyssey Safaries» (Avstraliya) düşərgəsində qonaqlara müxtəlif rəngli fərdi stəkanlar verilir. Onlar günün axırında bir dəfə işçi heyət tərəfindən yuyulur. Birdəfəlik istifadə olunan qabların əvəzinə plastik boşqablar və polad yeməkxana dəstlərindən istifadə etməyə başladılar. Beləliklə, anbar sahəsinə, xidmət etməyə vaxta qənaət etməyə xeyli vəsaitə nail olunmuş, həmçinin «ətraf mühitə dost olan» düşərgə obrazı yaranmışdır.

## 6.3. Sığınacaqların, karavaninqlərin, düşərgələrin düzəldilməsi

Sığınacaqların, karavaninqlərin tikintisi, düşərgələrin və çadırların avadanlıqla təchiz olunması enerjinin səmərəli istifadə olunması və istilik itkisinin minimuma endirilməsi üzrə texnologiyaların tətbiqini tələb edir.

İstilik qoruyucu materialları geniş tətbiq etmək lazımdır. Məsələn, Avstraliyada hər yerdə sığınacaqların, komaların divarlarında və damlarında folqa (zərvərəq) istifadə olunur. Bundan başqa, divarın, damın tünd rəngi günəşdə, açıq rəngə nisbətən daha güclü qızır və bu xüsusiyyət həmçinin layihəçilər və inşaatçılar tərəfindən nəzərə alınır.

Çadır düşərgələri və çadırlarında quraşdırma zamanı küləkdən müdafiə divarlarının qurulmasını nəzərə almaq lazımdır. Bu tədbirlər enerjinin, istiliyin qənaət olunmasına və turistlər üçün rahatlığın artırılmasına səbəb olur.

Evciklərin (daxmaların) şüşəbəndi, yüksək mərtəbəli otellərin eyvanları və palatkaların tamburları (günbəz şəkilində olan dam hissəsi) otaqlarda temperaturu tənzimləmək vasitəsi olaraq turistlər arasında səmərəli və məşhurdur.

İstiliyin pəncərə vasitəsi ilə itkisi divar vasitəsi ilə olandan 10 dəfə çoxdur. Odur ki, ikiqat pəncərə çərçivələri dağ otelləri və daxmaları üçün mütləq lazımdır.

Pəncərələrdə pərdə və örtüklər soyuq havada istiliyi əks etdirən vasitə kimi günəş şüasının birbaşa daxil olmasına və oranı qızdırmasına mane olur.

Pəncərələrin və qapıların yerləşməsi hakim yerli küləklərin istiqaməti ilə uzlaşdırılmalıdır, əks təqdirdə yelçəkəndən, sınmış şüşələrdən və istilik itkisindən qaçmaq mümkün olmaz.

Qeyri-ənənəvi təbii enerji mənbələrindən: külək, termal sular, günəş şüaları və s.-dən geniş istifadə etmək lazımdır.



Otaqları işıqlandırmaq üçün yenidən yüklənən batareyalarla işləyən gündüz lampaları daha səmərəlidir. Səmərəliliyinə görə ikinci yerdə qaz, üçüncü yerdə neft lampaları durur.

Binaların, evciklərin qızdırılması mərkəzləşdirilmiş olmamalıdır. belə ki, eyni zamanda bütün otaqların qızdırılmasına ehtiyac yoxdur. Odur ki, müstəqil qızdırıcılar, müxtəlif termostatlar, taymer qızdırıcıları özlərini yaxşı cəhətdən göstərə bilmişlər. Beləliklə, hər bir zonanın (zal, bar, yardımçı otaq və s.), otağın fərdi qızdırılması təmin olunur.

Qızdırılma üçün açıq oddan (kürə, manqal, buxarı) istifadə olunması turistləri cəlb etmədə səmərəli deyildir. O yalnız kiçik bar və restoranlarda özünü doğrulda bilər.

Çox az elektrik enerjisi tələb edən (kalkulyator, saat və s.) və ya qurulmuş günəş batareyaları ilə işləyən məişət alətlərini daha aktiv istifadə etmək lazımdır.

Məsələn, Tasmaniya adasında «Forest Walks» düşərgəsində günəş enerjisi və hidroenerjinin hesabına istilik və elektriklə təmin olunurlar. O ümumiyyətlə rayonun elektrik şəbəkəsi ilə bağlı deyildir. Burada bütün cihazlar və avadanlıqlar enerjiyə az tələbkar olmaları nöqteyi-nəzərdən seçilmişlər.

Tualetlər həmişə çöl şəraitində turistlərin həyatında ən xoşagəlməz aspektlərlə olmuşlar və indi də qalırlar. İngilis sözü «free disposal» ekvivalent olan «oğlanlar sola, qızlar sağa» tipli tualetlər yalnız turistlərin az gəldiyi rayonlarda istifadə oluna bilər. Belə ki, insan nəcisi vəhşi heyvanlarda bağırsaq xəstəliklərinin əmələ gəlməsinə səbəb olur. Bundan savayı, belə tualetlər turistlərin özləri üçün də ciddi narahatlıq yaradırlar. Məsələn, Sofiya dərəsi (Qərbi Qafqaz, Arxız) turistlər arasında çox məşhurdur. Lakin heç bir düşərgə və daimi çadır yerində avadanlıqlarla təmin olunmuş tualet yoxdur. Odur ki, bütün bunlar turistlərin haqlı narazılıqlarına səbəb olur. Halbuki normal tipli tualetlər yaxınlıqda olan su obyektindən ən azı 100 m məsafədə yerləşməli, insan nəcisləri isə ən azı 15 sm

dərinlikdə torpağa basdırılmalı, mümkün olduqda isə üzərinə daş tökülməlidir. Tualetdə istifadə olunmuş kağızlar da həmçinin basdırılmalı və ya kisələrdə evakuasiya olunmalıdırlar.

Tualet xəndəklərini qrunt sularının dərin olduğu yerlərdə təşkil etmək məqsədəuyğundur. Onlar su obyektləri ilə yanaşı və ya relyefin aşağı hissələrində olmamalıdırlar. Xəndək üçün yer seçilən zaman turistlərə diskomfort (narahatlıq) yaratmamaq üçün yerli küləklərin istiqamətini nəzərə almaq lazımdır. Tualetlərin sorucu borularını havalanmanı yaxşılaşdırmaq üçün qara rənglə boyamaq tövsiyə olunur.

Yuyunma prosesi (əl-üz yuma, duş qəbul etmə) turistlərə xidmət zamanı istifadə olunan isti suyun bütün həcminin yarısına qədərini tələb edir. Odur ki, santexnikada dozatorların (səpələnən, maye maddələri avtomatik ölçən cihaz) mövcudluğu tamamilə məntiqə uyğundur. Dəqiqədə 6-9 litr su verilməsini təmin edən qurğu ən səmərəlidir.

Duşxana otağı istilik itkisindən və yelçəkəndən qaçmaq üçün yaxşı istilik izolyatoruna malik olmalı; ən yaxşısı dozatorlu həcmdə buraxılan maye sabun, şampun istifadə edilməlidir.

İstifadə olunmuş çirkli suyun birbaşa sututara axdıldığı hallarda sabundan və şampundan istifadə etmək tövsiyə olunmur. Tərkibində sabun və şampun olan çirkli su yaxınlıqda olan sututardan ən azı 50 m. məsafədə dağıdılmalıdır.

Suya və enerjiyə qənaət üçün yuma prosesində dəsmalları, yataq dəyişəyini yaxşı olar ki, həmişə yox, qonaqlar özləri xahiş etdikdə dəyişdirilsin.

Kağız dəsmal, elektrik quruducusu və ya parça top dəsmal arasında seçimi qonaqların özlərinə etibar etmək daha yaxşıdır. Belə ki, təbiəti mühafizə işində bu vasitələrin hər hansı birinin üstünlüyünü sübut edən məlumat yoxdur.

Günəş şüaları ilə tünd rəngli çənlərdə suyun qızdırıldığı yay duşxanalarından daha çox istifadə etmək lazımdır.



## 6.4. Tullantıların istifadə edilməsi

Xörəklərin tullantılarının istifadə olunması da problemlər yaradır, xüsusən də bu xüsusi mühafizə olunan təbiət əraziləri üçün aktualdır.

Bitki mənşəli qidaların tullantılarının böyük hissəsi təbiətin elə özü tərəfindən istifadə olunur ki, bunu heyvan mənşəli tullantılar haqqında demək olmaz. Yağların və yağlı qidaların axarı olmayan sututarlara düşməsindən qaçmaq lazımdır. Odur ki, qabları yuyarkən yaxşı olar ki, yağları əski ilə silsinlər və ya yağ süzgəclərindən istifadə olunsun.

Kompost xəndəklərin istismarı bilik və vərdiş tələb edir, belə ki, onlar çox vaxt xoşagəlməz iy və qaz mənbəyinə çevrilirlər.

Şüşədən, metaldan, plastik kütlədən olan əşyaların istifadə olunması bu materialların təbiətdə dağılmağa davamlı olması ilə əlaqədar işi daha da çətinləşdirir. Bəzi ölkələrdə istehsal olunan şüşənin 80 %-ə qədəri qablaşdırma üçün, xüsusən də alkoqollu içkilərin qablaşdırılmasında istifadə olunur. Bu içkilərin istirahət zamanı məşhurluğunu nəzərə alsaq, vəziyyətin dramatikliyini təsəvvür etmək asandır. Şüşə praktiki olaraq təbiət tərəfindən istifadə oluna bilməz. Plastik kütlələrlə olduğu kimi bunlar əbədi tullantılardır ki, yalnız evakuasiya etmək lazımdır. Odur ki, ən yaxşı çıxış yolu – istifadə olunan şüşə və plastik qabların miqdarını azaltmaq və kağız və karton qablaşdırmaya keçilməsidir. Plastik qabları qətiyyən yandırmaq olmaz, belə ki, onlar yandığı zaman insan üçün həddən artıq zərərli birləşmələr və maddələr ayrılırlar.

Kimyəvi maddələrin və boyaların qablaşdırıldığı metalları evakuasiya etmək vacibdir. Metal qablardan istifadədən, xüsusən də aerozol qablaşdırmada olan maddələrdən çəkinmək lazımdır.

## 6.5. Turistlərin nəqliyyatda daşınması

Yerüstü nəqliyyatla daşımalar çox vaxt atmosfer havasının çirklənməsinə, bitki örtüyünün pozulmasına və küylə çirklənmələrə səbəb olur.

Turistlərə xidmət zamanı nəqliyyat xərclərinin və təbiətə vurulan zərərin azaldılması üçün turistlərin turbazada, düşərgədə uzun müddət qalmasını stimullaşdırmaq məqsədəuyğundur. Bu halda turist nəqliyyatı reyslərinin sayı azalır, turistlərin qalmasından gələn gəlir artır.

Turistləri daşımaq üçün yük maşınlarından yox, yük üçün qoşqusu olan iri tutumlu dizel avtobuslardan istifadə etmək lazımdır. Bu halda qrup halında olan turistlər fərdi turistlərdən daha yaxşı hesab edilir. Məsələn, Tasmaniya adasının şərqində «Treycinet Experience» düşərgəsində turistləri daşımaq üçün qoşqusu olan 12 yerli «Toyota» dizel mikroavtobuslardan istifadə etməyə başladılar. Bununla da nəqliyyat xərclərinə xeyli qənaət etməyə nail olunmuş və turistlərə icazə verilən yük həcminin daşınması artırılmışdır.

Xidmət göstərən işçi heyətin, yüklərin daşınmasını turistlərin daşınmasına aid etmək lazımdır. İşçi heyətin yaxın səfərləri üçün dağ velosipedlərinin istifadəsi daha yaxşıdır. Çox vaxt işçi heyətin səfəri informasiya almaqla əlaqədar olur. Yeni rabitə sistemlərindən istifadə (ratsiya, mobil telefonlar və s.) səmərəli olub, artıq yerdəyişmədən imtina etməyə imkan verir.

Gecə vaxtı, xüsusən də xüsusi mühafizə olunan təbiət ərazilərində daşımalardan çəkinmək lazımdır. Fənərlərin işığı heyvanların davranışına, xüsusən cütləşmə dövründə, ov zamanı mənfi təsirlər edə bilər. Məsələn, qeyd olunmuşdur ki, bir çox yeni doğulmuş tısbağa balaları dənizə tərəf yox, fənərlərin işığı gəldiyi yol tərəfə sürünürlər. Nəticədə onlar tələf olurlar.



### Yoxlama sualları və tapşırıqlar

1. Dağlarda yerləşdirmə vasitələrində yaşayış binalarının planlaşdırılmasına tələbləri formalaşdırın.
2. Ekoturlarda tullantıların istifadə qaydalarını sadalayın.
3. Xörəkləri hazırlamaq üçün odun yerinə qaz qızdırıcılarından istifadənin vacibliyini əsaslandırın.
4. Marşrutda zibilin yığılması və daşınması üçün məşğələdə özünüz kisə konstruksiyası işləyib hazırlayın və onun təqdimatını keçirin.

## Yeddinci fəsil

## Ekoloji və macəra turizmi dağ rayonlarının sosial-iqtisadi inkişaf vasitəsi kimi (Qərbi Nepalın nümunəsində)

Artıq irəlidə qeyd olunduğu kimi ekoturizm mütləq yerli cəmiyyətlərin sosial-iqtisadi inkişafına öz töhfəsini verməlidir. Hər hansı sağlam düşüncəli adam bunu ədalətli hesab edərdi. Turistlər yerli əhaliyə münasibətdə qonaqdır ki, bu da aborigenlərin həyatının gedişinə müdaxilə, yerli ehtiyatlardan istifadəyə görə özünəməxsus kompensasiya kimi konkret davranışı nəzərdə tutur. Təəssüf ki, praktikada hər şey tamamilə başqa cürdür.

İnkişaf etmiş ölkələrdən olan təşəbbüskar turoperatorlar yerli təchizatçıların xidmətlərinə müraciət etmirlər və çalışırlar ki, turistlərdən gələn bütün maliyyə mənbələrini öz əllərində cəmləşdirsinlər. Onlar öz mehmanxanalarını tikirlər, onları müasir avadanlıqlarla təchiz edirlər, inkişaf etmiş ölkələrdən menecerlər yığırlar. Beləliklə, əksər hallarda inkişaf etməkdə olan ölkələr turist transmilli korporasiyaların (böyük turoperator firmaların, mehmanxana şəbəkələrinin və s.) «xammal əlavələrinə» çevrilirlər, yerli əhali isə «müstəsna» olaraq problemlərlə «zənginləşirlər»: turizm ehtiyatlarının məhv edilməsi, həyatın keyfiyyətcə pisləşməsi və hər şeyin bahalaşması, həyatı təmin edən təbii ehtiyatlara (torpağa, suya və s.) onlardan istifadə yolunun itməsi, belə ki, bu ehtiyatlar daha varlı istifadəçilərə – turistlərə verilirlər.

Bir çox inkişaf etməkdə olan ölkələrdə turizmin qanundan kənar növləri ilə məşğul olurlar: seksturizm (öz cinsindən olan nümayəndələrlə, uşaqlarla qanundan kənar cinsi münasibətdə olmaq məqsədi ilə səyahət); narkotiklərin əldə olunması və istifadəsi məqsədi ilə turizm; hərbi əməliyyatlarda iştirak etmək



və başqa adamlar üzərində zor tətbiq etmək üçün turizm və s. Fahişəlik, o cümlədən uşaq fahişəliyi, narkomaniya, cinayətkarlıq – istirahət etdiyinə görə inkişaf etmiş ölkələrdən olan varlı və təhsilli turistlərin «təşəkkürüdür».

Keçən əsrin 90-cı illərin axırlarında Ətraf mühit və inkişaf beynəlxalq institutu turizm regionlarında yoxsulluğu aradan qaldırmaq üçün inkişaf etməkdə olan ölkələrdə turizmdən gələn gəlirləri qorumaq üçün xüsusi konsepsiya işləyib hazırlamışdır. Xaricdə bu konsepsiya PPT – «Pro Poor Tourizm» kimi tanınır. Bu zaman gündəlik gəlirləri 1 ABŞ dollarından az olan yerli əhali yoxsul, kasıb hesab olunur.

Planetin bütün kasıb əhalisinin 80 %-dən çoxu 13 ölkədə yaşayır. Onlardan 11-ində son vaxtlar beynəlxalq turist axını və turizmdən gələn gəlirlərin miqdarı həmişə artır. Bundan başqa 15 ən çox turist gələn inkişaf etməkdə olan ölkənin 5-ində 10 mln.-dan çox adam yoxsulluq həddindən aşağı səviyyədə yaşayır (cədvəl 6-ya bax).

Praktiki olaraq bütün bu ölkələrdə ekoturizm milli turizm sənayesinin əsas inkişaf istiqaməti elan edilmişdir. Beləliklə, biz bir daha əmin ola bilərik ki, bəşəriyyət bütövlükdə müasir turizmin, xüsusən də ekoturizmin dayanıqlı inkişaf konsepsiyasının həyata keçirilməsindən hələ necə uzaqdır.

**Cədvəl 6**

**Dünyanın ən çox miqdarda kasıb əhalisinin yaşadığı ölkələrin reytinqi (%)**

| Ölkələr | Ölkələrin ümumi əhalisində yoxsulların payı |
|---|---|
| Hindistan | 53 |
| Çin | 22 |
| Banqladeş | 20 |
| Keniya | 50 |
| Pakistan | 12 |

| | |
|---|---|
| İndoneziya | 15 |
| Nepal | 53 |
| Nigeriya | 29 |
| Efiopiya | 34 |
| Braziliya | 29 |
| Peru | 49 |
| Filippin | 28 |
| Meksika | 15 |

Praktiki olaraq ekoturizmin bütün növləri geri qalmış, hər şeydən öncə isə dağlıq və kənd regionlarının sosial-iqtisadi inkişafının stimullaşdırılması işində təsərrüfatçılığın digər sahələrinə nisbətən mübahisəsiz üstünlüklərə malikdir.

Birincisi, turizmdə istehlakçı özü xidmət göstərilmək yerinə gedir. Bu nəinki ölkəyə valyuta axınına, həm də turizm məhsulları və xidmətlərinin «görünməyən ixracına» səbəb olur. Turist hər şeyi özü ödəyir və alınmış malların (xidmətlərin) ölkədən çıxarılması üçün lazım olan bütün gömrük və sərhəd rəsmiyyətindən keçir.

İkincisi, turizmdə və qonaqpərvərlikdə əməyin mexanikləşdirilməsi həddən artıq aşağıdır. Bəzi tədqiqatçıların məlumatına görə bir əcnəbi turistə xidmət etmək üçün 10 iş yeri yaratmaq tələb olunur. Həm də nəzərə almaq lazımdır ki, turizmdə daha çox qadınlar işləyir ki, onlara da inkişaf etməkdə olan ölkələrdə ixtisaslaşdırma sahəsində (mədən sənayesində) iş tapmaq çox çətindir.

Üçüncüsü, təbii sərvətlərlə məsələn, Nepal kimi az təmin olunan ölkələr üçün beynəlxalq turizm – milli iqtisadiyyatı inkişaf etdirməyin yeganə üsuludur.

Turizmdə, yoxsulluğu aradan qaldırmağa kömək edən beş əsas istiqamət ayırırlar:

1) xarici təşəbbüskar və yerli, turizm xidmətləri ilə təchiz edən turoperatorlar arasında əlaqələrin genişlənməsi;



2) turizm biznesində və qonaqpərvərlikdə kiçik sahibkarlığın dəstəklənməsi;

3) kasıb rayonlarda turizm sənayesinin inkişafı yolu ilə yeni iş yerlərinin yaradılması;

4) sənaye sahələri və yerli əhali arasında təbii ehtiyatlar uğrunda mübarizədə rəqabətin zəifləməsi;

5) sosial və mədəni şəraitin yaxşılaşdırılması üzrə səy göstərilməsi.

Dağlıq rayonlarda yoxsulluğun aradan qaldırılmasında ekoloji və macəra turizminin imkanlarını Nepalın geri qalmış rayonlarından birində – Xummada PPT proqramının həyata keçirilməsi nümunəsində araşdıraq.

Xumma – böyüklüyünə görə Nepalın ikinci dairəsidir. O, ölkənin qərbində dəniz səviyyəsindən 1500-7300 metr yüksəklikdə yerləşmişdir və Tibetlə həmsərhəddir. Rayonun inzibati mərkəzi – Simikot qəsəbəsi 2950 m yüksəklikdədir. Ona ən yaxın olan nepal avtomobil yolu «cəmisi» 10 günlük piyada keçidi məsafəsində, ən yaxın çin avtomobil yolu isə – 7 günlük piyada yoludur. Dairə özünün keçilməz və təhlükəli cığırları ilə «məşhurdur».

Son illər dairədə bir neçə epidemiya qeydə alınmış, həmçinin kəskin ərzaq çatışmazlığı müşahidə olunur. Dairənin ərazisinin yalnız 1 %-ik kənd təsərrüfatı üçün yararlıdır. Torpaqlarının yarıdan çoxu $30^0$-dən artıq mailliyi olan yamaclarda yerləşmişdir. Rayonun şimalında ildə 5 aydan çox kəskin şaxtalar olur. Nepalın bütün dairələrindən nisbətən burada qadınlar daha az hüquqlara malikdirlər. Hökumət məmurlarını ciddi günahlarına görə cəza olaraq bura xidmət etməyə göndərirlər.

Əhalinin sosial-mədəni həyatında iki cəmiyyət dominantlıq edir: tibet buddistləri və induist kastaları. Sonuncular adətən aşağı kastalara aid edilirlər. Tibet buddistləri isə əsasən Şimalda Tibetlə sərhəddə yaşayırlar. Bu yerlər turistlərin daha çox gəldiyi yerlərdir.

Dairənin əhalisinin ümumi sayı – 50212 nəfərdir. Turizm üçün

perspektivli rayonlarda (Simikot, Dondapxayya, Kxalqaqaun) 7 min nəfərə yaxın adam yaşayır. Dairənin demək olar ki, bütün əhalisi yoxsulluq həddindən aşağı səviyyədə yaşayırlar. Firavanlıq səviyyəsinə görə burada aşağıdakı siniflər ayrılmışdır:

- F sinfi – «torpaqsız, kasıbdan da kasıb», özünü müstəqil olaraq bir aydan çox dolandıra bilməyən; adətən, kastın üzvləri müxtəlif yerlərdə fəhlə, yükdaşıyan və atabaxan işləyən sənətkarlardır;
- E sinfi – «demək olar ki, torpaqsız», özünü müstəqil olaraq 6 aydan çox dolandıra bilməyən, müxtəlif yerlərdə fəhləlik edən, özünün işi də ola bilər;
- D sinfi – «yazılmış, kiçik torpaq sahibkarları» – onların torpaqlarının şumlanmasına 3 gündən az vaxt gedər, ərzaq ehtiyatları 3-12 aya çatar ki, onların daimi işləri olur və yak (Tibet öküzü) saxlayırlar;
- C sinfi – «yazılmış, kiçik torpaq sahibkarları» – onların torpaqlarının becərilməsinə 4-9 gün gedər, 3-12 aylıq ərzaq ehtiyatına malikdirlər; taxtadan qablar hazırlayır, turistlər üçün özü xüsusi çayxana saxlaya bilər;
- B sinfi – «orta səviyyəli torpaq sahibkarı» – onların torpaqlarının becərilməsinə 10-17 gün gedər; 1 illik ərzaq ehtiyatına malikdirlər, öz çayxanaları olur, torpaqlarını kempinq (avtoturistlər üçün çadırları və ya yüngül tipli evləri, həmçinin avtomobil dayanacağı olan yay düşərgəsi) üçün icarəyə verir;
- A sinfi – «iri torpaq sahibkarları» – onların torpaq sahələrinin becərilməsinə 80 gün gedər; qatır karvanlarının sahibidir, trekinq-kompaniyada (camışlara qoşulmuş furqonlarla (arabalarla) getmək, dağlıq bölgədən keçməklə səyahət etmək) işləyirlər.

Bu dairənin (Xumma) əhalisinin əksəriyyəti E-dən B sinifinə qədər daxildirlər.

Turizm – dairədə əsas potensial gəlir mənbəyidir. Lakin azsaylı turistlərdən gələn gəliri (ildə orta hesabla 600-700



əcnəbi) yerli turfirmalar qazanmır. PPT proqramına («Turizm – kasıblara») uyğun olaraq aşağıdakı cədvəldə inkişafın üstünlük təşkil edən problemləri qruplaşdırılmışdır.

**Cədvəl 7**
**Xumma dairəsində inkişaf problemi**

| Problem | Mahiyyəti | Həlli |
|---|---|---|
| Nəqliyyatın keçə bilməməsi | Təyyarələr üçün enmə zolağının olmaması səbəbindən turizm inkişaf edə bilmir, magistrala çıxan yollar çatışmır | Turizm və mülki aviasiya nazirliyində problemin lobbiləşdirilməsi, həmin rayonda hava nəqliyyatının yaradılmasının səmərəliliyinə xüsusi aviakompaniyaları inandırmaq |
| Yerli turizm məhsullarının çatışmazlığı | Vəhşi təbiətdən və peyzajdan zövq almaqdan savayı dairədə turistlərin məşğul olması üçün bir şey yoxdur, belə ki, turizm infrastrukturu yoxdur. Mədən sularının köməyi ilə xəstələrin müalicəsi, kəndlər və monastrlar üzrə tanışlıq və etnoqrafik turların, kulinariya turlarının, turistlərin olduğu yerdən xatirə olaraq aparmağa üstünlük verdiyi suvenirlərin hazırlandığı turların inkişafı üçün ilkin şəraitin olmasına baxmayaraq turistlərə pul xərcləməyə yer yoxdur. | Turistlərə xidmət üzrə yerli əhalinin öz biznesinin təşkilinə (sosial səfərbərlik) təhrik edilməsi, yerli sahibkarların təlim keçməsi və onların fəaliyyətinin koordinasiyası |
| Sərt turizm rəsmiyyəti | Tibetlə həmsərhəd olan bəzi rayonlara getmək üçün xüsusi icazə almaq lazımdır. Bürokratik süründürməçilik turistləri qorxudur. | Göstərilən rayonlara getməyə məhdudiyyətin aradan qaldırılması məsələsi üzrə Nepal hökumətinin qanun qəbul etməsi və turistlər üçün |

| | | |
|---|---|---|
| | | daxil olma prosedurunun sadələşdirilməsi |
| Yerli turizm bazarına çıxış imkanlarının qeyri-bərabərliyi | Kasıblarla müqayisədə turistlər uğrunda mübarizədə rəqabət zamanı dairənin daha zəngin əhalisi böyük imkanlara malikdirlər | Cəmiyyətin kasıb təbəqələrindən olan nepallıları birləşdirən, bazarın həmin sahəsində fəaliyyət göstərən turizm bürosunun yaradılması. Turizm xidmətlərinə qəti müəyyən edilmiş qiymətlərin qoyulması |
| Turizm tələbatının təmin olunması problemi | Xummada yaşayan kasıblar öz kəndlərini heç zaman tərk etməmişlər, odur ki, turistlərin kim olduğunu və onların nə istədiyini pis təsəvvür edirlər | Yerli qeyri-hökumət təşkilatları yerli əhalinin təlimini aparacaq və tanınmış milli turizm mərkəzlərinə təcrübə mübadiləsi üçün səfərlər təşkil edəcəklər |
| Turoperatorlar və xidmətlərin təchizatçıları arasında əlaqənin çatışmazlığı | Nəqliyyat keçilməzliyi və dairədə yalnız bir telefonun olması Katmanda şəhərində olan paytaxt turoperatorları ilə əlaqəni çətinləşdirir. Bundan başqa, varlı yerli dağ bələdçiləri və ən iri qatır istehsalçıları qatır sahibkarlarının ittifaqını yaratmışlar və indi bütün daşımalara və kerosin, tərəvəz təchizatına tam nəzarət edirlər | Yerli turizmdə çalışan kasıb adamların ictimai təşkilatının yaradılması onlara radiotelefon və ratsiya əldə edilməsində kömək almaq üçün birləşməyə kömək edər. Turoperatorlarla əlaqə yaratmaq turistlərə ərzağı özləri ilə Katmandadan daşımaq yox, Xummanın kəndlərindən almağa kömək edərdi |
| Turizm məhsullarının strukturu və turistlərin əlavə xərcləri | Xidmətləri yalnız daşımalara görə turoperatorlardan pulla alan fərdi turistlər yerli turizm bazarı üçün çox faydalıdır. Onlar yerlərdə turizm mallarının və xidmətlərin alınmasına turizm qruplarından daha çox yönəlmişlər | «Qadağan olunmuş ərazı» statusunun dəyişdirilməsi və rayona fərdi turistlər tərəfindən gedilməsinə icazə verilməsi |



Dairənin əsas diqqətəlayiq yeri müqəddəs tibet gölü Manasarovar və müqəddəs Kaylas dağına aparan cığırdır. Odur ki, turistlərin əksər hissəsi-ziyarətçi-zərvarlar, əcnəbi trekinq-tur həvəskarları və kiçik faiz çayla ağac axdan fəhlələrdir. Əcnəbi turistlərin çoxu – avropalılar (79 %), onlardan: almanlar və avstriyalılar – 27 %, amerikalılar – 11 % təşkil edir. Turistlər ən çox iyul-oktyabr (60 %-ə yaxın) və may-iyun (40 %) aylarında olur. Musson dövründə turistlər olmur.

Kaylas dağına gedən, əsasən zəvvarlardan ibarət olan daxili turist bölməsi çox perspektivlidir. Əgər əcnəbilər daha çox pivə və kola alırlarsa, ziyarətçilər – çay, makaron, pirojna, tərəvəz, alkoqollu içkilər və digər yerli əhalinin istehsal etdiyi məhsulları alırlar. Əcnəbi turistlərin qrupunda bir turistə 2-3 bələdçi (yolda müşayiət edən) düşür (yükdaşıyan, aşpaz, rabitəçi zabit və s.). Bu adamlar da həmçinin turizm xidmətlərinin təchizatçılarının potensial müştəriləridir.

Burada bütün turistlər təklif olunan xidmətlərin aşağı keyfiyyətdə olduğunu qeyd edirlər. Odur ki, PPT inkişaf proqramına cığırların rahatlığı (körpülərin və hazırda sayı 410-dan çox olan ictimai tualetlərin tikintisi, dar sahələrin bərkidilməsi və daş döşənməsi, atların və yakların istifadəsi üçün cığırların genişləndirilməsi, gecə qalmaq üçün lociyaların (binaya yapışıq və ya onun tərkibində olan açıq, sütunlu qalereyaların) yaxşılaşdırılması və s.) və xidmət etmək bilikləri və vərdişlərinin turizm milli mərkəzi işçilərindən Xumma əhalisinə verilməsi daxildir. Bu plan üzrə artıq ilkin işlərin yerinə yetirilməsindən sonra dairədə turistlərin gəlməsində artım qeydə alınmışdır.

Bütövlükdə PPT inkişaf proqramına («Turizm-kasıblara») özündə 9 mərhələni birləşdirən 4 dövr daxildir. O, dünyanın digər regionlarında da turizmin inkişaf proqramını tərtib etmək üçün müvəffəqiyyətlə istifadə oluna bilər.

**I dövr.** Qabaqcadan lazım olan başlanğıc ilkin şəraitin təyin olunması

1-ci mərhələ. Dairədə turizm ehtiyatlarının ərazi bölüşdürülməsinin qiymətləndirilməsi, PPT-nin inkişafına kömək edən və mane olan turist tipli amillərin təsirindən mümkün yol verilən turizm yüklənməsinin təyin olunması.

2-ci mərhələ. Ekoloji və macəra turizminin potensial inkişaf rayonlarının təyin olunması, trekinq-marşrutların xəritələrinin tərtib olunması, turist xidmətləri təchizatçılarının imkanlarının analizi.

3-cü mərhələ. Regional turizm məhsullarının elementlərinin tərəfdaşlığı:

- turistlərin gəlməsi üçün kəndlərin və monastırların seçilməsi;
- regionun turizm ixtisaslaşmasının təyin olunması;
- kasıbların turizm sənayesində işə sosial səfərbərliyi və işçi heyətin təlimi.

**II dövr.** Turizmin inkişaf imkanlarının öyrənilməsi.

4-cü mərhələ. Regional səviyyədə turizm fəaliyyətinin planlaşdırılması:

- dairə səviyyəsində zəruri tədbirlərin, çoxfunksiyalı turizm mərkəzlərinin, turist marşrutlarının planlaşdırılması;
- diqqətəlayiq yerlərin ekskursiyalar zamanı göstərilməsi üçün avadanlıqlarla təchizatının planlaşdırılması;
- planlaşdırılan gəlirlərin və turist xidmətlərinin dəyərinin analizi.

**III dövr.** Ayrı-ayrı kəndlər və rayon səviyyəsində biznes-planlaşdırma.

5-ci mərhələ. Turizmə dəstək platformasının işlənib hazırlanması:

- yerli turizm xidmətləri təchizatçılarının fəaliyyətinin koordinasiyası;



- turizm üzrə yerli idarənin işçiləri üçün treninqlər və ixtisası artırma kursları.

6-cı mərhələ. Rayon səviyyəsində turist marşrutlarının planlaşdırılması:

- yol verilən turizm yüklənməsi səviyyəsinə görə ərazinin zonalaşdırılması (zonalara ayrılması);
- konkret kəndlərin və maraqlı yerlərin ərazilərinin planlaşdırılması və zonalara ayrılması;

7-ci mərhələ. Yerli sahibkarlar üçün biznes-planlaşdırma üzrə treninqlər:

- turizm ehtiyatlarının istifadəsi üzrə treninq;
- strateji menecment üzrə treninq;
- marketinq üzrə treninq;
- milli treninq-agentliklərin nümayəndələri ilə işçi görüş, turistlər üçün xidmət və malların göndərilməsinə müqavilələrin bağlanması.

8-ci mərhələ. Məsləhətçi (konsaltinq) və sahibkarlığın inkişafı:

- biznes – planların tərtib olunması üzrə treninq;
- biznes-mərkəzlər vasitəsi ilə yerli turizm xidmətləri təchizatçılarının marketinq fəaliyyətinin koordinasiyası.

**VI dövr.** Monitorinq və qiymətləndirmə.

9-cu mərhələ. Fokus-qrup sorğu metodu, vasitəçi rolunu oynaya bilən sahibkarların anketləşdirilməsi yolu, statistika orqanları vasitəsi ilə dairədə turizmin inkişafının monitorinqi.

PPT-nin inkişafı üzrə işlərin konkret şərait nəzərə alınmaqla daha çox yerli səviyyədə aparılması çox vacibdir. Bütün səylərin məmurların lobbiləşdirilməsinə (qanunları qəbul etdirmək və ya rədd etmək) yönəldiyi halda işlər ancaq kağız üzərində aparılacaq. Hökumət yox, ancaq biznes ekoloji və macəra turizmini inkişaf etdirə bilər.

Yoxsul təbəqədən olan sahibkarlara maliyyə dəstəyi üçün xüsusi fondlar yaradılmışdır: sosial proqramların maliyyələş-

dirilməsini həyata keçirən cəmiyyətə dəstək Fondu; kiçik sahibkarların biznes-layihələrini maliyyələşdirən və onları kreditləşdirən riskli kapital qoyuluşu Fondu; kommunikasiya xətlərinin çəkilməsini maliyyələşdirən infrastrukturun inkişafı Fondu. Yerli sahibkarlar bu və ya digər fonddan kredit almaq üçün lazım olan vəsaitin ən azı 25 %-nə malik olmalıdır.

. PPT ərazi cəhətdən çoxfunksiyalı turizm mərkəzləri vasitəsi ilə inkişaf etdiriləcəklər. Bu, turistlərin və xidmət, mal təchizatçılarının yollarının kəsişdiyi özünə məxsus mərkəzi nöqtədir. Onların burada informasiya, məhsul və xidmət mübadiləsi aparacağı, xidmət üçün müqavilə bağlayacağı nəzərdə tutulur.

Xummada turizm infrastrukturlarını və ehtiyatlarını dəstəkləmək və inkişaf etdirmək məqsədi ilə hər bir turistdən dağ cığırlarına qulluğa görə, 2 ABŞ dolları yığılır, həmçinin dairənin sərhədini keçməyə görə ödənişlərin edilməsi haqqında məsələ müzakirə olunur. Bundan başqa qatır sürücülərindən onların qatırları otladığına görə ödəniş alınır.

Bundan əlavə bəzi kəndlərdə meşələrin qırılması prosesinə nəzarət edən və yeni meşə sahələri əkini ilə məşğul olan meşə istifadəçiləri ictimai qrupları yaradılmışdır.

Turizm artıq dairədə sosial-iqtisadi inkişafın əsası və katalizatoru olmuşdur. Məsələn, Yalbanq kəndinin ərazisinin torpağında yerləşən, yerli məktəbə məxsus olan kempinqin gətirdiyi gəlirin bir hissəsi məktəbin özünün inkişafına sərf olunur. Elə həmin bu kənddə yerli monastırında turistlərdən və zəvvarlardan 4 il ərzində bərpa işləri aparmağa və yeni otaqlar tikməyə imkan verən, ianələr toplanmışdır.

Bundan savayı, Xummada könüllü olaraq nepallılara tikinti işlərində kömək edən, britaniyalı turist-fədailəri çalışırlar.

PPT-nin inkişafına mane olan əsas yerli xüsusiyyət nepal cəmiyyətinin kastalara bölünməsi və bu əlamətə görə hüquq bərabərliyinin pozulması kimi ayrıseçkilik qalır. Yüksək kastadan olan sahibkarlar aralarında əksəriyyətinin kasıblar olduğu «toxunulmazlara» məhəl qoymayaraq çalışırlar ki, işçiləri ancaq öz kastalarından işə götürsünlər. Bununla belə, kastalar, qəbilələr, ailələr və s. həmişə dağlarda ənənəvi yaşayış tərzi üçün xarakterik olmuşdur. Kollektivləşmənin belə forması onlara çətin hava şəraitində sağ qalmağa, xarici düşmənlərin hücumunu dəf etməyə kömək etmişdir. Lakin indi bu ənənə milli, dini fərqləri və ayrıseçkiliyi qızışdıraraq, dağ rayonlarının sosial-iqtisadi inkişafı yolunda əngəl olurlar.



Hazırda Xummada PPT inkişaf layihəsinin müəllifləri qeyd edirlər ki, ən çox gəlir «kasıb çoxluq» sinfi götürür, halbuki «kasıbdan da kasıb» olanlar əvvəlki kimi böyük dəyişikliklərdən kənarda qalmışlar. Tədqiqatların nəticələri əsasında onlar ən çox ehtiyacı olanlar üçün ayrıca proqramın yaradılmasının zəruriliyi haqqında nəticəyə gəlmişlər.

### Yoxlama sualları və tapşırıqlar

1. İnkişaf etməkdə olan ölkələrdə turizmin inkişaf problemlərini xarakterizə edin.
2. PPT nədir?
3. Geri qalmış ərazilərin sosial-iqtisadi inkişafı işində istehsal fəaliyyətinin digər növləri qarşısında ekoturizmin üstünlüklərini sadalayın.
4. Xummada PPT konsepsiyasını («Turizm-kasıblara») qısaca təsvir edin, onun özünəməxsusluğunun nədə olduğunu göstərin.

## Səkkizinci fəsil

## Dünyanın dağlıq rayonlarında ekoturizmin inkişafı

Dağlar təkcə qurunun əhəmiyyətli hissəsini əhatə etmir, həm də ekoturizmin əsas dayanacaq yerləridir. Ətraf mühitin mühafizəsi üzrə Ümumdünya monitorinq mərkəzinin məlumatlarına görə dağların əhatə etdiyi qurunun sahəsi 35,9 mln. $km^2$ və ya Yerin bütün səthinin 24,3 %-ni təşkil edir. Planetin əhalisinin 24 %-ə yaxını dağlarda yaşayır. (Mexiko, Tokiyo, Cakarta və s. kimi böyük şəhərlərin əhalisini nəzərə almaqla).

Bununla belə məhz dağlıq regionlar aşağı sosial-iqtisadi inkişaf göstəriciləri ilə fərqlənirlər. Bir çox tədqiqatçılar ehtimal edir ki, dağ ekoturizminin inkişafı düzənlik (dənizətrafı) və dağlıq regionlar arasındakı fərqi azaltmağa kömək edə bilər. Lakin burda da çoxlu problem və mübahisəli məsələlər mövcuddur. Dünyanın müxtəlif regionları kəmiyyətinə və keyfiyyətinə görə müxtəlif turizm ehtiyatlarına malikdir. Bəzi ölkələrdə turizm dağlıların cibinə yox, xarici kompaniyaların hesablarına gəlir gətirir. Turistlərin axını burada yaşayan insanların ənənəvi həyat tərzini və yaşayış mühitini dağıdır. Tullantıların turizm mərkəzlərində utilizasiyası problemi inkişaf etməkdə olan ölkələrdə artıq bu gün çətin həll olunan bir məsələyə çevrilmişdir.

Odur ki, aşağıda dağlarda ekoturizmin inkişafının dünya təcrübəsi araşdırılacaq. Yalnız bundan sonra toplanmış biliklərin ölkəmizin dağlıq rayonlarında tətbiqinin mümkünlüyü haqqında danışmaq olar.

### 8.1. Amerikanın turizm regionları

Şimali Amerikanın dağlıq ərazilərinin xeyli hissəsi xüsusi mühafizə olunan təbii ərazilərə (XMTƏ) aiddir və dövlət tərəfindən qorunur. Təbiəti mühafizə işində təkcə Amerikada



yox, həm də bütün dünyada ABŞ ən çox nailiyyət qazanmışdır. Xüsusi mühafizə olunan təbiət ərazilərində ekoturizmin inkişafının amerika modelinə özünəməxsus cizgilər xasdır ki, onlar da aşağıda araşdırılacaq.

ABŞ-da «milli parkların sistemi» adlanan mühafizə olunan ərazilərin çox mürəkkəb və şaxələnmiş sistemi formalaşmışdır. Bütün bunlar xüsusi Milli parkların xidməti tərəfindən idarə olunur və ABŞ-ın daxili işlər nazirliyinin tabeçiliyindədir. Əsası hələ 1916-cı ildə bu sistemin qaydaya salınmasında mühüm rolu 1978-ci ildə qəbul olunmuş milli parklar və rekreasiyalar haqqında Qanun oynamışdır. Bu gün ABŞ-da ümumi ərazisi 30 mln. ha-dan çox olan (ölkənin bütün ərazisinin 3,2 %-i) təqribən 350 müxtəlif park zonası vardır. Onlar, insanların gələcək nəsilləri bu gözəllikdən zövq almaq üçün ora getsin deyə, təbiət guşələrini olduğu kimi saxlamaq və burada insanın heç bir təsərrüfat fəaliyyətinə yol verməmək məqsədi ilə yerlərin və landşaftların bütün qeyri-adi müxtəlifliklərini əks etdirərək, ölkənin bütün ərazisində yaradılmışdır.

Bütünlükdə mühafizə olunan ərazilərin 3 qrupda birləşdirilə bilən 26 növmüxtəlifliyi vardır: təbii, tarixi və rekreasiya. Lakin onlar arasında sərhəd bir qədər şərtidir.

Təbii qrupa milli parklar, abidələr, rezervatlar daxildir. Sayı həmişə artmaqda davam edən və 80-ci illərin axırlarında 50-yə çatan, ümumi sahəsi 20 mln. ha olan (bu bir çox Avropa ölkələrinin ərazisindən çoxdur) milli parkların əhəmiyyəti xüsusilə böyükdür. Onların əsas təyinatı – təbii landşaftların qorunmasıdır, lakin eyni zamanda onlar hər il təxminən 300 mln. qonaq qəbul edərək turizm və rekreasiya üçün geniş istifadə olunur. Belə parkların əksər çoxluğu ölkənin qərbində, dağlıq və sakit okean ştatlarında toplanmışdır. Onların arasında ən çox məşhur olanları – Yellouston, Yesemit, Qleyşer, Sekvoye, Qrand-Kanyon, Qrand-Teton və s.-dir. Yosemit Kaliforniya milli parkı onunla məşhurdur ki, burada 800 m yüksəklikdən tökülən, Şimali

Amerikanın Yosemit-Fol adlanan ən yüksək şəlaləsi vardır. Yüksəkliyinə görə o yalnız CAR-da Tuqela və Venesuelada Anxel şəlalərindən geri qalır. Burada həmçinin sekvoya meşəlikləri qorunub saxlanmışdır. Çox böyük, həmişə yaşıl sekvoya ağacları həmçinin Sekvoye parkında bitir. Bu ağacın hündürlüyü 100 m-ə, qalınlığı 8-9 m-ə çatır. Hesablanmışdır ki, bir ədəd belə ağacdan 4 mərtəbəli 25 ev tikmək olardı.

Bir neçə milli park Kolorado yaylasında yerləşir. Onların hamısı demək olar ki, eyni adlı çayın axını üzrə düzülmüşdür. Bunlardan ən məşhuru – Qrand-Kanyon Kolaradodur. O, gözəlliyinə görə sahənin ən mənzərəli yerində, çay axını boyunca 170 km sahədə yerləşmişdir. Hər il ora 20 mln. adam gəlir. Adətən, onlar xüsusi baxış meydançasında yuxarıdan baxmaqla Böyük Kanyonun gözəlliyinə heyran qalırlar.

Sonra şərqə doğru Qayalı dağlar sistemi ilə bağlı olan parklar zəncir kimi uzanmışdır. Onların arasında Yellouston parkı nəinki ABŞ-da, həm də diqqətə layiq yerlərinin açılışı XIX əsrin 60-cı illərinə aiddir. Dəniz səviyyəsindən 2300 m yüksəklikdə Vayominq ştatının əsasən şimal-qərb hissəsində yerləşən bu park 900 min ha ərazini tutur. Hər il ora 3 milyondan artıq adam gəlir. Parkın ən baxımlı yerləri sırasına Şimali Amerikanın ən böyük dağ gölü olan – Yellouston gölü aiddir. Bu göldən çıxıb axan Yellouston çayı mənzərəli kanyon və şəlalələr zəncirini əmələ gətirir. Burada məşhur qeyzerlər vadisi vardır ki, onların arasında hər 65 dəqiqədən bir işə düşən Old-Faytful («Köhnə xidmətçi») qeyzeri daha çox məşhurdur. Həmçinin Mamont istilik mənbələri rayonunda əhəng daşı terrasları insanları heyran edir. Burada nəcib amerika ceyranının populyasiyası olan – vapiti; ağ qutan, sığın sürüləri, bizonlar iynəyarpaqlı meşələrdə mühafizə olunurlar. Yellouston parkından cənuba Qrand-Teton milli parkı yerləşmişdir. Bundan başqa, Qayalı dağların Şimal hissəsində, Kanada ilə sərhəddə Qleyşer milli parkı yerləşir, onların orta hissəsində isə yaraşıqlı buzlaq relyefi olan Roki-Mauntin parkı yerləşir. Bu parkda məşhur Kolorado-Sprinqs kurort kompleksi vardır.



Qayalı dağların şərq kənarında Böyük düzənliklə birləşdiyi yerdə də həmçinin bir neçə məşhur milli park yerləşmişdir. Şimal hissədə Cənubi Dakota ştatında adı artıq coğrafi terminə çevrilmiş Bedlend milli parkı vardır. Dayanıqlı süxur qatlarının aşınmağa meylli qatlarla növbələşdiyi, həddən artıq parçalanmış və çətin keçilən relyefi olan yerlər adətən bedland («pis torpaq») adlandırılır. Cənub hissədə Nyu-Meksiko ştatında, Karlsbad kars mağaraları rayonunda çox məşhur milli park, daha cənubda isə – əvvəlki «vəhşi» Texasın gözəl guşələrini təcəssüm etdirən Biq-Bend parkı yerləşir.

ABŞ-ın şərq hissəsində milli parklar xeyli azdır: Yeni İngiltərədə Aykeydiya; toxunulmamış təbii subtropiklərin qorunduğu və çəhrayı flaminqaların yaşadığı Floridanın cənub qurtaracağında Everqleyd; Şenadoa. Lakin ölkənin şərqində olan ən məşhur park sözsüz ki, Tennissi və Şimali Karolina ştatlarının sərhədində, Appalaç dağının düz ortasında yerləşən Qreyt-Smoki-Mauntinsdir. Bu parkın vəziyyətinə bir sıra orta atlantik və cənub ştatlarından avtomobillə bir neçə saatlıq məsafədə olması da təsir edir.

Alyaskada milli parklar nisbətən yaxın vaxtlarda yaradılmağa başlamış, lakin XX əsrin 90-cı illərinin əvvəlində onların sayı artıq 8 idi. Adətən, onlar çox böyük ölçüləri ilə fərqlənirlər. Məsələn, Denali parkı 23 min km$^2$ ərazini əhatə edir.

İki milli park Havay adalarında yerləşmişdir ki, bunlardan da Havay vulkanik parkının ərazisində Kilaueaimanua-Loa aktiv vulkanı vardır.

Artıq yuxarıda qeyd olunduğu kimi mühafizə olunan ərazilərin təbii qrupuna milli təbiət abidələri və rezervatlar aiddır. Milli təbiət abidələri arasında sayı 800-ə çatan müxtəlif yasaqlıqlar üstünlük təşkil edir; köçəri quş növləri üçün nəzərdə tutulmuş yasaqlıqlar xüsusən geniş yayılmışlar. Onlara həmçinin

ayrı-ayrı təbii görməli yerlər, məsələn, Kaliforniyada məşhur Ölüm vadisi aiddir.

1964-cü ildə xüsusi qanunla «toxunulmamış ərazilər» adlanan yerlər, yəni hər hansı təsərrüfat fəaliyyətinin (tikinti, meşə işləri, dağ-mədən işləri, heyvanların otarılması, ov) tamamilə qadağan olunduğu, vəhşi təbiətin qorunduğu sahələr ayrılmışdır. 1980-ci ildə isə milli parkdan hər şeydən öncə ovun icazə verilməsi ilə fərqlənən milli rezervat» kateqoriyası daxil edilmişdir.

Milli parklar hər il 1 mln.-dan çox turist qəbul edir. Amerikalılar orada öz məzuniyyətlərini keçirir, səyahət edir, tanışlıq turist səfərləri edir, təbiətin qoynunda dincəlirlər. Bunun üçün parkların ərazisi üzrə istifadəsi federal hakimiyyət tərəfindən nəzarət olunan avtomobil yolları çəkilmişdir. «Toxunulmamış ərazilər» zonasında avtomobil sürmək qadağandır. Adətən, avtoturistlər parkın ətrafında toplaşırlar. Marşrutlar elə qurulmuşdur ki, turistlər görməli yerlərə öz maşınlarından baxırlar. Milli parklarda turistlərin motorlu qayıqlarda və ya baydarkalarda üzmələri üçün su marşrutları vardır. Bu məqsəd üçün ayrılmış dağ cığırlarında atla da səyahət etmək olar. Xüsusi ayrılmış yerlərdə kempinqlər, kafeteriya ilə istirahət üçün meydançalar, icazə məntəqələri, səyahət üçün zəruri olan malların, suvenirlərin və hətta ocaq üçün ağac kömürünün alış-verişi dükanları qurulmuşdur. Milli parklarda ağac kəsmək qəti qadağandır, ocaq qalamaq isə metal dairəli ocaqla təchiz olunmuş, yalnız məxsusi dayanacaqlarda ola bilər. Manqal, stol və skameyka ilə seyrə çıxmaq üçün həmçinin, xüsusi yerlər ayrılmışdır (bu zaman tullantıları mütləq özün ilə götürməlisən). Marşrutlarda turistlərin davranışına belə bir toxunulmaz tələb qoyulur – təbiətə qayğı ilə yanaşmaq. Qaydaları pozmağa görə ciddi cəza – böyük məbləğdə cərimədən tutmuş həbs olunmağa qədər (qəsdən brakonyerlik halında) tədbirləri nəzərdə tutulmuşdur.



Əksər parklarda giriş haqqı ödənilir. Bu istirahətin növündən, onun müddətindən və marşrutdan asılıdır. Bir neçə milli parka gedən zaman həmin şəxsə illik bilet götürmək imkanı verilir ki, bu da onun sahibinə və onunla birlikdə xüsusi maşında olan bütün sərnişinlərə il ərzində həmin yerlərə səyahət etmək imkanı verir. Milli parkların ərazisində və ətrafında mehmanxanalar və motel yerləşmişdir.

Ən məşhur parklara yaxınlıqda olan böyük şəhərlərdən və hava limanlarından qonaqların gəlişi mütəşəkkil təşkil olunur. Turistlər üçün hər kəsin zövqünə uyğun olan – piyada, atla, xizəklə marşrutlar işlənib hazırlanmışdır. Təbii parklara gələn turistlər arasında piyada səfərlər daha çox məşhurdur. Onları bazalarda xüsusi işlənib hazırlanmış marşrutlarla və ya müstəqil olaraq başa vurmaq olar. Turistlərin qrup halında səyahətlərinə bioloqlar rəhbərlik edirlər. Görməli yerləri səmadan seyr etmək üçün hava gəzintiləri də mövcuddur.

Rekreasiya qrupu milli istirahət zonaları, dəniz və göllərin sahilləri, təbiət təsvirləri, çay və quru yolları, park avtostradaları ilə təmsil olunmuşdur. Onlara ayrı-ayrı dağ zirvələri, vadilər, kanyonlar, göllər, adalar və burunlar, çay vadiləri sahələri, sahilboyu qum təpələri və qayalar aiddir. 1968-ci ildə yaradılmış milli cığır sistemi minlərlə kilometr uzunluğu olan 250-yə yaxın obyekti birləşdirir. Ən uzun cığırlardan biri – Nyu-York ştatından Şimali Dakota vasitəsi ilə Qərbə doğru 5,2 min km uzanmışdır. Müxtəlif mövzuları əhatə edən kompleks parklar yaradılmışdır. Məsələn, Oqayoda park ailə istirahəti üçün əyləncə mərkəzi kimi nəzərdə tutulmuşdur. O, 6 zonaya bölünmüşdür: Beynəlmiləl küçə, 1 oktyabr, Çay şəhəri, Xanna-Barbera Lend, Koni-Moll, öz yaşayış mühitində olan vəhşi heyvanlar. Başqa nümunə – ailə istirahəti mərkəzi – Kaliforniyada «Böyük Amerika» parkı, burada 100 akr sahədə Doğma Şəhər meydanı yerləşmişdir, Yukon ərazisi, Qavan Yanki, Kənd yarmarkası və Yeni Orlean.

## 8.2. Afrikanın turizm regionları

Beynəlxalq turistlər arasında Afrikanın ən məşhur dağlıq rayonları – kontinentin ən yüksək zirvələrini özündə birləşdirən Şərqi-Afrika yaylaları – Kilimancaro vulkanı (5895 m), Keniya vulkanı (5199 m), Karisimli vulkanı (4507 m), Marqerita (5109 m) zirvəsidir.

Adamların daha çox gəldiyi Farikanın ən yüksək nöqtəsi – yuxarı hissəsinin buzlaqlarla və qarla örtülü olduğu Kilimancaro vulkanıdır. Dağlar Keniya və Tanzaniyanın böyük bir hissəsini əhatə edir və yaxınlıqdakı ərazilər üçün içməli su mənbəyidir. Kilimancaro təbii kompleksləri yüksəklik qurşağı sxemlərinə uyğun olaraq bir-birini əvəz edir. Burada endemik bitki növlərinə, o cümlədən nəhəng xaçgülünə rast gəlinir. 2700 metrdən yüksək ərazi (753 $km^2$ sahədə) 1973-cü ildən milli park elan olunmuş, 1989-cu ildən isə Ümumdünya irsi abidəsi sayılır.

Milli park 1977-ci ildə qonaqlar üçün rəsmən açılmışdır. O vaxtdan bəri «Afrikanın damına» çıxmaq arzusunda olan turistlərin sayı xeyli artmış və təxminən hər il 36 min nəfərə çatmışdır. Bu zaman hər bir zirvəyə qalxan turisti iki nəfər müşayiət edir və onlar bir yerdə 5 sutka keçirirlər.

Görünür ki, insanların belə yığılması çoxsaylı problemlərin yaranmasına gətirib çıxarır. Milli parkda bitki örtüyünün tapdanması və meşələrin qırılması üzündən torpaqların eroziyası inkişaf edir, səthi sular düşərgələrin və sığınacaqların tullantı suları ilə çirklənir, yanacaq materialı kimi meşədən istifadə olunur, yaşayış məskəni kimi mağaralar xidmət edir, hər yerdə çoxlu zibil yığınları görünür. Turistlərin davranışına nəzarət onları özlərini daha yaxşı aparmalarını arzu etməyi ortaya çıxarır. Belə ki, 1993-cü ildə yalnız iki əcnəbi turist özündən sonra təqribən 4500 məişət tullantısı predmeti, o cümlədən sarğı kağızı, siqaret qutusu və kötüyü, istifadə olunmuş tualet kağızı və plastik butulkalar qoyub getmişlər. Bütün bu şleyf 10 km



qədər uzanmış, yəni hər bir kilometrə kolluqlarda atılmış zibilləri saymasaq 450 predmet düşür.

Parkın rəhbərliyi və işçiləri arasında belə bir fikir yayılmışdır ki, turistlər hara gedirlərsə, oranı zibilləyirlər, bu belə olub, belə də olacaq, Afrikada vəziyyət isə Himalaydakından az qorxuludur. Problemin həlli Keniyanın və Tanzaniyanın iqtisadiyyatına turizmdən gələn böyük həcmli gəlirlərə görə ləngiyir. Həmin ölkələrin hökumətləri bircə dollar belə itirməkdən qorxurlar. Odur ki, vəziyyəti ərazinin zonalaşdırılması, klassik marşrutlara düşən yükün azaldılması və zirvəyə qalxmaq üçün yeni marşrutların istifadə olunması, mövsüm zamanı zirvəyə qalxmaq üçün icazənin qiymətinin artırılması, milli parkda turistlərin qalma müddətinin ixtisar olunması hesabına düzəldilməsi planlaşdırılır.

Keniyada ekoloji turizmin inkişafı səyahət üçün yararlı olan torpaqların hər hektarının qiymətinin 0,8 ABŞ dollarından 40 ABŞ dollarına qədər yüksəlməsinə səbəb oldu.

Afrikada ekoturizm çox vaxt genişmiqyaslı ov və meşəqırma tədbirlərinin real alternativlərinə çevrilir. Məlumdur ki, Afrika tropiklərində hər il «planetin ağ ciyərləri» adlanan 17 mln. ha meşə qırılır.

Foto və turist modeli kimi heyvanların istifadəsi də həmçinin onların ov zamanı və ya qida xatirinə öldürülməsindən iqtisadi cəhətdən daha səmərəlidir. Ambosele milli parkında turistlərlə fotoqrafın və ya rəssamın qarşısında müəyyən vəziyyətdə duran - poza alan bir şir ildə 27 000 ABŞ dolları, fil sürüsü isə – 610 000 ABŞ dolları gəlir gətirir. Bu göstəricilər nəinki, şirin dərisinin və ya filin dişinin bazar qiymətindən xeyli yüksəkdir, həm də bu heyvanların populyasiyalarının mühafizəsinə və bərpasına çəkilən xərcləri iqtisadi cəhətdən doğruldur.

Turizmin Afrikada geniş yayılmış daha bir növü təbii turist kompleksləri ilə əlaqədar olan ovdur (safari). İlk baxışda bu

birmənalı olaraq turizmin qüsurlu növüdür və dayanıqlı inkişaf konsepsiyası ilə heç cür bağlı deyil.

Lakin amerikalı ekspertlər və turoperatorlar idarə olunan, tənzimlənən ovun üstünlüklərini belə təqdim edir:

- ov afrika kəndlərinin əhalisinə iqtisadi gəlir gətirə bilər ki, bu da onları vəhşi təbiətə qarşı çətinlik və təhlükə mənbəyi kimi yox, qiymətli əmlak kimi münasibət bəsləməyə vadar edər;
- afrika dövlətlərinin hökumətləri üçün bu bir hissəsi ətraf mühitin mühafizəsinə sərf oluna bilən mühüm gəlir mənbəyidir;
- əcnəbi ovçular çox vaxt ovladıqları heyvanların ətini yerli əhaliyə verib gedirlər ki, bu da onlara ərzaq az olanda qidalanmağa kömək edir. Bu həmçinin yerli əhaliyə vəhşi heyvanların quraqlıqdan və zərərvericilərdən daha çox əziyyət çəkən ev heyvanlarına nisbətən üstünlüklərini hiss etməyə kömək edir;
- vəhşi heyvanları ovlamaq üçün ovun təşkilatçıları süni sututarlar tikirlər ki, onun da suyundan yerli əhali istifadə edir;
- ovun təşkili üçün çoxlu işçi tələb olunur: ovçular üçün düşərgənin tikilməsindən tutmuş ovun özünün hazırlanmasına qədər bu uzun bir prosesdir. Bu zaman yerli əhalinin aldığı gəlir ölkə üzrə orta göstəricini 3 dəfə ötüb keçir;
- turizmin inkişafı qadınlar arasında işsizliyin səviyyəsinin aşağı düşməsinə gətirib çıxarır. Onlar turistlərə müxtəlif qablar, suvenirlər, ərzaqlar, xalq sənəti məmulatları sata bilərlər;
- kişilərin ov prosesində iştirakı onların əxlaqi keyfiyyətlərini artırır ki, bu da ailə və qəbilə daxilində qarşılıqlı münasibətləri yaxşılaşdırır;
- ovun təşkilatçıları uzaq kəndlərə tibbi xidmətlərin və dərman maddələrinin əsas təchizatçılarıdır ki, bu da afrika kontinenti üçün çox aktual məsələdir;
- ovun inkişafı digər yanaşı sənət sahələrinin də stimullaşmasına səbəb olur: heyvan sümüklərindən xırda məmulatların istehsalı, müqəvvaların içinin doldurulması, öldürülmüş heyvanların dərisinin aşılanıb hazırlanması, həmçinin yolların və körpülərin tikilməsi, əyləncə sənayesinin inkişaf etdirilməsi;
- ov zamanı vəhşi heyvanlarda onların əkin və səpin sahələrindən qovulmasına səbəb olan, «qorxu» effekti baş verir;
- ov yerli əhalinin həyatını kənd təsərrüfatından daha az asılı edir və ovçular üçün çörək, meyvə, tərəvəz satışından gəlir əldə etməyə imkan verir.



Bu ideyaların bir çoxu mübahisəlidir və birmənalı deyil. Yada salmaq lazımdır ki, vaxtilə müstəmləkəçilər Afrikanı həmçinin belə analoji alicənab ideyalar pərdəsi altında işğal etmişlər. Unutmaq olmaz ki, Ümumdünya bankının məlumatlarına görə turizmdən gələn gəlirlərin 55 %-i inkişaf etməkdə olan ölkələrdən inkişaf etmiş ölkələrə gedir. Baxmayaraq ki, ekoturizm turizmin digər növləri ilə müqayisədə yerlərdə, yəni Afrikada turizm ehtiyatlarının mənimsənilməsinə və inkişafına böyük məbləğdə kapital qoyuluşu tələb edir. Odur ki, bəzi məlumatlara görə XX əsrin 90-cı illərinin ortalarında inkişaf etməkdə olan ölkələrin ekoturizmdən gələn gəlirləri 12 milyard ABŞ dollarına çatmışdır ki, bu da turizmdən gələn ümumi gəlirin beşdə birini təşkil edir.

### 8.3. Turizm regionları: Yaxın Şərq və Cənubi Asiya

Cənubi Asiyada ekoturistlər üçün ən cəlbedici ölkə İndoneziyadır. Burada bir sıra milli parklar, qoruqlar və istirahət parkları vardır. Sumatra adasında yerləşən Qanninq istirahət parkı çox məşhurdur. O, bir-birinə bitişik olan səkkiz qoruq, milli park və mühafizə olunan meşə ərazilərindən ibarətdir. Bu İndoneziyada sahəsinə görə ən böyük (10950 $km^2$) və ən qədim istirahət parkıdır. 1981-ci ildə ona biosfer qoruğu statusu verilmişdir. Park, bir hissəsi Xüsusi Mühafizə olunan təbii ərazinin tərkibinə daxil olan, sıx əhaliyə malik Alas vadisi ilə bölünmüş iki praktiki olaraq paralel dağ silsiləsinə malikdir.

Turistləri bura dağ meşələri ilə trekinq (camışlara qoşulmuş furqonlarla dağlıq bölgələrdən keçməklə səyahət etmək) etmək mümkünlüyü və oranqutanq meymunların reabilitasiya (bərpa) mərkəzində olmaq cəlb edir. 1993-cü ildə Qanninq istirahət parkını 18 000 əcnəbi və 54 000 yerli turist ziyarət etmişdir ki, bu da parkın əsl cazibədarlığını tam əks etdirmir.

Parkda təbii mühitdə baş verən dəyişikliklərə turistlərin təsirini qiymətləndirmək üçün ilkin olaraq eyni bitki örtüyü və relyefi olan bir neçə sahənin müşahidəsindən ötrü foto və videokameralar istifadə olunmuşdur. Tədqiqat üçün turistlərin ən çox gəldiyi (gündüz saatlarında bir saatda 10 nəfərə qədər) və tamamilə gəlmədiyi sahələr seçilmişdir. Alınmış nəticələr göstərdi ki, bir çox heyvan növləri turistlərin gəldiyi sahələri tərk edir və ya həyat tərzini dəyişərək gecə həyat tərzinə keçir (pələnglər, ayılar), daha iri növlər isə (hürən marallar, sumatra kərgədanları) rayondan çıxıb gedirlər. Əksər primatlar, dələlər insanların iştirakına vərdiş alırlar. Bu heyvanların əhliləşdirilməsi üzrə işlər göstərdi ki, onların insanlarla qarşılıqlı münasibəti təkcə əhliləşdirilənlərin özlərinə yox, həm də onların təbii mühitdə olan potensial rəqiblərinə zərər vura bilər. Odur ki, parkın rəhbərliyi tərəfindən insanların iştirakından azad, heyvanlar üçün sığınacaq zonaların ayrılması məqsədi ilə ərazilərin zonalaşdırılmasının aparılması qərarı qəbul edilmişdir. Həmçinin sübut olunmuşdur ki, turizm sumatra kərgədanına qarşı qanunsuz ovla mübarizədə daha səmərəli vasitəyə çevrilmişdir.

Cənubi Asiyada ekoloji və macəra turizminin inkişaf praktikasının xülasəsi əcnəbi ekoturistlərin qəbulu üzrə aparıcı yer tutan ölkələri – Nepal, Hindistan və Pakistanı araşdırmadan natamam olardı.

Bu inkişaf etməkdə olan ölkələrdə ekoturizmin inkişafının öz xüsusiyyətləri vardır. Bir tərəfdən Himalay və Kapakoruma səyahətə artan turist tələbatını elə təmin etmək lazımdır ki, dağlıq ərazilərin sosial-iqtisadi inkişafı maksimum stimullaşdırılsın, digər tərəfdən – nadir dağ ekosistemləri qorunsun. İnkişaf etməkdə olan ölkələrdə ekoturizmin inkişafının əsas tənzimləmə mexanizmi turizm rəsmiyyəti oldu. Əcnəbi ekoturistlərin ölkəyə gəlməsi və orada yaşamasının müəyyən olunmuş və yerinə yetirilən qaydaları turizmin dayanıqlı inkişafı haqqında hökumətin qayğısının əyani nümunəsi xidmətini yerinə yetirir.



Hindistanda beynəlxalq ekoturizmin inkişafına Hindistan dağ fondu tərəfindən nəzarət olunur. Nəzərdə tutulan səyahətə 3 ay qalana qədər əcnəbi ekoturistlərin hər bir qrupu Hindistan Hökumətinə doldurulmuş ərizə forması təqdim etməlidir. Marşrutun keçməsinə, səyahətə icazə həmin ildə dağlıq rayonlara və zirvələrə getmək üçün açıq olan siyahıdakı yerlərə uyğun olaraq verilir. 12 nəfərdən çox olmayan qrup üçün icazə haqqı aşağıdakı miqdarda ödənilməlidir:

- Şərqi Karakorum – 4000 ABŞ dolları;
- daxili rayonlar – 4000 ABŞ dolları;
- Nun-Kun – 3000 ABŞ dolları;
- hündürlüyü 8000 metrdən çox olan zirvəyə qalxma – 8000 ABŞ dolları;
- insan ayağı dəyməmiş yerə getmə – 16 000 ABŞ dolları;
- 7001 metrdən yüksək zirvəyə qalxma – 3000 ABŞ dolları;
- 6501 metrdən 7000 metrə qədər zirvəyə qalxma – 2000 ABŞ dolları;
- 6500 metrdən aşağı olan zirvəyə qalxma – 1500 ABŞ dolları;
- Kançencanqa dağına qalxma – 20 000 ABŞ dolları.

Haqqı ödənilmiş icazə 15 günlük yol müddətinə (mənzil başına və geriyə) əsas düşərgədən getmək (qalxmaq) üçün icazə verilən obyektə qədər verilir. Hər bir ekspedisiyaya çox vaxt hərbçi olan rabitə üzrə zabit ayrılır. Rabitə zabitinin hər şeyi, o cümlədən paltarı və ləvazimatları ekspedisiya hesabına təmin olunur. Ekspedisiyanın ləvazimatları Hindistan dağ fondu

tərəfindən nəzarət yoxlanışından keçirilə bilər. Danışıq qurğularından (ratsiyadan) istifadə üçün ayrıca olaraq lisenziya (xüsusi icazə) almaq lazımdır. Dörd həftəyə «walkil-talkies» tipli 4 stansiyaya bir ekspedisiya ətraf mühitə vura biləcəyi zərərə görə 300 ABŞ dolları miqdarında əvvəlcədən girov qoymalıdır. Adətən, bu məbləğin dörddə biri Himalay ştatına təbiəti mühafizə işlərinə verilir. Xilasedici helikopterin bir uçuşu 6000 ABŞ dolları təşkil edir. Hindistan ərazisində solo-ekspedisiyalar (tənha) qadağandır. Şərqi Karakoruma ekspedisiyaya gedən zaman qrupun tərkibinə mütləq hindistanlı dağa çıxanlar (alpinistlər) daxil olmalıdırlar.

1999-cu ildə ekoturistlərin və dağaçıxanların gəlmələri üçün 198 zirvə kəşf olunmuşdur. Hindistanın ən məşhur rayonları bunlardır: Sikkim, Kumaon, Qorxval, Kulu-Laxul, Padar, Janskar, Ladak. Hər bir rayon turizm rəsmiyyətinə görə özünəməxsus xüsusiyyətlərə malikdir: Sikkimdə səyahət etmək üçün iki rabitəçi zabit lazımdır; Laxul, Ladak və Janskar rayonları musson yağışları dövründə bağlı olur. 1996-cı ildə Hindistan hərbi komandanlığı sərhəddə Pakistanla baş vermiş konfliktə görə Şərqi Karakorum rayonuna gəlmiş turist qruplarını geri qaytarmışdır.

Nepalda beynəlxalq dağ ekoturizminə Turizm və mülki aviasiya üzrə Nazirliyin Dağ bölməsi nəzarət edir. Səyahət üçün icazə Nepal dağ assosiasiyası tərəfindən verilir. Burada zirvəyə qalxma və «dağlıq bölgələrdən keçməklə səyahət zirvəsi», yəni alpinizm və dağ turizmi ayrılmışdır. Zirvəyə qalxmaq üçün icazənin alınması üçün edilən ödənişlərdən gələn vəsaitlər Turizm üzrə nazirliyə daxil olur, trekinqdən (zirvəyə qalxmadan dağa səyahət) gələn gəlirlər isə Nepal dağ assosiasiyasına gedir. Ödənişlər səyahətin başlanmasına 2 ay qalana qədər həyata keçirilir. Qruplar 7 nəfərdən çox olmamalıdır. Qrupların maksimal sayı – 12-ni ötməməlidir.

Səyahətə verilən icazənin qiyməti belədir:



- Everest (Cənub yəhəri vasitəsi ilə) – 70 000 ABŞ dolları;
- Everest (digər marşrutlarla) – 50 000 ABŞ dolları;
- səkkizminliklər – 10000 ABŞ dolları;
- 7501 metrdən 8 000 metrə qədər zirvələr – 4 000 ABŞ dolları;
- 7001 metrdən 7500 metrə qədər – 3 000 ABŞ dolları;
- 6501 metrdən 7000 metrə qədər – 2000 ABŞ dolları;
- 6500 metrdən aşağı – 1500 ABŞ dolları.

Hər bir alpinist ekspedisiyasının və bəzi trekinq marşrutlarının tərkibinə rabitəçi zabit daxil olur. O, paltar və ləvazimatla tam təchiz olunur və qrupun digər iştirakçıları kimi ona da xidmət olunur. Dağlara qalxan turist qrupları yerli əhalidən təşkil olunmuş xidmətçi işçi heyətə malik olmalıdırlar (bələdçi, yükdaşıyan və aşpaz). Peyk rabitə vasitələrindən, ratsiyadan istifadəyə, videoçəkilişlərə xüsusi icazə alınmalı və onun haqqı ödənilməlidir. Kxumbu buzlağı regionu üçün qrup tərəfindən ətraf mühiti qorunması qaydalarına (ov etmənin, bitkilərin, minerallarin yığılmasının, tonqal yandırılmasının və s. qadağan olunması) riayət olunmasından ötrü pul girov qoyulması (təbiəti mühafizə depoziti) vacibdir. Qaydalara riayət olunmasına rabitəçi zabit nəzarət edir. Təbiəti mühafizə üzrə depozitin miqdarı belədir: Everest dağları rayonu – 4000 ABŞ dolları; səkkizminliklər – 3000 ABŞ dolları; yüksəkliyi 8 000 metrə yaxın olan zirvələr – 2000 ABŞ dolları.

«Trekinq zirvələrinə» (onların sayı 18-ə yaxındır) səyahət üçün Nepal dağ assosiasiyasının icazəsi lazımdır. Bu zaman rabitəçi zabit tələb olunmur, lakin sirdarın (yükdaşıyanların başçısı) və ya dağ bələdçisinin mövcudluğu məcburidir. İcazənin qiyməti isə belədir: yüksəkliyi 6 000 metr və daha çox olan zirvələr – 300 ABŞ dolları; 6 000 metrdən aşağı – 150 ABŞ dolları.

İcazə 10 nəfərə qədər olan qrupa bir ay müddətinə verilir. Ekoturistlərin ən məşhur səyahət rayonları bunlardır: Maxalun-qur, Lanqtak, Qaneş, Manaslu, Annapurna, Dxaulaqırı, Nilqiri.

Getmək üçün 1310 zirvədən yalnız 140-ı açıqdır. Nepal hakimiyyəti dövri olaraq bəzi dağ rayonlarını gələnlər üçün bağlayır və digərlərini açır.

Pakistanda dağ turizminə Pakistan Hökumətinin turizm şöbəsi nəzarət edir. Yol bələdçiləri, səyahətin şərtləri və digər məlumatları dünyanın bütün ölkələrində olan Pakistan səfirliklərində almaq olar. 5 nəfərlik qruplar üçün dağ səyahətlərinə icazənin qiyməti belədir:

- K2 zirvəsi (Çoqori) – 9 000 ABŞ dolları;
- yüksəkliyi 8001 metrdən 8500 metrə qədər olan zirvələr – 7500 ABŞ dolları;
- yüksəkliyi 7501 metrdən 8000 metrə qədər olan zirvələr – 3000 ABŞ dolları;
- yüksəkliyi 7001 metrdən 7500 metrə qədər olan zirvələr – 2000 ABŞ dolları;
- yüksəkliyi 6000 metrdən 7000 metrə qədər olan zirvələr – 1200 ABŞ dolları.

Hündürlüyü 6000 metrdən az olan dağlıq rayonlar üzrə tur üçün trekinq icazəsi almaq lazımdır. Həmçinin rabitəçi zabitin iştirakı mütləq zəruridir. Pakistanda rabitəçi zabitlərin böyük bir hissəsi hərbçilərdir. Onlar həmçinin ekspedisiyanın hesabına ləvazimatla, qida məhsulları və onların yerləşdirilməsi ilə təmin olunurlar. Qrupların ekoloji təhlükəsizliyinə tələbat o qədər ciddidir ki, hər bir komanda cərimə formasında 200 ABŞ dolları ödəməyə hazır olmalıdırlar. Həm də nəzərə almaq lazımdır ki, bu qaydalar ekspedisiyanın bütün iştirakçılarına, o cümlədən yükdaşıyanlara da aiddir. Təbiəti mühafizə depoziti 1000 ABŞ dollarıdır. Hər uçuşa görə xilasedici helikopterin qiyməti – 4 000 ABŞ dollarıdır. Yükdaşıyanlar və rabitəçi zabitlər Pakistan Hökumətinə həvalə edilir.

Səyahətin ən məşhur regionları – Karakorum və Hindukuşdur. Lakin sərhəddə baş vermiş konfliktə görə Pakistan hakimiyyəti Baltoro və Skardu buzlaqlarını – dağ marşrutlarının



ən maraqlı rayonlarını bağlamışdır. Bununla belə Beynəlxalq ekoturistlər üçün hələ çoxlu cəlbedici obyektlər – Biafo buzlağı, Nanqa-Parbat zirvəsi, Hindukuş dağları qalmışdır.

Bütün deyilənləri ümumiləşdirərək, dövlətlər tərəfindən müəyyən olunmuş və dağlarda turizmin dayanıqlı inkişafına kömək edən turizm rəsmiyyətinin aşağıdakı xüsusiyyətlərini qısaca ifadə etmək olar:

- səyahət qaydaları sistemi özbaşına (nəzarətsiz) turizmin mümkünlüyünü istisna edir. Hökumətlər tərəfindən təkcə turizm rəsmiyyəti yox, həm də sənədlərin rəsmiləşdirilməsinə və dağ turlarının təşkilinə icazəsi olan turfirmalar qəti müəyyən olunmuşdur. Belə yanaşma ölkəyə gələn beynəlxalq turist axınına nəzarət və idarə etməyə, həmçinin milli bazarı əcnəbi turfirmaların müdaxiləsindən qoruyaraq, yerli turist firmalarını dəstəkləməyə imkan verir;
- hər il səlahiyyətli idarələr turistlərin gəlmələri üçün açıq olan dağ rayonlarının siyahısını xəbər verir. Bu, dağ ekosistemlərinin pozulması nəzərə alınmaqla zəif təbii komplekslərə antropogen yüklənməsi tənzimləməyə imkan verir;
- səyahətə icazənin alınması proseduru turist qrupunun iştirakçıları, vəzifələri və marşrutları ilə kifayət qədər ətraflı tanış olmağa imkan verir. Beləliklə, əcnəbi turistlərin davranışına adbaad nəzarət həyata keçirilir. Komanda tərəfindən qüvvədə olan qaydalar pozulduğu halda, onlara sonrakı icazələrin verilməsindən imtina oluna bilər;
- rabitəçi zabitlər, bələdçilər və yükdaşıyanlar institutu dağ rayonlarının əhalisi üçün yeni iş yerləri yaradır, marşrutlarda ekoturist qruplarının hərəkətinə və davranışına nəzarət etməyə imkan verir;
- təbiəti mühafizə depozitləri sistemi milli ekoloji qanunvericiliyə riayət etməyə görə turist qruplarının məsuliyyətinin bütövlüyünü təmin edir;

- dağ ekoturizminin inkişafı milli dağ assosiasiyaları və fondları ilə təmasda aparılır. Bu dağ regionlarının sosial-iqtisadi inkişafına diqqəti artırmaqla, onların maraqlarını nəzərə alaraq turizm idarələrinin işini qurmağa imkan verir.

**Yoxlama sualları və tapşırıqlar**

1. ABŞ-da Xüsusi Mühafizə olunan Təbiət Əraziləri sistemini təsvir edin. Amerikanın əsas milli parklarının adlarını çəkin.
2. Afrikada ekoturizmin inkişaf problemlərini sadalayın.
3. Ov turizmini (safari) ekoturizmə aid etmək olarmı? Cavabı əsaslandırın.
4. Pakistan, Nepal və Hindistanda ekoturizmin inkişafı üzrə dövlət tədbirlərinin adlarını çəkin və onları xarakterizə edin.



# Doqquzuncu fəsil

# Qərbi Qafqazın Dağlıq rayonlarında ekoturizmin inkişafı

## 9.1. Qərbi Qafqaz dağlıq turizm rayonlarının ayrılması və təsnifatı

Turizmin ərazi inkişafının istənilən araşdırılmasının əsas tərkib hissəsi turizm rayonlaşmasıdır.

Turizm rayonu – turist tələbatı ilə formalaşdırılmış, turizm sənayesinin inkişaf dərəcəsinə lazım olan turizm ehtiyatları, şəraitinə malik olan və digər rayonlardan turizmin müəyyən növü üzrə ixtisaslaşmasında fərqlənən ərazidir.

Turizmin inkişaf şəraitinə malik olan (lakin turizm ehtiyatlarına malik olmayan) və turizm fəaliyyətinə cəlb olunmayan (turist tələbatı ilə əhatə olunmamış) rayonlar potensial turizm rayonları adlandırılır.

Potensial turizm rayonlarından xüsusi turizm rayonlarının formalaşdırılması və inkişafı aşağıdakı proseslər nəticəsində mümkündür:

- turizm xidmətində turistlərin müvafiq ərazi ehtiyatlarına tələbatın yüksək artımı;
- turizm sahəsində əməyin ərazi bölgüsünün dərinləşməsi;
- iqtisadi cəhətdən geri qalmış dağlıq ərazilərin inkişafına beynəlxalq turizmin təsirinin aktivləşməsi.

Turizmin inkişafı rayonlarının formalaşdırılması çox vaxt «mərkəzi yerin» müştərək tabeliyinin təsiri altında baş verir ki, bu zaman həmin rolda turistlərin gəlməsi və getməsini (aeroportlar və ya hava limanları), turizmin inkişafının inzibati-idarəetmə funksiyalarını, turizm rayonlarının ticarət-bölüşdürücü və ərzaq təchizatını təmin edən yaşayış məntəqələri çıxış edir.

Turizm rayonunun aşkar olunmasının əsas göstəricisi kimi əməyin ümumi ərazi bölgüsündə turizmin ərazi ixtisaslaşması səviyyəsi xidmət edir. Bu isə öz növbəsində aşağıdakılarla müəyyən olunur: belə ərazilərin yaradılmasında turizm sənayesinin payı; iqtisadi aktiv əhalidən turizm xidməti ilə məşğul olanların miqdarı (turizm sənayesinə yaxın və qarışıq sahələrdə məşğul olanlar nəzərə alınmaqla)..

Rekreasiya rayonlarının sistemi əsasında formalaşdırılmış turizm rayonlarının müasir taksonomik sisteminə uyğun olaraq əksər MDB ölkələrində turizm məntəqəsi (obyekt, müəssisə), turizm mikrorayonu, turizm mezorayonu, turizm makrorayonu və turizm zonası kimi taksonomik vahidlər ayırırlar.

Turizm rayonu adına daxil olan aşağıdakı əlamətlər mövcuddur:

- rayonun formalaşmağa başladığı vaxt, onun inkişafının tarixi xüsusiyyətləri;
- turistlər üçün daha çox attraktiv (ən yüksək qiymətə malik olan) turizm ehtiyatları;
- turizm sənayesinin inkişaf səviyyəsi;
- turizm ixtisaslaşması.

Turizm rayonunun formalaşmağa başladığı vaxt əraziyə turistlərin gəlməsi haqqında ilkin xatırlamaların tarixi üzrə müəyyən olunur:

1) «Keçmiş» adlanan (XIX əsrə qədər) qədim turizm mənimsənilməsi rayonları;
2) yeni mənimsənilən (XIX əsr – XX əsrin əvvəli) rayonlar, «yeni» rayonlar;
3) ən yeni mənimsənilən (XX əsrin II yarısı) rayonlar, «ən yeni» rayonlar;
4) «formalaşan» – son illər turizm mənimsənilməsi rayonları.

Turizm ixtisaslaşmasına və ən attraktiv turizm ehtiyatlarının əlamətlərinə görə adlar elmi ədəbiyyatda sabitləşmiş turizm və ehtiyat növlərinin adlarına görə verilir. Turizm ixtisaslaşmasının



təsvirində həmçinin turizmin səviyyəsini də (beynəlxalq – daxili-milli; səyyar) göstərmək lazımdır.

Turizm sənayesi rayonları inkişaf səviyyəsinə görə aşağıdakı kimi olur:

1) yüksək inkişaf etmiş – yüksək inkişaflı sənaye ilə (xidmətlər dünya standartlarına uyğun gəlir);
2) orta inkişaf etmiş – orta inkişaflı sənaye ilə (milli standartlara uyğun);
3) aşağı inkişaflı – aşağı inkişaflı sənaye ilə (yerli standartlara və regionlar daxili turizm tələbatına uyğun gəlir).

Qərbi Qafqazın dağlıq ərazisi Rusiya Federasiyasının turizm rayonlaşmasına müvafiq olaraq MDB-nin Dağlıq Qafqaz turizm makrorayonu olaraq birinci turizm zonasına aiddir.

## 9.2. Krasnodar diyarının dağlıq turizm rayonlarında ekoturizmin inkişaf şəraiti və ehtiyatları

### 9.2.1. Krasnodar turizm mezorayonu

Krasnodar turizm mezorayonu – diyarın ən qərbdə yerləşən, alçaq dağlıq və sahəsinə görə ən böyük (7350 $km^2$) turizm rayonudur. Şimaldan və qərbdən diyarın sərhədləri dağlıq və dağətəyi təbii sərhədlərlə uyğun gəlir. Cənubdan rayon Qara dəniz sahillərində ərazi-rekreasiya sistemləri ilə, Novorossiysk şəhəri ilə, Gəlincik, Tuapse kurortları ilə həmsərhəddir. Burada sərhəd Krasnodar diyarı hüdudlarında Böyük Qafqaz sıra dağlarının cənub yamaclarında Kolxidayanı hissənin başladığı izogips üzrə 500 metrdən keçir. Qeyd edək ki, eyni hündürlüyə malik olan nöqtələri birləşdirən qapalı əyri xətlərə horizontallar və ya izogipslər deyilir. Onlar bir-biri ilə kəsişmir və bir-birinə yaxın olduqda dik yamacı, uzaq olduqda isə maili yamacı göstərir. Ərazinin Qozyaçiy Klyuç – Tuapse dəmir yoluna birləşən şərq sərhədi inzibati əlamətlərə görə yox (Tuapse və

Abşeron rayonlarının sərhədi), formalaşmış turist axınlarının istiqaməti nəzərə alınmaqla ayrılmışdır.

Krasnodar şəhəri özü bu rayonun tərkibinə daxil deyildir. Lakin, rayonun daxili turist axınlarının formalaşmasında («xinterland», «mərkəzi yer») onun böyük rolunu nəzərə almaqla, turistlərin oradan əraziyə keçməsi rayonu onun adı ilə adlandırmağa imkan verir. Ona görə də regional turizm ədəbiyyatında bu ad artıq təsdiqlənmişdir.

İnzibati-ərazi münasibətində ora Severski, Abinski rayonlarının və Qoryaçeklyuçevsk şəhər sovetinin torpaqları daxildir.

Rayon həm təbii-tarixi yerlər, elmi və macəra turizmi üzrə turların təşkili üçün, həm də sanatoriya-kurort müalicəsi üçün (Psekupsk yatağının mineral suları) zəngin turizm ehtiyatlarına malikdir. Turizm burada regional iqtisadiyyatın digər sahələri ilə: meşə, dağ-mədən sənayesi, kənd təsərrüfatı və s. bərabər inkişaf etdirilməlidir. Formalaşmış turizm axınını, ərazinin potensialını, Xüsusi Mühafizə olunan Təbii Ərazilərin Sayının azlığını, sosial turizmin təşkilində yerli turizm ehtiyatlarının istifadə təcrübəsini nəzərə alaraq Krasnodar rayonunun gələcək inkişafını rusiyalı dağ ekoturistlərinin (daxili turizm) və dağ özfəaliyyət və sosial turizmin inkişaf yeri kimi cəlb olunmasına yönəltmək lazımdır.

Texnoloji təbii turizm ehtiyatları trekinq turizmini (dağ vadiləri ilə Qara dənizə yürüş), təlim və idman qayaya dırmanma (Plançes qayaları, Monastır qayaları, İndyuk qayalıq massivi, Yeni qayalıqlar), speloturizm – mağara turizmi (Fanaqoriysk mağarası, Boqatırsk mağarası və s.), kanoninq (Dvubratski Kanyon, Beşenki çayı Kanyonu) turizmini inkişaf etdirməyə imkan verir. Avtomobil və dəmiryol xətlərinin mümkünlüyü, dağ velosipedləri, atlarla səyahətin inkişaf etmiş şəbəkəsi rayonun qısamüddətli həftəlik məzuniyyət siklində ixtisaslaşmasını müəyyən etdi.



Dayanıqlı qar örtüyü rayonun yalnız şərq hissəsində əmələ gəlir və il ərzində 20 gündən çox qalmır, onun orta maksimal qalınlığı 50 sm-i keçmir. Odur ki, xizək və dağ xizəyi turizminin inkişaflı rayonda hələlik problem olaraq qalır. Halbuki, Lesey dağında tərkibində iki turbazanın, 2 km-ə yaxın uzunluqda yolun və buqel qaldırıcıların olduğu dağ xizək kompleksi fəaliyyət göstərir.

Rayonun aşağı dağlıq xarakterli relyefi ilə şərtlənmiş fizioloji təbii şərait turizmin yuxarıda qeyd olunan növləri üçün əlverişlidir. Orta temperatur iyulda +22$^0$C, yanvarda 0$^0$C olur. Yağıntıların orta illik miqdarı – 1600 mm-ə qədər olur.

Mənzərələrin psixoloji-estetik qiyməti nadir ağac qrupları ilə kolluqların az meylli meşəsiz yamacların uzlaşmasında qarışıq və palıd meşələri ilə təyin edilir. Krasnodar diyarının təbiət abidələri kimi nadir təbiət obyektlərinin ümumi miqdarı 20-dən çox deyildir. Rayonun ərazisində Qoryaçeklyuçevski dövlət yasaqlığı yerləşmişdir.

Rayonun əlverişli mövqeyi və onun diyarın iri şəhərlərinə yaxınlığı uşaq ekoloji turların təşkili üçün çox rahatdır. Bura həmçinin turistlərin və alpinistlərin gəlməsi üçün çox əlverişlidir.

Rayon dağlıq şəraitdə sanatoriya-kurort müalicəsinin təşkili üçün böyük imkanlara malikdir. Bu nəinki məşhur Qoryaçiy Klyuç kurortu, həm də az tanınmış müalicə yerləridir: Sosnovaya Roşa qəsəbəsi, Şapsuqski stansiyası, Zaporojski mineral mənbələri. Bu yerlərin təbiətinin müalicəvi xassəsi hələ qədim adıgeylərə məlum idi. Burada XX əsrin əvvəllərində artıq zamanın odundan-alovundan dağılmış və unudulmuş, iqlim və balneoloji (mədən suları və palçıqlarının kimyəvi tərkibindən istifadə etməklə müalicə üsulları) dağ kurortları fəaliyyət göstərirdi. Göstərilən xüsusiyyətlər araşdırılan ərazinin sosial turizmin təşkili, əhalinin sosial cəhətdən zəif müdafiə olunan

təbəqələrinin yerli kurortlarda sağlamlaşdırılması üçün qiymətli olduğunu bir daha təsdiq edir.

Qoryaçiy Klyuç balneoloji kurortunun əsas mineral-xammal bazası ən qədiminin hələ 1928-ci ildə qazıldığı, səkkiz buruq quyusunda işlənib hazırlanan Psekupsk hidrokarbonat-xlorid-natrium və yod-brom mineral su yatağıdır. Buruq quyusundan çıxan suyun faktiki olaraq 1,3 %-dən 85 %-ə qədəri istifadə olunur.

Beləliklə, rayonu daxili ekoturizmə və sanatoriya-kurort müalicəsinə ixtisaslaşmaqla yeni, orta inkişaflı kimi müəyyən etmək olar.

Mezorayonun tərkibində aşağıda adları çəkilən turizm mikrorayonlarını (turizm məntəqələrini) ayırmaq olar: Psekupskiy (Qoryaçiy Klyuç ş.), Çilipçinskiy (Çinarı, Çilipsi), Afipsinskiy (Smolenskaya, Stavropolskaya, Ubinskaya), Pşadskiy (Pşada, Novosadovıy).

### 9.2.2. Abşeron turizm mezorayonu

Bu ərazi Böyük Qafqaz sıra dağlarının şimal makroyamacları hüdudlarında dağlıq Kubanın milli turizm üçün ən attraktiv hissəsidir. O, qərbdə Krasnodar turizm mezorayonu ilə, şərqdə Maykop turizm mezorayonu ilə (Adıgey respublikası) qonşudur. Təbii cənub sərhədi kimi Böyük Qafqaz dağ silsiləsi, Şimalda isə – Böyük Qafqaz dağətəyi çıxış edir. Rayonun sahəsi – 2756 $km^2$-dur. Ən yüksək nöqtəsi – Şessi dağıdır (1839 m). Burada dağlıq Kubanın təbiət abidələrinin xeyli hissəsi yerləşir. Rayon üçün landşaftların yüksək dərəcədə estetik cazibədarlığı, dağ macəra turizminin təşkili, sanatoriya-kurort müalicəsi üçün yaxşı texnoloji şərait xarakterikdir.

Texnoloji olaraq təbii turizm ehtiyatları Pşexa çayı axını ilə dağ vadiləri və dərələri üzrə radial marşrutlar və dağlar vasitəsi ilə Qara dənizə trekkinq turları; dağaçıxma və qayaya dırmanma (Sobor-qaya, Serebryaçki çayı qaya massivi, Şpyaşiy Çerkes qayası), speleoturizm (Çernoqorye yaylası mağarası, İsiçenko mağarası, dağlıq Laqonaki mağarası), kanoninq (Quamski dərəsi, Volçi vorota dərəsi, Kurcips, Xaxopse, Qoqopse çayı kanyonları və s.) turlarını inkişaf etdirməyə imkan verir.



Burada dayanıqlı qar örtüyü (orta maksimal qalınlıq – 200 sm-ə qədər) formalaşır, lakin dağ yamaclarının meşəsiz sahələri kommunikasiya vasitələrinin yerləşdirilməsi və qurulması, qaldırıcı qurğuların tikintisi üçün çox çətindir. Odur ki, rayon «yoldan kənar» (backountry) xizək və dağ xizək gəzintisi adlanan turizmin inkişafı üçün yaxşıdır.

Fizioloji aspektdə rayon həmçinin qeyd olunan turizm növləri üçün və onların inkişafından ötrü çox yaxşıdır. Alçaq dağlıq və orta dağlıq xarakterli ərazilərdə kəskin hava şəraiti nəticəsində təhlükəli vəziyyətlərin yaranması ehtimalı çox az olur. Burada orta temperatur yanvar ayında $-2^0$C, iyul ayında $+18^0$C olur. Orta illik yağıntıların miqdarı – 1600 mm-ə qədərdir.

Bütün bunlar rayonu böyük turizm ehtiyatlarına malik olan ərazilər kimi xarakterizə etməyə imkan verir.

Hazırda rayonun sosial-iqtisadi inkişafı çox da yaxşı deyil: əhalinin müxtəlif yerlərdə sakin edilməsinin dağlıq şəbəkəsinin həmişə ixtisar olunması, çoxlu sayda dağlıq yaşayış məntəqələrinin yoxa çıxması buna əyani sübutdur. İxtisaslaşma sahəsi kimi meşə və ağac emalı sənayesini göstərmək olar. Abşeron meşə sənayesi təsərrüfatı tədarük olunan ağacın miqdarına görə diyarın qabaqcıl müəssisələrindəndir. Lakin, ağac tədarükü həcminin azalması, ağır iqtisadi vəziyyət dağ yaşayış məntəqələrinin sosial infrastrukturunu əvvəlki səviyyədə saxlamağa artıq imkan vermir. Bu isə əhalinin düzən yerlərə, şəhərlərə axınına, dağların adamsız qalmasına səbəb olur. Bu xoşagəlməz prosesi dayandırmaq, dünya təcrübəsinin göstərdiyi kimi sözün əsl mənasında rayonun iqtisadi inkişafının aparıcı sahəsinə çevrilməli olan dağ ekoturizminin inkişafının köməyi ilə mümkündür.

Abşeron, Xadıjen sanatoriyaları əsəb sisteminin, dayaq-hərəkət aparatının, ginekoloji xəstəliklərin müalicələri üzrə ixtisaslaşdırılırlar.

Bütün yuxarıda qeyd olunanlar rayonu sanatoriya-kurort müalicəsi, daxili elmi və macəra turizmində ən yeni zəif inkişaf etmiş ixtisaslaşması olan kimi təyin etməyə imkan verir.

Turizm mənimsənilməsi dərəcəsinə görə rayonu iki mikrorayona bölmək olar: Çernoqorsko-Otdalennıy və eyni adlı rekreasiya məntəqəli Quamo-Mezmayskiy.

Sonuncu mikrorayon dağlıq Laqonaki vasitəsi ilə Fişt-Oşten massivinə və ordan da Qara dənizə gedən turist qruplarının yolunun üstündədir. O yerlər regionda və ölkədə kifayət qədər məşhurdur. Onun məşhurluğu ölkənin ali təhsil müəssisələrinin təbiət-elmləri fakültələrinin yay elmi-tədqiqat praktikalarının təcrübə meydanının – poliqonunun burada yaradılmasına səbəb olmuşdur. Aparılmış elmi işlərin nəticələri nəşr olunub elmi ictimaiyyət arasında yayılır ki, bu da rayonun nadir və attraktiv təbii obyektləri olan ərazi kimi imicinə pozitiv təsir edir. Öz növbəsində Böyük Qafqaz sıra dağlarına birləşən ərazilərdə olan dağlıq xüsusi mühafizə olunan təbiət ərazilərinə turizmin güclənən antropogen təsiri bu yerlərin təbiətində neqativ əks olunur. Turizmin inkişaf proseslərinin sürətləndiyi bu zonada turist axınlarının hərəkətinin istiqamətini və intensivliyini tənzimləməyin zəruriliyi göz qabağındadır.

Çerniqovsko-Otdalennıy mikrorayonu turistlər üçün ekzotik təbiət obyektlərinin və təbiət abidələrinin miqdarına görə Quamo-Mezmaysk mikrorayonundan azacıq geri qalsa da, böyük turizm ehtiyatlarına malikdir. Lakin ora bir neçə səbəbə görə praktiki olaraq turist qrupları gəlmirlər: birincisi, diyarın, xüsusən də ölkənin turistləri arasında bu yerlərin az tanınması; ikincisi, burada avtomobil yolları infrastrukturunun inkişaf etməməsi. Volçi vorota dərəsi Pşexa çayının orta hissələrində çayın vadisinə girişi bağlayır. Odur ki, praktiki olaraq turist



qrupları üçün yeganə nəqliyyat yolu dərədən keçən ensiz relsli Abşeron meşə sənayesi təsərrüfatı dəmir yoludur. Beləliklə, Abşeron turizm rayonunda turizmin inkişafını idarə edərkən mikrorayonlar arasında turist axınının yenidən bölüşdürülməsini həyata keçirmək məqsədəuyğun görünür.

### 9.2.3. Soçi turizm mezorayonu

Rayonun sərhədləri Soçi Federal kurortu inzibati ərazi hüdudları ilə üst-üstə düşür. O, qərbdə Tuapse turizm mezorayonu, şimalda Abşeron və Maykop mezorayonu, cənub-şərqdə isə Abxaziya ilə həmsərhəddir. Rayonun uzunluğu Şepsi çayından sərhəd Psou çayına qədər – 146 km-dir. Ümumi sahəsi – 350602 ha-dır. Rayonun turizm mənimsənilməsi XX əsrin əvvəllərində (1902-ci il) başlamışdır.

Texnoloji olaraq rayonun ərazisində turizm fəaliyyəti növlərinin həddən çox geniş spektri, o cümlədən beynəlxalq turizm, sanatoriya-kurort müalicəsi mümkündür. Burada turizmin aşağıdakı növləri daha çox yayılmışdır: çimərlik, ekoloji (macəra, elmi, təbii tarixi yerlər üzrə turlar, təbii rezervatlara səyahət), ekskursiya, festival, idman turizmi, aeroterapiya, balneomüalicə (mədən sularının, palçığın, dəniz suyunun müalicə üçün tətbiqi), helioterapiya (günəş işığının təsiri ilə müalicə), talassoterapiya.

Rayon orta müddətli və uzunmüddətli məzuniyyət siklində ixtisaslaşır. Burada bütün istirahət edənlərin 70 %-dən çoxu öz məzuniyyətlərinin 10 gündən çoxunu həmin yerdə keçirirlər. Kuban və Adıgeyin qalan turizm rayonlarından fərqli olaraq ora qısamüddətli (həftə sonu) siklərin reallaşması üçün demək olar ki, istifadə olunmur. İstirahət edənlərin əksər hissəsi Rusiyanın Mərkəzi rayonlarından (20 %-dən çox), Sibir və Uraldaq (18%-dən çox) gəlir.

Rayonun ərazisinin çox böyük hissəsi dağlıq olsa da, dənizkənarı hissə turistləri daha çox cəlb edir və burada istirahətə gələnlərin 90 %-dən çoxu dincəlir.

Texnoloji cəhətdən burada dağ turizminin praktiki olaraq bütün növlərinin inkişafı mümkündür: trekkinq və piyada ekskursiyalar (hər yerdə); qayaya dırmanma (Orlinnıy qayaları); alpinizm və dağaçıxma (Fişt şəhəri Kardıvaç gölü rayonu); speleoturizm (Alek dağ silsiləsi); kayakinq və raftinq (Mzımta çayı); Kanoninq (Mzımta çayının axınları); cippinq (Krasnaya polyana qəsəbəsi); mauntlayk (Krasnaya polyana qəsəbəsi); idman yönümlü (Bıtxa meşəpark rayonu). Rayonda axtarış-xilasetmə işləri, turizm, mauntbayk, kayakinq üzrə milli yarışlar keçirilir.

Dayanıqlı qar örtüyü ilin təqribən 3 ayı ərimir. Məlum olduğu kimi Açişxo şəhəri Rusiya Federasiyasının ən «rütubətli» yerlərindən (ildə 3200 mm yağıntı düşür) biridir, odur ki, onun aşağı hissəsində, Krasnaya polyana qəsəbəsində dağ xizək kompleksi inkişaf etdirilir. Burada dağ xizək turizminin bütün növləri təmsil olunur: müxtəlif mürəkkəblikli vəziyyətdə hazırlanmış yolla gəzinti, yoldan kənar yerlərdə gəzinti, vertolyotla dağın zirvəsinə qaldırıldıqdan sonra oradan enmə, qarda yeriyən maşınlarla gəzinti və s. Həmçinin dörd növbəli kanat yollar fəaliyyət göstərir. Turizm infrastrukturunun inkişaf səviyyəsi kifayət dərəcədə yüksəkdir.

Rayonun nəqliyyat üçün əlverişliliyi ölkədə ən yaxşı vəziyyətdədir. Bütün turizm obyektləri Adler şəhərinin hava limanından, Soçi şəhərinin dəniz yolu, dəniz və avtovağzalından avtomobil nəqliyyatı ilə iki saatlıq məsafədə yerləşir.

Kurort dəri, ginekoloji xəstəliklər, dayaq-hərəkət aparatı, əsəb sistemi, tənəffüs, qan dövranı orqanlarının müalicəsi üzrə ixtisaslaşır. Əksər sanatoriyalarda adler çöküntü palçığı ilə müalicə təklif olunur.



Gözəl iqlimi və inkişaf etmiş turizm sənayesi sayəsində rayon rusiyalı idmançıların (futbolçular, velosipedçilər, yüngül atletlər, qayaya dırmananlar, dağ turistləri və s.) mövsüm qabağı hazırlığı və yarışlara hazırlaşdığı mərkəzə çevrilmişdir.

Rayonda istirahət müəssisələrinin ümumi sayı – 135-dir. Bu göstəriciyə görə diyarda Tuapse rayonundan sonra ikinci yeri tutur. Turist tutumu 51553 yer olub, həmin göstəriciyə görə diyarda birinci yerdədir. Belə ki, bu rəqəm Tuapsedən 1,5 dəfə, Federal kurort olan Anapada 2 dəfə çoxdur. İstirahət müəssisələri əsasən sanatoriyalar (51) olub, tutumu 19 191 yerdir.

Bundan sonra pansionatlar və istirahət bazaları gəlir. 2000-ci ilin məlumatına görə orta turist gəlmələri 47 % təşkil etmişdir ki, bu da diyarda 5-ci yer deməkdir.

Bütün bunlar imkan verir ki, rayon daxili və beynəlxalq ekoloji, çimərlik, festival, idman turizmində və sanatoriya-kurort müalicəsində yeni yüksək inkişaflı ixtisaslaşmış kimi təyin olunsun.

Mezorayonun tərkibində aşağıdakı turizm mikrorayonlarını və kurortları ayırmaq olar: Lazarevskiy, Daqomısskiy, Adlerskiy və Krasnopolyanskiy.

### 9.2.4. Psebaysk potensial-turizm mezorayonu

Turizmin inkişafı üçün lazım olan şəraitə malik olan ərazilərin potensial-turizm rayonları adlandırılmasını nəzərə alaraq Psebaysk potensial-turizm rayonu ayrılmışdır. Bir sıra səbəblər üzündən burada turizm özünə geniş inkişaf tapa bilməmişdir: nəqliyyat cəhətdən əlverişsiz olması, böyük şəhərlərdən və nəqliyyat magistrallarından uzaq olması, sərhəd vəziyyəti, turizm infrastrukturunun olmaması, ərazinin az öyrənilməsi və az tanınması. Odur ki, əvvəlcə turizmin inkişafı üçün lazım olan təbii şəraitinin xarakteri üzərində dayanaq.

Rayon cənubda Soçi turizm mezorayonu ilə, qərbdə Maykop turizm mezorayonu ilə və şərqdə Qaraçay-Çerkez respublikası ilə həmsərhəddir.

Relyefin orta dağlıq və yüksək dağlıq xarakterli olması dağa çıxmanın inkişafı üçün çox yaxşıdır. Burada Krasnodar diyarının ən yüksək nöqtəsi olan Tsaxvoa dağı (3345,9 m) və bir sıra digər hündürlüyü 3000 metrdən yüksək olan dağlar yerləşmişdir. Rayonda hündürlüyü 2765 metrdən 2995 metrə qədər olan özfəaliyyətlə məşğul olan turistlərin kateqoriyalaşdırdığı beş aşırım var (birinci «A»-dan birinci «B» kateqoriya mürəkkəbliyinə qədər). O cümlədən Krasnodar diyarının ən yüksək aşırımı olan – Krasnıy oqon (birinci «B» mürəkkəblik kateqoriyası, 2995 m) burada yerləşir.

Ən çox buzlaşma 22 km uzunluğa malik olan Tsaxvoa dağ silsiləsi rayonunda (Tsaxvoa buzlağı) inkişaf etmişdir. Dağ silsiləsinin yamacları çox sıldırım, bəzi yerlərdə dik, dərin kanyonlara parçalanmış haldadır.

Rayonda öz mənbəyini Tsaxvoa, Bezımyannaya və Malaya Jaba çaylarının götürdüyü çoxlu dağ gölləri var.

Burada həmçinin şərq hissəsi Qaraçay-Çerkez respublikasına gedib çıxan Maqişo-Centu dağ qovşağı yerləşmişdir. Maqişo dağının ən yüksək nöqtəsi – 3160 metrdir. Bolşaya Jaba çayı və Psebay qəsəbəsi tərəfdən rayonun bu hissəsi Tsaxvoa dağ silsiləsinə nisbətən daha əlverişlidir. Umpır və Maqişo aşırımlarından heyvanların keçməsi və turistlər üçün cığırlar vardır.

Beləliklə, burada dağ turizminin, alpinizmin və elmi turizmin inkişafı üçün yaxşı texnoloji şəraitin mövcudluğunu ehtimal etmək olar. Rayon demək olar ki, tamamilə Qafqaz dövlət təbiət biosfer qoruğunun (QDTBQ) tərkibinə daxildir. Odur ki, burada ekoloji turizmin inkişafı üçün ilkin şərait vardır.

Turizmin inkişafı üçün fizioloji şəraitin mövcudluğu da hələlik az məlumdur. İyul ayının orta temperaturu $+14^0$C, yanvar ayınınkı isə $-4^0$C-dir. Orta illik yağıntıların miqdarı – 3200 mm-ə qədərdir. Qar örtüyünün orta maksimal yüksəkliyi – 300 sm-ə qədər və daha yüksəkdir.



Burada dağ yerlərində bitən gözəl çiçəkli bitkisi olan radodendronun da olduğu alp və subalp çəmənlikləri üstünlük təşkil edir. Odur ki, belə bir mənzərənin turistlər və ekspertlər tərəfindən yüksək psixoloji-estetik qiymətləndirilməsini gözləmək olar.

### 9.3. Adıgey Respublikasının Maykop turizm mezorayonunda ekoturizmin inkişaf ehtiyatları və şəraiti

Maykop turizm mezorayonu Adıgey Respublikasının eyni adlı inzibati rayonunun hüdudlarında yerləşmişdir. Onun sahəsi - 2800 km$^2$-dır. Rayon zəngin turizm ehtiyatlarına malikdir. Ən yüksək nöqtə – Adıgey Respublikasının ən yüksək dağı olan – Çuquşdur (3238,2 m). Rayonun cənub-qərbində Qafqazın ən qərbdə olan buzlaq zirvəsi Fişt dağı (2867 m) yerləşmişdir. Rayon qərbdə Abşeron turizm mezorayonu, cənubda Soçi və şərqdə Psebaysk potensial-turizm rayonu ilə həmsərhəddir. Rayonun ərazisində rusiyalı turistlərə yaxşı məlum olan nadir təbiət obyektləri – Laqonaki yaylası, Bolşaya Azişskaya mağarası, Fişt-Oşten massivi və digərləri yerləşmişdir. Rayonun şərq hissəsi Qafqaz dövlət təbii biosfer qoruğunun və «Bolşoy Txaç» təbii parkının tərkibinə daxildir. Laqonaki yaylası və Qafqaz dövlət təbii biosfer qoruğunun qalan əraziləri ilə birlikdə bu təbiət obyektləri «Qərbi Qafqaz» adı altında YUNESKO-nun Ümumdünya Təbiət Abidələri Siyahısına daxil olmuşdur. Bu təkcə respublikanın yox, həm də Rusiya Federasiyasının ən məşhur müasir dağlıq turizm rayonlarından biridir.

Bu yerlərin turizm mənimsənilməsi XX əsrin 30-cu illərində başlamışdır. İlk «planlı» adlanan, yəni mütəşəkkil təşkil olunmuş turistlər üçün Quzeripl – Krasnoya Polyana – Soçi marşrutu 1936-cı ildə açılmışdır. 1956-cı ildə Laqonaki-Fişt-

Soçi, 1985-ci ildə Quzeripl-Laqonaki-Maykop, 1988-ci ildə isə Quzeyripl-Laqonaki-Soçi marşrutları işləməyə başlamışdır.

Keçən əsrin 80-ci illərində rayona 8500-ə yaxın təşkil olunmuş və təqribən 3000 özbaşına turistlər gəlmişdir. «Laqonaki» turist bazası hər il iki minə yaxın adama orta hesabla hər gün 80 nəfər yeni turist olmuş və bir o qədər də oranı tərk etmişdir.

Regionun alpinist mənimsənilməsinin pik vaxtı da həmin dövrə düşür. Krasnodar alpinistləri tərəfindən Fişt dağlarına mürəkkəbliyinə görə birinci «B» kateqoriyasından beşinci «A» kateqoriyasına qədər dörd marşrut salınmışdır. Fişt və Oşten zirvələrinə ilk dəfə qalxmış insanlardan biri olan rus botaniki N.M.Albov, bu barədə öz əsərlərini 1884-cü ildə nəşr etdirən zaman qeyd etmişdir. 1888-ci ildə rus naturalisti N.İ.Kuznetsov Rusiya coğrafiyaçıları cəmiyyətinin tapşırığı ilə rayonda geobotaniki müşahidələr aparan zaman Oşten zirvəsinə qalxmışdır.

Artıq 1985-ci ildə Quzeripl qəsəbəsindən Fişt-Oşten massivinə V.V.Litvinovun rəhbərliyi altında xizəklə ilk qış keçidi baş tutmuşdur. 80-ci illərin ortalarında burada (Abadzeş dağı yamaclarında) dağ xizək idmanı üzrə SSRİ yığma komandasının müvəqqəti hazırlıq bazası mövcud olmuşdur.

Rayonun ixtisaslaşmış mağaraları siyahısında 21 boşluğun adı çəkilir. Bu təqribən Qafqazın ixtisaslaşmış mağaralarının onda biridir.

1981-ci ilin avqustunda Abadzeş-Murzikao massivində deltaplaner idmanı üzrə birinci RSFSR çempionatı olmuşdur. S.P.Lozovoqun verdiyi məlumata görə Krasnodar diyarının turizm təşkilatlarının onda səkkiz hissəsi Laqonaki yaylasının turizm ehtiyatları isə istehsalat münasibətləri ilə bağlı olmuşdur.

Rayonun təbiətinin nadir olduğunu Federasiya subyektinin ümumi sahəsinə nisbətən xüsusi mühafizə olunan təbiət əraziləri sahəsinin göstəricisinin Rusiyada ən yüksək olması – 30 % (250,6 min ha), və ya Maykop inzibati rayonun ərazisinin 67 %-nin olması da təsdiq edir. Qafqaz dövlət təbii biosfer qoruğu ilə



yanaşı burada aşağıdakı xüsusi mühafizə olunan təbiət əraziləri yaradılmışdır: «Fişt» ekoloji-turizm ərazisi (200 min ha); təbiət abidələri – «Buynıy dağ silsiləsi» (1480 ha), «Tsitse, Pşexa və Pşexaşxa çaylarının yuxarı axarı» (7689 ha), «Bolşoy Txaç» təbiət parkı (3700 ha). Artıq qeyd etdiyimiz kimi 1999-cu ildə bu park və təbiət abidələri YUNESKO-nun Ümumdünya Təbiət Abidələri Siyahısına daxil edilmişdir. Praktiki olaraq bütün bu qurumlar nadir təbiət obyektlərinin qorunması və turizmin inkişafını öz qarşılarına məqsəd qoymuşlar.

Ekoloji turizmin inkişafının əsas ilkin şərti kimi xüsusən böyük biomüxtəlifliyi ilə fərqlənən Laqonaksk yaylasıdır. Yaylanın florasında 600 bitki növü vardır ki, bunlardan 23 növ (3,9 %) yerli endemik bitki olub, dünyada yalnız bu ərazidə rast gəlinir, 44 növ subendemik olub, yalnız Qərbi Qafqazda rast gəlinir və 35 növ Böyük Qafqaz sıra dağlarının endemik bitkiləridir. Yaylanın endemik növlərinin öyrənilməsi hələ tam başa çatmayıb. Odur ki, bu məlumatlara yeniləri əlavə oluna bilər. Bundan savayı Böyük Qafqaz sıra dağları və Kolxida dağlarında növlərin miqrasiya yollarının kəsişməsi baş verir ki, bu subalp və yüksək otlaq fitosenozlarında hibridogen növəmələgəlməsi prosesləri gedir. Odur ki, burada yeni bitki növlərinin meydana çıxmasını gözləmək olar.

Təsadüfü deyildir ki, ölkənin ali təhsil müəssisələrinin (Kuban, Rostov, Voronej, Moskva dövlət universitetlərinin) elmi-tədqiqat ekspedisiyalarının baza düşərgələri və dayanacaqları, tələbələrin çöl təcrübə praktikaları bazaları məhz burada yerləşirlər.

Rayonun təbii şəraiti və resursları fizioloji cəhətdən də həmçinin rəngarəngdir. Onları gün ərzində və hətta bir neçə saatın içində havanın müstəsna olaraq çox tez dəyişməsi və qeyri-müəyyənliyi birləşdirir. Bu Qara dənizin yaxınlığı və relyefin xüsusiyyətləri ilə izah olunur. Fişt-Oşten massivinin kəskin yuxarı qalxması (ən qərbdə olan zirvədən demək olar ki,

1 km yüksək) cənubdan və qərbdən rütubət daşıyan hava kütləsinin bu dağ qrupu ilə tutulmasına gətirib çıxarır. Odur ki, rayonda yağıntıların ümumi miqdarı cənubdan şimala və qərbdən şərqə doğru azalır. İldə 3500 mm-ə yaxın yağıntıların ən çox miqdarı Fişta rayonuna düşür. Eyni zamanda əgər qərbi Beloreçenski aşırımında yağıntıların orta illik miqdarı 2744 mm-ə yaxın olursa, o zaman Quzeriplsk aşırımından şərqə doğru olan ərazilərdə 1000 mm az olur. Orta temperatur iyuldan +18$^0$C, yanvarda –2$^0$C olur. Yağıntıların orta illik miqdarı – 1600 mm-dən 3200 mm-ə qədər olur. Yağıntılar il ərzində bütün rayon üçün bərabər paylanır. Ən çox yağıntı – ayda 120 mm-ə qədər may və iyun aylarında düşür. Lakin rayonun ucqar cənub hissəsi olan Fiştdə yağıntının illik maksimumu dekabr ayına düşür. İyul və yanvar aylarında daha çox cənub küləkləri əsir. Dağlıq-vadi, buzlaqlar tərəfdən əsən yerli küləklər də çox olur. Qar örtüyünün orta maksimal hündürlüyü – rayonun şimal və qərbində 100 sm-dən cənub və cənub-şərqində 300 sm-ə qədər olur. Dağlarda 2000 m-ə qədər yüksəklikdə qar örtüyü oktyabrın ortalarında görünməyə başlayır. Dayanıqlı qar örtüyü noyabrın əvvəlində, rayonun şimalında isə yanvarın əvvəlində əmələ gəlir. Fişt dağ qrupunda qarın maksimal hündürlüyü – 610 sm qeydə alınmışdır. Həmçinin qarın əriməsi uzun müddət davam edir. Şaxtasız dövrün orta davametmə müddəti – 150 günə qədər olur. Lakin rayon üçün yayda da, mövsüm arası da (xüsusən payızda) çoxlu qar yağması və qar fırtınası xarakterikdir. Beləliklə, səyahət üçün ən yaxşı dövr – iyulun axırından oktyabrın ortalarına qədər, dağ xizək turları üçün isə – fevraldan aprelə qədərdir. Rayonda qar uçqunu təhlükəsi çox deyil. Belə ki, onun böyük hissəsi – meşəlik zona və Laqonaki yaylasının nisbətən düz səthidir. Çoxlu qar yağdığı dövrdə Böyük Qafqaz sıra dağlarının dik yamacları, hər şeydən öncə Fişta, Çuquşa rayonu və onların meşəsiz yamacları daha çox təhlükəlidir.



Rayonun ərazisinin yüksək estetik cazibədarlığı landşaftların yerləşməsində olan şaquli qurşaqlıq, mənzərələrin böyük rəngarəngliyi ilə izah olunur. Fısdıq ağacının üstünlük təşkil etdiyi enliyarpaqlı meşələr ardıcıl olaraq ağ şam ağacı və ağ şam - küknar meşələri ilə əvəzlənir, sonra rododendron kol bitkisi basmış subalp meşələri, alp çəmənləri və buzlaqlar, daha sonra Böyük Qafqaz sıra dağlarının qarlı zirvələri gəlir. Mənzərəyə Laqonaki yaylasının və uzunluğu 7 km-ə yaxın olan Fişt-Pşexası massivinin cənub divarlarının yüksək şaquli qayaları böyük estetik ifadə verir.

Bütün sadalananlardan sonra belə bir nəticəyə gəlmək olar ki, təbii ilkin şərait beynəlxalq ekoturizmin inkişafı üçün – təbiət tarixi turları, elmi və macəra turizmi üçün əlverişlidir.

Rayonun ərazisində 58 yaşayış məntəqəsi, 60 mindən çox insanın yaşadığı 11 kənd və 2 qəsəbə dairəsi yerləşmişdir. Hazırda əhalinin böyük əksəriyyəti filizçıxarma sənayesi ilə məşğuldur (meşə və kənd təsərrüfatı, faydalı qazıntıların çıxarılması). Şimali Qafqazın digər regionları ilə müqayisədə həmin rayonun əsas fərqi onun nisbətən təhlükəsiz olması, millətçiliyin, ekstremizmin, terrorizmin aşkara çıxmaması, həmçinin nəqliyyat üçün yüksək dərəcədə əlverişli olmasıdır.

Turistlərin yerləşdirilməsi üçün sərf olunan vəsaitlərin böyük hissəsi Laqonaki yaylası rayonuna qoyulmuşdur. Bura özfəaliyyət turist qrupları və istirahət günləri dincələn insanların daha çox yönəldiyi turizm bazalarıdır. Xidmətin səviyyəsi, əlavə xidmətlərin sayı və keyfiyyəti həddən çox aşağıdır. Yalnız Quzerilp qəsəbəsində kiçik şəxsi mehmanxanalar və çox yüksək qiymətləri ilə fərqlənən, rayonun yeganə kateqoriya almış (üçulduzlu) «Enektur» mehmanxanası istisnalıq təşkil edir.

Birbaşa yayla rayonunda «Armyanskiy» (Armyanka çayının yuxarılarındakı yerlər), «Fişt» (Fişt dağının ətəyində), «Tsitse» (Tsitse çayının yuxarılarındakı yerlər), «Partizanskiy» (Partizanskiy talasında) sığınacaqları yerləşmişdir.

Mövzumuza aid olmasa da Şimali Qafqazın bu cazibədar respublikasında ermənilərin adını daşıyan çayın, sığınacağın və daha nələrin olması bu yerlərdə nə vaxtsa yeni bir «Dağlıq Qarabağ münaqişəsinin» yaranmayacağına heç kim zəmanət verə bilməz.

Rayonu ekoloji turizm üzrə ixtisaslaşmış, yeni, orta inkişaf etmiş kimi xarakterizə etmək olar. Onun tərkibində aşağıdakı mikrorayonlar və rekreasiya məntəqələri ayrılır: Kamennomostskiy (Daxovskaya, Kamennomostskiy) və Laqonakskiy (Quzeripl, Xamışki).

Rayonun gələcək turizm inkişafı bütün xüsusi mühafizə olunan təbiət ərazilərinin torpaqlarının zonalaşdırılmasının uçotu ilə nəzərdə tutulur. Aşağıdakı bölgü planlaşdırılır: elmi turizm istisna olmaqla hər hansı təsərrüfat fəaliyyətinin qadağan olunacağı əsas zona (nüvə zona); müxtəlif təsərrüfat fəaliyyətinin idarə olunacağı inkişaf zonası (və ya keçid zona) və ekoloji turizmin inkişaf etdiriləcəyi bufer zona. Rayonun özünəməxsus turizm qapısı, turizmin inkişaf mərkəzini Kamennomostsk qəsəbəsini etmək nəzərdə tutulur. Burada böyük mehmanxana kompleksi və ixtisaslaşdırılmış turistlərin yerləşdirmə vasitəsi yaradılacaqdır. Keçmiş kişi monastırının binası «Romantika» turbazasının balansından alınıb Rus Pravoslav Kilsəsinə qaytarıldıqdan sonra Pobeda qəsəbəsində dini turizm mərkəzi yaratmaq planlaşdırılır. Rahat meydançaları və sərbəst tikililəri ilə fərqlənən Daxovsk kazak kəndi (stanitsa) idman və macəra turizmi mərkəzi olacaqdır. Burada yerləşən «Qornaya leqenda» turist bazasının gənclərin istirahət düşərgəsinə rekonstruksiya olunması planlaşdırılır. Xameşki qəsəbəsində at sürmə stansiyası bazasında atçılıq turizmi (turistlərin atla hərəkət etməsi) inkişaf etdiriləcək. «Kinematoqrafiçeskaya polyana» isə «Çerkesskiy aul» etnoqrafik ev muzeyi yaratmaq üçün əsas olacaq. Quzeripl qəsəbəsi elmi turizm, təbiət tarixi üzrə turlar və konqres turizmi mərkəzi olacaqdır. Qafqaz dövlət təbii biosfer qoruğu muzeyinin



genişləndirilməsi və modernləşdirilməsi də planlaşdırılmışdır. Hazırda 700-ə yaxın əhalinin yaşadığı Merkulayevka, Ust-Saxray, Novoproxladnıy qəsəbələri Pobeda, Xamışki və Quzeripl qəsəbələri arasında atlı və piyada marşrutlarında turistlərə xidmət edən tranzit məntəqə olacaqdır. Laqonaki yaylasında dağ xizək turizminin inkişafı dağ xizək kompleksi infrastrukturuna böyük sərmayə qoyulması vacibliyi və yaylanın ekosisteminin dağılması mümkünlüyü səbəbinə görə praktiki olaraq planlaşdırılmır. Üstünlük ekoloji turizmə veriləcəkdir.

Eyni zamanda Laqonaki yaylasının şərq hissəsindən keçməklə çəkilməsi planlaşdırılan Maykop-Daqomıs avtomobil yolunun tikintisi haqqında məsələ açıq qalır. Bir tərəfdən bu rayonun nəqliyyat əlverişliliyinə keyfiyyətcə daha da yüksəldəcək, digər tərəfdən – ətraf mühitə çox böyük zərər vuracaqdır.

### 9.4. Qaraçay-Çerkez Respublikasının dağlıq turizm rayonlarında macəra və ekoloji turizmin inkişaf şəraiti və ehtiyatları

#### 9.4.1. Arxızsk turizm mezorayonu

Arxız turizm mezorayonu Kizqıç, Psış və Arxız çayı vadisində, Qərbi Qafqazın mərkəzi hissəsində yerləşmişdir. Bu dağ çaylarının birləşdiyi yerdən Bolşoy Zelençuk çayı öz başlanğıcını götürür. Rayon şərqdə Dombaysk turizm mezorayonu ilə, cənubda – Gürcüstanın tərkibində olan Abxaziya Respublikası ilə həmsərhəddir. Rayonun şimal sərhədi – 500 m-lik izogipsdir. Rayonun ən yüksək nöqtəsi – Pşiş dağıdır (3790 m). Onun sahəsi – 765 $km^2$-dir.

Bəzən «Arxız» anlayışına həmçinin şimalda Dausauz qəsəbəsindən və cənubda Böyük Qafqaz sıra dağlarına qədər olan əraziləri də daxil edirlər.

Texnoloji cəhətdən bu yerlərin təbii ehtiyatları hər şeydən öncə macəra turlarının: trekinq, dırmanma, dağ xizək turizmi, speleologiyanın təşkili üçün əlverişlidir. Bu yerlərə ilk turist səyahətini XIX əsrin axırlarında naturalist N.Y.Dinnik təşkil etmişdir. «Rus coğrafiya cəmiyyətinin xəbərləri»ndə o Bolşoy Zelençukun yuxarı axarlarındakı yerləri, Abişira-Axuba dağ silsiləsini, Kizqıç, Sofi, Arxız, Dukki vadilərini coşqunluqla təsvir etmişdir. Burada ilk turist düşərgəsi 1936-cı ildə açılmışdır. 1940-cı ildə isə turizm üzrə təlimatçılar üçün ilk təlim-məşq toplantısı keçirilmişdir. 1953-cü ildən Arxızdan keçməklə ümumittifaq turizm marşrutuna hazırlığa başlanmışdır. O dövrdə burada ölkənin çox məşhur olan turizm bazası açılmışdır.

Arxızda dağların zirvəsinə qalxan marşrutların təsnifatında mürəkkəblik kateqoriyası birincidən dördüncüyə qədər olan 35-dən çox dağaçıxma variantları qeyd olunmuşdur.

Hazırda Arxıza hamıdan çox mövsüm arasında (yaz aylarında) dağ turistləri və alpinistlər gəlirlər. Mərkəzi Qafqazın dağlıq rayonları hələ də çətin keçilən ərazilərdir. Odur ki, burada daha çox ölkənin cənubundan olan zirvəyə qalxanların təlim-məşq toplantıları, alpiniadaları və turiadaları keçirilir.

Dağ xizək turizmi dörd VL-200 tipli buqel qaldırıcının quraşdırıldığı Abişir-Axuba («Lunnaya polyana») dağ silsiləsinin yamaclarında Arxız qəsəbəsinə bitişik, həmçinin Bukovo qəsəbəsində olan ərazilərdə inkişaf etdirilmişdir.

Fizioloji cəhətdən həmin rayonun təbii ehtiyatları turizmin inkişafı üçün çox əlverişlidir. Hələ XIX əsrin əvvəllərində dövlət meşələrinin nəzarətçiləri sadə iqlim dəyişmələri müşahidələri aparırdılar. Onlar dövlət əmlakının Qaradəniz-Kuban idarəsinə verdikləri raportda (yazılı məlumatda) xəbər verirdilər ki, Arxız-dağ iqlim stansiyasının tikintisi üçün çox rahat yerdir. 1915-ci ildə I kurort qurultayında qeyd olunmuşdur ki, Bolşoy Zelençuk çayının vadisində iqlim şəraiti müalicə üçün hətta Teberdedən də yaxşıdır. Arxızda 120 min yerlik dağ



iqlim kurortunun tikintisi planı işlənib hazırlanmışdır. Hətta dəmir yolu departamenti Armavirdən Arxıza qədər dəmir yolu çəkilməsi layihəsini təsdiq etmişdir. XX əsrin 30-cu illərinin sonunda II Dünya müharibəsi illərində dağıdılmış, ilk ağciyər-vərəm sanatoriyası tikilir.

Alpinist və turist dairələrində Arxız «Qərbi Qafqazın isti guşəsi» adını almışdır. Rayonun orta dağlıq hissəsində iqlim yumşaq rütubətlidir. Dəniz səviyyəsindən 1200-2000 metr yüksəklikdə yerləşən dağlar arasındakı çökəklikdə rayonun mikroiqliminin formalaşmasında Skalistıy və Bokovoy dağ silsilələrinin yerləşməsi həlledici rol oynayır. Onlar ərazini şimal-şərqdən və cənub-qərbdən keçib gələn soyuq küləklərdən və dumanlardan qoruyur.

Arxız qəsəbəsində orta illik temperatur $+5^0$C, iyul ayının orta temperaturu $+15^0$C, yanvarınkı isə – $5,8^0$C-dir. Yüksək dağlıq zonada (izogipsdən 3000 m yuxarı) orta illik temperatur $+2^0$C-dir. Havanın orta illik nisbi rütubəti 72 %-dir (Kislovodskidən aşağıdır). Yağıntıların orta illik miqdarı – 820 mm, yüksək dağlıq yerlərdə isə 2000 mm-ə qədərdir.

Qış turizm mövsümü dörd aya yaxın uzanır. İlk qar noyabr ayının ortalarında yağır, dayanıqlı qar örtüyü isə aprelin ortalarında əriyir. Yüksək dağlıq yerlərdə belə qar örtüyü iyun-iyul aylarına qədər qalır. Burada qar örtüyünün qalınlığı 50 sm-dən 2,5 m-ə qədər olur. Qış üçün çoxsaylı günəşli günlər xarakterikdir.

Qar uçqunu təhlükəsi əsasən yüksək dağlıq zonada üstünlük təşkil edir. Qar uçqunu mənbələri Psışa vadisində Sofiysk dərəsində toplanmışdır. Rayonun əksər hissəsi meşələrlə örtülü olduğu üçün burada qar uçqunu təhlükəsi minimumdur.

Nadir təbiət abidələri daha çox Teberdinsk qoruğunun Arxız bölməsində cəmləşmişdir. Rayonun bütün dağ meşələri yalnız sanitar seçim kəsilmələrinin icazə verdiyi birinci qrupa aiddir.

Düzənlik ərazilərin əhalisi üçün mənzərələrin estetik qiyməti landşaftların yüksək qurşaqlığı ilə, həmçinin şəlalənin (Sofiysk

şəlaləsi), Arxızda olan 70-dən çox yüksək dağ göllərinin (Arxız və Kafərin yuxarı hissəsi), buzlaqların və qarlı zirvələrin ekzotikliyi ilə müəyyən olunur.

Turizmin inkişafının ilkin mədəni-tarixi şəraiti bizim eranın əvvəlindən onun XIII əsrinə qədər mövcud olmuş alanların dövləti ilə əlaqədardır. Tarixçilər belə hesab edir ki, Arxız həmin dövlətin mərkəzi olmuşdur. Odur ki, burada arxeoloqların tapıntıları ilə zənginləşmiş həmin dövrün çoxsaylı abidələri qorunub saxlanmışdır. Arxeoloqlar tərəfindən Nijniy Arxız qəsəbəsində qədim şəhərin qalıqlarının öyrənilməsi aparılır. Arxız məbədləri daha çox maraq kəsb edir. Bəzi tarixçilərin fikrinə görə xristianlıq bu diyarda Rusiyadan çox əvvəl yayılmışdır. Buna IX əsrin sonlarında formalaşmış Bizansla sıx əlaqələr kömək etmişdir. Məbəddə yunan yazılarının, Bizans divar naxışlarının qalıqları saxlanmışdır. 2000-ci ildə Arxız qəsəbəsindən bir qədər aralı İsa peyğəmbərin qədim qayaüstü şəkli tapılmışdır. Beləliklə, rayonda nəinki ekskursiya, dərk etmə turizmi, həm də dini turizmin inkişafı üçün əsas vardır.

Hazırda rayonun turizm infrastrukturu praktiki olaraq inkişaf etdirilmir və modernləşdirilmir. Mövsümi olaraq yalnız rayonun ən böyük turist yerləşdirmə vasitələri – «Arxız» və «Lunnaya Polyana» turbazaları fəaliyyət göstərir, «Sofiya» və «Naur» sığınacaqlarının fəaliyyəti demək olar ki, dayandırılmışdır. Bu qismən rayonun sərhədində olan vəziyyətlə, qeydiyyatdan keçməyin vacibliyi ilə, həmçinin bütövlükdə Qafqazda və xüsusən də Qaraçay-Çerkez Respublikasında olan qeyri-sabit vəziyyətlə əlaqədardır.

Bütün yuxarıda sadalananlar rayonu daxili macəra turizminə ixtisaslaşmaqla yeni aşağı inkişaflı kimi təyin etməyə imkan verir.

Mezorayonun tərkibində Sofiysk, Psışsk və Arxızsk mikrorayonları ayrılırlar.



### 9.4.2. Dombaysk turizm mezorayonu

Dombaysk turizm mezorayonu Teberda çayının vadisində yerləşmişdir. O, qərbdə Aksaut çayının vadisi ilə şərqdə Uzunkolsk turizm mezorayonu ilə və cənubda Abxaziya ilə həmsərhəddir. Onun ən yüksək nöqtəsi – Dombay-Ulqen zirvəsidir (4046 m). Rayonun tərkibinə həmçinin Dombay, Teberda, Verxnaya Teberda, Nijnaya Teberda kimi qəsəbələr, Teberdinskiy qoruğu daxildir.

Texnoloji aspektdə rayonun təbii ehtiyatları ekoturizmin (qoruğun bazasında), macəra turizminin (trekkinq, alpinizm, qayaya dırmanma, dağ xizək turizmi) və sanatoriya-kurort müalicəsinin (daha çox Teberdedə) inkişafı üçün əlverişlidir. İlk turistlər rayonda hələ 1905-ci ildə görünməyə başlamışlar. Onlar Qafqaz dağ cəmiyyətinin üzvləri idilər. Artıq XX əsrin 20-ci illərinin ortalarında Suxumi şəhərinə Qara dənizə Dombay və Kluxorsk aşırımı vasitəsi ilə Hərbi-Suxumi yolu üzrə planlı marşrut fəaliyyət göstərirdi. İlk sovet turistləri üçün Teberde və Dombayda turbazalar tikilmişdir. Rayonun alpinist mənimsənilməsi daha əvvəl – Rus dağ cəmiyyətinin sədri A.Mekk və Bazel gimnaziyasının müəllimi A.Fişer bələdçi Y.Buzurtanovla birlikdə 1904-cü ildə Sulaxat-Semenov-Başi zirvəsinə qalxdıqları vaxt başlamışdır. 1936-cı ilə artıq rayonun bütün əsas zirvələrinə qalxmaq üçün marşrutlar çəkilmişdir. Onların bir hissəsi aralarında II dünya müharibəsinə qədər Bezenqi kimi Qafqazın bu rayonunun da məşhur olduğu Almaniyadan və Avstriyadan olan alpinistlər tərəfindən keçilmişdir. Dombayın alpinist imkanları çox böyükdür. Müharibədən əvvəl burada 10-a yaxın alpinist düşərgəsi olmuşdur. Dağ marşrutlarına marşrutların klassifikatorunda rayonun zirvələrinə qalxmağın 95-dən çox yolu əks olunmuşdur. Onların arasında mürəkkəbliyinə görə Rusiya Federasiyasının dağlarında çox az olan, yüksək – 6-cı kateqoriyalı marşrutlar vardır.

Rayonda turizmin inkişafında fizioloji cəhətdən ilkin şərait çox rəngarəngdir. Aşağı dağlıq hissələr üçün (800 m-dən 1200 m-ə qədər yüksəklikdə) mülayim isti iqlim xarakterikdir. Bu qurşaqda havanın orta illik temperaturu 8-9$^0$C, maksimal temperatur +34$^0$C-yə qədər, minimal temperatur –34$^0$C-yə qədərdir. Havanın qışda orta temperaturu – 3,4$^0$C-dir. Yağıntıların orta illik miqdarı – 650-700 mm-ə yaxındır.

Orta dağlıq zonada iqlim mülayim rütubətlidir. Skalistıy və Bokovoy dağ silsilələri Teberdı rayonunu şimal-şərqdən əsən soyuq küləklərdən qoruyur. Bu rayon üçün çoxlu miqdarda günəş radiasiyası xarakterikdir. Yaşayış məntəqəsinin özündə günəşin nur saçmasının davam etmə müddəti ildə 2200 saat təşkil edir ki, bu da Kislovodskda və ya Davosda (İsveçrə) olandan yüksəkdir. Günəşsiz günlərin sayı cəmi ildə 16 gündür. Küləyin sürəti azdır, orta hesabla ildə 1,8 m/s-ni keçmir. Qışda orta temperatur –2,3$^0$C-dir. Nisbi rütubətin orta illik göstəricisi 70 %-dir. İldə 700 mm yağıntı düşür. Yayı mülayim isti, orta temperatur 15,5$^0$C-dir. Səyahət üçün ilin ən əlverişli vaxtı – payızdır. Bu dövrdə aydın – buludsuz günlər daha çox olur.

İqlim rayonun əsas müalicə amili hesab olunur. Teberdedə ilk sanatoriya 1923-cü ildə açılmışdır. 1927-ci ilə burada 40 yerli «Amanauz», 75 yerli «Ali bek», 35 yerli «Bolşevik», 50 yerli «Muxu» sanatoriyaları və bir neçə istirahət evi və pansionatları fəaliyyət göstərirdi. 30-cu illərdə «Dombay», «Teberda», «Kluxori», «Qornoye uşelye» sanatoriyaları tikilmişdir. Həmin vaxtlarda Teberdedən Dombaya qədər yol da çəkilmişdir.

Dambayın iqlimi Arxızın iqlimi ilə oxşardır. Dayanıqlı qar örtüyü burada dekabrın 20-dən sonra əmələ gəlir, martın 10-dan sonra isə əriyir. Onun hündürlüyü Teberda vadisində 23 sm-ə, Dombayda isə 1 m-ə qədər çatır. Qış burada günəşli günlərin çoxluğu ilə fərqləndiyindən, ora çoxlu qar xizəkçilərini cəlb edir.

Rayonun psixoloji-estetik cazibədarlığı çox yüksəkdir. Hələ 1913-cü ildə isveçrəli alim M.Rıkli qeyd edirdi ki, Qərbi



Qafqazın bu hissəsi çiçəklərinin gözəlliyinə və bolluğuna, ağaclarının və otlarının təmtəraqlı inkişafına görə Alp dağlarının İsveçrə hissəsindən daha zəngindir.

Nadir təbiət obyektləri daha çox Teberdinsk dövlət qoruğunun ərazisində yerləşmişdir. Bu qoruq keçən əsrin 30-cu illərində yaradılmışdır. Əvvəlcə ora əsas vəzifəsi Teberdi kurort zonasının mühafizəsi olan meşəbəylik idi. 1958-ci ildə qoruğun ərazisi genişləndirilən zaman onun sahəsi 86 min ha oldu. Qoruğun sahəsinin 10 %-dən çoxu buzlaqlar altındadır.

Qoruğun əsas vəzifəsi rayon üçün tipik olan dağ-meşə, subalp və alp landşaftlarının mühafizəsidir. Rayonun ərazisində təbii komplekslərin bərpası, təbiətdə təbii proseslərin inkişaf qanunauyğunluğu və ekoloji tarazlığa riayət olunması şərtləri üzrə qoruğun işçilərinin elmi işləri elmi turizmin inkişafının əsası ola bilər.

Qoruq təbiət tarixi turları və elmi turizmin inkişaf etmiş infrastrukturuna malikdir. Burada rayonun təbiət müzeyi açılmış, vəhşi heyvanların saxlandığı qəfəslər, botaniki bağ sahəsi, alp təpəciyi, Teberda şəhərində tərkibinə mehmanxana, mağaza və yeməkxananın daxil olduğu böyük mərkəzi malikanə vardır. Mütəmadi olaraq elmi-tədqiqat ekspedisiyaları təşkil olunur, Alp, Balkan və Qafqazın təbiətinin öyrənilməsi üzrə konferensiyalar keçirilir.

Bundan savayı, rayonda artıq 40 ildən artıqdır ki, «həyat mənbəyi» – jenşen becərilir. Buradakı jenşen yüksək bioloji aktivliyi və qiymətli olması ilə fərqlənir. Qoruq Rusiyanın avropa hissəsində jenşen kökü becərmək üzrə elmi-metodik mərkəz rolunu yerinə yetirir.

Rayonun mənzərəsi o qədər gözəldir ki, onları çox vaxt dağ massivlərinin əzəmətinin tanınmış etalonları ilə müqayisə edirlər. Məsələn, Belalakaya massivi çoxdan ikinci ad – «russkiy Matterxorn» adını almışdır. Sufrucu, Dombay zirvələrini öz mahnılarında V.Vısotskiy və Y.Vizbor vəsf etmişlər. Onların

əsərlərinin böyük hissəsi Dombaysk rayonunun dağlarının zirvəsindən aldığı təəssüratdan yazılmışdır.

Rayon inkişaf etmiş turizm infrastrukturuna malikdir. «Dombay», «Teberda» turizm kompleksləri (tərkiblərində – iki mehmanxana və turbaza, at kirayə məntəqəsi), «Krakus», «Solneçnaya dolina», «Qornıe verşinı» mehmanxanaları, «Azqek» turbazası, «Dombay» və «Alibek» alpinist düşərgələri bütün il boyu fəaliyyət göstərir. Yerləşdirmə vasitələri yayda daha çox ekskursantlara, dağ turistlərinə və alpinistlərə, qış mövsümündə isə – dağ xizəkçilərinə xidmət etmək üçün yönəldilmişdir.

Dağ xizək qaldırıcıları bir rəqqaslı kanat yolla (Dombaysk polyanadan Mussa-Açitara dağ silsiləsində gözlə görünən sahəyə qədər), bir qoşa oturacaqlı (Lii talasından Mussa-Açitara dağ silsiləsinin zirvəsinə qədər), iki tək oturacaqlı (Dombay qəsəbəsindən Russkaya polyanaya qədər) olmaqla təqdim edilmişdir. Bundan başqa VL-1000 tipli üç buqel qaldırıcı işləyir.

Bütün yuxarıda qeyd olunanlar rayonu macəra turizmində və sanatoriya-kurort müalicəsində yeni, orta inkişaf etmiş ixtisaslaşmış kimi təyin etməyə imkan verir.

Mezorayonun tərkibində iki mikrorayon ayırmaq olar: sanatoriya-kurort müalicəsi və elmi turizm üzrə ixtisaslaşmaqla Teberdinskiy və macəra turizmində ixtisaslaşan Dombaysk.

### 9.4.3. Uzunkolskiy turizm mezorayonu

Bu şərqdə Prielbrus və qərbdə Dombaysk rayonu ilə həmsərhəd olan, Qaraçay-Çerkez Respublikasının ən şərqdə yerləşən turizm rayonudur. Bəzən də onu rayonun əsas zirvəsinin adı – Baş Qvandrının adı ilə (3938 m) – Qvardrinski adlandırırlar. Burada Qərbi Qafqazın əsas çaylarından biri olan - Kubanın mənbəyi yerləşmişdir.



Rayonun turistlər və alpinistlər tərəfindən mənimsənilməsi 1937-ci ildən başlamışdır. Nə vaxtsa ən məşhur olmuş, indi isə rayonun yeganə alpinist düşərgəsi olan – «Uzunkol», ərazinin köhnə coğrafi adını – Qvardinski rayonu – sıxışdırıb aradan çıxarmışdır.

Texnoloji cəhətdən Uzunkolda turizmin inkişafının təbi ehtiyatları Dombaydan az fərqlənir. Burada dağ zirvələrinə gedən marşrutların təsnifatına daxil olmuş, mürəkkəblik kateqoriyasına görə birincidən altıncıya qədər ən mürəkkəb 95 marşrut yerləşmişdir. Rayonda olan zirvələrə çıxılmasına görə alpinizm üzrə SSRİ çempionatlarının dəfələrlə gümüş və bürünc medalları ilə qeyd olunmuşlar. Rayonda dağ turistlərinin və alpinistlərin maraqlarını təmsil edən cəmisi 16 dağ massivi ayrılır.

Elbrus dağlarının yaxınlığı və rayonun çox yüksək olması (Dombay qəsəbəsi – 1880 m, Uzunkol talası – 2100 m) hər halda, ekoturizmin inkişafına fizioloji və psixoloji-estetik zəmin yaratmaq üçün öz təsirini göstərir.

P.P.Zaxarovanın məlumatına görə burada günəşli günlərin sayı, xüsusən qışda az olur. Uzunmüddətli qar yağması müşahidə olunur. Yazda qarların tez ərimısi ucbatından tez-tez subasmalar baş verir. İyunda bəzən qar yağır. Avqust ayı isti günləri ilə şöhrət qazanmışdır, bu dövrdə praktiki olaraq yağış yağmır. Sentyabr ayının ikinci dekadası yağışlı olması ilə fərqlənir. 200 m-dən yuxarı yüksəklikdə güclü külək və qar çovğunu olur. Oktyabr ayında – «ceyran kölgəyə gələn vaxt» olur. Bu vaxtlar rayonun mənzərəsi xüsusən təsirli olur.

Noyabr ayının 20-25-dən sonra dayanıqlı qar örtüyü formalaşır. Qışın axırına yaxın onun qalınlığı 3 m-dən çox olur. Qarın çox hissəsi fevralda və ya aprel-may aylarında düşür. Tez-tez 10 gündən çox davam edən boran və çovğun olur.

Yüksək qar uçqunu təhlükəsi qarın çoxluğu, rayonun relyefinin xarakteri və havanın yerli sirkulyasiyasının xüsusiyyətləri ilə əlaqədardır. Dərələrin və vadilərin dik kənarı,

uzanan otlu yamaclar qar uçqununun formalaşmasına kömək edir, mart ayında isti hava kütləsinin ora daxil olması qar uçqununa səbəb olur. Çox vaxt qarın uçması elə bir güclə baş verir ki, qar kütləsi dərənin qarşı tərəfinə də qalxıb keçir.

Beləliklə, həmin rayonda səyahət üçün ən əlverişli vaxt – iyul, avqust və oktyabr aylarıdır.

. Turizm infrastrukturu praktiki olaraq yoxdur. Yerləşdirmə vasitələri olaraq yeganə alpinist düşərgəsi «Uzunkol» təmsil olunmuşdur. Yaşayış-kotteclərdə və çadır düşərgələrindədir. Bundan savayı, rayonun müxtəlif massivləri altında müvəqqəti baza düşərgələri üçün (gecələmək üçün) 13 çadır düşərgəsindən geniş istifadə olunur.

Rayonun nəqliyyat cəhətdən əlverişliyi də yaxşı səviyyədə deyildir. Bura Qaraçay – Çerkez Respublikasının paytaxtı Çerkessk şəhərindən avtomobil nəqliyyatı ilə əvvəlcə 6-7 saata Xurzuk auluna qədər, sonra 14 km avtomobil yolu ilə və 8 km piyada Uzunkol dərəsi ilə yuxarı qalxmaqla gəlib çıxmaq olar.

Beləliklə, rayonu macəra turizmində (alpinizmdə) ixtisaslaşmaqla ən yeni zəif inkişaf etmiş kimi qeyd etmək olar.

Hazırda turizm infrastrukturunun inkişaf etməməsinə görə mezorayonun tərkibində mikrorayonları ayırmaq mümkün deyil.

**Yoxlama sualları və tapşırıqlar**

1. Qərbi Qafqazda olan turizm mezorayonlarının adlarını çəkin və onlarda ekoturizmin inkişafını qısaca xarakterizə edin.
2. Seçilmiş ekoturizm növünə görə Qərbi-Qafqaz üzrə ekotur işləyib hazırlayın. Həmkarlarınıza xidmət proqramı, marşrut, ekskursiya görünüşü obyektləri təqdim edin.
3. Qərbi Qafqaz regionlarında biomüxtəlifliyin qorunması problemləri üzrə referat hazırlayın.



# Onuncu fəsil

## Azərbaycan Respublikasının turizm bölgələrində ekoturizmin inkişafı

Azərbaycan Respublikasında 1995-ci ildə aparılan iqtisadi rayonlaşmaya əsasən ölkəmizdə 10 iqtisadi rayon ayrılmışdır: Abşeron, Quba-Xaçmaz, Şəki-Zaqatala, Dağlıq Şirvan, Gəncə-Qazax, Yuxarı Qarabağ, Kəlbəcər, Laçın, Aran, Lənkəran-Astara, Naxçıvan.

İqtisadi rayonlar oxşar təsərrüfat quruluşuna, təbii ehtiyatlara və əhalinin məskunlaşması qruplaşması ilə ayrılır. Lakin zaman keçdikcə təsərrüfat sahələrinin inkişafı ilə əlaqədar onların ixtisaslaşma istiqamətləri və sahə quruluşları dəyişə bilir. Sadalanan

Hazırda turizm dünya iqtisadiyyatının dinamik inkişaf edən sahələrindən biri hesab olunur. Ümumdünya Turizm Təşkilatının (ÜTT) hesablamalarına görə yaşadığımız XXI əsrdə beynəlxalq turizm dünya ixracatının aparıcı sahələrindən birinə çevriləcək. Müasir dövrdə beynəlxalq turizm neft, neft məhsulları və avtomobil ixracatından sonra üçüncü yeri tutur. Bizim respublikamıza da turist kimi gəlmək istəyənlərin və onun hüdudlarından kənara çıxmaq istəyənlərin sayını durmadan artması turizmin, xüsusən də onun ən vacib tərkib hissələrindən biri olan ekoloji turizmin inkişaf etdirilməsinin zəruriliyini ortaya çıxarır.

### 10.1. Bakı-Abşeron turizm bölgəsi

Abşeron iqtisadi-coğrafi rayonunun tərkibinə Bakı və Sumqayıt ərazi vahidləri, Abşeron və Xızı inzibati rayonları daxildir ki, onlar da respublikanın iqtisadi və sosial cəhətdən ən inkişaf etmiş rayonlarıdır. Xəzər dənizində yerləşən Abşeron və Bakı arxipelaqları da bu rayonun tərkibindədir.

Rayonun ərazisi tirəli-təpəli, dağətəyi düzənliklərdən və alçaq dağlıqdan ibarətdir. Dəniz sahili hissəsi okean səviyyəsindən 26 metr aşağıda yerləşir. Ərazidə çoxlu axarsız göllər, şoranlıqlar və şor göllər var. Qafqazın və Azərbaycanın ən böyük və çoxsaylı palçıq vulkanları, ilk insanların məşhur Qobustan düşərgəsi bu rayonun ərazisindədir. Bu iqtisadi rayonda yağıntı az düşdüyü üçün bitki örtüyü seyrək və növ tərkibi kasıbdır. Bura ildə 150 mm-dən 400 mm-ə qədər yağıntı düşür. Havanın maksimal temperaturu yayda +40°C, minimal temperaturu isə qışda - 13 °C olur.

Yalnız Xızı, Altıağac sahələrində dağ-meşə və dağ-çöl bitkiləri yayılıb. Abşeronda kiçik məsafədə Sumqayıt çayı, şimal-qərbdə isə Ataçay istisna olmaqla, heç bir daimi axarlı çay yoxdur.

Azərbaycanın füsunkar təbiətinin qorunması məqsədi ilə ölkəmizdə hələ keçən əsrin 30-cu illərində ilk qorunan ərazilər yaradılmış və bu prosesə indi də davam etdirilir. Hazırda ölkəmizdə ümumi sahəsi ölkə ərazisinin 3,6 %-ni təşkil edən – 8 milli park, 11 dövlət təbiət qoruğu və 24 dövlət təbiət yasaqlığı mövcuddur.

Milli parkların təşkilində əsas məqsəd ətraf mühitin, ekoloji tarazlığın, təbiət abidələrinin qorunması şərti ilə ekoturizmin inkişafı, ekoloji maarifləndirmənin gücləndirilməsi, regionun zəngin təbiətinin tərənnüm etdirilməsi və iqtisadi inkişafın daha da sürətləndirilməsidir.

Abşeron Milli Parkı Bakı Şəhərinin Xəzər rayonunun inzibati ərazisinin 783 hektar sahəsində, Abşeron Dövlət Təbiət Yasaqlığının bazasında, 2005-ci il 08 fevral tarixində yaradılmışdır. Milli Park Abşeron yarmadasının cənub-şərq qurtaracağında, Şah Dili ərazisində yerləşir.

Abşeron Milli Parkının yaradılmasında başlıca məqsəd ətraf mühitin mühafizəsi, ondan səmərəli istifadə edilməsi, nəsli kəsilməkdə olan nadir fauna növlərinin (Xəzər suitisi, Ceyran, Kəkilli dalğıc, gümüşü qağayı, yaşılbaş ördək və s.) qorunub saxlanması, ekoturizmin inkişaf etdirilməsi, turizm və istirahət (rekreasiya) zonalarının yaradılmasıdır.



Abşeron Milli Parkında dəniz sahili qum bitkiləri, cığlı-qamışlı və paz otlu çəmənliklər, birillik şoran otları və s. yayılmışdır.

Çox zəngin faunaya malik olan Milli Parkın ərazisində suda-quruda yaşayanlardan göl qurbağası, yaşıl quru qurbağası, sürünənlərdən Aralıqdənizi tısbağası, Xəzər tısbağası, Qafqaz kələzi, Xəzər dekkonu, koramal, uzunayaq Şneyder, əlvan kərtənkələcik, cəld kərtənkələcik, xoltalı eyrenis, suilanı, gürzə və s., quşlardan gümüşü qağayı, fısıldayan qu quşu, boz və qırmızıbaş qazlar, bizquyruq, yaşılbaş ördək, ağgöz qara ördək, kəkilli dalğıc, böyük ağ vağ, qumluq cüllütü, qaşqaldaq, bataqlıq belibağlısı, dəniz bozcası və s., məməli heyvan növlərindən isə ceyran, canavar, çaqqal, çöl pişiyi, yenot, oxlu kirpi, tülkü, porsuq, dovşan, Xəzərin sularında suiti və həmçinin müxtəlif növ balıqlar məskunlaşmışdır.

Milli Parkın ərazisində xeyli miqdarda Xəzər Suitisi yayılmışdır. Bu növ pərayaqlıların yeganə nümayəndəsidir ki, Dünya okeanının ən kiçik Suitisi kimi «Ginnes»in rekordlar kitabına daxil edilmişdir.

Abşeron Milli Parkının yaradılması həmin ərazidə nadir təbiət komplekslərinin və obyektlərinin, Xəzər Suitisinin, Ceyranın, Su-bataqlıq quşlarının qorunub saxlanılmasına və bərpasına imkan yaradacaqdır.

Altıağac Milli Parkı Azərbaycan respublikasının, Şimal-Şərqində, Xızı və Siyəzən rayonlarının inzibati ərazilərində. 2004-cü il 31 avqust tarixində yaradılmışdır. Böyük Qafqaz ərazisində yerləşən Milli Parkın bir hissəsi Abşeron iqtisadi-coğrafi rayonuna daxildir. Altıağac Milli Parkı Altıağac Dövlət Təbiət Qoruğu və ona həmsərhəd olan dövlət meşə fondu torpaqlarının bazasında, 11035 hektar ərazidə yaradılmışdır.

Milli Parkın yaradılmasında əsas məqsəd Böyük Qafqazın cənub-şərq yamaclarının təbii landşaftlarının, flora və fauna növlərinin qorunub saxlanılması, bərpası, təbii komplekslərin mühafizəsinin gücləndirilməsi, ekoloji monitorinqin həyata keçirilməsi, eləcə də, tədqiqatlar, turizm və istirahət (rekreasiya) üçün şəraitin yaradılması və əhalinin ekoloji cəhətdən maarifləndirilməsinin təşkilidir.

Milli Parkın ərazisindən Ataçay və onun bir sıra kiçik qolları keçir. Parkın ərazisinin çox hissəsini meşələr əhatə edir. Buradakı meşələri əmələ gətirən əsas ağac növləri Qafqaz palıdı, Qafqaz vələsi, Şərq fıstığı, adi göyrüş, itiyarpaqlı ağcaqayındır. Ərazinin florasına yemişan, böyürtkən, əzgil, qaratikan, itburnu və s. kimi kol bitkiləri də daxildir.

Altıağac Milli Parkının ərazisində məməlilərdən cüyür, qonur ayı, çöl donuzu, vaşaq, yenot, dovşan, tülkü, dələ, canavar, quşlardan qırqovul, alabaxta, bildirçin, çobanaldadan, çöl qartalı, kəklik, qaratoyuq və s. növlərə rast gəlinir. Burada adları Azərbaycanın «Qırmızı Kitab»ına daxil edilmiş qartalkimilərin müxtəlif növləri diqqəti daha çox cəlb edir.

## 10.2. Quba-Xaçmaz turizm bölgəsi

Quba-Xaçmaz iqtisadi-coğrafi rayonu Azərbaycan Respublikasının Şimal-Şərq hissəsində yerləşir. Tərkibinə Xaçmaz, Quba, Qusar, Şabran və Siyəzən inzibati rayonları daxildir. Rayonun səth quruluşu sanki bütövlükdə respublikanın kiçildilmiş modelini xatırladır. Ərazinin mütləq yüksəkliyi Xəzər dənizi sahilində – 26 m-dən Bazardüzü zirvəsinə 4466 m-ə qədər artır. Bu iqtisadi rayon Böyük Qafqazın qar və buzlaq sularından qidalanan sıx çay şəbəkəsinə və bol su ehtiyatlarına malikdir. İqtisadi rayon ərazisindəki müxtəlif təbii sərvətlərdən Siyəzən nefti, çınqıl, qum, gil ən çox istifadə olunur. Rayonun zəngin kurort-rekreasiya ehtiyatları vardır. Quba rayonunun



Xaltan və Cimi kəndləri ətrafındakı isti mineral bulaqlardan yerli və ətraf rayonların əhalisi yay aylarında müalicə məqsədi ilə istifadə edir. Qalaaltı müalicə suyu və onun əsasında yaradılmış il boyu fəaliyyət göstərən sanatoriya çox məşhurdur.

Yuxarıda haqqında məlumat verdiyimiz Altıağac Milli Parkının böyük bir hissəsi məhz bu iqtisadi rayonun ərazisində yerləşir və ekoturizmin inkişafı üçün çox əlverişlidir.

Böyük Qafqazın (Quba, Qusar, İsmayıllı, Qəbələ, Oğuz və Şamaxı rayonlarının inzibati əraziləri) respublikamıza məxsus olan hissəsində 115895 ha ərazini tutan Şahdağ Milli Parkının da bir hissəsi bu iqtisadi rayonun ərazisindədir. İsmayıllı və Pirqulu Dövlət Təbiət Qoruqları, Quba, Qusar, İsmayıllı, Qəbələ, Oğuz və Şamaxı rayonlarının inzibati ərazilərində olan dövlət meşə fondu torpaqları və həmin rayonların hüdudlarındakı yüksəkliklərdə yerləşən və istifadəsiz yaylaqları ərazisində 8 dekabr 2006-cı ildə yaradılmış bu milli parkın yaradılmasında məqsəd çoxlu sayda endemik və nəsli kəsilməkdə olan növlər və trans-sərhəd köçəri heyvanlar da daxil olmaqla qlobal əhəmiyyətli dağ meşələri və yüksək dağlıq ərazilərdə yerləşən otlaqlar ekosisteminin bərpası, qorunması və idarə edilməsi, torpağın münbit qatının qorunub saxlanılması, ərazi üçün xarakterik olan flora və fauna növlərinin qorunması, artırılması və zənginləşdirilməsi, həmçinin, təbii kompleksin sabitliyinin tənzimlənməsi, elmi-tədqiqat işlərinin aparılması üçün daha əlverişli şəraitin yaradılması, eləcə də ətraf mühitin monitorinqi, əhalinin ekoloji cəhətdən maarifləndirilməsi və böyük turizm potensialı olan ərazidə ekoturizmin inkişafının təmin edilməsidir.

Milli Parkın ərazisinin yerləşdiyi yüksəklik onun iqliminin müxtəlifliyinə, bitki örtüyünün, heyvanlar aləminin və torpaqlarının münbitliyinin zənginliyinə əsaslı təsir göstərmişdir. Bu yerlərin meşələri zəngin, füsunkar və gözəl mənzərələri ilə məşhurdur.

Burada relyefin şaquli dəyişməsi və parçalanması, mürəkkəb iqlim şəraiti və torpaq örtüyü biosenozun müxtəlifliyinə səbəb olmuşdur. Meşələr, əsasən Liberiya və şərq palıdından, şərq fıstığından və Qafqaz vələsindən əmələ gəlmişdir. Parkın ərazisinin çox böyük sahəni əhatə etməsi səbəbindən burada həm təmiz, həm də qarışıq meşələrə rast gəlinir. Meşələrdə qarışıq halda göyrüş, ağcaqayın, qara-çöhrə, söyüd, gilas, alma, armud və s. ağaclar əzgil, yemişan, böyürtkən, itburnu, zirinc və s. kol bitkiləri yayılmışdır.

Şahdağ Milli Parkının heyvanlar aləmi də çox zəngindir. Burada quşlardan qırqovul, qaratoyuq, alabaxta, bildirçin, sarıköynək, çobanaldadan, qarğa, ağacdələn və s., məməlilərdən cüyür, çöl donuzu, qonur ayı, çaqqal, tülkü, dovşan, dələ, canavar, maral yenot, vaşaq, qarapaça, meşə pişiyi, təkə, gəlincik, porsuq və s. növlərə təsadüf olunur.

Ərazidə adları Azərbaycan Respublikasının «Qırmızı Kitab»ına daxil edilmiş məməlilərdən vaşaq, köpgər və s., quşlardan berkut, çöl qartalı və s. qorunur.

Burada təbiət gözəlliyinin rəngarəngli, bitki və heyvanlar aləminin zənginliyi əraziyə böyük sayda yerli və xarici turistlərin cəlb ediləcəyinə, ekoturizmin inkişafına ümid verir.

Təsadüfi deyildir ki, Şahdağ Milli Parkında 2200 ha ərazidə "Şahdağ qış-yay turizm kompleksi" tikilir.

### 10.3. Dağlıq Şirvan turizm bölgəsi

Dağlıq Şirvan iqtisadi-coğrafi rayonu Böyük Qafqazın cənub-şərq hissəsinin çox geniş yamaclarını əhatə edir. Rayonun şərq qurtaracağı Qobustan, cənubu isə Kür-Araz ovalığına keçir. Dağlıq Şirvanın relyefi üçün (xüsusən Qobustanda) palçıq vulkanları səciyyəvidir. Rayonun ərazisi çox yüksək seysmikliyə malik olub, tərkibinə Şamaxı, İsmayıllı, Ağsu, Qobustan inzibati rayonları daxildir. Aran, Şəki-Zaqatala, Quba-Xaçmaz və Abşeron iqtisadi-coğrafi rayonları ilə həmsərhəddir.



Bu iqtisadi-coğrafi rayonun çayları ağsuludur. Burada bir sıra kiçik su anbarları (Aşıq Bayramlı, Yekəxana, Cavanşir) var. Pirqulu və İsmayıllı dövlət qoruqları artıq haqqında yuxarıda yazdığımız Şahdağ Milli Parkının tərkibinə daxil olub, bu iqtisadi-coğrafi rayonun ərazisində yerləşir.

İsmayıllı rayon ərazisində maraqlı, bənzərsiz və gözəl təbii mənzərələr, şırıltıyla axan Girdiman çayı, qədim Lahıc və Basqal yaşayış məntəqələri öz əsrarəngiz gözəllikləri ilə həmişə olduğu kimi turistləri bu gün də cəlb edir.

Burada ekoturizmin inkişafı üçün çox əlverişli şərait var: avtomobil yolları, rabitə xətləri, qaz kəməri və bu yaxınlarda istifadəyə verilmiş Oğuz-Qəbələ-Bakı su kəmərinin bu ərazidən keçməsi, Şamaxı rəsədxanası, Ağsu aşırımı və yeni tikilən istirahət kompleksləri bunu deməyə əsas verir.

### 10.4. Şəki-Zaqatala turizm bölgəsi

Şəki-Zaqatala iqtisadi-coğrafi rayonu Rusiya Federasiyası və Gürcüstanla həmsərhəddir. Tərkibinə Balakən, Zaqatala, Qax, Oğuz, Şəki, Qəbələ rayonları və respublika tabeliyində olan Şəki şəhəri daxildir.

Respublikamızdakı mis, kükürd, qurğuşun və sink ehtiyatlarının böyük bir hissəsi buradadır (Filizçay polimetal yatağı). Burada çayların gətirmə konuslarında bol miqdarda çınqıl, qum və digər tikinti materialları toplanıb. Dağlara yağan çoxlu yağışlar və qarın əriməsi rayon ərazisində tez-tez sel və daşqınlara səbəb olur. Burada ərazinin 27 %-i meşəlikdir. Zaqatala, İlisu və Qəbələ dövlət qoruqları da buradadır.

Şəki şəhəri yaxınlığındakı Kiş kəndindəki «Maxal» istirahət zonasında 4 ha sahədə 11 nömrəli mehmanxana eyni zamanda 30 nəfər qonaq qəbul edə bilir. İstirahət zonasında restoran və

kafe var, buradan ekskursiyalar və meşədə gəzintilər təşkil etmək olar.

Qax rayonu ərazisində «İlisu» Dövlət Qoruğunun sahəsi 9,2 min hektardır. Burada mühafizə olunan əsas obyektlər orta dağlıq qurşaqdakı meşələrdir. Burada təqribən 300 növ bitki, o cümlədən 90 növ oduncaq və kol bitkisi, bir sıra endemik və məhv olmaq həddində olan bitki növlərinə rast gəlmək mümkündür.

Rayon mərkəzindən 10 km məsafədə, Kumruxçay adlı dağ çayının sahilində «İlisu» pansionatında rahat kotteclər, yüksək səviyyədə servis xidmətləri təklif edilən mehmanxana kompleksi var.

Zaqatala rayonu ərazisində, Böyük Qafqaz sıra dağlarının cənub yamaclarında 1929-cu ildə yaradılmış «Zaqatala» Dövlət Qoruğunun 23843 ha sahəsi var. Qoruq dəniz səviyyəsindən 650-3646 metr yüksəklikdə yerləşir və həm Zaqatala, həm də Balakən rayonlarının ərazilərini əhatə edir. Burada qışda dağlara çoxlu qar yağır. Qoruğun flora və faunası çox zəngindir.

Rayonun inzibati mərkəzi sayılan Zaqatala şəhəri Talaçay çayının sahilində, dəniz səviyyəsindən 535 metr yüksəklikdə yerləşir. İqlim xüsusiyyətlərinə və gözəl təbiətinə görə bu əsl kurort şəhəridir. Burada 15 ha sahədə mədəniyyət və istirahət parkı salınmışdır. Çox maraqlı təbii abidə – 800 yaşlı çinar ağacı da buradadır.

Bura yay vaxtı gələnlər Car kəndi yaxınlığında yerləşən «Ləzzət» istirahət zonasının kotteclərində, Aşağı Tala kəndindəki «Tala» otelində və «Turqut» motelində qala bilərlər.

Azərbaycanın Şimal-Şərqində yerləşən, cənubdan və qərbdən Gürcüstanla, Şimaldan və Şərqdən Rusiya Federasiyası ilə həmsərhəd olan Balakən rayonu relyefinin təzadlı olması ilə seçilir: burada dağlar və düzənliklər bir-birini əvəz edir. Düzənlik yerlərdə mülayim isti, qışda quru, dağətəyi sahələrdə



yağıntıların müntəzəm paylanması ilə seçilən mülayim isti, dağlarda isə soyuq rütubətli qış müşahidə olunur.

Burada çoxsaylı dağ çayları, göz oxşayan mənzərələr, Katex dağının yaxınlığında gözəl bir göl var. Rayonun Şimal hissəsində ərazi başdan-başa meşələrlə örtülüdür. Haqqında yuxarıda yazdığımız «Zaqatala» Dövlət Qoruğunun yarıdan çox hissəsi də bu rayondadır. Qoruğun florasına 1000-dən çox bitki daxildir ki, bunların içərisində nadir bitkilər və dərman bitkiləri də var. Bu yerlərin faunası da zəngindir. Qara rəngli Qafqaz meşə xoruzunun burada geniş yayılması xüsusi qeyd olunmalıdır.

### 10.5. Kiçik Qafqaz turizm bölgəsi

Kiçik Qafqaz coğrafi rayonunun tərkibinə respublika tabeliyində olan Gəncə, Naftalan, Xankəndi, Şuşa şəhərləri və 20 inzibati kənd rayonu daxildir. Dünyanın ən qədim insan məskənlərindən biri olan Azıx mağarası (Füzuli rayonu) burada yerləşir. Naftalanda çıxan müalicə neftinin əsasında böyük kurort sanatoriya kompleksi tikilmişdir. Dağlıq ərazilərin çayları böyük hidroenerji ehtiyatına malikdir. Burada Ağstafaçay dəryaçası, Şəmkir və Sərsəng su anbarları var. Məşhur Göygöl, Hacıkənd, Şuşa, İstisu istirahət-müalicə bazaları burada dağ-meşə və dağ-çəmən landşaft qurşağında yerləşir. Kür çayı sahilindəki tuqay meşələrinin sahəsi Mingəçevir, Şəmkir, Yenikənd, su anbarlarının tikintisindən sonra çox kiçilsə də, düzən ərazinin flora və faunasının saxlanmasında onların rolu böyükdür.

Göygöl rayonu Kiçik Qafqaz dağlarının ətəklərində, Gəncədən bir qədər cənubda yerləşir. Son dərəcə mənzərəli olması ilə diqqəti cəlb edən bu rayonda iqlim mülayim istidir. Burada quşların yuva yerləri xüsusilə çoxdur. Gəncəçay və Quşqara çayları balıqla zəngindir. Rayonun ən uca nöqtəsi dəniz səviy-

yasindən 3724 m yüksəklikdə yerləşən Murovdağ silsiləsidir. Ərazi turistlər, xüsusən də ekoturistlər arasında çox məşhurdur.

Gəncə şəhəri – Gəncə-Qazax ovalığında Gəncəçayın sahillərində yerləşir. Çay şəhəri iki hissəyə bölür. Burada iki iqlim tipi – mülayim-isti yarımsəhra və quru çöl iqliminin, həmçinin mülayim isti iqlim tipinin bir növ sərhədidir.

1139-cu ildə baş vermiş zəlzələ zamanı Kəpəz dağının zirvələrindən biri uçaraq bu ərazidən keçən Ağsu çayının qabağını kəsmiş və indiki Göygöl gölü yaranmışdır.

Kiçik Qafqazın orta dağlıq, meşəlik və qismən subalp qurşaqlarının ekoloji sistemlərinin, eləcə də Göygöl, Maralgöl, Zəligöl və digər dağ göllərinin mühafizə edilməsi və öyrənilməsi məqsədilə 1925-ci ildə Azərbaycanda ilk qoruq olan «Göygöl» Dövlət Qoruğu yaradılmışdır. Bu qoruq meşələrdən və dağ çəmənliklərindən ibarətdir.

Qafqazda ilk qoruq kimi tanınan «Göygöl» Dövlət Qoruğu aralarında 80-85 km məsafə olan iki hissədən ibarətdir: əsas hissə və «Eldar Şamı meşəsi» adlanan filial. Qeyd etmək lazımdır ki, ölkəmizin endemik bitkisi sayılan Eldar Şamı təbii halda dünyada yalnız burada bitir.

Gəncə şəhərindən bir qədər cənubda Murovdağın şimal ətəklərində, dəniz səviyyəsindən 1566 m yüksəklikdə yerləşən Göygöl haqlı olaraq Azərbaycan göllərinin incisi sayılır. Öz füsunkar gözəlliyi və cazibədarlığı ilə bu yerlər həmişə turistləri cəlb etmiş və ekoturizm üçün ölkəmizin ən perspektivli ərazilərindəndir.

Bu coğrafi rayonun böyük bir hissəsi ermənilər tərəfindən işğal edilmiş və həmin ərazilər ekoloji cəhətdən soyqırıma məruz qalmışdır. Təəssüflər olsun ki, işğal faktı bu gün də qalmaqdadır.



## 10.6. Gəncə-Qazax turizm bölgəsi

Gəncə-Qazax iqtisadi-coğrafi rayonunun tərkibinə Qazax, Ağstafa, Tovuz, Gədəbəy, Şəmkir, Daşkəsən, Samux, Göygöl, Goranboy rayonları və respublika tabeliyində olan Gəncə və Naftalan şəhərləri daxildir. Rayon iqtisadi-coğrafi mövqe cəhətdən çox əlverişlidir.

Daşkəsən rayonu ölkəmizin filiz hasilatı mərkəzi olub, Kiçik Qafqazın Şimal-şərq ətəklərində yerləşir. Burda temperatur çox kəskin dəyişir. Qışda – $20^0$C-yə qədər şaxta, yayda isə +$35^0$C-yə qədər isti müşahidə olunur. Rayonda olan təmiz hava, alp çəmənlikləri ilə zəngin olan dağ otlaqları və bulaqlar həm turistləri, həm də sadəcə istirahət etmək istəyənləri bura cəlb edir. Bu rayonun Xoşbulaq kəndi ətraf ərazilərdə yaşayanların ən çox xoşladığı yerdir.

Qeyd etmək lazımdır ki, Daşkəsən rayonu ərazisində də "Qış-yay turizm kompleksi"nin tikilməsi planlaşdırılır.

Gədəbəy rayonu Kiçik Qafqaz dağlarında, o cümlədən yüksək dağlıq və orta yüksəkliyə malik olan dağlarda yerləşir. Burada ərazinin dəniz səviyyəsindən yüksəkliyinin müxtəlif olması iqlim şəraitinin də müxtəlif olmasını şərtləndirir. Belə ki, Qoşabulaq zirvəsinin hündürlüyü 3549 m, Qocadağ zirvəsinin hündürlüyü isə 3317 m-dir. Dağlıq ərazidəki tundraya xas olan iqlim tədricən qızmar yay fəsli ilə müşahidə olunan quru iqlimə keçir.

«Azərbaycanın təbiət abidələri» kimi dövlət tərəfindən mühafizə olunan obyektlərin siyahısına daxil olmuş bir neçə təbii obyekt – Şamlıq, Qamış, Gödəkdərə, Qovdu meşələri; Keçi-keçi, Cüyür, Ayı, Cərgə bulaqları; Narzan, Qızılca, Mormor, Çaldaş mineral su bulaqları bu rayonun ərazisində olduğu üçün burada ekoturizmin çox böyük inkişaf perspektivləri mövcuddur.

Tovuz rayonu respublikanın qərbində yerləşir. Qonşu Gürcüstan və Ermənistanla həmsərhəddir. Kür, Axınca, Tovuz, Zəyəm və digər çaylar bu rayonun ərazisindən keçir. Dağ yamaclarında çoxlu meşələr, bulaqlar, zəngin bitki və heyvanlar aləmi (canavar, tülkü, dovşan, turac, kəklik) var.

Burada yaxşı nəqliyyat infrastrukturu, müasir rabitə qovşağı, elektrik, qaz və su təchizatının qənaətbəxş olması, rayonun əlverişli coğrafi mövqeyi turizmin inkişafı üçün yaxşı zəmin yaradır.

Ağstafa rayonu Böyük Qafqaz dağlarının ətəklərində, Gürcüstan və Ermənistanla sərhəddə yerləşir. İqlimi mülayimdir. Rayon ərazisindən bir neçə kiçik çay və Kür çayının qolu olan Ağstafaçay axır. Candargöl gölü də burada yerləşir. Ağstafa şəhərindən təqribən 20 km məsafədə yerləşən Tatlı kəndində olan Gəlaçma bulağı həm yerli sakinlərin, həm də turistlərin sevimli istirahət yeridir.

Kürətrafı zonalardakı tuqay meşələrini, Qarayazı ovalığını və Kür çayının orta axarını qorumaq və bərpa etmək üçün 1978-ci ildə Kür çayının sahilində 4,9 min ha sahədə Qarayazı Dövlət Qoruğu yaradılmışdır. Qoruqda mühafizə edilən əsas obyekt – tuqay meşələri massividir.

1923-cü ildə 12000 ha sahədə yaradılmış və Ağstafa rayonu ərazisində yerləşən «Qarayazı-Ağstafa» yasaqlığının yaradılmasında əsas məqsəd Qafqaz maralını, turacı, qırqovulu və digər nadir heyvan və quş növlərini qoruyub saxlamaq və onların sayını artırmaqdır. Yasaqlıq Kür çayının orta axarındakı tuqay meşələri zonasında, Gürcüstanla sərhəddə yerləşir.

Gözəl təbiəti, zəngin flora və faunası bu yerlərdə ekoturizmin inkişafına əlverişli şərait yaradır.

Qazax rayonu respublikamızın qərb sərhədlərinin yaxınlığında yerləşir. Bu rayonun relyefi-dağlar, vadilər, çaylar (Kür, Ağstafaçay, Coqaz, Xramçay) əraziyə əsrarəngiz gözəllik verir.



Mülayim iqlim və münbit torpaqları burada çox zəngin flora və faunanın formalaşmasına səbəb olmuşdur.

Qarayazı Dövlət təbiət qoruğu Azərbaycanın Şimal-qərb hissəsində Kür çayının sol sahilində, Qazax rayonu ərazisində yerləşir. Bu qoruq 1978-ci ildə təşkil edilmişdir. Sahəsi 4860 hektardı, o cümlədən 3480 hektarı Kürqırağı tuqay meşəlikləridir. Burada nadir Qafqaz xurması, cır nar, meşə üzümü, maral, ağquyruq qartal, məzar qartalı, qara leylək, qızılxallı balıq (forel) və s. növlər «Qırmızı kitab»a daxil edilmiş bitki və heyvanlardır. Azərbaycanda tuqay meşə kompleksinin qorunub saxlanmasında Qarayazı qoruğunun əhəmiyyəti böyükdür. Qoruğun sahəsindən keçən Kür çayınm yatağı və onun sahillərindəki subasar yerlər və axmazlar nadir və qiymətli bitki və heyvanlar üçün əvəzsiz yaşama yeridir.

Bu regionun iki müstəqil inzibati rayona – Qazax və Ağstafa rayonlarına bölünməsinə baxmayaraq burada turizm ehtiyatları və ekoturizmin inkişafı üçün lazım olan şərait hər iki rayonda demək olar ki, eynidir. Qazax rayonu ərazisində qədim insanların məskunlaşdığı ərazilər çoxdur: Avey dağında, Daş Salahlı və Kəmərli kəndləri arasında, İncəsu çayının vadisində, Kiçik Qafqazın Şimal-Şərq yamaclarında neandertalların məskunlaşdığı təbii mağaralar, Avey dağındakı Damcılı mağarasının yaxınlığında kromanyon adamlarının məskənləri təbii tarixi abidə kimi təkcə yerli turistlərin deyil, həm də xarici turistlərin böyük marağına səbəb ola bilər.

### 10.7. Kəlbəcər-Laçın turizm bölgəsi

Kəlbəcər-Laçın iqtisadi-coğrafi rayonunun tərkibinə Kəlbəcər, Laçın, Qubadlı, Zəngilan rayonları daxildir. Rayon Ermənistan və İranla həmsərhəddir. Ərazi əsasən vulkanik olub, Qarabağ vulkanik yaylasını, Qarabağ dağlarının qərb yamaclarını, Şərqi Göyçə dağlarını və Arazyanı maili düzənlikləri

əhatə edir. Rayon erməni işğalçıları tərəfindən 1992-1993-cü illərdə işğal olunmuşdur. İşğalçılar təkcə insanlara deyil, həm də təbiətə-flora və faunaya qarşı soyqırım həyata keçirmiş və işğal faktı bu gün də davam edir.

Yuxarı Qarabağ iqtisadi-coğrafi rayonunun tərkibinə Ağdam, Şuşa, Tərtər, Xocalı, Xocavənd, Füzuli, Cəbrayıl rayonları, Xankəndi və Şuşa şəhərləri daxildir.

Rayon müxtəlif təbii şəraitə və ehtiyatlara malikdir. Ərazinin çox hissəsini Qarabağ silsiləsi tutur ki, bu da əsasən Mezozoyun vulkan və qismən çökmə suxur qatlarından təşkil olunmuş orta dağlığı əhatə edir. Ziyarət və Böyük Kirs (2725 m) yüksək dağlığa aiddir. Əhəng daşı qatlarından əmələ gəlmiş təbii qala sayılan Şuşa yaylası və Daşaltı konyonu buradadır. Dağətəyi düzənlikdə quru subtropik iqlim hakim olmaqla yağıntıların illik miqdarı 400 mm-ə çatır. Dağlıq ərazilər isə mülayim dağ iqlim tipində yerləşir və burada yağıntı 800 mm-ə qədər artır.

Yuxarı Qarabağda mineral sulardan Turşsu və Şırlan sənaye əhəmiyyətlidir. Şuşa şəhəri yaxınlığında gözəl İsa bulağı hər kəsi heyran qoyur.

Ağdam, Tərtər və Füzuli rayonlarının bəzi kəndləri istisna olmaqla bu iqtisadi-coğrafi rayonun qalan əraziləri Ermənistan ordusu tərəfindən işğal edilmişdir.

### 10.8. Aran (Kür-Araz) turizm bölgəsi

Aran (Kür-Araz) iqtisadi-coğrafi rayonunun tərkibinə Yevlax, Ağdaş, Ucar, Göyçay, Kürdəmir, Hacıqabul, Zərdab, Bərdə, Ağcabədi, Beyləqan, İmişli, Saatlı, Salyan, Sabirabad, Biləsuvar, Neftçala inzibati rayonları, respublika tabeliyində olan Mingəçevir, Yevlax və Şirvan şəhərləri daxildir.

Bu iqtisadi-coğrafi rayonun mühüm təbii sərvətlərindən olan tuqay meşələri (Kür və Araz çayları boyu ensiz zolaq şəklində uzanan) çox yerdə qırılmışdır. Quru subtropik iqlimi olan bu



ərazi bol aqroiqlim ehtiyatına malikdir. Lakin bütün rayon ərazisində yağıntıların illik miqdarı (200-300 mm) mümkün buxarlanma miqdarından 4-5 dəfə azdır. Burada yazın axırı və yay ayları çox quraq keçir.

Hacıqabul rayonu Kür-Araz ovalığındakı bərəkətli qədim Muğan diyarının və Şirvanın bir hissəsini tutur. İqlimi yarımsəhra, quru və isti, qış ayları mülayim keçir. Bu aylarda havanın temperaturu adətən +6 $^0$C-dən aşağı olmur. Burada yağış az yağır. Lakin Kür çayının axarı boyunca tuqay meşələri və kolluqlar var.

Xəzər dənizinin müəyyən geoloji dövrdə təbii çəkilməsi nəticəsində yaranmış Hacıqabul gölü bu rayonun ərazisindədir. Yaz vaxtı Kür çayının daşması nəticəsində gölün sututar sahəsi genişlənmişdir. Dərinliyi 5 metrdən çox olmayan bu göl adətən, qışda donmadığı üçün köçəri nadir quşların qışlaması və su-bataqlıq quşlarının yuva qurması üçün münasib yer kimi əhəmiyyətlidir.

Kürdəmir rayonu Bakıdan şimal-qərb istiqamətində Azərbaycanın tarixi vilayəti olan Şirvanda yerləşir. Burada yay isti və quraqlıq keçir. İqlimi çöl iqlimi sayılır. Burada özünəməxsus flora və fauna var. Bu ərazilər tarixən qışlaq yerləri olmuşlar.

XX əsrin II yarısında neft axtarışı ilə rayonun Kür çayına yaxın yerlərində – Mollakənd kəndi yaxınlığında qazılmış neft quyusundan çıxan və temperaturu +90$^0$C-yə yaxın olan isti su öz müalicəvi xüsusiyyətləri ilə bir çox xəstəliklərin dərmanı olduğu üçün burada Kürdəmir sanatoriyası tikilmişdir. Rayonun ərazisində nəqliyyat və rabitə qovşaqlarının mövcudluğu, restoran, kafe və otellər turizmin inkişafına zəmin yaradır.

Yevlax rayonu Kür çayının sağ sahilində yerləşir və keçmiş Gəncə xanlığının ərazisi olduğu üçün el arasında Gəncəbasar adlandırılır. Ümumiyyətlə, Gəncəbasar bölgəsi Azərbaycanın bir

neçə rayonunu birləşdirir ki, onların da oxşar coğrafi-iqlim şəraiti və müştərək tarixi vardır.

Bakıdan 280 km məsafədə yerləşən və rayonun inzibati mərkəzi olan Yevlax şəhəri çoxsaylı yolların kəsişdiyi ərazidə yerləşir. Buradan Mingəçevir, Şəki, Balakən, Gəncə və Xankəndi şəhərləri istiqamətində birbaşa yollar gedir. Təsadüfi deyildir ki, bu yerlər XII əsrə aid yazılı mənbələrdə «Qarabağın qapısı» adlandırılmışdır.

Salyan rayonu Azərbaycanın cənub-şərqində yerləşir və Lənkəran-Astara regionunun qapısı sayılır. Respublikanın əsas çaylarından sayılan Kür çayı rayonun ərazisindən axır. Rayonun şərq hissəsi Xəzər dənizinin sahillərinə qovuşur.

1969-cu ildə Şirvan ovalığının səciyyəvi bitki kompleksinin qorunub saxlanması və çoxaldılması məqsədilə, yarımsəhra və sulu-bataqlıq ekosistemi ilə seçilən ərazidə Şirvan Dövlət Təbiət Qoruğu yaradılmışdır.

Kür-Araz ovalığının cənub-şərqi Şirvan düzənliyində ümumi sahəsi 65580 ha olan xüsusi mühafizə olunan təbiət ərazisinin 54373,5 hektarında 2003-cü ildə Bakı şəhərinin Qaradağ, Salyan və Neftçala rayonlarının ərazilərində yarımsəhra landşaftının başlıca komponentlərini, Azərbaycan Respublikasının «Qırmızı Kitab»ına düşmüş ceyranları və o ərazi üçün səciyyəvi olan fauna növlərini qoruyub saxlamaq, ekoloji monitorinqi həyata keçirmək, əhalini ekoloji maarifləndirmək, turizm və istirahət üçün şərait yaratmaq məqsədilə Şirvan Milli Parkı yaradılmışdır. Hazırda ovalığın 6232 hektarında Şirvan Dövlət Təbiət Qoruğu və 4930 hektarında Bəndovan Dövlət Təbiət Yasaqlığı yerləşir.

Ərazidə yayı quraq keçən mülayim-isti yarımsəhra və quru bozqır tipli iqlimi hakimdir. Burada şərqdən Xəzər dənizi, şimaldan Baş Şirvan kollektoru, bir sıra digər kollektorları, Çala (Qızılqaz) gölü və s. olması, onların suyunun qışda donmaması bu yerlərdə yaşayan ceyranları su ilə tam təmin edir. Bu həm də quşlar üçün çox əhəmiyyətlidir.



Milli Parkda qaraşoranlı, şahsevdi və duzlaq-çoğanlı yarımsəhra bitkiləri və çərənli-yovşanlı, yovşanlı-efemerli, yovşanlı, xos təkli, dənli-müxtəlif otlu, efemerli, sahil qumlu və çalaçəmən (dəvəotlu) bitki formasiyaları daha çoxdur.

Şirvan Milli Parkında suda-quruda yaşayanların 4 növünə rast gəlmək olar. Bu heyvanlar: Suriya sarımsaqiyli qurbağa, yaşıl quru qurbağası, Kiçik Asiya ağac qurbağası və göl qurbağasıdır.

Bu yerlərin heterofaunasını 17 növ sürünən heyvanlar təşkil edir ki, bunlardan 3 növü tısbağa, 6 növü kərtənkələ və 8 növü ilanlardır. Tısbağalar: Aralıq dənizi və ya quru tısbağası, Xəzər tısbağası, bataqlıq və ya çay tısbağasıdır. Kərtənkələlər: Xəzər gekkonu, koramal, cəld kərtənkələcik, rəngbərəng kərtənkələcik, zolaqlı kərtənkələ, zərif ilanbaş kərtənkələdir. İlanlar: kor ilan, adi suilanı, suilanı, Zeytuni təlxə, qızılı təlxə, xaltalı eyrenis, kələz ilan və cənubi Qafqaz gürzəsidir.

Parkda 230 quş növü qeydə alınmışdır. Belə zənginlik Milli Parkın quşların miqrasiya yolunda yerləşməsi və ərazisində quşların yaşayışı üçün biotopların müxtəlifliyi ilə əlaqədardır.

Quşların miqrasiyası və qışlama dövründə göllərin və dənizin dayaz yerlərində əsasən yaşılbaş ördəklər, fitçi cüzə, boz ördək, marek, bizquyruq, cırıldayan cürə, enliburun ördək, flaminqo, fısıldayan qu, qaşqaldaq, dərin su sahələrində isə qırmızıburun, qırmızıbaş, kəkilli və dəniz dalğıcları, güləyən ördək və digər ördək növləri var.

Yırtıcı quşlardan çay qaraquşu, ağquyruq dəniz qartalı, çöl sarı, adi sar, çöl qartalı, böyük qartalça, məzar qartalı, ütəlgi, şahin və s. növlərə az da olsa rast gəlinir. Oturaq quş növü olan turac Milli Parkın cənub-qərb və cənub-şərq hissəsində çox kiçik sahələrdə yayılmışdır.

Şirvan Milli Parkının ərazisində məməli heyvan növlərindən ağdöş və qulaqlı kirpilər, itiqulaq, bığlı, cırtdan və Küli şəbpərələri, ictimai çöl siçanı, qırmızıquyruq qum siçanı, boz

dovşan, canavar, çaqqal, tülkü, gəlincik, safsar, porsuq, qamışlıq pişiyi, çöl pişiyi, çöl donuzu və ceyran yayılmışdır. Burada məməlilər faunasının özəyini təşkil edən həmin növlərdən ceyran, safsar və çöl pişiyi respublikamızın «Qırmızı Kitab»ına daxil edilmişdir.

Salyan rayonunda rayon mərkəzindən 5 km məsafədə Azərbaycanın çoxsaylı palçıq vulkanlarından biri olan Babazanan vulkanı yerləşir. Bu vulkandan püskürən palçığın müalicəvi xassəsi yay aylarında yerli sakinləri özünə cəlb edir. Rayon mərkəzinə çatmağa az qalmış Daşgil adlanan ərazidə dəniz sahilinin yaxınlığında daha bir palçıq vulkanı nəzərə çarpır. Daşgil yasaqlığı da burada yerləşir. Yasaqlıq ov mövsümü zamanı su quşları ovlamaq, kütüm, sazan və Xəzər dənizində yaşayan digər balıq növlərini ovlamaq üçün münasib yerdir.

Rayonda enerji, nəqliyyat və rabitə infrastrukturları yaxşı formalaşdırılmış, çoxsaylı restoran, kafe və otellər tikilmişdir ki, bütün bunlar regionda ekoturizmin inkişafına gözəl zəmin yaradır.

Ağcabədi və Beyləqan rayonlarının inzibati ərazisində yerləşən Ağ göl Milli Parkı Ağgöl və onun ətraf sahələrini tutur. Milli parkın yaradılmasında əsas məqsəd mühüm su-bataqlıq ərazilərini, həmin əraziyə xas olan yarımsəhra landşaftını, göldə və onun ətrafında məskunlaşmış nəsli kəsilmək təhlükəsi altında olan fauna növlərini qorumaq, ərazi üçün xarakterik olan bəzi fauna növlərini keçmiş ərazilərinə reintraduksiya etmək, eləcə də ətraf mühitin monitorinqini, əhalinin ekoloji cəhətdən maarifləndirilməsini və ekoturizmin inkişafını təmin etməkdir.

Ağ göl respublikamızın ən məşhur çöl-göl ekosistemi olub, köçəri və yerli quşların və digər heyvanların məskunlaşdığı ərazilərdən biridir. Bu gölün qorunmasının beynəlxalq əhəmiyyəti vardır. Belə ki, göldə adları Beynəlxalq Təbiəti Mühafizə İttifaqının «Qırmızı Siyahı»sına və Azərbaycan



Respublikasının «Qırmızı Kitab»ına daxil edilmiş quşların məskunlaşması ilə bağlıdır.

Ağ göl mühüm su – bataqlıq ərazisi kimi miqrasiya edən quş növlərinin qışlama yeri olub, «Əsasən su quşlarının yaşama yerləri kimi beynəlxalq əhəmiyyəti olan sulu – bataqlıq yerlər haqqında» Ramsar Konvensiyasının «Ramsar Siyahı»sına salınmışdır.

Gölün qorunmasında ilk addım 1964-cü ildə 9173 ha sahədə Ağ göl Dövlət Təbiət Yasaqlığı yaradılarkən atılmışdır. 1978-ci ildə gölün 4400 hektara bərabər olan su ərazisinə ciddi qorunma statusu verilmiş və Ağ göl Dövlət Təbiət Qoruğu yaradılmışdır.

2003-cü ildə Ağ göl Dövlət Təbiət Qoruğunun sahəsi 17924 hektara qədər artırılmış və ərazi Milli Park elan edilmişdir.

Milli Parkın ərazisində yayı quraq keçən yarımsəhra və quru bozqırların mülayim-isti tipi hökm sürür. Belə iqlim şəraiti burada quşlar və məməlilərin məskunlaşması üçün əlverişli şərait yaradır. Gölün suyunun bəzən donması qış aylarında quşların qışlaması üçün çətinliklər yaradır.

Ağ göl Milli Parkında quşlardan: mərmər cürə, turac, bəzgək, qara leylək, böyük və kiçik qarabatdaqlar, haraycı və fısıldayan qu quşları, Misir vağı, çobanaldadan, böyük su fərəsi, sultan toyuğu, ərsindimdik, qıvrımlələk qutan, ağquyruq dəniz qartalı, ağgöz dalğıc, adi qızılqaz, yaşılbaş ördək, qazlar (boz, qaşqa və qırmızıdöş) və s. məskunlaşmışdır.

Burada suda-quruda yaşayanlardan yaşıl quru qurbağası, Kiçik Asiya qurbağası, göl qurbağasına; sürünənlərdən Aralıq dənizi tısbağası, Xəzər tısbağası, koramal, zolaqlı kərtənkələ, adi suilanı, qızıl təlxə, xaltalı eyrenis, gürzə; bitki növlərindən duzlaq çoğanı, qışotu, qamış, şahsevdi, sarıbaş, qaraşoran, yovşan, qırtıc və s. rast gəlinir.

## 10.9. Lənkəran-Astara turizm bölgəsi

Astara, Lənkəran, Lerik, Masallı, Yardımlı və Cəlilabad rayonları daxil olmaqla bir iqtisadi vahid təşkil etsə də, burada olan hər bir rayonun özünəməxsusluğu vardır. Bu rayonlarda ekoloji turizmin inkişaf perspektivləri baxımından: turizm infrastrukturunun mövcudluğu, nəqliyyat əlverişliliyi, təbii-tarixi yerləri və s. orada turizm potensialını aşkar etməyə imkan verir.

Bu bölgə Azərbaycanın cənub-şərqini əhatə edərək, cənubdan İran İslam Respublikası sərhədi ilə, qərbdən və cənub-qərbdən Talış dağları, şərqdən Xəzər (gölü) dənizi və şimaldan Kür-Araz ovalığı ilə hüdudlanmışdır. Regionun ümumi ərazisi 6,07 min $km^2$-dir ki, bu da respublika ərazisinin 7 %-i deməkdir.

Xəzəryanı ovalıqda yerləşən Astara, Lənkəran, Masallı, eləcə də Cəlilabad rayonlarında özünəməxsusluğu ilə seçilən, yayı quraq keçən və ilin digər fəsillərində yağıntılı və rütubətli yarı-subtropik iqlim şəraiti mövcuddur. Orta illik temperatur +14,2$^0$C-dir. İlin ən soyuq ayı olan yanvarın orta temperaturu +3,4$^0$C, ən isti ayı olan iyulun orta temperaturu isə +25,1$^0$C-dir. Düzənlik ərazilərdə temperaturun mənfiyə düşməsi hallarına daha çox yanvar ayında rast gəlinir. Yay ayları üçün daha çox +30+40$^0$C istilik xarakterikdir. Orta illik yağıntının miqdarı 1146 mm-dir. Lakin cənubdan şimala doğru bu göstərici 1600 mm-dən 900 mm-ə qədər azalır.

Nisbətən dağlıq ərazilər olan Yardımlı və Lerik kimi rayonlarda temperatur ümumilikdə aşağı düşür. Burada yanvarda – 20$^0$C, iyulda isə +40$^0$C müşahidə etmək mümkündür. Talış dağlarının sıldırım yamaclarında nisbətən aşağı rütubətli, qışı soyuq, yayı isti keçən yarımsəhra və quru çöl iqlimi mövcuddur. Dekabr və yanvar aylarında burada dayanıqlı qar örtüyünə də rast gəlmək mümkündür.



Bu regionun mərkəzi sayılan Lənkərandan cənuba doğru hərəkət etdikdə Astaraya, qərbə doğru Lerikə, Şimala doğru Masallıya getmək olar. Masallıdan isə cənub-qərbə doğru hərəkət etdikdə Yardımlıya və daha şimala doğru getdikdə Cəlilabada çatmaq olar.

Bu yerlərə səyahətin ən münasib vaxtı turistin nə etmək istəyindən asılı olaraq dəyişir: çimərlikdə dincəlmək üçün ən yaxşı vaxt iyun ayından avqust ayının axırına qədərdir. Lakin unutmaq olmaz ki, bəzən iyun ayında ildən asılı olaraq Xəzər dənizinin suyu bir qədər soyuq olur. Həmçinin yayın istisindən qurtulmaq üçün bu dövrdə dağlıq ərazilər çox əlverişli iqlimə malik olur.

Ölkəmizin yaşıllıqlara bürünmüş bölgələrindən olan Lənkəran rayonu Xəzər dənizinin cənub-qərb sahilində, eyni adlı çayın Xəzər dənizinə töküldüyü yerdə yerləşir. Rayonun ərazisi 1539 $km^2$-dir. İnzibati baxımından Lənkəran Astara, Masallı, Lerik inzibati rayonları ilə əhatə olunmuşdur. Relyefinə görə rayon əsasən düzənlik və müəyyən qədər dağlıq hissədən ibarət olmaqla cənuba doğru tədricən ensizləşir.

Rayonun iqlimi rütubətli subtropikdir. Ən isti ay iyul (+40$^0$C), ən soyuq ay isə yanvardır (3-4$^0$C).

Füsunkar mənzərəli təbiətə, nadir bitki aləminə malik olan Lənkəran rayonunun zəngin florası və faunası var. Talış dağlarında bitən relikt və endemik ağaclar bütün dünyada məşhurdur. Dəmirağacı, azat, ipək akasiya, palıd, evkalipt, mantar ağacı, məxmər rəngli ağcaqayın, nil, hirkan şümşadı haqlı olaraq Lənkəran florasının inciləri sayılır.

Təbiət bu bölgəyə bütün gözəllikləri – əzəmətli dağları, mavi dənizi, yaşıl meşələri bəxş etməklə yanaşı, bu yerlərdə insanların sağlamlığının qayğısına da qalmışdır. Rayonun dağlıq ərazilərində 3 müalicəvi əhəmiyyətli bulaq vardır ki, onların mineral tərkibli isti suyu insanları müalicə edir.

Zəngin flora və faunası ilə məşhur olan və bir hissəsi Lənkəran rayonunun ərazisində yerləşən Hirkan Milli Parkı, Qızılağac qoruğu və Kiçik Qızılağac yasaqlığı bölgənin zəngin təbiət muzeyləridir.

Qızılağac Dövlət Təbiət Qoruğu 1929-cu ildə köçəri, su, bataqlıq və çöl quşlarının qışlaması, artırılması və qorunması məqsədi ilə Xəzər dənizi sahilinin cənub-qərbində 88,4 min hektar ərazidə yaradılmışdır. 1976-cı ildə qoruq YUNESKO-nun «əsasən su quşlarının yaşama yerləri kimi beynəlxalq əhəmiyyətli olan Sulu-bataqlıq yerlər haqqında» Konvensiyanın su bataqlıq regionunun biri kimi siyahısına daxil edilmişdir. Müstəqil dövlət elan edildikdən sonra Azərbaycan həmin Konvensiyaya qoşulmuş və 2001-ci ildə yenidən Beynəlxalq Əhəmiyyətli Sulu Bataqlıq Yerləri Siyahısına daxil edilmişdir. Qoruqda və sərhəd ərazilərdə respublikanın «Qırmızı Kitab»ına düşən quşların əksər növləri müşahidə olunur. Burada 248 növ quşlara rast gəlmək olar. Qoruq Kür-Araz və Lənkəran ovalıqlarında yerləşir. Qoruq Böyük Qızılağac və kiçik Qızılağac körfəzinin Şimal hissəsinin su sahəsini və sahilyanı ərazini əhatə edir. Qoruğun Şimal hissəsində mülayim və mülayim-isti iqlim, cənub hissəsində isə mülayim quru, yay iqlimi hökm sürür. Bozyer-çəmən və çəmən bataqlıq torpaqları qoruğun quruluq sahəsində mövcuddur. Yerüstü flora qoruqda nisbətən kasıbdır. Belə ki, körfəzlərin sahilləri, şoran torpaqları, bataqlıqların hündür yerləri qamışlıqla, kolluqla örtülmüşdür. Ov quşlarının gizlənməsi üçün münasib şərait, məhz belə kolluqlarda yaradılır. Qərbi Sibirdən, Qazaxıstandan, Cənubi Uraldan, Şimali Avropadan qaz, ördək, durna, qaşqaldaq, bağ quşu, qutan quşu və başqa qışlamağa gələn quşların çoxalması üçün Qızılağac qoruğu çox faydalıdır. Burada qaban, canavar, porsuq, su samuru, tülkü və s. məməlilər məskunlaşmışdır. Qoruğun su hövzəsində 54 növ balıq vardır – siyənək, kütüm,



çəki, naxa, sıf, çapaq, kefal, xul və s. balıqlar mühüm sənaye əhəmiyyətlidir.

Kiçik Qızılağac Dövlət Təbiət Yasaqlığı sahəsi 10,7 min hektar olmaqla, 1978-ci ildə Lənkəran rayonunun ərazisində Kiçik Qızılağac körfəzinin orta və cənub hissəsində yaradılmışdır. Buradakı su, bataqlıq və quru ərazilərinin köçəri və oturaq quşlarını qorumaq məqsədilə yasaqlıq yaradılmışdır. Kiçik Qızılağac körfəzi balıqlarla zəngindir və çoxlu sayda köçəri və oturaq quşların məskənidir. Yasaqlıqda quşlardan turac, dovdaq, mərmər cürə, dəniz qartalı, məzar qartalı, sultan toyuğu, ərsindimdik, qırmızıdöş qaz və s., məməlilərdən canavar, tülkü, çaqqal, qamış pişiyi, porsuq və s. növlərə təsadüf edilir. Bu yasaqlıq bilavasitə qızılağac qoruğu ilə həmsərhəddir.

Azərbaycanın ən rəngarəng və füsunkar təbiətli guşələrindən biri də Lerik rayonudur. Azərbaycanın cənub-şərq hissəsini əhatə edən, qərbdən canlı muzeyi xatırladan sıra dağlar və meşələrlə, Muğan torpağı ilə, cənubdan isə İranla həmsərhəd olan bu yerlərin gözəlliyindən göz doymur. Lerik rayonunun 1084 $km^2$ ərazisi, 74,3 min nəfər əhalisi var. Təbiət əzəmətli dağlardan tutmuş, təbii meşələr, büllur kimi saf sulu çaylar və şəlalələr, təmiz hava və bərəkətli torpaqlara qədər heç bir nemətini bu yerlərdən əsirgəməmişdir. Burada yayı quraq keçən mülayim isti yarımsəhra və quru çöl iqlimi üstünlük təşkil edir. Orta temperatur yanvarda +1-4$^0$C qədər, iyulda +12$^0$-22$^0$C-dir. Payız və qış fəsillərində əgər heç bir yerdə qara rast gəlməsək də Lerikə gəlib onu görmək olar. İstirahət zonaları kimi məşhur olan, tərkibində 30-a yaxın müalicəvi əhəmiyyətə malik mikroelementlər olan Bülüdül su bulağı rayon mərkəzindən 18 km və Zərinqala təbii istirahət zonası rayon mərkəzindən 20 km uzaqlıqdadır. Meşələrin əlçatmaz yerlərində, dağlarda bəbirə də rast gəlmək olar.

Sahəsi 15 min hektar təşkil edən Zuvand Dövlət Təbiət Yasaqlığı 1969-cu ildə Leriklə Yardımlı rayonlarının ərazisində

yaradılmışdır. Dağ quru bozqır şəraitində bezar keçisi, kəklik və s. heyvanlarının qorunması üçün yasaqlıq yaradılmışdır. Ərazinin bitki örtüyü çox kasıb olub, quru bozqır bitkiləri komplekslərindən təşkil olunmuşdur. Yasaqlıqda əsasən yabanı dənli və paxlalı-dənli bitki qrupları üstünlük təşkil edir, lakin ərazi heyvanlar aləmi ilə çox zəngin deyildir. Burada qaya keçisi, kaftar, çöl donuzu, dovşan, canavar, tülkü və s. heyvanlar yayılmışdır.

Astara rayonu İran-Azərbaycan sərhədində, Xəzər dənizinin sahilində yerləşir. Azərbaycanın ən mənzərəli yerlərindən biri olan Astaranın ərazisinin bir hissəsi Talış dağları, bir hissəsi isə ovalıqdır. Burada dağların bənzərsiz gözəlliyi və bu yerlərin təmiz havası qonaqları həmişə heyran edir. Rayonun ərazisi 616 $km^2$-dir.

Düzənlik və dağətəyi hissələr respublikamızın subtropik zonasına daxildir. Hündürlük artdıqca iqlimin dəyişməsi və temperaturun aşağı düşməsi baş verir. Xəzər dənizinin sahilində bu ərazilərdə gözəl qumlu çimərliklər çoxdur. Bu yerlərdə dənizin suyu digər ərazilərdən təmiz və şəffaf olması ilə fərqlənir.

Bu rayonun ərazisində olan Hirkan Milli Parkının giriş binası Lənkəran-Astara yolunun üstündə yerləşmişdir. Park Hirkan Dövlət Qoruğunun bazasında 2004-cü ildə yaradılmışdır. Talış dağlarının nadir təbii komplekslərini əhatə edən bu parkın ərazisinin çox hissəsini meşələr və şimal-qərbdən cənub-şərqə doğru uzanan sıra dağlar əhatə edir. Rayonda yayı quraq keçən mülayim-isti iqlim tipi vardır. Parkın ərazisində şərqdən-qərbə, doğru dağlara qalxdıqca əsasən dəmirağac, qismən də şabalıd-yarpaq palıd ağacları tədricən azalır və onları fıstıq meşələri əvəz edir.

Milli Parkın meşələrində ayıdöşəyi, Hirkan bigəvəri, Hirkan şimşadı, pırkal, müxtəlif lianalar geniş yayılmışlar. Bu bitkilərin çoxu Azərbaycanın «Qırmızı Kitab»ına daxil edilmişdir. Parkın



entamofaunası endemik növlərlə zəngindir. Ərazidə «Qırmızı Kitab»a düşmüş növlərdən tündqırmızı Talış uzunbığı, Talış brameyası, iri tənək hafı, Oxim qızılı kəpənəyi, Aleksandra sədəflisi, Talış məxməri kəpənəyi və digər həşərat növlərini görmək olar.

Bu ərazidə amfibiya (suda-quruda yaşayan) heyvan növlərindən adi triton, daraqlı triton, Suriya sarımsaqiyli qurbağası, Qafqaz xaçlıcası, adi quru qurbağası yayılmışdır. Milli Parkın ərazisində sürünənlərdən Aralıq dənizi tısbağası, zolaqlı çılpaqgöz kərtənkələ, girdəbaş yovşanlıq kərtənkələsi, xarabalıq kələzi, Eskulap ilanı və s. növlər vardır.

Azərbaycanın «Qırmızı kitab»ına daxil edilmiş qara leylək, məzar qartalı, qıvrımlələk qutan, turac, mərmər cürə, Talış qırqovulu, Hirkan arıquşusu, toğlugötürən və s. quşlar Hirkan Milli Parkının ornitofaunasına daxildir.

Ümumiyyətlə, ərazinin bitki aləminin zənginliyi burada heyvanat aləminin çoxnövlü və zəngin olmasına şərait yaradır. Burada məməlilərdən bəbir, xallı maral, vaşaq, porsuq, çöl donuzu, cüyür, yenot və s. növlərə rast gəlmək olar.

Bakıdan cənubda Lənkəran və İrana gedən əsas yol boyunca, bir tərəfdən Xəzər dənizi ilə, digər tərəfdən Talış dağları ilə əhatə olunmuş Masallı rayonu yerləşir. Relyefinə görə rayonu şərti olaraq, dağlıq və düzənlik hissələrə bölmək olar. Düzənlik hissə Lənkəran ovalığına, dağlıq hissə isə Talış dağlarına yaxın ərazini əhatə edir. Əhalisinin sayı 193 min nəfər, ərazisi 0,72 $km^2$ olan Masallı rayonu Lənkəran, Lerik, Yardımlı, Cəlilabad, Neftçala rayonları ilə həmsərhəddir. Fıstıq, vələs, dəmirağacı, qızılağacı, qızılağac, palıd və başqa qiymətli ağac növlərinin qorunub saxlanıldığı Qəriblər və Yenikənd meşə təsərrüfatları da zəngin bitki aləminə malik olan bu diyarda yerləşir. Rayonda, yay vaxtı buraya gələnlər üçün xüsusi əhəmiyyət kəsb edən müalicəvi təsirə malik olan kükürdlü su bulaqları çoxdur. Onların arasında revmatizm xəstəliyindən əziyyət çəkdiklərinə

görə müalicə üçün və sadəcə olaraq təbiətin gözəlliklərindən zövq almaq üçün buraya üz tutanlar üstünlük təşkil edirlər. Masallıda 1 $km^2$ əraziyə 254 nəfər əhali düşür ki, bu da orta respublika göstəricisindən 3 dəfə çoxdur.

İstisu rayonun məşhur yerləri arasında özünəməxsusluğu ilə seçilir. Dəmbəlov dağının döşündə, Viləş çayının sahilində qaynayan bu müalicəvi əhəmiyyətli su Masallı şəhərindən 13 kilometr aralıda, dəniz səviyyəsindən 1650 metr yüksəklikdə yerləşir. Yaranma tarixi haqqında heç bir şey bilinməyən, Şəfa ocağı olan bu suya adamlar həmişə min bir dərdin dərmanı olan möcüzə kimi baxıblar. Yerin çox dərin qatlarından isti halda (müsbət 50 dərəcədən yuxarı) çıxan bu suyun tərkibində hidrogen-sulfid, natrium-xlor, kalsium, maqnezium-hidrokarbonat və hər litrində 30 milliqram yod vardır. Bu su ilə yel, dəri, böyrək və sidik yolları, radikulit, prostat, hipertoniya, qara ciyər və öd yolları, sonsuzluq, mədə-bağırsaq və digər xəstəlikləri müalicə etmək mümkündür. Onu da qeyd etmək yerinə düşər ki, çox müalicəvi əhəmiyyətli su olan İstisu təsdiqlənmiş dərman kimi qablaşdırılaraq ölkənin apteklərində satılır.

Əvvəllər məhdud və primitiv şəkildə fəaliyyət göstərən «İsti su» illər keçdikcə şöhrətlənmiş, böyüyüb inkişaf etmişdir. Termal su şəlaləsi və asma körpünün də gözəllik verdiyi bu qeyri-adi yerdə istirahət üçün rahat otellər, müalicəvi vannalar, hər cür şəraiti olan sosial-məişət obyektləri yaradılıb.

Sanatoriyada dincələnlər və müalicə alanların Viləs çayındakı çimərliklərdə, dəryaçada qayıq gəzintisində, idman meydançasında günlərini şən keçirməklə bərabər, həmçinin Viləs çayının sahilində at və dəvə ilə gəzintiyə çıxmaq, qonşu Yardımlı rayonunun Tək-dam şəlaləsinə, Lənkəran, Astara və Lerikin görkəmli yerlərinə turist marşrutundan istifadə etmək imkanı var. Axşamlar isə rəqs meydançalarında turistlər və istirahət edənlər üçün xüsusi şənliklər təşkil olunur.



Əsasən Qızılağac körfəzi və «Pirman» adlanan sahələrdə yerləşən, respublikanın ən böyük və ən zəngin qoruqlarından olan Qızılağac qoruğunda adları «Qırmızı kitab»a düşən quşlar və heyvanlar qorunur. Qoruqda həmçinin dünyada ən nadir ağaclardan olan «qızılağac» ağacı (el arasında ona Razdar da deyilir) qorunur.

Ölkəmizin cənubunda, Talış dağları arasındakı çay vadisi boyunca yerləşən Yardımlı rayonunun ərazisi Talış dağlarının Şimal qərbindədir. Şimaldan, qərbdən və cənub qərbdən İranla həmsərhəd olan rayonun ümumi sahəsi 667 $km^2$, əhalisinin sayı 56,2 min nəfərdir. Dəniz səviyyəsindən 1000-1800 metr yüksəklikdə yerləşən Yardımlı rayonunun ərazisi əsasən dağlıqdır. Ərazinin gözəl təbiəti, çayları, bulaqları və çoxsaylı tarixi abidələri rayona qeyri-adi bir gözəllik bəxş edir. Yay aylarında havanın ən yüksək temperaturu 30-40$^0$C-yə qalxsa da, qış aylarında mənfi 20-25$^0$C-yə qədər düşür, torpaq başdan-başa qar örtüyü altında olur.

Zəngin flora və faunaya malik olan Yardımlı ərazisi buzlaşmaya məruz qalmadığı üçün üçüncü dövrün relikt və endemik ağac cinsləri – azat (nil ağacı), dəmirağac, şabalıdyarpaqlı palıd və birgöz zəngin kolları ilə zəngindir. Meşə və dağlarda müalicəvi əhəmiyyətli kəklikotu, itburnu, sancıotu, dəvədabanı, bağayarpağı, zirinc, qaragilə, baldırğan, gəvən, xarı bülbül və s. kimi nadir bitki aləmi, eləcə də canavar, çaqqal, porsuq, tülkü, qaban kimi vəhşi heyvanlar, kəklik, qırqovul, qartal və s. kimi nadir quşlar vardır.

Yardımlı rayonunu bütün dünyada tanıtdıran Yardımlı-Arus meterotidir. Arus meteoriti 1959-cu il noyabrın 24-də saat 8-də Yardımlı rayonunun Arus və Jiy kəndləri yaxınlığında yerə düşmüşdür. Düşərkən 5-10 saniyə davam etmiş güclü işıqlanma təqribən 2800 $km^2$ sahədə yayılmışdır. 6 qəlpəsi tapılmış bu meteoritin ən böyüyü 127 kq, ən kiçiyi 300 qram olmuşdur. Tərkibində az miqdarda nikel, qrafit və s. olan bu meteorit

keçmiş SSRİ ərazisinə düşən 3 ən böyük meteoritdən biridir. Meteoritin əsas qəlpələri Rusiyada saxlanılır

Dağ çayının üzərində ölkəmizdə analoqu olmayan, 28-30 metr hündürlükdə olan şəlalə yaxınlığında qeyri-adi istirahət zonası yaradılmışdır. Bu istirahət zonası Yardımlı rayonunun Zeynləzir kəndinin ərazisində, Yardımlı-Masallı avtomagistralının 25-ci km-də yerləşir. Rayon sakinlərinin və qonaqların sevimli istirahət yeri olan şəlalədən 1 km uzaqlıqda çayın aşağı hissəsində Lerikə gedən yol başlayır.

Dağların ətəyində yerləşən, hər tərəfdən meşələrlə, çoxsaylı çeşmələrlə əhatə olunmuş Perimbel kəndi də çox gözəl və məşhur yerdir. Tarixi abidə hesab edilən «Göz narı» adlanan çeşmə də bu ərazidə yerləşir. Kənd qoz və heyva ağacları ilə əhatə olunmuşdur və iki qədim qoçşəkilli daş müharibə abidəsinin arxasında giriş rolunu oynayır.

Ölkəmizdə 24 yasaqlıq haqqında hüquqi aktlar qəbul edilmişdir ki, bunlardan da biri Yardımlı rayonunda yerləşən Zuvand yasaqlığıdır. Qoruqlardan fərqli olaraq, yasaqlıqda bütün təbii kompleks deyil, onun bitki örtüyü, heyvan, quş və balıq növləri, nadir mağaralar, qeyri-adi hidroloji rejimiylə fərqlənən göllər, turizm və istirahət əhəmiyyətli mənzərəli yerlər, faydalı qazıntı, həmçinin tarixi-xatirə əhəmiyyəti olan əraziləri və s. kimi ayrı-ayrı komponentləri mühafizə edilir. Alar kəndi yaxınlığında, dəniz səviyyəsindən təxminən 2200 metrdən çox yüksəklikdə yerləşən Qız qalası tarixi abidəsi də bu yasaqlıqda mühafizə olunur. Onun ətrafında ancaq subalp çəmənliyinə aid bitkilər, xüsusilə kəklikotu, Sancı gülü, gəvən, Ködə və s. bitir.

Kür-Araz ovalığının sərhədində yerləşən Cəlilabad rayonu Şimaldan Biləsuvar, şərqdən Neftçala, cənubdan Masallı, cənub qərbdən Yardımlı rayonları, qərbdən isə İran İslam Respublikası ilə həmsərhəddir. Ərazisi 1441 $km^2$, əhalisi 176 min nəfər olan rayonun ərazisi düzənlik və alçaq dağlıqdır, şərq hissəsində bəzi yerlər dəniz səviyyəsindən aşağıdır. Yayı quraqlıq keçən



mülayim-isti iqlimə malik rayonda orta temperatur qışda 1-3$^0$C, yayda isə 25-30$^0$C-dir. Təpəliklərin və ovalıqların çoxluğu ilə seçilən Cəlilabad rayonunda 14,7 min hektar meşə, habelə qışlaqlar vardır. Özünəməxsus relyefi ilə seçilən rayonun ərazisindəki meşələrdə müxtəlif heyvanlara və ov quşlarına rast gəlmək olar.

## 10.10. Naxçıvan turizm bölgəsi

Naxçıvan iqtisadi-coğrafi rayonun tərkibinə Muxtar Respublikanın tabeliyində olan Naxçıvan, Culfa və Ordubad şəhərləri, Babək, Culfa, Ordubad, Sədərək, Şərur, Şahbuz və Kəngərli inzibati rayonları daxildir. Rayon İran, Türkiyə və Ermənistanla həmsərhəddir.

Naxçıvan Muxtar Respublikası Dərələyəz dağlarının güney ətəklərində və Zəngəzur dağlarının günbatan səmtində yerləşir. Bura dağlıq ərazi olub, torpaqlarının 30 faizdən çoxu dəniz səviyyəsindən 600-1000 metr yüksəklikdə yerləşir. Bölgənin ən hündür dağları – Qapıcıq (3904 m) və İlandağdır (2385 m).

Burada iqlim kəskin kontinental olub, temperatur yayda +43$^0$C ilə qışda – 30$^0$C arasında dəyişir. Rütubət azdır. Bu yerlərin florasına – fıstıq, şərq palıdı, söyüd, qoz, ağcaqayın və bir çox dərman bitkiləri; faunasına isə – ayı, qaban, canavar, tülkü, dovşan, dağ dələsi, dağ keçisi, Kiçik Asiya muflonları olan dağ qoyunları; quşlar – Xəzər uları, alp toraqayları, dağ qananquşu, dağ kəkliyi aiddir.

İran və Türkiyə ilə sərhədi boyunca Araz çayı axır, bundan başqa muxtar respublikada 40-a yaxın kiçik və orta uzunluqlu çaylar – Ordubadçay, Əlincəçay, Gilançay, Naxçıvançay, Arpaçay və b. axırlar. Burada dünya gözəli «üzən adaları» olan Batabat gölü ilə yanaşı, Babək və Culfa rayonlarının torpaqlarını su ilə təmin edə bilən süni göllər də var. Bu göllər dəniz

səviyyəsindən 1500 metr yüksəklikdə Qazançı kəndi yaxınlığında yerləşir.

Muxtar Respublikanın inzibati mərkəzi olan Naxçıvan şəhəri Naxçıvançayın sağ sahilində, dəniz səviyyəsindən 1000 metr yüksəklikdə yerləşir.

Ordubad rayonu şimalda və şərqdə Ermənistanla, cənubda İranla həmsərhəddir. Bu rayon Muxtar Respublikanın şərqində yerləşir.

İqlimi çox təzadlıdır. Qış çox soyuq, yay isə isti keçir. Burada zəngin flora və fauna, heyrətamiz dərəcədə təmiz hava, çoxlu dərman bitkiləri və dadlı meyvələr yetişir.

Rayonun inzibati ərazisinin 12131 hektar sahəsində 2003-cü ildə Ordubad Milli Parkı yaradılmışdır.

Milli Parkın yaradılmasında məqsəd ərazidə olan ekosistemlərin ayrı-ayrı komponentlərinin mühafizəsi, burada müxtəlif növ heyvanların, o cümlədən, endemik növlərin qorunub saxlanması ilə yanaşı ekoloji monitorinqin həyata keçirilməsi, əhalinin ekoloji maarifləndirilməsi, tənzimlənən turizm üçün əlverişli şəraitin yaradılmasıdır.

Milli Parkın ərazisində orta hündürlüyü 3200 metrə çatan Zəngəzur dağ silsiləsi, xüsusən də onun ən yüksək zirvəsi olan Gəmiqaya Kiçik Qafqazın ən yüksək silsiləsi və zirvəsidir (3906 m). Bu silsilənin sonuncu – üçüncü hissəsi Soyuq dağdır ki, o da Milli Parkın ərazisinə daxildir. Bu dağın mütləq yüksəkliyi 2000-3000 metr arasında dəyişir. Burada uçurumlu yamaclar, dar su ayrıcları var. Aşınmış süxurlar çox geniş yayılmışdır. Soyuq dağda qədim buzlaq relyefi azalır və relyeflərin alçalması ilə əlaqədar olaraq yox dərəcəsinə çatır.

Milli Parkın ərazisinin çox hissəsi dağlıqdır. Yayı quraq keçən soyuq iqlimi var. Orta temperatur yanvarda 3-10$^0$C-dək, iyulda 10+25$^0$C-dəkdir. Orta illik yağıntı 300-800 mm-dir. Rayonun su şəbəkəsi Gilançay, Vənənçay, Ordubad çaylarıdır. İranla sərhəd boyu Araz çayı axır. Ərazinin torpaq örtüyü müxtəlif olub, əsasən boz, çəmən – boz, allüvial – çəmən, dağ-meşə, çimli, dağ-çəmən torpaqlardır.



Zəngəzur Milli Parkının və Ordubad Dövlət Təbiət Yasaqlığının ərazisi ali və nadir bitkilərlə də zəngindir. Belə ki, Muxtar Respublika ərazisində bitən 110 növ ali və nadir bitkidən 77 növü Milli Parkın və Yasaqlığın ərazisində mövcuddur. Bunlardan çılpaq dorema, yabanı zınbırtikan, Araz palıdı, zərif süsən, Qrossqeym süsəni, Gözəl qayışləçək, Mişşenko zümrüdçiçəyi və s. Buradakı 77 növ ali və nadir bitkilərin əksəriyyətinin adları «Qırmızı kitab»a düşmüşdür.

2009-cu il 25 noyabr tarixində ölkə Prezidentinin sərəncamı ilə Ordubad Milli Parkı ərazisi Şahbuz Dövlət Təbiət Qoruğu, Şahbuz, Culfa, Ordubad rayonlarının torpaqları hesabına genişləndirilərək 42797,4 ha-ya çatdırılmış və adı dəyişdirilərək akademik Həsən Əliyev adına Zəngəzur Milli Parkı adlandırılmışdır.

Muxtar Respublikada 62-yə qədər məməli heyvan növünə və ya yarımnövünə təsadüf edilir. Bunlardan 32 növ və ya yarımnövünə Ordubad Dövlət Təbiət Yasaqlığının ərazisində rast gəlinir, ərazidə bunlardan Blazilius və ya Aralıq dənizi nalburnu, cənub nalburnu, adi uzunqanadlı, oxlu kirpi (tirəndaz), kəsəyən dağ siçancığı, bəbir, çöl pişiyi, manul pişiyi, qonur ayı, Qafqaz bezoar keçisi, dağ qoyunu (muflon) və s. məskunlaşmışdır.

Muxtar Respublika ərazisində 12 növ yırtıcı heyvan yayılmışdır ki, bunlardan canavar, çaqqal, adi tülkü, zolaqlı kaftar, daşlıq dələsi, porsuq, meşə pişiyi və sairə Milli Parkm ərazisində rast gəlmək olar.

Respublikamızın sularında yaşayan 100-dən artıq balıq növündən 16-sı Naxçıvan Muxtar Respublikasının sularında müəyyən olunmuşdur. Bunlardan: Kür altağızı, Kür qumlaqçısı, Araz xramulyası, Kür şirbiti, ilişkən, çəki, qızılxallı balıq, zərdəbər, Qafqaz gümüşcəsi və s. göstərmək olar ki, bunlardan «Qızılxallı» balıq

«Azərbaycan Respublikasının Qırmızı Kitab»ına düşmüşdür. Bu balıq növü əsasən Ordubad Milli Parkının ərazisində olan Çalğarsu, Əyriçay, Paraqaçayda geniş yayılmışdır.

Culfa rayonu Muxtar Respublikanın inzibati mərkəzi olan Naxçıvan şəhərindən şərqdə yerləşir. Burada yayda quru və isti, qışda çox soyuq olur. Orta ilik yağıntının miqdarı 220-600 mm-ə yaxın olur. Ərazidə Əlincə, Qardərya, Araz çayları axır. Rayonda dağlar olduqca gözəl və özünəməxsus olub, zahirən nəhəng, qübbəvarı, fantastik tikililəri xatırladır. Bu dağlarda rast gəlinən meşə massivlərində daha çox fıstıq, vələs, palıd bitir. Heyvanlardan canavar, tülkü və dovşan olur.

Rayonun ərazisində çoxsaylı (40-a yaxın) su qaynaqları və bulaqlar mövcuddur. Darıdağın ətəklərindən çıxan bir bulaq gündə 500 tona yaxın güclü minerallaşmış su verir.

Rayonda turizm infrastrukturunu inkişaf etdirmək imkanları böyükdür.

Babək rayonu – Muxtar Respublikanın şimalında Ermənistanla, cənubda isə İranla həmsərhəddir. Ərazinin şimalı və cənub şərqi relyefinə görə dağlıq, cənub-qərbi isə düzənlikdir. Ən yüksək dağ zirvələri – Keçəltəpə (2740 m), Qaraquş (2617 m) və Buzqovdur (2470 m).

Ərazidə Sirab, Qahab, Vayxur mineral su qaynaqları, daş duz yataqları var. Həmçinin Araz, Nehrəm, Uzunoba, Sirab su anbarları burada yerləşir. Buradan Naxçıvançay və onun qolu olan Cəhriçay axır. Rayonda meşəlik ərazilərə rast gəlinmir.

Şahbuz rayonu – Muxtar Respublikanın şimalında dağlıq ərazidə yerləşir. Ən yüksək nöqtəsi Salvartı (3160 m) və Keçəldağdır (3115 m). Biçənək dağ aşırımı da buradadır.

Muxtar Respublikanın digər yerlərində olduğu kimi, burada da çoxlu yeraltı sular, o cümlədən Badamlı, Batabat, Karvansara, Biçənək mineral suları vardır. Rayonda Naxçıvançay və onun qolları: Kükü, Şahbuz, Salvartı çayları axır.



Qanlıgöl və Batabat gölləri də buradadır. Dağlarda meşə massivləri mövcuddur.

Rayonun füsunkar təbiəti və buradakı təbii gözəlliklər ekoturizmin inkişafı üçün əlverişli şərait yaradır.

Şərur rayonu – Muxtar Respublikanın qərbində yerləşir. Cənub tərəfdən İranla həmsərhəddir. Rayonun şimalı və şərqi dağlıq relyefə malikdir. Dərələyəz dağ sistemi bu ərazidən keçir. Ən yüksək zirvəsi – Qalınqayadır (2775 m). İqlimi yarımsəhra quraqdır, lakin xeyli yumşaqdır – qışda temperatur çox az hallarda $+3^0$C-dən aşağı düşür. Yayda isə $+26^0$C-dən yuxarı qalxır.

Rayondan Araz çayının qolu olan Arpaçay və digərləri axır. Çayın üstündə Arpaçay su anbarı tikilmişdir. Yerli faunası – muflonlar (dağ qoyunu), canavarlar, tülkülər, qabanlar, dağ keçiləri və dovşanlardır.

Burada təbiətin əsrarəngiz gözəlliyi rayonda ekoturizmin inkişafına yaxşı zəmin yaradır.

Kəngərli rayonu – Babək və Şərur rayonlarının arasında yerləşir. Rayonun cənub hissəsi İranla, şimal hissəsi isə Ermənistanla həmsərhəddir. Ərazinin relyefi dağlıq olub, Dərələyəz dağlarında yerləşir. Muxtar Respublikanın əksər sahələrində olduğu kimi burada da iqlim kəskin kontinentaldır. Yayda çox isti, qışda soyuq olur. Rayonun ərazisindən İranla sərhəd boyu Araz çayı axır. Dağlıq relyef, iqlimin xüsusiyyətləri və ərazidə kiçik çayların olmaması yerli bitki örtüyünün formalaşmasını şərtləndirir. Burada əsasən yarımsəhra və dağ yerləri üçün səciyyəvi olan bitkilər – kolluqlar, otlar, nadir ağaclar bitir.

Ümumiyyətlə, Naxçıvan iqtisadi-coğrafi rayonunda turizm obyektləri kimi istifadə edilə biləcək nadir və unikal relyef formalarından İlandağ, Əshabülkəhf, Sirab, Nəhacir vulkanik kümbəzləri olduqca cazibədardır və ekoturizmin inkişafı üçün yaxşı perspektivə malikdir.

## Yoxlama sualları və tapşırıqlar

1. Azərbaycan Respublikasında olan iqtisadi-coğrafi rayonları, onların tərkibinə daxil olan inzibati rayonları sadalayın və onlarda olan təbiət abidələrini və komplekslərini xarakterizə edin.

2. Azərbaycan Respublikasında olan Milli Parkların adlarını çəkin və onların ekoturizmin inkişafındakı rolunu göstərin.

3. Azərbaycan Respublikasının turizm potensialını və ekoturizmin inkişaf perspektivlərini təhlil edin.



## Nəticə

Ekoloji turizm – təbii ərazilərin davamlı inkişafı və təbiətdə mövcud olan təbii tarazlığı pozmadan, təbiətdən istifadənin təşkilinin müasir formasıdır. Turizmin bu növünün həyata keçirilməsinin dünya praktikası sübut etmişdir ki, istirahətin iqtisadi və ekoloji cəhətdən bu cür sınanılmış təşkili digər təsərrüfat növlərinə nisbətən təbiəti daha müvəffəqiyyətlə qorumağa imkan verir.

Bütövlükdə ekoloji turizmin inkişafından əldə olunan səmərə 6 istiqamətdə araşdırılmalıdır:

1) iqtisadiyyatın qeyri-neft sektorunun inkişafı – turizmin bu növü üzrə infrastrukturun yaradılması üçün əlavə vəsaitlərin cəlb olunması, bu sahə üzrə fəaliyyət göstərən fiziki və hüquqi şəxslərdən alınan vergi ödəmələri hesabına büdcənin doldurulması, ölkənin turizm sənayesi məhsullarının ixracı, gəlmə turistlərin gətirdiyi xarici valyutaların ölkədə qalması, ölkənin iqtisadi rəqabət qabiliyyətinin yüksəlməsi;

2) ekoturizmin inkişafının sosial nəticələri – yeni iş yerlərinin yaradılması, yerli əhalinin xidmət sahəsinə işə cəlb edilməsi, sosial gərginliyin azalması, işsizlik ucbatından şəhərə çıxıb getmiş əhalinin yenidən kəndə qayıtması, satış bazarı yarandığı halda xalq sənətkarlığının bərpası;

3) mədəniyyətin inkişafı baxımından – əhalinin ümumi mədəni səviyyəsinin, xüsusən onun tərkib hissəsi kimi ekoloji mədəniyyətin yüksəlməsi, ekoloji maarifləndirmənin nəticəsi kimi yeni ekoloji dünyagörüşün formalaşması, daha çox turist cəlb etmək üçün öz mədəniyyətini daha da dərindən bilməsi;

4) ekoloji biliklərin inkişafı baxımından – ərazidə mövcud olan flora və faunanı daha yaxşı tanımaq, təbiət abidələrini və ekosistemləri dərindən bilmək, insan ekologiyası və ekologiya hüququnu öyrənmək, ekoloji qanunvericiliklə yaxından tanış olmaq və ərazidə ekoloji tarazlığın bərpasında iştirak edilməsi;

5) yeni turizm infrastrukturunun yaradılması baxımından – yolların çəkilməsi (avtomobil, qatarların hərəkəti üçün yolların, çay, dəniz və hava limanlarının salınması), enerji şəbəkəsinin (elektrik, qaz, alternativ enerji) yaradılması, rabitə sisteminin (naqillə, hava və peyk ötürücüsü ilə) qurulması, mehmanxanalar, otellər, restoranlar, kafelər, sanatoriyalar, kurortlar, istirahət düşərgələri və sığınacaqların tikilməsi;

6) xüsusi mühafizə olunan təbiət ərazilərində – onların sayını artırmaq və tutduqları sahəni genişləndirmək, bu zaman tənzimlənən turizm üçün daha perspektivli hüquqi rejimi olan milli parkların yaradılmasına üstünlük verməklə təbii ehtiyatların ekoturizm potensialından düzgün istifadə etmək və ərazidə yaşayan insanlarda doğma yerlərə sevgi hissinin aşılanması.

Sadalanan üstünlüklərə nail olmaq üçün ekoloji turizmi inkişaf etdirmək – bu sahəni dərindən bilən savadlı kadrların hazırlanması, turizm sənayesinin formalaşdırılması, milli turizm məhsullarının dünya bazarına çıxarılması, ölkəyə investisiya qoyuluşunu stimullaşdıran gömrük və vergi güzəştlərinin tətbiqi, bəzi qonşu ölkələrlə vizasız rejimin qüvvəyə minməsi, antiinhisar tədbirləri və bu sahədə baş verə biləcək hər hansı hüquq pozuntusuna qarşı atılan addımlar dövlət siyasətinin tərkib hissəsi olub, onun müvafiq qurumları tərəfindən vaxtında həyata keçirilməli, vətəndaşların firavan yaşayışını təmin etməlidir.



## Ədəbiyyat

### a) Azərbaycan dilində

1. Altıağac Milli Parkında ekoloji təhsil. Müəllimlər üçün metodik vəsait. «Ekosfera» Sosial-Ekoloji Mərkəzi. Bakı: - 2009
2. Altıağacda davamlı turizmin inkişafı. Azərbaycan Turizm İnstitunun Tədqiqat və İnkişaf Mərkəzi. Bakı: 2010
3. Azərbaycan Respublikasının Ekologiya və Təbii Sərvətlər Nazirliyi «Azərbaycanın Milli Parkları». Bakı: - 2007
4. Bilalov B.Ə. «Turizmin menecmenti». Bakı: - 2005.
5. Bilalov B.Ə. Turizm fəaliyyətinin tənzimlənməsi. Bakı: Mütərcim, - 2006.
6. Bilalov B.Ə. Turizmin tarixi. Bakı: Mütərcim, - 2008.
7. Cənub rayonlarının bələdçi kitabı. GTZ PSDP/GFA Consulting Group. Bakı: 2010
8. Dərgahov V. «Azərbaycanın Xəzərsahili rekreasiya – turizm ehtiyatları». Bakı: - 2003
9. Dolxanov A.B. Təbiətdən istifadənin hüquqi əsasları. Bakı: «Bakı Universiteti» nəşriyyatı. 2008
10. Eminov Z.N. Coğrafiya. Bakı – Çıraq» nəşriyyatı – 2005
11. Əliyeva R., Mustafayev Q., Hacıyeva S. Ekologiyanın əsasları. Bakı: «Bakı Universiteti» nəşriyyatı, 2006
12. Əliyev H.Ə., Həsənov X. Təbiətin keşiyində. Bakı: «Maarif», 1993
13. Göyçaylı Ş.Y., İsmayılov T. Təbiətdən istifadənin iqtisadi və ekoloji əsasları. Bakı: «Şirvannəşr», 2006.
14. Hətəmov V. Dağlıq ekosistemlərində bitkilərin həyatı və faydası. Bakı: «Nurlan», 2001
15. Məmmədov C.A., Rəhimov S.H. Turizm və onunla əlaqəli sahələrdə işlədilən termin və anlayışların izahlı lüğəti. Bakı: Qanun – 2000

16. Məmmədov C.A., Soltanova H.B., Rəhimov S.H. «Beynəlxalq turizmin coğrafiyası». Bakı: - 2002

17. Məmmədov Q.Ş. Azərbaycan torpaqlarının ekoloji qiymətləndirilməsi. Bakı: «Elm» - 1998

18. Muradova E.Ə. Demokratik ekoloji təhsilin prinsipləri. Bakı, «Elm», 2009

19. Mustafayev Q., Məmmədov A. Təbiətin sirləri. I hissə, Bakı: «Elm» nəşriyyatı, 2010

20. Müseyibov M.A. Azərbaycanın fiziki coğrafiyası. Bakı, «Maarif», 1998

21. Nuriyev C.Q., Əsgərov Ə.T., Əhmədov Z.V. Ekologiya hüququ. Bakı: «Qanun», 2005

22. Sadıqova N.A., Əliyeva S.A., Azərbaycanın Kürqırağı Tuqay meşələrində quşların kompleks təhlili BDU xəbərləri. Təbiət elmləri seriyası. Bakı, 2007, № 1

23. Talıbov T. Naxçıvan MR-in nadir heyvan növləri və onların genofondunun qorunması. Bakı: «Elm», 1999

24. Talıbov T.H. Naxçıvan MR-in florası və biomüxtəlifliyi, onun istifadəsi və qorunması. Bakı, 2003

25. Təhməzov V.N., Yusifov F.F., Əsədov K.S. Azərbaycanın bioloji təbiət abidələri. Bakı: «Adiloğlu», 2004

26. Yusifov F.E., Hacıyev V.C. Hirkan biosfer rezervatı. Bakı: «Elm», 2004

**b) Rus dilində**

27. Агакулиев И. Флора и растительность Юго-Восточной Ширвани. Баку, 2000

28. Александрова А.Ю. География мировой индустрии туризма / А.Ю.Александрова. – М.: МГУ, 1998

29. Александрова А.Ю. Международный туризм. – М.: Аспект Пресс, 2001



30. Аскеров А.Т., Нуриев Дж.Г., Нуриева Ш.Дж. Экологическая политика. Учебное пособие. Баку: «Ганун», 2004

31. Атамов В.В. Степная растительность Азербайджана. Баку, «Элм», 2002

32. Дроздов А.В. Экотуризм: определения, принципы, признаки, формы // Актуальные проблемы туризма 99. Перспективы развития туризма в южном Подмосковье. Сб.докл. и тез. сообщений научно-практ. Конференции, 27 апреля 1999 г. – М., 1999

33. Дроздов А.В. Как развивать туризм в национальных парках России. – М.: Эколого-просветительский центр «Заповедники», 2000

34. Экотуризм на пути в Россию. – Сост. Е.Ю.Ледовских, Н.В.Моралева, А.В.Дроздов. – Тула: Грифи К, 2002

35. Забелина Н.М. Национальный парк. – М.: Мысль, 1987

36. Захаров П.П. Западный Кавказ. Узункол. – М.: Издатель И.В. Бабанов, 1999

37. Зорин И.В., Квартальнов В.А. Энциклопедия туризма. – М.: Финансы и статистика, 2000

38. Колбовский Е.Ю. Экологический туризм и экология туризма: учеб. Пособие для студ. Высш. Учеб. Заведений / Е.Ю.Колбовский. – 2-е изд., стер. – М.: Издательский центр «Академия», 2008

39. Пирожник И.И. Основы географии туризма и экскурсионного обслуживания. Минск: Издательство «Университетское», 1985

40. Сенин В.С. Организация международного туризма. – М.: Финансы и статистика, 2000

41. Сергеева Т.К. Экологический туризм: Учебник. – М.: Финансы и статистика, 2004

42. Соколов В.Е., Филонов К.П. Нухимовская Ю.Д., Шадрина Г.Д. Экология заповедных территорий России. – М.: Янус-к, 1997

43. Теберда. Домбай. Архыз: Природа. Исторический очерк. Туристско-экскурсионные маршруты / Сост. С.А.Ханаев. – М.: Профиздат, 1989

44. Травкина М.Ю. Регулируемый туризм и отдых в национальных парках России. – М.: Из-во Центра охраны дикой природы, 2002

45. Устойчивое развитие туризма: пособие для специалистов по местному планированию. – Мадрид: ВТО, 1992

46. Харрис Г., Кау К. Стимулирование международного туризма в XXI веке. – М.: Финансы и статистика, 2000

47. Храбовченко В.В. Географические особенности развития международного туризма в горных районах Краснодарского края и Республики Адыгея. – Краснодар. Из-во. Кубанского государственного университета, 1999

48. Храбовченко В.В. Publik Relations в туризме и гостеприимстве. – Краснодар: Из-во Кубанского государственного университета, 2000

49. Чижова В.П. Развитие экотуризма в охраняемых природных территориях / В.П.Чижова//Проблемы региональной экологии. – 2000. - № 4

50. Штюрмер Ю.А. Охрана природы и туризм. – М.: Физикультура и спорт, 1974

51. Штюрмер Ю.А. Опасности в туризме, мнимые и действительные. – 2-е изд., перераб. и доп. – М.: Физикультура и спорт, 1983



**c) İngilis dilində**

52. A Short Guride to Tourist Security. İreland Pollice Force, 1999

53. Ashton R., Ashton P. An İntroduction To Sustainable Tourism (Ecotourism) in Central America: Paseo Pantera Ecotourism Program. Gainesville, FL: Wildlife Conservation International, 1993

54. Blongy S. Hanneberg P.Ecotourism in Europe: Two Views/ The Ecotourism Society Newsletter, 5 (2), 1995. - P. 1-3

55. Catalogue of Exemplary Practices in Adsenture Travel and Ecotourism // Prepared by P.Wight and Associates on behalf of the Canadion Tourism Commission. Ottawa, 1999

56. Ecotourism – What is it? // www.goodearthtravel.com, 1999

57. Ecotourism Statistical Fact Sheet// www.ecotourism.org, 1998

58. Higgins B.R. The Global Struc ture of the Nature Tourism Industry: Ecotourist, Tour Operators and Local Businesses // Joural of Tourism Research, 7 (3), 1998-P.20-39

59. Ingram C., Durst P.Nature – Ori ented Tour Operators: Travel to Developing Countries//Journal of Tourism Research, 28 (Fall), 1989. – P. 11-15

60. Marcus L. Endicott Ecotourism; Adventure Travel and Ecotravel // www/green-travel.com, 12 November, 1997

61. Mader R. Ecotourism and spiritualy in Mexico//Radical Grace magazine, June, 1999

62. Necessary substantions to the Law of Irkutsk area "About develop meht of ecologicial tourism"//www.ecotourism.org

63. Roe D., Leader-williams N., Dalal-Glayton B. Take on'y photographs, leave on'y foot prints: The Environmental Impacts of Wild life Tourism. Wild life and Development series, #10,

The International Institute for Environment and Development, London, 1997

64. The National Parks of America. Multimedia Books Ltd, 1989

65. Ward N.K. Ecotourism: Reality or Rhetoric // www.ecotourism.org, March, 1997

. **66.** Wight P.A. North American Ecotourism Market: Motivations Preferences and Destinations//Journal of Tourism Research, 1999

**ç) Qanunvericilik aktları**

67. "Əhalinin sağlamlığının qorunması haqqında" Azərbaycan Respublikasının Qanunu, Bakı, 1997

68. "Balıqçılıq haqqında" Azərbaycan Respublikasının Qanunu, Bakı, 1998

69. "İstehsalat və məişət tullantıları haqqında" Azərbaycan Respublikasının Qanunu, Bakı, 1998

70. "Ekoloji təhlükəsizlik haqqında" Azərbaycan Respublikasının Qanunu, Bakı, 1999

71. "Ətraf mühitin mühafizəsi haqqında" Azərbaycan Respublikasının Qanunu, Bakı, 1999

72. "Heyvanlar aləmi haqqında" Azərbaycan Respublikasının Qanunu, Bakı, 1999

73. "Turizm haqqında" Azərbaycan Respublikasının Qanunu, Bakı, 1999

74. "Xüsusi mühafizə olunan təbiət əraziləri və obyektləri haqqında" Azərbaycan Respublikasının Qanunu, Bakı, 2000

75. "Əhalinin ekoloji təhsili və maarifləndirilməsi haqqında" Azərbaycan Respublikasının Qanunu, Bakı, 2002

76. "Ovçuluq haqqında" Azərbaycan Respublikasının Qanunu, Bakı, 2004



77. "Fitosanitar nəzarəti haqqında" Azərbaycan Respublikasının Qanunu, Bakı, 2006

78. "Turizm Xartiyası", BMT-nin Baş Məclisinin 38-ci sessiyasında keçirilmiş iclasda (19 dekabr 1983-cü il) 38-146 saylı qətnamə kimi qəbul edilib

79. "Turizm Kodeksi" BMT-nin Baş Məclisinin 38-ci sessiyasında keçirilmiş iclasda (19 dekabr 1983-cü il) 38-146 saylı qətnamə kimi qəbul edilib.

**Ələmdar Tağı oğlu Əsgərov, Bahadur Ənvər oğlu Bilalov, Çingiz Gülalı oğlu Gülalıyev**

# EKOLOJİ TURİZM

***Dərs vəsaiti***


*Texniki redaktor:* *Aynur ƏSGƏRLİ*

*Səhifələyici:* *Elvira ƏSGƏROVA*

*Dizayner:* *Rafael QASIMOV*

**Çapa imzalanmışdır**: 18.08.2011
**Kağız formatı:** 60x84 1/16
**H/n həcmi:** 17,25 ç.v.
**Sifariş**: 124
**Sayı**: 556

Kitab «ADİLOĞLU» nəşriyyatında
nəşrə hazırlanmış və ofset üsulu ilə çap edilmişdir.
*Ünvan:Bakı şəh., Şərifzadə küç., 202*
*Tel.: 418 68 25, 433 00 43; (050) 593 27 77*
*Web: www.adiloglu.az;*
*E-mail: adiloglu2000@gmail.com*